# AZƏRBAYCAN

**10’2021**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**

| **Redaksiyanın ünvanı:** | **Çapa imzalanıb:** | **E-mail:** |
|---|---|---|
| Bakı - Az1000<br>Xaqani küçəsi, 25<br><br>**Telefonlar:**<br>*Redaksiya –*<br>498-78-10<br>493-28-32<br>493-2834<br>*Mühasibat –*<br>493-29-41 | 01.10.2021<br>**Sifariş 1806**<br>Tiraj 500<br>**Kağız formatı**<br>70x108 1/16 - 6,5<br>kağız vərəqi<br>13 çap vərəqi<br>18,2 şərti çap vərəqi | intigam.gasimzade@gmail.com<br>sudabe334@mail.ru<br><br>**Qiyməti**<br>**1 manat 50 qəpik**<br><br>**Bakı şəhəri,**<br>**“Azərbaycan”**<br>**nəşriyyatının mətbəəsində**<br>**ofset üsulu ilə çap olunur** |

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:


### POEZİYA

RƏFAİL TAĞIZADƏ – Şeirlər ....................................................................3
MƏMMƏD İSMAYIL – Şeirlər ..................................................................80
KƏRAMƏT – Şeirlər ..................................................................................99
SABİR YUSİFOĞLU – Şeirlər ..................................................................139
TƏRANƏ ARİFQIZI – Şeirlər ...................................................................147
ƏLƏSGƏR ƏLİOĞLU – Şeirlər .................................................................154
ZABİL PƏRVİZ – Şeirlər ............................................................................169
AYAZ ARABAÇI – Şeirlər ..........................................................................177

### NƏSR

YAŞAR BÜNYAD – Səməndər quşu (roman) .............................................13
MÜBARİZ CƏFƏRLİ – Rəngsiz; Oyanma (hekayələr) ..............................125
ARZU NEHRƏMLİ – Paqonlu ruh (hekayə) .............................................133

### ESSE

VÜSAL NURU – Qarabağ günəşi ..................................................................91
PƏRVİN – Qarabağı vərəqləmək .................................................................182

### DOST ÖZÜ. DOST SÖZÜ

Yol düsturu (Görkəmli Qazax yazıçısı Oljas Süleymenovla
Kamran Qasımovun müsahibəsi) ............................................159

### DÜNYAYA PƏNCƏRƏ

AYDIN TALIBZADƏ – Təsviri sənəti sözlə anlatmaq məharəti .................106
VAN VEY – Təsviri sənətin sirləri ..............................................................108

### NİZAMİ GƏNCƏVİ – 880

Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda ..................................................112

### TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

AYGÜN BAĞIRLI – Azərbaycan yazıçılarının
epistolyar əsərlərində Türkiyə ..................................190
Baba Babayev – Xalq nə istəyirdi? .............................................................197

### NƏZƏR NÖQTƏSİ

SÜDABƏ AĞABALAYEVA – Problemlər... Problemlər... Qayğılar ...........202

### KİTAB RƏFİ ..............................207



*Rəfail TAĞIZADƏ*

## MƏNİM MƏĞRUR ORDUM

Sevinib şadlandı yaralı yerlər,
Bizdən uzaq düşən aralı yerlər,
Dönər gülüstana saralı yerlər.
Sənin addımınla göyərər yurdum,
Mənim məğrur ordum, qəhrəman ordum!

Zaman bu zamanmış, məqam bu məqam,
Sabaha ümidli, dünənə yadam,
Sənin hər uğruna sevinnəm, şadam.
Həsrət torpağımda toy-büsat qurdum,
Mənim məğrur ordum, qəhrəman ordum!

Hər döyüş millətin tarix yazısı,
Qurtuluş yazısı, taleh yazısı,
Ağrını unudan fateh yazısı.
Müqəddəs torpaqdan xaini qovdun.
Mənim məğrur ordum, qəhrəman ordum!

## SEVİNC NƏŞƏSİ

Zamanın dönməsi varmış,
günlərin çönməsi varmış,
həsrətin sönməsi varmış,
Vətən, külün qırmızı.

Boyuna yollar uzanır,
toyuna qollar uzanır,
hayına oylar uzanır,
Vətən, günün qırmızı.

Dəyəri itirən bilər,
sevinci gətirən bilər,
varlığı yetirən bilər,
Vətən, gülün qırmızı.

Hər bucağın bir qucaq,
hər ər oğlun bir qoçaq,
düşmənin pərən, qaçaq,
Vətən, ünün qırmızı.

Dünənim, sabahımsan,
son sözüm, cavabımsan,
Məkkəmsən, savabımsan,
Vətən, ilin qırmızı.

## YOX OLAN EVİM KİMİYƏM

Uşaqlığım dağılmış evin daşıyla
daşlayır məni.
Toz altındakı addım izlərim
üzümə toz çiləyir.
Yox darvazanın həsrəti üzümü qapayır.
Tay qapının külək vıyıltısı qulaqlarımı batırır.
Qollarım yox olan sütunlar kimidi.
Barmaqlarım mil-mil sökülür.
Qabırğalarım aynabəndin çürümüş çərçivələri,
ciyərim sökülmüş pəncərə layları,
ürəyim kənara atılmış paslı qıfıl.
Yox olan evim kimiyəm.

## SƏN BİLİRSƏN

Ağrıları maqnit kimi çəkən köksüm
məndən on metr irəli.
Dərdim dərdlərdən yüz metr geri.
Özgə dərdinə ağlayan gözümün
yaşı ovcum içində.
Hissim narahat bənövşə yarpağı,
küsən baxışdan bükülən qızılgül ləçəyi.
Məni niyə belə yaratdın, Tanrım?

Bilmədinmi
bala olacam,
qardaş olacam,
yoldaş olacam,
ata, baba olacam.
Dərd tapır, dərdlilər tapır məni,
özgə ağrılar tapır məni.
Adam ürəyi ağzında nə qədər gəzər?
Hələ nə qədər görüləcək iş,
gediləsi yol var.
Gedə biləcəmmi?
Çata biləcəmmi?
Bilmirəm.
Buna zaman ayırdınmı?
Axı, deyirlər
sevinmək də var insan həyatında.
Sevinmək olmazmı mənə?
İndi-indi başlayırdım itkilərimlə qovuşmağa,
özümlə barışmağa.
Neynirdin məni yarımçıq yaradıb,
neynirdin?
Bu qədər həssas adammı olar?
Yoxsa, adam elə belə olur?
Onu da sən bilirsən.
Verən də Sən, alan da Sən.

## DOĞMA ADAM

Mən susarkən danışdıqlarımı eşitdinmi?
Gördünmü, bildinmi ağrıları?
Getmək hər şeyin sonu deyil,
bəzən başlanğıcdı.
Yoxluq sənsizlikdən başlar.
Susmaq danışmamaq deyil.
Susmaq olanları sakitcə anlatmaqdı;
içdən-içə,
baxışdan-baxışa danışmaqdı.
Sən susarkən,
mən səni danışdığın kimi anlayıram.
Düşündüyün cümlələr ötür
göz önündən
qəlbinin şəkli ilə birlikdə.
Doğmaların baxışları
adamın içindən keçir.
Hissləri, duyğuları oxuya,
görünməyənləri görə bilir.

Ruhum səni izləyir.
Nə qədər uzaqda olsan da,
mən səni görürəm, doğma adam.

## YOXLUQ

Tənhalığın sükut səsində
sübhə daşıya biləcəksənmi
qurğuşun ağırlıqlı gecələri?
Boşluq ən ağır yükdü.
nə dartıb apara bilirsən,
nə qaldıra.
Boğulursan havasızlıqda.
Yoxluğun adı üşüdür səni
Sibir şaxtası kimi.
Bakı küləyi doğranmış xatirələri qovur
illərin arxasınca.
Qulaq batıracaq uğultu
qoymaz kimsəni eşitməyə.
Yoxluq
boşluqda varlıqdı,
səssizlikdə səs.

## AYRI

Bu yerin, bu göyün sahibi birsə,
Gözə görünməzi hələ də sirrsə,
Üstünə gedilən əvvəlki pirsə,
Sən niyə ayrısan, mən niyə ayrı?

Bizim günəşimiz, ayımız eyni,
Dağımız, bağımız, çayımız eyni,
Yazımız, qışımız, yayımız eyni,
Sən niyə ayrısan, mən niyə ayrı?

Mən səni özümə bağlayıramsa,
Mən sənin səsinlə çağlayıramsa,
İtkinə səndən çox ağlayıramsa,
Sən niyə ayrısan, mən niyə ayrı?

Gələni saxlayan yoxdu dünyada,
Bezib adamından, bezib dünya da,
Məni anladınmı, bir söz de, ya da...
Sən niyə ayrısan, mən niyə ayrı?

## ÖMRÜN PAYIZ HAVASI

Payızın dumanı, çiskini bəlli.
Üstümə göz yaşı axır səhərdən.
Qara buludların qara kölgəsi
Yolları çamura döndərir hərdən.

Bir əlçim payızı hədiyyə alıb,
Üstünə son baxış qoyub gedirəm.
Bu köçən payızın şam işığında
Yorulan kölgəmi soyub gedirəm.

Payız havasında rüzgarlar soyuq,
Köksümə sığınır darıxan günlər.
Yarımçıq gülüşün səpir üstümə
Payızda qoxusuz qızaran güllər.

İlin dərd yükünü daşıyan payız,
Qürubda günəş də batmağa qorxur.
Ömrünün sonunu duyan qoca da
Gecəni sübhədək yatmağa qorxur.

* * *

Hər sükutda min bir ah,
hər ahda bir dərd gəzir.
Gizlində qalan sözün
önünü nələr kəsir?

Uzaqlara çatmayan
yaxamdan yapışır əl.
Kimdi belə çağıran?
Kimdi dirənən: tez gəl!

Gözlər gözəl görəndi.
Ömür gülə bələndi.
Həyatın ağıllısı
məqamını biləndi.

Bu qovğalar içində
məndən nələr umursan?
Günümü bilən kəsim,
sorursan ki, durursan?

Gedib, gedir gedənlər,
ötüb, ötür ötənlər.
Baxıram yan-yörəmə,
qalandan çox köçənlər.

## BU DƏFƏ SƏN BELƏ DƏYİŞDİN, BAKI

Bir az küsən oldun,
bir az darıxan.
Yoxdur daha səni gəzib - dolaşan,
yoxdur bu əhvalla yoxdur barışan.
Daha bu şəhərdə hər şey icazəli.
Dərmanla yuyulur addım izləri.
İtir bu şəhərin xatirələri.
Dəyişir ovqatı, dəyişir gün-gün.
Dəyişir, dəyişir hər şey büsbütün.
Susur neçə illik abidə kimi.
Susur dil qurudan xatirə kimi.
Getdi bu şəhərin şirinliyi də,
getdi bu şəhərin təbiiliyi də.
Adamlar maskada,
Gözlər maskada...
Qıfıllar çığırır lal şəhərimdə.
Susur Filarmoniya,
Konservatoriya.
Teatr özünü çoxdan buraxıb.
Məktəb, universitetlər qapalı, bağlı.
Təhsilin sinəsi möhürlü, dağlı.
Təbəssüm yox olub, gülüşlər itib,
bu səssiz şəhərin baş küçəsində.

Bir də qayıdarmı görən o günlər,
bir də qayıdarmı sənli o illər?
Çətin!

* * *

*Ermənilərin Bərdəyə atdığı raket mərmisindən*
*şəhid olan 8 yaşlı Aysuya*

Gülüşlər keçmişə uçan o andan,
Sükut gəlinciyi sıxdı qoynuna.
Özünü ağacdan asan yelləncək
Özgə günahını aldı boynuna.

Özünü itirən bomboş yelləncək,
Yox olan sahibə laylamı çalır?
Yoxsa, ağrısını qovur beləcə?
Yoxsa, yarasının hovurun alır?

Dağılan qəlpələr o məsum qızın
Arzusun əlindən, gözündən aldı.

Bir ata qəlbində sınıq xatirə,
Bir ana gözündə xəyallar qaldı.

## SƏN VƏ DƏNİZ

Soyuq iliyinə işləyən adam,
şəhərin xəstəlik qoxusundan
bu qışı bağda keçirməli oldun.
Hava soyuq, bağ soyuq,
ürək də oyuq-oyuq.
Bizim təsəlli dəniz
heç səni ovutdumu?
Gecələr laylay deyib
yuxuna bal qatdımı?
Səhərlər ağ ləpələr
yuxudan oyatdımı?
Ay qonaq oldumu
gecənin sükutuna?
Sən indi bir ada adamı.
Dəniz,
sən və uzaqlar.
Bir də darıxmaq...

## DALANLAR

gedə biləcəyim uzun bir yol istəyirəm,
dərəli, təpəli...
küçələr yolumu əlimdən aldı,
məni qarışıq şəhərin
dalanlarına saldı.
dalanlar həyatda
yaşamaq adlı yarımçıq yalanlardı.
nə yaşadığın bilinər,
nə var olduğun.
həndəsi fiqur içində
Afrikanın
xətlərlə bölünən ölkəsinin
adamı kimiyəm.

## ÇƏTİN OLUR

hər şey üst-üstə yığılanda,
bu gün də dünən olanda,
sabahlar yalanla dolanda,
yaşamaq çətin olur.

gümanlar ötüb gedəndə,
doğrular küsüb gedəndə,
olanlar köçüb gedəndə,
yaşamaq çətin olur.
yoxluqlar görünməyəndə,
baxışlar öpüşməyəndə,
arzular yetişməyəndə,
yaşamaq çox çətin olur.

## YAŞAMAQ ÜÇÜN YAŞA

***Yaşamağa vaxt ayır, çünkü ömür bunun üçün yaradılıb.***
***Höte***

Sən bu dünyaya yaşamaq üçün gəldin,
dərd çəkməyə yox.
Dünya dərd mənbəyi,
sən ağrıları özünə çəkən maqnit.
Yaşamaq başqasını yaşatmaqla
həm də özünü yaşatmaqdı.
Sən ağrıların lakmus kağızı,
dərdlərin filtrisən.
Necə gəzdirəcəksən dünyanın
daşıya bilmədiyi bu yükü
bapbalaca ürəyində.
Eşitmişdin axı,
ürək daşıya bildiyi qədər
daşıyır ağrıları.
Kim öyrətdi sənə
bütün bədənin ürək olduğunu?
Özləri daşıya bilməyənlərmi?
Ötürənlərmi?
Təyinatın düz yazılmayıb.
Qulağına pıçıldayanların
kim olduğunu bildinmi sonda?
Həyatın həyət deyil,
özünsə münbit torpaq.
Ağrılar faciələr doğur.
Bir günlük onlar kimi yaşa.
Bəlkə xoşuna gəldi yaşayanların həyatı.
Yoxsa, gəldin və getdin.
Nə qaldı səndən?
Ağrılarmı?
Həyat həm də gözəllikdi.

Açılan sabahlar
xoş günlərin müjdəsini arayır
hər səhər.
Dur çırpın,
səhərin şəfəqlərini qarşıla.
Bəlkə xoşuna gəldi,
bəlkə elə yaşadın.
Bəlkə için sevinməyə meyillidi.
Həyat sınaq meydanıdı.
Bir sən də sına.
Sonra dön güzgüyə bax.
Gülümsə.
Açılar üzünün qırışları.
Qara vərəqləri yox edəcək parlaqlıq
xoşuna gələcək.
Sonuncular pozacaq əvvəlkiləri.
Bu həyatın qanunudu.
Daha yaşamaq üçün yaşa.
Bu doğuş son doğuşdu.

## QARANLIQ VƏ SÜKUT

Bu gecənin sükutun
pozmağa haqlı adam.
Hənirtisiz gəzirəm,
bu sükutun içində.
Qaranlığın yerişi
çəliksiz kor yerişi.
Nə bir baxış görünür,
nə uzanan barmaq, əl.
Bu gecə sən ayrı bir aləmdə,
səsin qaranlıqtək susur.
Ay gizlənən gecədə
nə səmada bir Ağ yol,
nə yerdə görünən var.
Udur bizi qaranlıq,
uzanan dərə kimi,
aparır uzaqlara
sahibsiz bərə kimi.
Sənsizlikdə hər şey
SUAL...

* * *

Yuvasız quşların səsi kəsilir
göy üzündə,
yer üzündə ölü sükut;

yolların
sonunda kim var, nə var?
Sonu varmı bu yolların?
Bilinmir.
Bu yol məni Romaya aparmaz.
Sonu
qaralan yollar,
qırılan yollar
məni sənə aparar, ancaq
yollar da ümid kimidi...

## MİLLƏTİN ƏN DİRİSİ

Sənin üz-gözündə İlahi bir nur,
Sənin üz-gözündə xoş bir təbəssüm.
Demək, sən Allahın seçilmişisən,
Demək, sən Allahın sevimlisisən.
Bu millətin ən əzizi, Şəhidim!
Bu millətin ən dirisi, Şəhidim!

Səndən başqa o zirvəyə kim qalxar?
Səndən başqa o zirvəni kim alar?
Ucalığa qalxa-qalxa ucalar.
Bu millətin ən əzizi, Şəhidim!
Bu millətin ən dirisi, Şəhidim!

Sevgilərin sevimlisi Vətəndi.
Ona qurban, axan qandı, bədəndi.
Şəhid sonda arzusuna yetəndi.
Bu millətin ən əzizi, Şəhidim!
Bu millətin ən dirisi, Şəhidim!

Sən övladsan, sən igidsən, sən ərsən.
Düşmənlərə qan udduran ərənsən.
Sən özün də bizim üçün Vətənsən.
Bu millətin ən əzizi, Şəhidim!
Bu millətin ən dirisi, Şəhidim!

Sənin yolun zirvələrə gedən yol,
Sənin yolun o müqəddəs, Vətən, yol,
Sənin yolun Bayraqlarla bitən yol.
Bu millətin ən əzizi, Şəhidim!
Bu millətin ən dirisi, Şəhidim!

*Yaşar BÜNYAD*

# SƏMƏNDƏR QUŞU



♦ *Roman*

> ***Ağrı hiss edən canlıdır.***
> ***Başqasının ağrısını hiss edənsə – insandır.***
> ***L.N.Tolstoy***

*Sən ölüm aşiqisən, pərvanə.*

Bayaqdan neçənci dəfədi eyni şövq və inadkarlıqla özünü eyvandakı lampanın zəif işığına çırpan pərvanədən gözümü çəkə bilmirəm. Ya can atdığı odun istiliyi ürəyincə deyil, ya da sonunu bilirmiş kimi, "ölümqabağı bir az da əylənim" deyə oynaq qanadlarındakı zərə bənzər tozcuqları ətrafa səpə-səpə sinəsini astaca lampaya toxundurur, anidən tərəddüd edib geriyə uçaraq havada bir neçə dövrə vurandan sonra daha cəsarətlə, daha inadla lampanın şüşəsinə çırpılır.

O, əvvəl-axır istəyinə çatacaq, bilirəm.

"Ucsuz-bucaqsız çəmənlərdə, bağçalarda ətrindən bihuş ola biləcəyin minlərlə gül-çiçəyi, Günəşin sevgi dolu istisini qoyub, gecənin zülmətində gözə çarpan, azacıq işartısına belə sevindiyin o od-alovu yaradanınmı sənə sevdirdi, yoxsa ölümmü?"

Bu düşüncələrlə gözlərimi pəncərədən çəkmədən intihara cəhd edən kəpənəyin cazibəsinə düşmüşəm. Fədakar pərvanə, yəqin ki, son gücünü toplayıb, yenidən işığın başına dolanacaq, axırda odu öpərək arzusunda olduğu ölümünün ağuşuna atılacaq! Bütün canlıların düşünmədən can atdığı ölümə...

Bilmirəm pərvanələr səs eşidir, musiqi duyumu olur, ya yox, amma hərəkətlərindən hiss edirəm ki, dinlədiyim axşam serenadasının həzin musiqisi onun uçuşunu dərəcədə müşayiət edir.

Axşamdan yağan yağış kəsib. Yuxum qaçsa da Nellinin verdiyi məktublara gözucu baxdım. Açmadım. Ürəyimə dammışdı ki, ürək açan heç nə yoxdu o məktublarda. Bəlkə də var, amma keçmişə qayıdıb köhnə palan içi qurcalamağa nə hövsələm, nə də həvəsim qalmayıb. Bəzi şeyləri anlatmayıb "sağlıq

olsun, uşağın əməliyyatından sonra danışaram" deməsindən təşviş keçirsəm də, oxuyub, illərdi narahatlığıma səbəb çox mətləblərdən agah olacağıma əmin idimsə də, belə bir gündə qızımın görüşünə gərgin halda getmək istəməzdim. Onsuz da həyacanlıyam.

Dediyindən, Raya doğum evinə getməmişdən öncə poçtla göndəribmiş. Gör neçə il keçib! Görəsən, Rayanın ölümündən sonra Nellinin yenidən mənə yaxınlaşmasında bu məktubların rolu olubmu?

Bütün gecəni gözümü yummadım. Diqqətimi bayaqdan marağımı çəkən məktublardan yayındırmağa çalışır, qaranlıq otaqda uzanıb heyranlıqla bu balaca, zərif varlığın sonsuz səbrinə, cəsarətinə tamaşa edə-edə düşünür.

Bütün gecəni "odla" oynayıb mərmər döşəməyə çırpılan pərvanə ölüm rəqsini bitirmək üçün havanın işıqlanmasını gözləyirmiş sanki.

Sökülən dan yeri isə ayrıseçkilik salmadan insanları təzə günün işığına haylayır – bədbəxtləri də, xoşbəxtləri də...

Yerin cazibəsinə uyan yağışın son damcıları titrəyə-titrəyə navalçaların ucundan qopub hələ də yayın təravətini saxlamış yamyaşıl otların üstünə səpələnir, təzəcə çıxmış payız Günəşinin zəif şəfəqləri islanmış kirəmid damları yalayıb qurutmağa çalışırdı...

Eyvanda dayanıb çeşmə sərinliyi hopmuş nəm havadan ciyər dolusu uddum. Üfüq boyu göz oxşayan küknarlıqda adda-budda ağcaqayın, şabalıd, palıd ağaclarının çılpaq budaqları gözə çarpmasaydı, deyərdin yazın ilk ayıdı. Dünya bambaşqa rəngdəydi. Baxdıqca göz oxşayan al-əlvan göy qurşağı yavaş-yavaş əriyib səmanın maviliyinə qarışırdı. Dolmuş buludlar gecədən boşaldığından səma qasırğa sonu sakitləşmiş masmavi okeana bənzəyirdi. Hava hind payızgülü qoxuyur, təkcə gecikmiş yarpaq tökümü uzun çəkən yayın bitdiyindən xəbər verirdi. Bu, çoxları üçün hava şəraitinin, təqvim gününün dəyişməsindən savayı heç nəyi ilə fərqlənməyən adi günlərin təkrarıydısa, mənim üçün yeni, özəl bir günün siftəsi olmalıydı. Uzun illərdi bu günün gələcəyinə, bu günə qovuşmaq həsrətiylə daşlı-kəsəkli, qarlı-çovğunlu yollardan keçmiş, ürəyimdə sönməyən ümidim, inamım, anbaan məni tərk etməyən övlad sevgisi əzablı, məşəqqətli yolun sonundakı işığa sarı aparırdı. İynə ucu boyda parıltısı bəs edirdi ki, nə qədər yorğun, tükənmiş olsam da, o işığa doğru can ataydım...

Ancaq nədənsə, bu məftunedici gözəllik vücudumu ovsunlayıb isitsə də, ürəyimi sakitləşdirə bilmirdi. Çox narahat idim. Elə bil qabaqcadan sevinməyə də ehtiyatlanır, qəribə bir fobiyanın əsarətinə düşürdüm. Belə anlarda, adətən, ürəyimlə danışardım. O da insafsızcasına susurdu...

Artıq gözlənilməz, ağlasığmaz nəyinsə baş verəcəyinə şübhə etmirdim. Lənət şeytana, hətta evdən çıxmamış buna əmin idim. Əlamətlərə inanmasam da, hələ təzəcə yerimdən qalxanda hansısa duyğu, yad, qəribə bir hiss məni rahat buraxmır, ovqatımı qarışdırır, nə edəcəyimə məntiqlə qərar verə bilmirdim.

Rahatlığım pozulmuşdu. Amma istəsəydim də dayana, geri dönə bilməzdim. Bu, mümkün deyildi. Getməliydim. Sanki nə edəcəyimə beynim yox, kənardan hansısa görünməz qüvvə qərar verir, fikrimdən vaz keçərəm deyə məni qənşərinə qatıb qovurdu...

Belə baxanda, dəvə belində də əqrəb sancmasından qaçmaq olmur. Bəlkə mənim yerimdə əlamətlərə inanan başqası olsaydı, yəqin ki, heç olmasa bəd əlamətlərin yaxasından qurtulmaq üçün evin kəndarından qırağa çıxmaz, "lənət şeytana!" deyib geri dönüb sərin duş qəbul edər, tünd şərabdan sərxoş

düşüb müvəqqəti də olsa dünyanın bütün dərd-sərini unudar, bacarmazsa, şəkərsiz qəhvə dəmləyib içər, onuncu, bəlkə də yüzüncü dəfə nəfəsini dərmədən Şubertin "Axşam serenadası"nı dinləyə-dinləyə düşüncələrə dalar, dar ayaqda, heç nə olmamış kimi uzanıb yatardı ki, təki rahatlansın...

Bunları bacarmadım. Elə bil dünyanın bütün azar-bezarı qurğuşuna dönüb içimə dolmuşdu, nəfəsimi kəsməyincə əl çəkən deyildi.

Zamanı dayandırmaq iqtidarında deyildim, amma görüş vaxtını dəyişdirə bilərdim axı? Bilərdim. Bəs nədən bunu etməkdən vaz keçdim, anlamıram. (Bu tərsliyim, kəcliyim olmayaydı!) Əlbəttə, yıxılacağımı bilsəydim, yoluma pərqu döşəyərdim. Bilmirdim. Həyatda hər şeyin məni qəfildən yaxalayacağını bilsəm də, bunu hər dəfə unudurdum. Öncəgörümüm – sıfır. Olacaqla öləcəyə də çarə yox!

Nəhayət, baş tutacaq o möhtəşəm anın – çətin sağalan, neçə illər ümidsizlikdən başqa heç nə vəd etməyən xəstəliyin "belini yerə vuran" istedadlı, vicdanlı həkimlərin "bunu bacardıq!" deməsi anının bir addımlığındaydım. Bu xoşbəxtliyi bircə anlıq da yaşamadan ölməkmi olardı? Bu məqamı – ömrümə yazılası ən gözəl günü – səbirsizliklə gözləmirdimmi? Ona görə də getməliydim! Məni yolumdan sapdırmağa çalışan gicgicə fikirləri unutmağa çalışırdım... Bəlkə də bu, illərlə çəkdyim əzabın sonuydu və özümü inandırırdım, inandırırdım ki, bəzən son daha gözəl olmalıdır!

"Görəsən, qəlyanaltı eləyib, aspirin içdimmi?" – Bax, bunu, dəqiq unutmuşam. Ax, yaddaşım, sən məni hər vaxt məyus edirsən...

Mövsümə uyğun geyinib eşiyə çıxdım; hava xoş idi. Kiçik şəhərimizin təzəcə oyanmış qayğılı sakinləri bir neçə dəqiqə belə gecikdikləri təqdirdə itirə biləcəkləri işlərinə vaxtında çatmaq üçün avtobus, tramvay, lap çox tələsənləri taksi dayanacaqlarına tələsirdi. Daha doğrusu, qaçışırdı. Bu qarmaqarışıq dövranda tələsən təndirə düşmürdü, əksinə, gecikənlər təndirə düşməmiş "yanırdı".

Dağılmaqda olan sovet imperiyasını saxlamaq məqsədi ilə yaradılan "QKÇP"-nin süqutundan artıq altı ildən çox ötməsinə baxmayaraq, şura hökumətinin köhnə beyinlərdə ilişib qalmış ab-havasından qurtulmaq istəməyən bədnam "QKÇP" tərəfdarlarıyla yeniliyə can atan mütərəqqi, demokratik fikirli gənclər arasında hələ də soyuq müharibə gedirdi.

Özümdən ixtiyarsız ətrafımdakı tələsən, əsəbi və pərişan insanların ahənginə uyğun yeriyib, ara-sıra gözə çarpan yağış suyu yığılmış kiçik gölməçələrin üstündən tullanaraq evimizin qarşısındakı parka keçdim.

Ağacların çılpaq budaqları isti geyimi olmayan kasıb uşaqlarıtək fağır-fağır üşüyürdü. Bir neçə süpürgəçi qadın, yandırmaq üçün xəzəli ağacların altında topaladıqdan sonra, saymazyana–saymazyana soyuq oturacaqa yayxanaraq, siqaret tüstülədə-tüstülədə gündəlik problemlərini unudub hansısa nəhəng meteoritin yerə yaxınlaşdığından elə həyəcanla danışırdılar ki, sanki bütün dünyanın müqəddəratı həmən göy cisminin haradan keçməsindən, haraya düşməsindən asılıydı. Bəlkə də eləydi, amma bu məni narahat etmirdi. Ürəyimdə sadəlövhcəsinə "təki, başımıza düşməsin!" – deyib, ötüşdüm.

Özgə vaxt olsaydı parkda ləngiyərdim. Bir neçə ay əvvəl tumurcuqlardan boy verib təbiəti canlandıran, indi boz, solğun xəzələ dönmüş yarpaqların bir azdan necə yanıb tüstüyə, külə dönəcəyinə baxa bilməzdim.

Nədənsə payızı heç vaxt sevə bilmədim...

Üzbəüz binanın altındakı qarajda saxladığım altı illik sədaqətli dostum "Mitsubişi"ni işə salıb yola düşdüm. Əvvəlcə dünəndən sifariş verdiyim çi-

çəkləri və tortu götürmək üçün mərkəzə sürdüm. Hazır sifarişlərimi götürdüm, Nellinin toxuduğu corabları zanbaqların arasında gizlədib şəhərdən çıxdım.

Erkən olmağına baxmayaraq, şosse maşınla dolu idi. Ürəyim leysana düşmüş sərçə balası kimi titrəyir, elə bil indicə yerindən qopub ayağımın altına düşəcəkdi. Həyəcan yaxamdan əl çəkmirdi!..

Dua edirdim. İnanclı olmasam da, dəqiq bilirdim ki, müəmmalı formada qəlbimə hakim kəsilmiş hansısa gözəgörünməz qüvvə məni idarə edirdi; özümdən ixiyarsız bütün antik və müasir ehramlara, Allahlara, tanıdığım, təsəvvür etdiyim tanrılara, övliyalara, gücünə bələd olub-olmadığıma şübhəylə yanaşdığım bütlərə, hətta uşaq vaxtı adını unutduğum pirdə nənəmin yaşıl tumanbağısını düyünlədiyim mamır basmış alça ağacına da dua edirdim ki, qızımı sağ-salamat görənə kimi dünya öz axarında qalsın!

Demək olar ki, yolboyu (bərpa mərkəzinəcən otuz beş kilometrlik yol getməliydim), təkrar-təkrar qızımın necə addımlayacağını təsəvvürümə gətirirdim: qızılqaz kimi ehtiyatla bir dizini bükəcək, bir qarış irəliyə gedəcək, sonra o birisini, yenə bir qarış... dik dayanıb gah həkimə, gah da mənə baxıb həyəcanlanacaq, ürəyim əsə-əsə, “amandı, qızım, tələsmə!” – deyəcəm, bəlkə də deməyəcəm, susub baxacam, narahatlığımı lal-dinməz bildirəcəm, o da yenə dizinin birini bükərək pəncəsini yerdən üzəcək, bir balaca duruxub baxacaq... Yəqin ki, bizim narahat baxışlarımızdan ürkərək hələ də ağlagəlməz xoşbəxtliyini biruzə verməyəcək, dolub duracaq, qorxu, təlaş uzun mübarizənin xoşbəxt sonluğunun kandarında olduğuna inamını əlindən almamış bircə addım da atacaq və... “aman Allah!”, həkimin “bu günlük kifayətdi” deməsiylə hamımız onu alqışlayanda, elə sevinəcək ki!.. Əlbəttə, əgər dünya dağılmasa...

Bu günü o qədər arzulayırdım ki!.. Onun ilk dəfə sərbəst addım atan zərif ayaqlarını qucmaq, “Qızım yeriyəcək!.. Yeriyəcək!..” – deyə bağırmaq istəyirdim. İstəyirdim nədi, bağırırdım da! Hətta, havanın soyuq olmasına baxmayaraq, bilərəkdən, ətrafdakıların diqqətini çəkmək üçün maşınımın yan pəncərələrini də yarıyacan açmışdım.

* * *

...Bunları indicə olmuş kimi xatırlayıram. Özümü gümrah hiss etsəm də, ağır qəzadan “möcüzə nəticəsində salamat çıxmağımı” vurğulayıb ciddi müayinələri davam etdirən həkimlərin sözündən belə çıxırdı ki, tələsmədən, səbrlə ən xırda detalları da yada salmaq, qırıq-qırıq xatirələri uc-uca düzməklə psixoloji pozuntulardan yaxa qurtarmaq, yaddaşı yavaş-yavaş bərpa etmək mümkündür və bundan ötrü bir balaca əziyyət çəkməli, “yaddaş qutusu”nda eşələnməliyəm...” Axı özümü yaxşı hiss edirəm, ağlım da üstümdədir?” – deməyim onların heç vecinə də deyildi.

Həkimlər qəribə məxluqdular, özüm ölüm! Dirəniblər ki, “sənə elə gələ bilər, biz daha yaxşı bilirik, yüngül də olsa, kəllə-beyin travması almısan, deməli, tam sağalanacan həkim nəzarətində olmalısan...” Əməllicə işə düşmüşəm.

Buranın həkimləri, tibb bacıları yorğun göründüklərindən danışmağa meyilli deyildilər deyəsən. Soruşsam da, düz-əməlli cavab almadan neçə gündür xəstəxananın bir nəfərlik palatasında uzandığımdan xəbərsizəm. Həkimlər işlərini yekunlaşdırıb palatanı tərk edəndən sonra yerimdə qurcalanmaq, tərpənmək istəyirəm, ancaq bacarmıram; gözlərim ağappaq tavanda ilişib qalır. Belə getsə, deyəsən, həmişə azlığından şikayətləndiyim vaxtdan korluq

çəkməyəcəm. Ona görə şoğəribə qalmış yaddaşımı qeydiyyat dəftəri kimi vərəqləməyə başladım.

Ağlım üstümdədi, deməli, yaddaşım tam itməyib... Ah!.. Kaş ki, itəydi, unudaydım kiməm, nəçiyəm, burada neynirəm? Bu, taleyin oyunumu, qismətmi, alın yazısımı?

Qırx iki ildə başım çəkənlərdən heç dərs almadım...

Doğrudan, mən axı burada neynirəm? Bu qərib diyarda, doğmalarımdan uzaqda, məcburən uyğunlaşdığım insanlar arasında nə itim azmışdı axı?!

Əgər bir zaman qətiyyətsizliyim ucbatından, bəlkə uğursuzluğumdan, bəlkə də axmaqlığımdan taleyimi özüm qarmaqarışıq salıb dəyişdirməsəydim, tamam başqa yerdə olmayacaqdımmı? Ola bilsin ucqar bir kənddə müəllim, ali təhsil ala bilməsəydim, leytenant Şmidt zavodunda tornaçı, ya da, ən azından atam kimi sıravi neftçi... Bilmək olmaz, bəlkə də milyonların arasında dünya əhalisinin sayını artıran quru statistik rəqəm olaraq hansısa qovluğun saralmış bir vərəqində itib-batacaq, unudulacaq, ya da gözə çarpmadan, heç nəylə fərqlənməyən sıradan biri kimi həyata davam edəcəkdim. Milyonlarla adam belə yaşamırdımı?..

Ömür kitabımı anbaan, doğuluşdan ölən anacan yazıb nöqtəsini qoymuş Tanrı bu boyda səhv edə, çaşqınlıq yarada bilərdimi? Belə çıxır ki, Onun yazdığına müdaxilə etməyim ən böyük səhvim olub?!

Kələf elə dolaşıb ki, ucunu tapmaq belə mümkünsüzdür...

Gülməli də görünsə, dünən gözlərimi açan kimi barmaqlarımı tərpətdim, əllərimi, ayaqlarımı salamat görüb heyrətlə təəccübləndim. Ona görə təəccübləndim ki, neçə illərdi avtomobil idarə etdiyimdən bilirdim ki, elə dəhşətli qəzadan bədən xəsarəti almadan salamat çıxmaq ancaq möcüzə nəticəsində ola bilərdi. “Özüm heç, görəsən, kiməsə xətər yetirməmişəm? Yadıma sala bilmirəm...”

Uşaq vaxtı baxdığım hind filmindəki kimi əllərimi ehtiyatla, hətta qorxa-qorxa mələfənin üstü ilə ayaqlarıma sarı elə sürüşdürürdüm ki, sanki o filmdəki kimi əllərim qəfildən dizdən aşağı dərin bir boşluğa düşəcəkdi! Düşmədi. Özümü ayaqsız təsəvvür edə bilmirdim. Şükür, bütün əzalarım yerindəydi. İnana bilmirdim. Sanki palatada mən yox, özgəsiydi, ona kənarda baxırdım. Nədənsə, tez adımı xatırladım və yadıma düşən kimi birnəfəsə on dəfə çağıranda qulaqlarım adımı eşitcək “sevindi”, gözlərim parıldadı və əmin oldum ki, bu, mənəm! Öz adımı unutmadığıma görə sevincdən uşaq kimi qiyyə çəkmək istəyirdim. Bu nə halıydı yaşayırdım, anlaya bilmirdim.

Şükür, başım boynumun üstündə, gözüm, burnum, qulaqlarım... hər şeyim öz yerindəydi. Deməli, bədən xəsarətləri cüzidi, bəlkə heç yoxdu, ya da mənə elə gəlirdi? Vacib olan möcüzə sayəsində salamat qalmağım idi! Buna da min şükür! Sağam, vəssalam!.. Güzgü olsaydı, sir-sifətimə də yaxşıca baxardım.

...Hava elə təmiz və xoş idi ki, belə vaxtlarda nə barədə desən, düşünmək olardı, təkcə ölümdən savayı. (Bunu onda yox, xatırlayıb indi deyirəm.) Yarıtmaz, başdan-başa uğursuz taleyimi lənətləyib, sanki öz əlimdəymiş kimi, dünya işığına göz açmağıma peşman olub özümə dəfələrlə ölüm arzulamışam ki? Arzulamışam. Məncə, bu, nə qədər günah sayılsa da, hər bir insanın həyatında, ani də olsa, özünə ölüm diləmək məqamı olur. Məhz, diləmək. Belə mənasız istəyin hansı tələbatdan doğduğunu anlayana kimi bəzi iradəsiz insanlarda beyin öz məntiqi düşüncə sferasından çıxır, labüd hüceyrələr öz funksiyasını itirir, sanki elektrik naqilindəki kimi qısaqapanma baş verir və o,

bu ani istəyini kortəbii reallaşdırmaq şansı əldə edir, daha doğrusu, özünüidarədən uzaqlaşıb həqiqətən öz şəxsi həyatına bir göz qırpımında təcavüz edir. Bu o qədər sürətli baş verir ki, insan çıxardığı qərarın düzgün olub-olmadığını təyin etməkdə belə aciz qalır. Və... hər şey bitir. Aciz insan yetməz...

Yox, yox, mən heç vaxt, heç vaxt intihar barədə düşünməmişəm. O, mənlik deyil. Elə cəsarətli olmasam da, o dərəcədə aciz də deyiləm. Haqq olan ölümün ən axmağı, ən ədalətsizi olan intihara ya xəstə təxəyyüllü fövqəl cəsarətlilər, ya da acizlərin acizi cəhd edər ki, hər ikisi mənim nəzərimdə axmağın yekəsidi... Axmağın lap yekəsi! Bir sözlə, başdanxarab...

Mənim o gün ölməyə haqqım yox idi! Hətta o dünyaya göndərməyə məndən savayı adam tapmayan Əzrayıl Möhtərəm Tanrısıyla sövdələşib üstümə əlisilahlı cangüdənləriylə gəlsəydi belə. Nəyin bahasına olursa olsun, yaşamalıydım. İllərdi sərf elədiyim enerji, əsəb gərginliyi, ruh düşkünlüyü, mənəvi sarsıntılar bahasına başa gəlmiş bu gözləntinin xoş nəticəsindən, nəhayət, könül dolusu sevinməli deyildimmi? Ah, buna görə nələrimdən keçmədim?! “Uf” demədən ölmək üçün qızımın addım səsini eşidib onun gözlərində parlayan sevinc qığılcımlarını görəndə həqiqətən xoşbəxt olduğuma əmin olandan sonra əlahəzrət Əzrayılla qol-boyun olub lap cəhənnəm alovunda da qovrulmağa hazır deyildimmi?..

Onun sağalacağına inam məni yaşadırdı. Bir vaxtlar hələ inamım zəif olanda da ruhdan düşmədim. Bu xəstəlik barədə bilgilərim olmadığından, sunami kimi məni qəfil yaxalayan fəlakətin yaxasından qurtulmağı düşünmək qabiliyyətim sıfıra bərabər idi. Çaşıb qalmışdım...

O gecəni, o müdhiş gecəni hələ də unuda bilmirəm. Uşaqlığımdan həmişə narahat, yarıoyaq yatardım, elə bil tərslikdən o gecə ölüm yuxusu aparmışdı məni. Səsə handan-hana ayılıb nə baş verdiyini dərk edənə kimi uşağın az qala bağrı çatlayacaqdı. Yerimdən dik atılmışdım. Çarpayıdan yıxılıb yarıqaranlıq otaqda ağrıdanmı, qorxudanmı çığıran qızım, işığı yandıran kimi məni görcək ürkək-ürkək qızarmış gözlərini döyərək azca sakitləşmişdi; kimsəsiz olmadığını dərk edib üzümə baxan, məndən imdad gözləyən körpə, baxışlarımdan əlacsızlığımı, qərarsızlığımı duymasın deyə hərəkətsiz bədənini sinəmə sıxmış, bir xeyli beləcə oturub qalmışdım. Nə baş verdiyinin, nə edəcəyimin fərqində deyildim. Qızım kiriyənəcən beynimdə yüzlərlə natamam fikirlər tüğyan edib nə edəcəyimə qərar verməyi əngəlləyirdi. Heç nə qanmır, dünya başıma fırlanırdı... Onu kiritmək üçün bədənim layla çalırammış kimi, qeyri-ixtiyari yırğalanır, sanki fikrimi cəmləmək üçün vaxt udurdum. Saniyələr saatdan da uzun gəlirdi.

Zaman öz işindəydi; saat əqrəblərinin eybəcər çıqqıltısı başıma düşmüşdü. Qızımın nə zaman kiriyəcəyi məlum deyildi. Körpə ağlayanda ürəyimin başı sökülür. Yalvarırdım ki, sakitləşib bir söz desin. O isə var gücü ilə çığırırdı... Nəhayət, səsini kəsdi, yerinə qoymaq üçün yerdən qaldırdım, yatağının bir addımlığında hiss etdim ki, elə bil sümükləri də ətə dönür, ağırlaşır, dizləri titrəyib boşalır. Yıxılmasın deyə, onu cəld qamarlayıb tutmağa çalışsam da, qızım sudan çıxmış balıq kimi əlimdən sürüşüb xalçanın üstünə sərələndi. Tam hərəkətsiz, səssiz qalan körpəm məni elə qorxutmuşdu ki, onu ölmüş bilib var gücümlə bağırdım. Vəhşi çığırtım divarlara dəyib əks-səda vermişdi. Səsimə yuxudan diksinib ayılan qonşularım qapını sürəkli döyəcləyəndə, dayanmadan zəngi basanda duruxmuş, handan-hana nə baş verdiyini anlamışdım. Qapını necə açdığım, qorxmuş qonşularımı içəri buraxanda nə halda olduğum yadımda deyil...

Təcili yardım qızımı serebral iflic diaqnozu ilə xəstəxanaya yerləşdirəndə anladım ki, indiyənəcən çəkdiklərim az imiş, sən demə, bu da hələ son deyil, bu, başlanğıcdı. Gələcək əzablarımızın başlanğıcı...

"Niyə axı mən?!" – Beynimi paslı güllə kimi dəlib-deşən, bütün varlığımı narahat edən bu sualın cavabını tapmaqda aciz idim.

Məni qınayanlar da oldu, qəlbimi qıran, "hələ körpədi, diaqnoz yanlış da ola bilər" deyən də, "xəstəxanadan çıxan kimi uşaq evinə ver, başından elə" deyənlər də.

İlahi, nələr eşidirdim? Bu sözləri eşitmək belə dəhşət idi. "Başından elə!" Kimi? Canımın bir parçasınımı? Guya mənə rəhm edib dedikləri bu "təkliflər" guruldayaraq qulaq pərdələrimi təbil kimi döyəcləyirdi. Sanki məsum körpəmdən yox, baxımsızlıqdan bit-birə basmış iyrənc pişik balasından söhbət gedirmiş!.. Hətta evində it-pişik saxlayan, onları doğma balasından çox əzizləyib nazıyla oynayan bəzi tanışlarımın mənim xəstə körpəmə belə idbar münasibətinə dözə bilmirdim. Az qala beləsinin sinəsini xəncərlə yarıb köksündə nə gəzdirdiyini görmək istəyərdim və əmin idim ki, orada daş parçasından savayı nəsə görmək mümkünsüzdü.

Nədəndisə, özünə umac ovmağı bacarmayanlar başqalarına əriştə kəsməyi öyrədir. Belələri "ağıllı" məsləhətlər verməkdə ustaymışlar. Demə, Səlimdən özgə oturub-durduğum insanlara yaxşı bələd deyiləmmiş. Bəzisini onda tanıdım. Bir xətasına görə hətta on illik tanışlığımıza tüpürüb Rüstəmi evimdən qovmuşdum.

Nə vaxtsa, unutmuşam, qaytarılası mümkün olmayan məbləğdə pul istəmişdi, verməmişdim. Əlbəttə, üzümə vurmasa da, bilirdim ki, incimişdi. Xislətinə bələd idim. İddiaları boğazdan yuxarı, eyş-işrət düşkünü, bacarıqsızın biriydi, hansı işdən yapışsaydı, zibilini çıxardardı. Həmişə də günahsız insanlar onun zibilinə düşürdülər. Tanıdığım neçə ildə bir işin qulpundan sonacan yapışdığına heç vaxt şahid olmamışdım. Elə bil ev-eşiyini, qohum-əqrabasını atıb gözdən-könüldən iraq yerə ancaq şeyinə və boğazına qulluq eləməkdən ötəri gəlibmiş don Juan. Eşitdiyimdən, kafenin yaxınlığındakı qəsəbənin nəinki cavan qızlarıyla, hətta hissiyyatı çoxdan ölmüş yaşlı qadınlarıyla da yatırmış. Onu bu iki şeydən başqa heç nə narahat eləmirdi. Özündənrazı, qudurğan, əclaf!.. Demə, incikliyini biruzə vermək üçün məqam gözləyirmiş! Heç vaxt etdiklərim müqabilində əvəz gözləməmişəm, ələlxüsus da həmyerlilərimdən. Çətinə düşəndə dost-tanış qayğısını duymaq mənim də haqqımdı. Maddiyyatdan kəsirim yox idi, Allaha şükür! Belə anlarda mənəvi dayağa ehtiyacım olduğundan, bu gözləntilərim əbəs deyildi. "Ağır gündə dostu ara" demişlər... Onun üçün təmənnasız etdiklərimə rəğmən mənə dayaq olmaqdan, sınmış qəlbimi ovutmaqdansa, yaramın üstünə yodlu duz çəpmişdi. Elələrinin bir işinə yaramasan, bütün elədiyin yaxşılıqları olmamış kimi unudurlar. Sən işə bir bax, saxta qeydiyyatla yaşadığından, tanışlarımın vasitəsiylə sənədlərini qaydaya saldığım, mənim hesabıma şəhərin girəcəyində ortabab qəlyanaltı işlədən, qazancını sola-sağa xərcləyən, qırxdan yuxarı yaşı olmasına baxmayaraq, bivecliyindən hələ də özünə ev-eşik qurmayan, gecələr yaşlı fahişələrlə vaxtını keçirən rəzilin biri "bəlkə də Allah bu şikəst uşaqla səni cəzalandırıb" deyib, ürəyimə ox sancmışdı. Hələ bu azmış kimi, canımı üzən itkilərimi yadıma salıb içində gəzdirdiyi xıltını da qusmuşdu üstümə əclaf:

– Pul hər şey deyil... Axı indi sənin puldan özgə nəyin var, hə, nəyin? Heç nəyin!.. Nəfəsin toxunan hər kəs bədbəxt olur, barmağın dəyən hər şey uçulub məhv olur. Bax, ətrafın adamla doludu, amma yenə tənhasan, yalquzaqsan,

hamı səndən uzaq qaçır. Bu barədə düşünmüsən? Pul-paran olmasa, yanında heç kim, heç doğmaların da qalmaz. Qalmayıb da... Öz aramızdı, yəqin son dəfə qadınla yatdığını da unutmusan. Bilirsən niyə? Çünki, sevməyi bacarmadın. Əlbəttə, kimisə pul müqabilində yatağına sürükləyə, çılğın ehtirasını bir anlıq soyuda bilərsən, rahatlanarsan, amma bu, həzz olmayacaq. Axı sevgisiz nə həzz?.. Bilirsənmi, hətta ən ucuz fahişələr belə, partnyorundan azca da olsa sevgi umurlar? Sevgi... Başa düşürsən? Bəyənmədiyin ən ucuz fahişələr belə...

Rüstəm hər şeyi öz arşınıyla ölçdüyündən, bəlkə də haqlıydı, bəlkə ətrafımdakıların da çoxu belə fikirləşirdi, deyə bilmərəm, amma özümə yaxın bildiyim bir adamın qəddarlığına, murdar təkəbbürünə dözə bilməzdim. Yerini göstərməliydim ona və göstərdim də.

– Rədd ol, itil mənim evimdən! Nadürüst, əclaf!" – özümü cilovlaya bilmədən bağırmışdım. (Bax, bu artıq idi, gərək deməyəydim, qəfil şillədən sonra onsuz da gedəcəkmiş, özü də biryolluq...)

Rüstəm bir yana, yaxından tanıdıqlarımdan bəzisinin də mənim durumuma baxışları birmənalı olmadı. Olmasın! Onların xudbin baxışları, lənətə gəlmiş iyrənc düşüncələri mənim nəyimə gərəkdi? Heç vecimə də deyildi! Qoy nə fikirləşirlər fikirləşsinlər!

Mən qızımı çox istəyirəm! Tanrı qarşısında, anasının ruhu qarşısında onun yaşamasına mən cavabdehəm, mən! Xəstədi, şikəstdi, kimə nə?! Hərəyə bir şəbədə qoşmağı, acizi qapazlamağı, dalına barmaq eləməyi, lağa qoyub həyasızcasına ələ salmağı sevənlər, sizdən soruşuram: Xəstənin, şikəstin yaşamaq haqqı yoxdu bəyəm?.. Bəsdirin, öz dərdinizi çəkin, öz dərdinizi!.. Lənətə gəlmişlər...

Biganəliyin kabus kimi dolandığı dünyada ağır durumda tənha qaldığımı, dalana dirəndiyimi hiss etsəm də, kövrəlib gizlin-gizlin zarısam da, təslim ola bilməzdim. Buna haqqım yox idi, nə tanrı qarşısında, nə də qızımın.

Qırmızı adam deyildim, bəzilərinin üzünə deyə bilmədiklərimi öz-özlüyümdə təkrarlayır, bu da məni hövsələdən çıxardırdı: "Hansınızın işinə yarımamışam, hə?! Təmənna ummadan gücüm çatan köməyimi heç birinizdən əsirgəməmişəm. Hamınıza... Siz neyləmisiz? Qolumdan tutmaq, onsuz da param-parça olmuş həyatımı yoluna qoymaq əvəzinə cəfəng öncəgörmələrinizlə məni boğaza yığmısınız! İndi əl çəkin, əl çəkin, cəhənnəm olun başımdan, qoyun öz dərdimi özüm çəkim!.."

Onu internatların, yetimxanaların əzazil tərbiyəçilərinə, yetim payını yeyib şişmanlaşan direktorlarına təslim edə bilməzdim! Buna vicdanım yol verməzdi! Ümumiyyətlə, nə qədər tərifləsələr də, əvvəldən "internat" adlanan müəssisəyə inamım olmayıb. Nədənsə, valideynsiz uşaqların bəlkə də rahatlıqla sığındığı internat məktəbi mənə faşistlərin əsir düşərgələrini xatırladıb həmişə. Atam öləndən sonra zavodda işləyən anam məni internata vermişdi, ondan bilirəm. Əminliklə deyə bilərəm ki, oradakı uşaqların demək olar hamısı, üzə vurmasalar da, özlərini atılmış, sahibsiz hiss edirdi – hətta valideynləri olanlar da. Bazar günləri, bayramlarda anam məni evə aparsa da, beş aydan artıq dözə bilməmiş, "mən yetim deyiləm, yetim deyiləm!" deyib, internatdan qaçmışdım. Anam bir neçə gün məni məzəmmət etsə də, sonradan mənimlə razılaşmış, bir daha yanımda internat adı çəkməmişdi...

Rayanı torpağa tapşırandan sonra, hələ qızımın xəstəliyi özünü biruzə verməmişdi, dostlarımın yekdil fikri bu oldu ki, təcili evlənim, yoxsa körpə uşağa dayəlik eləmək kişiyə, üstəlik, bütün gününü şirkətdə keçirən iş adamına

maneələr yarada bilər. – Nolsun ki imkanın var, – deyirdilər, – dayə tuta bilərsən, hətta fərdi metodlarnan çalışan körpələr evinə də verə bilərsən, amma bu, heç biri ananı əvəz edə bilməyəcək. Uşağa ana lazımdı, doğma, ya ögey, fərq etməz.

Belə baxanda, dostlar düz deyirdilər. Çox götür-qoy etdim. Amma tələm-tələsik qərar çıxardıb evlənmək mənim aləmimdə Rayanın ruhuna xəyanət etmək kimi bir şey idi. Həm də... qorxurdum. Bəli, qorxurdum! Bu hiss məni əlindən qurtula bilməyəcəyim yırtıcı kimi öz əsarətində saxlamışdı. Təbiətən əlamətlərə biganə olmuşam, amma həyatım boyu çəkdiyim müsibətlər olmaz yerdən əngəl çıxacağına, pərişan edəcək hadisəylə üzləşəcəyimə inam mənə rahatlıq vermirdi. Mənə elə gəlirdi, evlənsəm, növbəti uğursuzluğa imza atacam. Yağışdan yağmura düşmək istəmirdim. Artıq bərkdən-boşdan çıxan birisi kimi amansız həyatın mənimlə oyun oynadığına bütün varlığımla inanırdım və qətiyyətlə özümə söz vermişdim ki, bu oyunu qələbəylə sona çatdırmalıyam!

Qorxularıma səbəb, atacağım ən ağıllı, düşünülmüş addımımda da yanlışlığa, bağışlanılmaz səhvə yol verə biləcəyimə əminliyim idi. Başına gələn başmaqçı olar. Yaşıma görə, itirdiyim sevdiyim insanlar ağlasığmaz qədər idi. Atamı körpəykən, birinci arvadımı və oğlumu avtomobil qəzasında, Rayanı isə doğuş zamanı itirdim. İki uğursuz hamiləlikdən sonra sevgimizdən yadigar qalan körpəm də xəstə. İndiyəcən havalanmamağıma səbəb inam və səbrimin böyüklüyündən idi...

Bir yandan alan, bir yandan verər. Qəribəydi ki, Tamaranın atasının cüzi maddi yardımı və mənəvi dəstəyi ilə qurduğum biznesim günü-gündən çiçəklənirdi; balaca köşkümü iri ticarət şəbəkəsinə çevirə bilmişdim. Ticarət xüsusi qabiliyyət tələb edən sahəydi və özümdə bu bacarığı kəşf edəndə sevinmişdim. Ətrafıma etibarlı tərəfdaşlar, iş adamları toplamışdım. Bütün əyalətdə hörmətim vardı. Amma mənə elə gəlirdi ki, bu uğurlar, var-dövlət bəxt işi deyil. “Sevgidə gətirməyən bəxt nəyimə gərəkdi?” – fikirləşirdim. Hərdən də fikirləşirdim ki, yağış kimi başıma tökülən bu var-dövlət olmasaydı, indi xəstə övladımı xarici ölkələrdəki ən bahalı klinikalarda, bərpa mərkəzlərində müalicəsinə pulu hardan tapacaqdım? Evində xəstəsi olan, dava-dərman, bəlkə də bahalı əməliyyat üçün qohum-qardaş qapısı döyüb pul dilənən, birindən “hə”, beşindən “yox” cavabı alıb övladının qarşısında üzüqara qalan kasıb, kasıb olduğu qədər məğrur, məğrur olduğu qədər də əlacsız bir atanı təsəvvürümə gətirib durmadan yaradana şükürlər edirdim. Deməli, Tanrı yaranışımdan xəbərsiz deyilmiş, yazını özü yazdığı kimi, saldığı vəziyyətimə acıyıb, dərdimə dərman veribmiş?! Yəqin ki, bu, Tanrının mənə yox, qızıma olan lütfkarlığıydı. Mən isə adicə icraçıydım...

Ətrafımda baş verən biganəliklər, soyuqluq ruhdan sala bilmədi məni. Dostlara “evlənməyəcəm!” – dedim. Kimisə bədbəxt eləməkdən qorxurdum. “Üçdən” deyən ataların növbəti sınaq mərhələsindən qaçırdım. Daha doğrusu, günaha batmaqdan...

## *QIZIM*

Onun qığıltısı, nəinki gündüzlər, hətta gecənin bir vaxtı narahat olanda doğma anaları belə hövsələdən çıxarda bilən şıltaqlığı, var gücü ilə çığırıb yuxuma haram qatması da mənə ləzzət edirdi. Nə hövsələm daralır, nə əsəblərim korlanırdı. Hər dəfə yeni ladda səslənən həzin, təkrarsız melodiya kimiydi bu çığırtılar. Tənha olduğumu unutduran bu süd kimi pak səs

məni yaşadırdı. Mən dünyanın bütün nemətlərindən imtina etməyə hazır idim, təki qızıma bir xətər toxunmasın!

Süd anası tutmuşdum. Qadının ikinci uşağı doğuşdan üç həftə sonra tələf olubmuş. Pul müqabilində qızımı əmizdirməyi təklif edən kimi sevincək razılaşmışdı. Tələf olan uşağının ruzusu varmış. Qadının döşləri o dərəcədə südlə doluymuş ki, dolub-daşan südünü sağıb heyifsilənə-heyifsilənə it-pişik ləpiri düşməyən torpağa səpələyib sinəsini qovuran ağrılardan müvəqqəti də olsa xilas olub, rahatlanırmış. Dediyindən, sağmasaydı, çox keçməmiş yenidən süd gələn döşlərinin ağrısı kürəyinin ortasına vurur, ona olmazın əzab verirmiş. Bu ağrılardan onu qurtaran mənim qızım isə anasını heç əmməmişdi, ilk gündən bu yad qadının qoxusuna, döşünə öyrəşdi. Qızımın süd anası, gecə durub döş axtaranda çətinlik çəkməyim deyə, "əmizdirmək" üçün balaca butulkaya sağdığı südündən saxlayardı. İlıq qalması üçün iri dəsmala büküb balıncımın altına qoyurdum. Bir-iki dəfə döş istəyəndə baş barmağımı sorduğunu hiss edib ayılmışdım, yəqin xoşuna gəlməmişdi. Allah, Allah! Ağız-burnunu turşudaraq elə qiyyə çəkmişdi ki... Döşə elə öyrəşmişdi ki, sübh tezdən süd anasının mütləq gələcəyinə, qarnı doyunca yedirdəcəyinə əminliyindən, ağzını büzüb dodaqlarını sallayar, südlə dolu butulkaya yaxın durmaz, dözərək gözləyərdi. Sonralar, qadın bir az gecikəndə nə illah eləyirdim, butulkadan əmməzdi. Mən də qalan südü qızımın "süd qardaşı" sayılan qonşunun saf ana südü içib şellənən Çuço adlı pişiyinə verərdim. Hayıf idi, tullamayacaqdım ki?!

İnsafən, qadın da körpəmə doğması kimi isinişmişdi, çox vaxt dörd yaşlı oğluyla bizə gələr, mən işdən qayıdana kimi evinə getməzdi. Bir dəfə təklif etdi ki, istəsən, ev işlərini də görə bilərəm, onsuz da bütün günü burdayam. "Yəqin ki, pula ehtiyacı var" deyə razılaşdım. Demək olardı ki, yatandan-yatana evinə gedərdi. Bəzən əri arxasınca gələr, etiraz etmələrinə baxmayaraq, çox gec qalanda maşınla aparırdım. Dadlı yeməklər bişirirdi. Daha restoranlarda, "fast-food" köşklərində qarnımı doyuzdurmur, evə əvvəlkindən bir az tez qayıdırdım. İş rejimim imkan verməsə də, arada, əsasən bazar ertələri istirahət etməyi özümə rəva bilirdim. Qızıma daha çox vaxt ayırmaq imkanım olmasa da, həftədə bir gün bütünlüklə onunla olmağım ikimizə də hədsiz sevinc gətirirdi. Xoşbəxt idik!

Körpəmin saatbasaat, günbəgün böyüdüyünə baxıb fərəhlənirdim. İmkan düşən kimi, bəlkə də əlli dəfə toppuş barmaqlarından, parlaq çəhrayı dərisindən, çiyələk kimi qızarmış yanaqlarından öpür, eyni vaxtda oğrun-oğrun əl-qolunu, ayaqlarını, barmaqlarının arasını diqqətlə nəzərdən keçirirdim. Sanki, nəsə bir anormallıq, eybəcərlik axtarır, eyni əzalarına dəfələrlə baxsam da, qeyri-adilik, gözə çarpan dəyişiklik hiss etməsəm də, ürəyimi didib-dağıdan şübhələrimi qova bilmirdim. Bacarmırdım! Axtardığım nə idi, özüm də baş aça bilmirdim. Qadın məsləhətxanasında həkimin heyifsilənərək Rayaya dediyi o son sözləri təsadüfən eşitmişdim axı. "Ana kimi sizi başa düşürəm, – belə demişdi, – hələ də gec deyil... Özünüzə yazığınız gəlsin. Sonda peşman olmayasız..." Onda Rayanı nə qədər çək-çevir elədim, boynuna almadı, "ay səni, neruski, yəqin səhv başa düşmüsən", deyib gülümsədi də. Üzə vurmadım, dedim yəqin ciddi şey olsaydı, belə arxayın danışmazdı. Amma hiss edirdim ki, son vaxtlar çox narahatdı. Könülsüz uzaq yola hazırlaşanlar kimi...

Bir dəfə qızımın süd anası mənim nigarançılığımı görüb demişdi:

– Başa düşmürəm, siz bu uşaqda nə axtarırsınız axı? Şübhəylə, qəribə nigarançılıqla çevirirsiz, baxırsız, baxıb çevirirsiz... Əgər vaxtilə mənim də

düşündüklərim sizi narahat edirsə, məncə fikirləşdiyiniz boş şeydi... Cəfəngiyatdı!.. Əslində, birinci uşağımda mən də beləydim, yəqin bütün analar... üzr istəyirəm... bütün valideynlər belədi, baxdığım yerlərə min dəfə baxardım, hey nəsə axtarırdım, heç özüm də bilmirdim nə... Yəqin ki, ha-ha-haa, ya artıq barmaq, ya da, lənət şeytana, quyruqdan-zaddan... Ha-ha-haaa!.. Andryuşamı görürsüz də, hər şeyi cağbacağdı, nə quyruğu var, – iraq olsun! – nə də başqa çatışmazlığı. Narahat olmayın, maşallah, qızınız mələk kimidi, sapsağlam uşaqdı, hər əzası da öz yerində.

Təki... Bilmirəm, qadın mənim şübhələrimə son qoya bilmişdi, ya yox, amma deyəsən bir az rahatlanmış, daha heç nəyə fikir vermirdim. Bir də axı, hər şey göz qabağındaydı: uşağın diqqət çəkən, adamı üzən, narahat edən bir əyər-əskiyi yox idi. Ah, demə, həyat necə gözlənilməz, ağlasığmaz olaylar hazırlayırmış mənim üçün! Onda heç ağlıma da gəlməzdi ki, cidd-cəhdlə, ehtiyat edə-edə axtardığım “artıq” olan o şey üzdə deyil, şübhələndirir, narahat edir, ancaq gözə girmir, əvvəlcə şirin yalan kimi səni arxayınlaşdırır, intizardan çıxardır. Hardan biləsən ki, o, asta-asta öz məqamını gözləyirmiş?!.

* * *

“Özünə yazığın gəlsin, cavansan, imkanlısan, necə deyirlər, beş kişidən birisən, evlən, ömrü boyu subaymı gəzəcəksən? Evlənməyəcəksənsə, daşı birdəfəlik tök ətəyindən, kəclik eləmə, uşağı ver internata, demirəm həmişəlik, tez-tez gedib yoluxarsan, qayğısına qoy dövlət qalsın. Uşağa, özü də qız uşağına ana lazımdı, a-na! Sonra peşman qalarsan... Kişi üçün çətindi qız böyütmək, özü də... xəstə...” – Bunları ürək qızdırdığım insanlar demişdi. Anlayanı başa sala bilsəm də (belələri az idi), çoxunu həyatımdan çıxartdım, sildim biryolluq, Rüstəm kimi. Düzdü, aralarında eləsi oldu ki, – belə xəstələrin sağalmağına ümid var – deyib inandırdı məni. Leonardo da Vinçidən, Stallonidən, nə bilim Anna Makdonalddan söhbət açır, iflicdən sağalıb yararlı, lazımlı, həm də dünyaca məşhur olduqlarından danışırdılar. Nelli isə:

– Burada nə var, birinə evlilik təklif et, qarşısına şərt qoy ki, uşağı qəbul etsə, öz balası kimi qayğısına qalsa, onu dünyanın ən xoşbəxt qadını edəcəksən, inan mənə, hansı qadın olsa, razılaşar və mən ümidvaram ki, belə də edəcəksən! – deyə mənə təskinlik verdi. Bax, onda, özümdən ixtiyarsız, əlimə düşən fürsətdən yararlanıb, bəlkə də sözgəlişi ağzımdan qaçırtdım ki, əziz dostum Nelli, birincisi, evlilik təklifiylə təsadüfi yox, sevdiyin, ən azından, sənə biganə olmayan insana müraciət etmək olar, ikncisi də, sən deyən kimi, əgər belə qərara gəlmiş olsam, bax, ancaq düzünü de, dediyin şərtlərlə, məsələn, sənə və yalnız sənə evlənmək təklif etsəm, razılaşarsan? Ancaq, xahiş edirəm, səmimi olaq. İllər öncə yaşadıqlarımızı unut. Bilirsən nəyi nəzərdə tuturam. Əlbəttə, köhnə xətalarımı bağışlamırsansa, cavab verməyə də bilərsən... Bütün səhvlərimi etiraf etmişəm axı?.. Sən bağışlamağı bacarırsan. Məgər məni xoşbəxt etmək istəməzdin? Yenə deyirəm, əvvəlcə yaxşı-yaxşı fikirləş, sonra cavab ver.

Bəlkə də təklifimi gözləmirdi. Rayanın ölümündən sonra Səlim araya girməsəydi, mənə heç yaxın da gəlməzdi. O, gör neçə il səbrlə sentimental, romantik sevgisinə adekvat cavab gözləmişdi. Mən isə, ax, mən isə hisslərimi cilovlamağı bacarmamışdım, onu yox, yatağını tez-tələsik mənimlə bölüşdürən rəfiqəsini seçmişdim. Dəlisov cavanlığım yenə də ehtirasa təslim olmuşdu. Üçümüz də bunu dərk edəndə, artıq iş işdən keçmişdi...

– Ciddi deyirsən? – Tərəddüd içində parlayan gözlərindən nə deyəcəyini duymaq çətin idi. Yanılmaq qorxusu, – illərlə gözlədiyi təklifin təsadüf, bəlkə də qeyri-ciddi, bəlkə də ötərgi bir şey olacağından yanılmaq qorxusu, – şübhə toxumunu cücərdirdi qəlbində və mən bunu baxışından asanlıqla oxuyurdum. İlk dəfə evlilik təklifi edəndə də cavabını xeyli gözləmişdim. Onun bu astagəlliyi sinirlərimi oynadırdı. Onda səbirsiz cavan idim, tələsirdim, mənə elə gəlirdi ki, hayatdan, sevgidən, gözəlliklərdən zövq almağın müddəti məhduddur, çox qısadır, illər də amansızcasına sürətlə ötür və biz göz açıb-yumunca qocalıq öz əsasını astanamıza dirəyib "xoş gəldin" deyəcək... Hər şey təzədənmi təkrarlanacaq? Nə olursa olsun, bu son fürsəti əldən buraxa bilməzdim. Ondan "hə" cavabı almalıydım!

İndi, bu yaşımda nə qədər ciddi olduğuma şübhə edə bilməzdi. Amma yenə də tərəddüd içindəydi. Nelli baxışlarını yayındırmaq üçün çantasında eşələnməyə başlayanda, hiss etdim ki, o, kövrəlib, söz demək iqtidarında deyil. Adətən, qəfil sualdan özünü itirəndə belə edir; otaqdadırsa, nə axtardığını özü də bilmədən şkafın siyirmələrini bir-bir açıb-bağlayır, lüzumsuz yerə kağız-kuğuzu, qovluqları vərəqləyib yersiz nəsə soruşur, maşındadırsa, iri çantasında guya siqaretlə alışqan axtarır, az qala başını çantanın içinə soxaraq eşələnir, eşələnir, handan-hana, iki ildi siqareti atdığını yadına salıb sadəlövhcəsinə qımışır, "ax, daa, ya je davno brosila!?.. Sovsem zabıla", deyirdi...

– Axı nə axtarırsan? – sakitcə soruşdum. Cavabımı qəsdən ləngidirdi, yoxsa qətiyyətsizliyi ilə qüruru çırpışırdı, anlamaq olmurdu. Hövsələm daraldı. Çantanı əlindən alıb kənara tulladım. Barmaqlarını ovucumun içində sıxdım. Vücudu yarpaq kimi titrəyirdi... Dayana bilmədim. Bacarmadım. Onu bərk-bərk qucaqlayıb öpdüm. Gözləməsə də, etiraz da etmədi. Bu neçə illərin hayıfını çıxırammış kimi, onu öpüşlərə qərq etdim. Sevincindən kövrəlmişdi. Gözlərindən süzülən göz yaşı dodaqlarımızı islatdıqca daha da həzzlə öpüşürdük. Rayanın aramızda olmadığı bu üç ildə ilk dəfə idi ki, demək olar, hər gün gördüyüm qadının röyalarına, qurduğu xəyallarına qonaq düşmüşdüm. Bilirdim ki, düz etmirəm, amma artıq gec idi. O bunu arzulayırmış kimi, nəvazişlə, neçə illər həsrətində olduğu isti qucağıma qısıldı. Güclə eşidiləcək səslə, lap pıçıltıyla dedi:

– Nə qədər sadəlövh olmuşammış... İndi dəqiq bilirəm ki, həqiqətən səni sevmişəm. Ancaq səni, özgə heç kəsi... Raya aramızdan getməsəydi də, lap ömrümün sonuna qədər sevəcəkdim səni... Gizlincə, heç kəsə, əsas da sənə bunu hiss etdirmədən... Amma inan, bu vəziyyətdə "hə" deyə bilmərəm, bağışla... Elə başa düşmə ki, uşağa görə, yox, bunu ağlına da gətirmə. Həmişə yanınızda olacağıma söz verirəm, ancaq... Hələ vaxtı deyil. Mən buna hazır deyiləm, başa düşürsən, hazır deyiləm... Gözləyək, bəlkə özü yenidən yaxaladı bizi?

– Bəlkə qorxursan? Düzünü de, boynuna al, qorxursan?.. Əlbəttə qorxursan. Mənə daha etibar etmirsən. Sənin yerinə kim olsaydı, belə etməzdimi?.. Axmaq deyiləm. Axı onda, Rayanı tanıyana qədər səni dəlicəsinə sevirdim. Gözümdə, ürəyimdə kimsə yox idi... Lənətə gəlsin o gün! Onun peyda olmağıyla hər şey bitdi. Xasiyyətinə bələd idin axı, gərək yaxına buraxmayaydın... Allah özü bağışlasın! Mən sənin saf məhəbbətinə xəyanət edib özüm kimi şəhvətpərəstə təslim oldum. Bəlkə də ona görə Allah bizi cəzalandırdı, əbədi bir bəlaya düçar elədi... Gec də olsa, dərk edirəm. Sən isə yenə qorxursan. O, artıq bizə mane ola bilməz. Amma sən... Ax! Niyə axı?! Sən... sən istəsən, qayıda bilərik həmən, lakin Rayasız illərə qayıda bilərik...

Bəlkə sənin xoşbəxt olacağına dəlicəsinə qısqanan Rayanın ruhundan, onun bizi qarabaqara izləyib intiqam alacağından qorxursan? Ruhlar bunu bacararmı, Nelli? Hə?..

Hamletin monoloqunu deyirmiş kimi, hiddət və sarsıntı içindəydim. O isə yanımızda özgə kiminsə olduğunu hiss edirmiş kimi, ətrafımıza göz qoyurdu. Fikrini güclə tarazlayıb gözlərini gözlərimin içinə zilləyərək narahat-narahat dedi:

– Ruhların missiyası gözə görünmədən, elə sahibinin yarımçıq qalmış həyatını durduğu yerdən davam etdirmək deyilmi? Mən yanılmıram ki?.. Bəlkə də sənə qəribə gələcək, bax, indi ikimizik, üz-üzə, göz-gözəyik, ətrafda dörd divar, başqa heç nə, heç kəs... Amma elə bil gözlərindən mənə Raya baxır, sən yox... O həmişə aramızdadı. Orada da qalacaq, illər ötsə də. İstəsəm onu dəf edim, bacarmaram. Bəlkə heç lazım da deyil... Bağışla... bacarmıram... Bəlkə də istəmirəm... Qorxuram... Çətindi...

– Bilirəm, çətindir... Mənə də... – dedim. O, səmimi etirafıyla məni bir ümid yeri qoymadan özündən uzaqlaşdırmağa çalışırdısa da, amma gözlərinin dərinliyində illər öncəki alovun qığılcımlarını aydınca görürdüm. Sevən adamın gözləri isə heç vaxt aldatmaz.

– Bu neçə ildə, – dedi, – bir dəfə də ağlımdan xəyanət etmək keçmədi. Öz əlimlə səni ona verməyimə də peşman olmadım. Bu bir qismət idi? Yox, indi bilirəm ki, bu, mənim ona, həm də sənə verdiyim azadlığın, bəlkə də həddən çox inamın nəticəsiydi... O, bu inamdan sui-istifadə etməməliydi. Rəfiqəmi sonradan çox qınadım. Bilirdi ki, çalışsa da etdiklərinə bəraət qazandıra bilməzdi. O, buna cəhd belə göstərmədi. Mən də öz qürurumu sevgi oyununa qurban verə bilməzdim... Nə qədər ki, birlikdəydiniz, əl-ayağa dolaşmadım, unudulmağımı istədim. Bunu hiss etməmiş olmazdınız. Axı sən də məni yox, onu seçdin. Vicdansızcasına... Barışdım taleyimlə... bəxtsizliyimlə, bəlkə də uğursuzluğumla... İndi özün fikirləş, bir zamanlar heyifsilənmədən könüllü olaraq kənara çəkilib boşaltdığım o yerə – indi həyatda olmayan rəfiqəmin yerinə göz dikməklə vicdansızlıq etmərəmmi? O ağır yükün altına girməyi bacara bilərəmmi?

"O ki bunu etmişdi?" demək istədim. Susdum. Onu başa düşürdüm. Deməli, cavab "yox" idi. Hələlik... Bu verilməyən cavabdan bədənimə üşütmə gəldi. Diksindim. Görəsən, doğrudanmı nəfəsim toxunan hər kəs bədbəxt olur? Bəlkə Nelli də Rüstəmin dəhşətli proqnozuyla razıydı, ona görə ehtiyat edirdi? Elədirsə, deməli, məni xoşbəxt edəcək qadının yolunu çox gözləməliyəm. Bəlkə qalan ömür boyu... Ömür isə bizimlə məsləhətləşmədən hey qısalırdı...

* * *

Həmən vaxtlarda özümü o qədər tənha hiss edirdim ki, doğma, simsar birisiylə bölüşmək, yüngülləşmək istəyi ağlıma çoxdan əlaqə kəsdiyim, daha doğrusu, inciyib vidalaşmadan tərk etdiyim anamı yadıma salmışdı. Əziz bildiyim birinin arxa-dayaq durmasına, bəlkə də sadəcə, yanımda olmasına ehtiyac duyurdum. Başımdan əl çəkməyən bəlalara təklikdə sinə gərməyimdən usanmışdım. Yorulmuşdum. Bölüşmək, dərdləşmək istəyirdim. Əgər anamla aramızda uçurum yaranmasaydı, belə çıxılmaz məqamda heç fikirləşmədən qızımı – varlığından xəbəri olmadığı nəvəsini də götürüb düz Bakıya uçar, olub-keçənləri danışıb köməyinə ehtiyacım olduğunu deyərdim. Görəsən, bütün olanlardan sonra ürəyi yanaraq halıma acıyar, mənə dayaq olardımı?

Yadımdadı, ilk dəfə şeytanın qıçını sındırıb, poçtla hansısa bayram ərəfəsində anamın çox sevdiyi Moskva karamelləri, Adilin adaşı – babam üçün rəngli kağızlardan düzəltdiyi açıqca, üstünə xeyli pul qoyduğum bağlama göndərmişdim Bakıya. Məqsədim münasibəti bərpa etməkmi, "mən varam, o kişini rədd elə, heç nədən ehtiyacın olmayacaq" mesajı verməkmi idi, yoxsa sadəcə, narahat olmasın deyə, sağ-salamat olduğumu bildirmək idimi, bilmirəm, amma bir aydan sonra bağlamanın geri qayıtdığı barədə evimizə qəbz gələndə çox üzülmüşdüm. Anamın mənə qarşı acığı soyumadığından, bağlamaları qəbul etməmişdi. Anamı qınamadım. Üz-üzə, ikilikdə çözə biləcəyimiz çətinliyi “sonraya” saxlamağım, onun vəziyyətini dərk etməməyim, daha doğrusu, dərk etmək istəməməyim, saymazyana yekəbaşlıq edib əl boyda kağıza “məni axtarma” yazıb qaçmağım, bu neçə ildə bir dəfə də quruca zəng vurub halını soruşmamağım ona yer eləmişdi. Onu nə ana, nə də qadın kimi başa düşməmişdim. İndiki yaşım, düşüncəm o vaxt olsaydı! Mənim pərişanlığımı görən Tamara "heç olmasa qabaqcadan zəng edib xəbərdar edə bilərdin" deyib məni tənbeh edəndə, – yəqin ünvan dəyişib ki, geri göndəriblər, – deməklə özümə təsəlli versəm də, neçə gün özümə gələ bilməmişdim. Daha bağlama aqibətini düşünüb yada salmağın yeri deyildi. Çox götür-qoydan sonra qərara gəldim ki, zəng vurum. Narahatçılığımda telefon nömrəsini dəyişdirmək ehtimalı da var idi və bilmirdim bu istəyimə necə yanaşacaq. “Görəsən, tanısa, danışmaq istəyəcəkmi? Bəlkə... bəlkə heç zəng vurmayım?“ – deyə tərəddüd edir, barmaqlarım isə mexaniki olaraq nömrəni yığırdı...

Səsini eşidəndə vücudum silkələnmişdi.

– Alo... Alo? Oo-oğ-lum, sənsən? – Ürəyinə damıbmış sanki, səsimi çıxartmamış, tanımışdı. İnstinkt olaraq hiss edibmiş, yoxsa uzaqdan, məndən başqa ona zəng edəcək kimi vardı? Adətən, gözlənilən beynəlxalq zənglər həyəcanverici olduğundan, dəstəyi tez-tələsik qaldırmağa çalışırlar. Zəng səsi hələ bitməmiş, dəstəyi qaldırmağından mənə elə gəldi ki, o, sanki bu uzun illər boyu telefon aparatının böyründəcə oturub mənim zəngimi gözləyirmiş.

– Niyə susursan?.. Bilirəm ki, sənsən. Susma, qurbanın olum... Oğlum?..

Nə qədər incisələr də, analar kin saxlamazmış. Hiss edirdim ki, sevinir, bəlkə də qürrələnir... Bu insanın sanki kin-küdurətdən xəbəri yoxmuş! Səsindəki kövrək titrəyiş dəstəyin o üzündəki səs sahibinin haldan-hala düşdüyünə dəlalət edirdi. Heyrətlə onu dinləyirdim.

Artıq susa bimədim. Dözmədim.

– Salam, a-na, – deyib qəhərimi uddum.

Səsimi eşitcək özünü saxlaya bilmədi. Deyəsən, telefonun dəstəyini qucub hönkürürdü. Boğula-boğula, “səsinə qurban!” deyə-deyə...

Hal-əhvalını soruşdum. İstəyirdim təkcə o danışsın, onun səsini eşidim. Özündən, necə yaşadığından, vəziyyətindən danışsın... O isə özünü unudub:

– Boyuna qurban, niyə yerini-yurdunu demədən çıxıb getdin? Günahım nəydi axı? Elə bil... qəsdimə durmusan... Ölmüşəm, qalmışam, arayıb-axtarmırsan... İş-gücün gedirmi? Yaxşısanmı? Evlisənmi?.. Niyə danışmırsan? Ürəyimə damıb... Ürəyimə damıb ki, nəsə demək istəyirsən. Qurbanın olum, susma... – deyə yüzlərlə sual verirdi. Onu dinlədikcə haldan-hala düşürdüm. “Bağışla məni” kəlməsi dilimin ucunda ilişib qalmışdı. Hiss edirdi daha dinməyəcəyimi. Xeyli gözləyib durdu. Birdən:

– Baban da öldü, – dedi. Elə sakit dedi ki, sanki kişi yüz il əvvəl ölüb min ilin ölüsünə qarışıb. – Daha doğrusu, öldürüblər... Gecə yatdığı yerdə evinə od vurub it uşağı!.. Burda müharibədi axı, bilirsən? Bilisən, oğlum? Yəqin

eşitmisən... Hökumət başını itirib, aciz qalıb, xalx da... Əlinnən nə gəlir e, silahsız xalxın? Heş zad... Oralarda dava yoxdu ki?.. Çərxi çevrilib dünyanın... İt yiyəsini tanımır... Quru canını götürüb qaçanlar deyirdi ki, ermənilər kəndlərin altını üstünə çeviriblər, ələ gələsi heç nə saxlamayıblar. Qənşərlərini kəsən, “dur!” deyib dayandıran yox, qızışdırıb fitilinə yağ tökən saysız-hesabsız. Arxalı köpəy qurd basar. Yiyəsizik, yiyəsiz. Bu, dəhşətdi! Kəndimiz dəni sovrulmuş xırman yeri kimi bomboş qalıb, sabah nolacaq, Allah bilir.. Oğlum?..

Üstümdən elə bil qatar keçdi. Anamın dedikləri qəfil açılmış güllələr kimi vıyıltıyla qulağıma dolub beyin qapağını silkələyirdi. Cəsədi yanıb külə dönmüş babamı o vəziyyətdə təsəvvür edə bilmirdim. Məncə arxadan vurulan zərbə bundan ədalətlidi, heç olmasa, son anda çevrilib düşməninin murdar sifətini görə bilirsən. Düşmən olanda da kişiliyini unutmamalısan! Cavanlığında dəfələrlə atıcılıq üzrə çempion olmuş babam nə qədər qoca olsa da, əmin idim ki, düşmənlə döyüş meydanında üz-üzə gəlsəydi, tətik çəkən barmağı titrəməz, dizləri əsməzdi. Deməli, ermənilər elə quduzlaşıblar ki, yırtıcı heyvan kimi günahsız insanları yatdığı yerdəcə qətlə yetirirlər? Göz-gözə, üz-üzə gəlməkdən qorxan nakişilər! Faşıst tör-töküntüləri!

Babamın ölümünə elə sarsıldım ki, dəstəyin o başında anam duymasın deyə, boğula-boğula qalmış, dinmədiyimdən “oğlum, məni eşidirsən?” soruşmaq istəyirdi yəqin. Mən isə, sanki onun qarşısında əyləşmişdim, dilimi udub həyəcanla başımı yelləyirdim... Əlbəttə, müharibənin başladığını televizordan eşitmişdim. Məlumatlar ötəri, baş verənlər inandırıcı gəlmirdi. Rus jurnalistlərinin erməni təəssübkeşliyi də həqiqətləri ört-basdır etmək məqsədi güdürdü. Həm də son vaxtlar hər iki ölkədən miqrant axınının çoxaldığını, özü də gələnlərin əksəriyyətini kişilər təşkil etdiyini görəndən sonra, bunun nə qədər ciddi olduğunu təsəvvür edə bilməzdim. Müharibədirsə, dağ boyda bığıburma kişilərin burda nə işi vardı – deyə fikirləşirdim...

Zəng etməmişdən əvvəl başıma gələnləri danışacağımı, nədən başlayıb harada qurtaracağımı sərbirah etmişdim. Ancaq elə sarsıldım ki, öz ağrılarım eşitdiklərimin yanında mənasızlaşdı. Fikrimdən daşınıb susdum, ona mənəvi əzab verməyə cəsarətmi tapmadım, yoxsa təkəbbürümmü imkan vermədi, bilmirəm, hər nəydisə, olanları gizlətməyə qərar verdim. Boğazımda qəhər:

– Hər şey yaxşıdı, ana, nigaran qalma, səsini eşitmək istədim, – dedim. Bu mənim ona dediyim son yalanım oldu. Qoy narahat qalmasın. Qürbətdə yaşadığım, bu qədər kin saxlayıb uzun illər yada belə salmadığım az imiş, dərdinə dərd qatmağım lap vicdansızlıq olmazdımı? Yəqin ki, alt-üst olmuş həyatımdan xəbərdar olsaydı, dözməzdi buna. Yaxşı ki, toxtayıb heç nə demədim. Ağlasa da, darıxıb xiffət eləsə də, eybi yoxdu, qoy elə bilsin mən də xoşbəxtəm. Onun kimi...

Sonradan, onun həyatının nizamını pozacaq zəngə görə özümü xeyli tənbeh etdim...

Bu zəngdən sonra anama daha çox acıdım; yanında həyanı olsa belə, tənhalıq, kədər, qorxu, sabaha inamsızlıq, oralarda nələrin baş verdiyi səsinin tonunda duyulurdu. Ənənələri pozmağın aqibətini düşünərək Bakıya qayıtmamış Tariyelin aqibətini yaşayacağıma əminliyim məni düz yolumdan sapdırmışdı deyəsən. Mən Tamaranı yola gətirib zülmlə apara bilərdim. Məncə bunu o da istəyirdi. Tərəddüd edən, narahat olan elə mən idim. Məncə anam, gəlini yox, doğma qızı kimi qəbul edərdi Tamaranı. Onu yanımda görsəydi, ərə getdiyini gizlədərdi, birgə yaşayardıq, babamı da gətirərdik yanımıza, bu fəlakətləri görməzdik. Hər şey tamam başqa cürə ola bilərdi. Olardı... Əgər tanrı yazısına müdaxilə etməsəydim...

# SƏLİM

Tatar ləqəbli biri şirkətə gəlib, mənim səfərdə olduğumu öyrənəndən sonra öz ünvanını qoyub, xahiş edib ki, mütləq onunla görüşüm. "Həmyerlisi ilə əlaqəli ciddi bir məsələni yoluna qoymaq lazımdı", – deyibmiş. Görəsən, kimdi, nə məsələdi? Həmyerlimdisə, məni özü niyə itirib-axtarmır? Maraq məni götürmüşdü. İşə qayıdanda onun təşrif buyurduğu vaxtdan iki gün keçmişdi. Ünvanı götürüb ofisdən çıxdım.

Onun yaşadığı kvartalın yaxınlığında maşınımın mühərriki söndü. Nə qədər əlləşdim, heç nə alınmadı. Tərslikdən yaxınlıqda da avtomobil təmiri mərkəzi yox. Ofisə zəng vurub vəziyyəti başa saldım. Borisə avtomobilimin dayandığı ünvanı bildirməyim kifayət idi, özü qəza xidmətiylə əlaqə saxlayıb lazım olanları görəcəkdi. Taksi saxlatdırıb katibəmin kağıza yazdığı ünvanı deyəndə, sürücü "məni dolamısan?" sifəti göstərdi. Mən qapını açıb əyləşmək istəyəndə o, əli ilə "dur" deyib qımışdı, hələ də onu anlamadığımı hiss edib "düzdü, artıq pul qarnımı ağrıtmazdı, əslində, pul heç vaxt artıq olmur, amma söyülmək də istəmirəm, görürəm naşısan, buralara bələd deyilsən, dediyin ünvan isə ikiaddımlıqdadı, bir az piyada gəzsən, pis olmaz, tini burulan kimi tağlı binanın həyətindən keçib dediyin evin düz üstünə çıxacaqsan" – söylədi. Minnətdarlıq edib göstərdiyi səmtə üz tutdum. "Vicdanlı adammış. Başqası belə etməzdi". Ünvana belə tez yetişdiyimi görəndə "özgə planetli" taksi sürücüsünü xoş sözlərlə xatırlamaya bilməzdim. Xam olduğumu duymuşdu. Mindirər, heç nə izah etmədən beş-altı kvartal gəzdirər, sonda mənzilə çatdırıb istədiyi məbləği alardı axı?..

...Zəngi basdım. Qapını qıyıq gözlü, cod qara saçlı, hündür boylu kişi açıb kimi istədiyimi soruşdu. Otuz beş-otuz altı yaşı olardı. Yorğun görünürdü. Özümü təqdim etdim. Gələcəyimə ümidli deyilmiş kimi, təəccübləndi. İçəri dəvət etmədən "bir dəqiqə gözləyin, gəlirəm, yolda söhbət edərik" deyib yarıqaranlıq otaqda gözdən itdi. Həyəcanlansam da, gözləməkdən başqa əlacım qalmırdı. Pilləkənlə aşağı enərkən arxadan qıfıllanan qapı səsinə çevrildim. "Tatar" idi. Gülümsünə-gülümsünə mənə yaxınlaşdı. Həyətə çıxana kimi heç nə demədi. Mən:

– Hansı "ciddi məsələ"ni aydınlaşdırmaq lazımdı? – soruşdum.

– Adım Səlimdi... Dedim, ciddiyə almazsınız. Doğrusu, gözləmirdim... Əslinə qalsa, bu məsələnin mənə də aidiyyatı yoxdu, amma... Narahat olmayın, – deyib ciddi görkəm aldı. – Sizin barədə Ruslanın arvadı danışıb. Tanıyırsınız?

– Ruslan, hə, bizdə işləyib... Çoxdan. – Çətinlik çəkə-çəkə rəsmi danışığı məni qıcıqlandırırdı deyə, bilərəkdən "sən"ə keçdim. – Nə deyib Ruslanın arvadı?..

– Uzun söhbətdi. Gəlin burda oturaq, – deyib həyətdəki oturacağı göstərdi. Hava xoş idi. İyul ayına xas olmayan sərinlik adama rahatlıq verirdi. Oturduq. Üzü binaya sarı. Narahatçılığımı duyub söhbətə başladı.

– Bax, bu binanın ikinci blokunun dördüncü mərtəbəsindəki mənzildə sizin yerliniz yaşayır, həmən Ruslanın ailəsi. Cavan gəlin, kirayədə, bir qızı ilə... Mən onlarla tanış deyildim, əgər aylıq kirə haqqını tələb edən ev sahibi qarabuğdayı olduğumdan məni qafqazlıya oxşadıb ürəyini boşaltmasaydı. Belə başa düşdüm ki, qadını əri aldadıb.

– Necə, aldadıb?

– Qadınla görüşdüm. Rus dilində danışmaqdan vaz keçdim, çünki, “da”, “net”dən özgə söz bilmir. Belələri Rusiyaya niyə gəlir, anlamıram... Dediklərini çətinliklə də olsa, başa düşürdüm. Axı mən tataram... Eşitdiklərimə inanmadım. Ruslanla altı il evli olubmuş. Dörd yaşında qızı var. Dedi ki, elçi gəlib məni özünə arvad edənəcən Rusiyaya gətirəcəyini deməyibmiş, yoxsa dünya dağılsaydı da razılıq verməzdim. Toydan iki ay sonra bildim ki, burada ikiotaqlı mənzili var. “Gedək, bir az qalaq, evi satım, qayıdarıq“ adıyla başımı yeyib bura gətirdi... Təsəvvür edirsən, altı il söz-söhbətsiz yaşayıblar, ilin əvvəlində evi satıb, arvad-uşağını bu mənzilə yerləşdirib, işim var deyə evdən çıxıb, daha geri dönməyib. Müəmmalı hadisədi... Deyir neçə gün evdə olanlarla dolandıq, hər şey tükənəndə əlacsız qalıb bazardakı həmyerlilərimizdən kömək istədim. Sağ olsunlar, əllərindən gələni etdilər. Amma nə vaxta qədər? Bəziləri Ruslanı tanıyırdı deyə, bəzisi tanımadan pul, ərzaq verirdi. Özümü alçalmış hiss edirdim. Bilməzdən, özüm öz dediklərimə belə inanmadan qayıdıb borcunuzdan çıxar kimi yalanlar söyləyirdim. Bilirəm ki, evin yiyəsi ayda iki-üç dəfə pulunu istəməyə gəlir, amma başa sala bilmirdim ki, ərimdən, hara getdiyindən xəbərim yoxdu. Hiss edirdim ki, qızıma görə mənə yazığı gəlir, heç polislə də hədələmirdi, yoxsa çoxdan qovmuşdu evdən... Vəziyyət belədi... Yox, yaxşısı budu, gedək, ətraflı söhbət eləyin.

Qadın qapını çox gec açdı. Altı ay hansı iztirab, qorxu və səksəkələr içində yaşadığı solğun baxışlarından məlum idi. Gözəl olsa da, hiss olunurdu ki, sarsıntılar hələ otuz yaşı olmayan gəlini əlli yaşlı ahıl qadına çevirmişdi. İlk dəfə gördüyüm bu qadına yazığım gəldi. “Ruslan niyə belə etsin axı? Cavan, kəbinli arvadını körpə qız uşağıyla yad şəhərdə atıb getməyə nə ad vermək olar? Belə rüsvayçılıq, əclaflıqmı olar? Bəlkə araya qadın girib?..” Fikirləşdiyimi dilə gətirib soruşdum, cavabı “bilmirəm“ oldu. Utana-utana dedi ki, gedəndən sonra otağı ələk-fələk elədim, satdığı evin pulunu tapmayanda biryolluq getdiyinə əmin oldum. Niyə belə etdiyini anlamıram... Bazarlığı özü edirdi. Gedəndə bilirdi axı evdə çox şey yoxdu... Günlərlə ac qalmışıq. Mən heç, dözərəm, uşağa “yoxdu” demək olmur axı... Sağ olsun bazardakı yerlilərimiz, getdim, dərdimi deyincə nə hallara düşdüm, bir Allah bilir, gücləri çatan köməyi elədilər... Vicdansız, məni hamının yanında üzüqara elədi... Ruslan bircə aylıq kirə pulu veribmiş, evin yiyəsi gələndə ölüb yerə girirəm... İnsaflı, alicənab adamdı, dilimi başa düşməsə də, vəziyyətimi anlayır, Səlim qardaşa deyib ki, əri gələnəcən yaşasın... Mən ümidimi üzmüşəm, o isə yox...

Ruslandan barəmdə çox eşidib deyə, Səlimdən məni axtarmağı xahiş edibmiş. Vətəndə qohum-əqrabası olduğunu, getsə, tapa biləcəyini soruşdum. “Hə” dedi. Yaxşı ki, sənədləri qaydasındaydı. Sənədlərini götürüb xüdahafizləşdim. Səlimə xeyirxahlığına görə minnətdarlıq edib kirayə verən qadının evinə getməyimizi xahiş etdim. Demə, həmən binada yaşayırmış. Kirayə haqqını artıqlaması ilə ödədim, həqiqətdə nə baş verdiyini demədən, səbrinə görə təşəkkür edib bir neçə günə mənzili boşaldacağını çatdırdım. Qadın bizim hərəkətimizdən çox təsirlənmişdi. Hətta məni qucaqlayıb öpdü də...

Məni tanıyanlar bilir ki, gücüm və imkanım çatdıqca, müraciət edənlərə yardımı əsirgəməmişəm. Etdiklərimə peşman olmadan...

Dəmiryol vağzalından Bakıya iki bilet alıb mağazaya yollandım. Öz mağazamız uzaq idi, vağzala yaxın univermaqdan üç yaşlı uşaq üçün oyuncaqlar, yay paltarları, ayaqqabı seçdim, ərzaq şöbəsindən bir neçə günlük azuqə alıb Nərminəgilə getdim. Aldıqlarımı və biletləri verdim, iki gündən sonra

yola düşəcəklərini deyib çıxdım. Dil-ağız edib ağlamsındı yazıq qadın. Səlim də bəzi şeylər alıbmış dedi.

Vağzalları sevmirəm. Vacib işlərim çıxdı bəhanəsiylə onları yola salmağa Borisi göndərmişdim. Rus dili bilmədiyi sonradan yadıma düşsə də, uşaq qatarda darıxmasın deyə, oxumağa iki nağıl kitabı almışdım. Borisə dedim Nərminəni başa salsın ki, kitabın arxa səhifəsinə ev və cib telefonlarımın nömrəsini yazmışam, əgər vətəndə köməyə ehtiyacı olsa, mütləq mənə zəng vursun. Səlim də vağzalda olub. Dediyindən yüz dollar pul da verib. Həmyerlimə qarşı isti və təmənnasız münasibəti çox xoşuma gəlmişdi. Elə o gündən Səlimlə dostluğumuz başlamışdı.

* * *

...Burnumu qıcıqlandıran kəskin spirt qoxusu, cır arı sancısını andıran ağrı beynimə vurub məni qatmaqarışıq xəyallardan ayırdı. Yüngülcə ufuldadım. Tibb bacısı qoluma iynə vurub palatadan çıxanda, arxasınca nəsə demək istədim, dodaqlarım quruyub biri-birinə yapışmışdı deyə, səsim çıxmadı və o andaca nə istəyəcəyimi də unutdum. İşə bir bax, iyirmi, otuz il öncə olanları bitcə-bitcə xatırlayıram, amma indicə nə istəyəcəyimi yadıma sala bilmirəm.

Qəza olmasaydı, xəstəxana palatasında həkimlərin, tibb bacılarının nəzarəti altında deyil, yəqin ki, Nellinin həvəslə toxuduğu corabları geymiş qızımla əl-ələ tutub xəstəxananın geniş baxçasında dəcəl dələlərin qaçdı-qovdusuna tamaşa edib gülüşür, ya da giriş qapısının qənşərindəki geniş meydançada vəhşi göyərçinləri yemləyirdik. Əgər qəza olmasaydı...

Xəstəxana çarpayısında uzanıb baş tutmayan görüşümüz barədə düşünürəm. Nə yaxşı ki, sürpriz alınsın deyə, gələcəyimi qabaqcadan bildirməmişdim. Görəsən, bilsəydi necə, gəlmədiyimi görən qızım narahat qalardı, yoxsa nələrsə uydurub arxamca deyinərdi? Qəzaya düşdüyümü bilsə necə?!.

Onsuz da son zamanlar özündə-sözündə deyildi. Əsəbiləşir, heç kəsə yovuşmur, fikrini dağıtmaq üçün bir cəhd belə etmir, saatlarla gözlərini bir nöqtəyə zilləyib uzanırdı. İki-üç həftə əvvəl axşam yatağının yanında oturub ən çox xoşladığı "Peppi – uzunboğaz corab"ı oxuyurdum ki, darıxmasın. Oxumağa elə aludə olmuşdum ki, qızımın nə vaxt yuxuladığını hiss etməmişdim. Əslində, o yatmırdı, özünü yatmış kimi göstərirdi – buna yüz faiz əmin idim. Onu yaxşı başa düşürdüm. Bu, onun bezdirici, birrəngli həyatına səssiz etirazıydı. Bəlkə mənə elə gəlirdi? Həm də ədalət naminə fikirləşirdim ki, onun yerinə kim olsaydı, belə etməzdimi?..

Əvvəllər – nə evdə olanda, nə də bərpa mərkəzində müalicəsini davam etdirəndə şıltaqlıq etməz, məni, ona qulluq edən dayələri, həkimləri çox da incitməzdi. Ancaq son altı ayda, ev şəraitində qulluq, müalicə mümkünsüz olduğundan, onu xüsusi rejimli bərpa mərkəzinə yerləşdirməyə razılıq verəndən sonra (əlbət ki, külli miqdarda vəsait ödəmək qarşısında) hər gün onu yoluxmasaydım, incik düşdüyünü, hətta əsəbiləşdiyini hiss etmişdim. Bu qıcığın haradan qaynaqlandığını bilmədiyimdən, şıltaqlığına dözüb üzümə gülümsəməyini, heç olmasa bir xoş söz deməyini həyəcanla gözləyirdim. O isə məni kinli, acıqlı-acıqlı süzüb, susurdu. Məhrumiyyətlərlə barışaraq belə durumda yaşamağın nə qədər çətin olduğunu dərk edə-edə, onu şən, mübariz, qətiyyətli olmağın mümkünlüyünə inandırmaq istəmişəm, bəzən özüm də buna şübhə edərək...

"Görəsən, hansı qəbahətimə görə sevgisizliyə mübtəla olmuşam? Bəlkə xəstəxanada sıxılır, darıxır, ondandı? Bəlkə elə başa düşür ki, bilərəkdən ondan uzaqlaşmağa çalışıram, xəstə uşaqdan bezmişəm, onu tərk edib biryolluq bu işgəncələrdən, əzabdan qurtulmaq istəyirəm?

İnanmıram... Axı o, bunları necə düşünə, necə ağlına gətirə bilərdi?! Doğulduğu gündən bu ana qədər hər saatı, hər günü yadıma salıb fikirləşirəm və elə bir məqam xatırlamıram ki, onun xəstə olduğuna məyus göründüyümü, ona qulluq eləməkdən bezdiyimi, hətta yerini batıranda ağız büzüb iyrəndiyimi hiss elətdirəm. (Kövrəlib ağlamaq, ürəyimi boşaltmaq üçün kimsəsiz, qaranlıq künclərə nə gəlib?!.) Körpəykən, elit müştərilərə xidmət göstərməkdə ad çıxartmış agentliyin ən tanınmış dayəsi ona qulluq edirdi. Buna baxmayaraq, dayəyə etibar etsəm də, bezini ara-sıra özüm dəyişər, çimizdirib qurulayar, masaj edər, yeməyini yedizdirər, əyin-başına əl gəzdirər, bundan qızım da, mən də unudulmaz zövq alardıq. Yanında olduğumu, onu sevdiyimi hiss etdirmək üçün əlimdən başqa nə gəlirdi ki? Özümə elə isinişdirmişdim ki, boynumu qucaqlamadan yuxuya gedə bilmirdi. Yatdığını hiss edəndə, mənə sarılmış qollarını ehtiyatla aralayıb yerinə uzadan kimi ayılıb ağlayar, ancaq başını sinəmə söykəyəndən sonra kiriyib yenidən uyuyardı. Çox vaxt atamı, anamı olduğumu belə dəyişik salırdım. Övladın məmnunluğu xatirinə öz rahatlığını qurban vermək valideyn xisləti deyilmi? Narahat olmasın deyə, vərdiş etdiyim xasiyyətlərimlə vidalaşmalı da olmuşdum. Axı, səhərəcən yerinə uzandığı kimi hərəkətsiz qalanlardan deyildim; gecəni sübhəcən, yalan olmasın, əlli dəfə o üz-bu üzə çevrilirdim, adam kimi yatmağım yox idi, yuxum gələnə qədər də yerimdə hey eşələnir, yatağıma vay tuturdum. Qızım, mənim körpə mələyim, rahat yatsın deyə, yerimdə qımıldanmırdım, ölü kimi uzanar, bəzən bütün gecəni oyaq qalardım. Yarıyuxulu işə getməyim də adət halını almışdı. Katibəm, personal işə gələnə kimi yazı masasının üstündəki qalın kitablara baş qoyub mürgülədiyimi, ya da əynimdə kostyum, künc divanında koramal kimi qıvrılıb yatdığımı dəfələrlə görmüş, yəqin ki, bəsit qadın fantaziyalarına uyaraq mənim barəmdə cürbəcür şeylər də uydurmuşdu. Əminəm ki, mənə şəkərsiz qəhvə dəmləyib gətirərkən bic-bic gülümsəyəndə və beş dəqiqə sonra, qəhvə heç mədəmə çatmamış "indi necəsiniz?" soruşanda da yəqin ki, şəhərin hansısa mehmanxanasında qadınla gecələdiyimi düşünübmüş. (Bütün katibələrin arvadına xəyanət edən müdirlərdən xoşu gəlir. Ələlxüsus, bu xəyanətdə özləri iştirak edəndə.)

Məni intriqalara çəkə bilməzdi, yəqin ona görə də (dul olduğumdan xəbəri olsa da), gözəgəlimli, cazibədar katibəm mənə yox, şirkətin meneceri Borisə vurulmuşdu, çünki Borya evliydi, gözü onda-bundaydı, maşında, liftdə, kabinetində, fərq etməz, kimlə gəldi sekslə məşğul olmaqdan çəkinməyən əclafdı, həm də pul qədrini bilməyən gözəgəlimli dəlisov arvadbazın biri...

Əlbəttə, katibəm nə düşünür düşünsün, özümü o yerə qoymurdum, xəstə uşağıma görə çəkdiyim narahatlıqlar məni məyus etmirdi, əksinə, verdiyim sözə, Tanrı qarşısında, arzuladığı körpəsinin səsini belə eşitmədən bizi tərk etmiş Rayamın ruhunun rahatlığı naminə əməl etdiyimə ümidliydim. Hər dəfə qızımın qızılı saçlarını darayıb hörük vuranda inanırdım ki, o, burdadı, ruhu yanımızdadı, biz onu görməsək də, o bizi, məni və qızımızı xoşbəxt görüb sevinir. Əvvəllər onun yanımızda olmamasında özümü günahlandırırdım, sonradan həqiqəti biləndə isə Rayanı.

Yaş yarımına kimi qıvraq, daima hərəkətdə olduğundan, doğuluşdan altı həftə öncə "körpəniz qüsurlu doğulacaq" deyən ginekoloqun yanıldığına əmin

olmuşdum. Axı bütün sahələrdə olduğu kimi, əfsus ki, təbabətdə də belə yanlışlıqlar, səhv diaqnozlar olur deyə, düşünüb sevinmişdim. Və bir gün, gözləmədiyim halda, qəfil, bütün xoş düşüncələrimin məhv olacağını ağlıma gətirməzdim. Həmən payız gecəsi ki qızımı o amansız diaqnozla xəstəxanaya yerləşdirdilər, əmin oldum ki, Raya həqiqətən məndən olacaqları gizlədibmiş. Axı nəyə görə? Bu sual məni çox narahat edirdi. O, öləcəyini bilirdimi? Həkim: “Ana kimi sizi başa düşürəm, sonra gec olar...” demişdi? Eşitmişdim axı? Raya “səhv eşitmisən” deyib həqiqəti məndən gizlədirmiş? Niyə? Əgər döl zədəliydisə, uşaq xəstə doğulacaqdısa, nədən uşağın qalmasına razılıq vermişdi? Həkimin dediyindən, “hələ ki gec deyildi”. Nə baş vermişdi axı? Rayanın hərəkətindən, daha doğrusu, hərəkətsizliyindən heç nə anlamırdım.

Nəhayət, gec də olsa, bu sualların cavabını qadın məsləhətxanasında Rayanı müayinə edən həkim verdi. Sən demə, Raya boynuna almasa da, mən düz eşitmişdim. Həkim tələb edirmiş ki, bu, ana üçün nə qədər ağır olsa da, zədəli dölü tələf etmək məsləhətdi.

“Arvadınızın iki dəfə uşaq salması onun psixikasına mənfi təsir göstərdiyindən, növbəti hamiləliyi arzuolunmaz idi. Gərək bir neçə il gözləyərdiniz. Tələsmək lazım deyildi. Ona xəbərdarlıq etmişdim. O isə israrla, ərim uşaq istəyir, demişdi. Axı uşaq xəstə doğular, sən də ölə bilərsən, deyib qorxutmuşdum da. Kimə deyirsən, “doğacam, bu uşağı doğacam!” deyib durmuşdu... Bilirəm ki qafqazlılar uşaq sevən olur. Yəqin uşaq dünyaya gətirməsə, sizi itirəcəyindən qorxurmuş. Məncə də xanımınızı narahat edən bu imiş... İnanın, sizi dəvət edib birlikdə bu problemi həll etmək istədiyimi ona deyəndə, ərimi bu məsələyə qatmayın deyib əsəbiləşmiş, hətta məni hədələmişdi də. Yadımdadı, son müayinədə həddən çox gərgin idi... Əfsuslar olsun, bəzən valideynlərdən birinin həkimlə razılaşmadan düzgün vermədiyi qərar ağır nəticələr doğurur... Çox təəssüf edirəm...” – demişdi həkim.

Həkim danışdıqca, Rayanın narahatçılığının, son günlər özünə qapanaraq dinib-danışmadığının səbəbini anladım. Vəziyyətinin kritik olduğunu bilə-bilə, həyatına qəsd etməyə dəyərdimi? Allahıma and olsun ki, Adilin faciəli ölümündən sonra həyatımdakı boşluğu dolduracaq nəyə isə ehtiyacım olduğunu anbaan duysam da, onun sağlamlığındakı problemləri bildiyimdən heç vaxt “uşaq istəyirəm” kimi qəti tələbim olmayıb. Mən ancaq onun tam sağalmasına çalışırdım. İkinci dəfə qəfil qanaxması başlayıb uşaq salanda (məncə altıncı ayındaydı), çox heyifsiləndik, bir neçə ay kefimiz olmadı, amma bunu Tanrının əmri kimi qəbul etdik, “qismət deyilmiş“ dedik, inciklik, narazıçılıq olmağı yadıma gəlmir.

Rayadan fərqli olaraq onsuz da itkilərə öyrəşmişdim. Birinci evliliyimdən olan oğlumun anası ilə faciəli şəkildə həlak olması məni çox sarsıtmışdı. Tamaranı, Adili unuda bilmirdim. O, bunu yaxşı bilirdi. Müayinələr, uzun çəkən müalicələrdən sonra yaxınlığımıza səbəb də onun təşəbbüsüylə oldu. “Bəlkə gözləyək, həkimlər tam qərar verməyib, yenə düşər-düşməzi olar” deyəndə o, sanki uşağımız olmasa məni itirməyindən ehtiyat edərək həyəcanını gizlətmədən: “Qorxulu heç nə yoxdu, özümü qorumağa çalışacam, bu dəfə alınacaq... mütləq alınacaq...” cavab vermiş, hətta, əlbət ki sənə oğul doğacam, bax, onda kədərini unudarsan, – demişdi. Yarıciddi-yarızarafat bunu da əlavə etmişdi ki, birdən qızımız olsa, onu da oğlun kimi sevəcəyinə söz ver... Mən də and içmişdim.

...Qızımın mənə qarşı kobudluğuna dözə bilmirdim. “Niyə belə edir?” Nə olursa - olsun, heç nəyə baxmadan həmişə yanında olacağıma söz verdiyim,

sözümdən dönmədiyim halda o, nədənsə bunu unudur, elə bil mənə əzab verməkdən həzz alırdı. Dinib-danışmır, bəzən də məni qapının ağzında görən kimi arabasını cəld pəncərənin qarşısına sürüb üzü həyətə sarı oturur, guya palatada mənim varlığımı belə hiss etmirdi. Onun üçün aldığım hədiyyələrə gözucu belə baxmırdı. Mən palatanı tərk edəndən sonra həmən hədiyyələrin yeri aynabəndli eyvan, ən yaxşı halda, çarpayının altı olurdu.

Aydın məsələdi, xəstə uşaqdı, psixoloji gərginlik keçirir, hər şeyi vəziyyətə görə qiymətləndirə bilmir, – belə düşünürdüm. Nə qədər başa salırdım ki, mənim mələyim, ata iş adamıdı, ürəyim istəsə də bütün günü yanında ola bilmərəm, bunu bacarsaydım, evimizdə qalardıq, səni bu mərkəzə gətirərdim ki? Niyə inanmaq istəmirsən ki, boş vaxtım olan kimi sənin yanına tələsirəm? Tələsmirəm e, uçuram!..

O, məni heç eşitmək istəmirdi.

Əvvəllər, hər dəfə "yelləncək məsələsi"ni yada salanda qəşş edib gözləri yaşaranacan gülürdü. Bunu azı yüz dəfə yada salıb danışsam belə, mən ondan heç də geri qalmırdım və bu adi, bəlkə kiminçünsə gülməli görünməyən hadisə ikimizdə də böyük həzz yaşadırdı.

İki il öncə Adlerdə istirahət zamanı qızımla sahil bağında gəzişirdik. Uşaqlar üçün geniş oyun meydançasının yanından ötəndə qızımın qumluqda atılıb-düşən, cərgəylə düzülmüş yelləncəklərdə yellənən uşaqlara həsədlə baxıb məyus olduğu diqqətimi çəkdi. Mən də xəyala dalıb xeyli həmən istiqamətə baxdım. Sinə dolusu "ah" çəkdiyini duyanda dayana bilmədim. Arabanı saxladım, başının üstündən əyilib kövrəlmiş, qəmli gözlərinə baxdım. Özüm də qızım qədər kədərliydim.

– Bəlkə mənim şəhzadəm yelləncəyə istəyir, hə? Düz tapdım?.. Nə deyirsən? – deyib sualıma necə reaksiyanı verəcəyini gözləmədən ümidsiz-ümidsiz gülümsəməyə çalışdım. Meydançadakı o qayğısız, bəxtəvər uşaqlardan biri olmaq istəyi bir anda onun dodağının qaçmasına, gözlərinin alışıb-yanmasına səbəb oldu. Qollarımdan yapışıb başını yellədi. "İstəyirəm..." dedisə də narahat və şübhəylə "axı mən o uşaqlar kimi necə yellənə bilərəm?" sualını verirmiş kimi, gözlərimin içinə baxdı. O baxışlarda əzab dolu min sual gizlənmişdi. Kövrəldiyimi hiss etməsin deyə, alnından öpüb gözlərimi gizlətməyə çalışdım. Ürəyim sızıldayırdı. Qızım, indiyəcən ürəklənib dilinə gətirmədiyi istəyinin – yelləncəkdə necə yellənə biləcəyinin marağındaydı və yəqin ki, bunu necə edəcəyimi düşünürdü. Arabanın önünə keçib onu qucağıma aldım. "İndi ata sənə göstərər" deyib baxışlarıyla verdiyi sualına bərkdən cavab verdim.

Bütün parkın diqqəti bizdəydi. Belə anlarda, adətən, ətrafdakıların böyüklü-kiçikli öz məşğuliyyətini unudub xüsusi bir maraqla, təəccüblə, bəziləri isə əlacsız, şikəst insanın durumuna hissediləcək dərəcədə acıyaraq tamaşa etməsinə artıq öyrəncəliydim və bundan heç də narahat olmurdum. Bilirdim ki, yüzlərlə normal insan arasında qəfil peyda olan əlil birisinə heyrət və təəccüblə baxmaq mərhəmətdən irəli gəlmir, çünki özgənin halına ürəkdən yanmaq, onu öz ağrısına çevirmək, onu duymaq heç də hər bəndəyə xas xüsusuyyət deyil və bu hissləri yaşamağı bacarmayanları qınamırdım da. Yelləncəklərin hamısı tutulmuşdu deyə, qızımı qucağımda tutsam da bilet alıb onsuz da səbirsizliklə hansınınsa boşalacağını gözləyəcəkdim. Bu vaxt qəribə bir hadisə baş verdi; bizi görcək kənarda dayanan valideynlərinə məhəl qoymadan səs-küyü aləmə yayılan uşaqların hamısı yelləncəyini dayandırıb susdu, elə bil qeybdən gələn İsanın zühuruna şahidlik edirmişlər kimi, heyrət

içində bizə baxdı. Ən qıraq yelləncəkdəki altı-yeddi yaşlı oğlan isə qaçaraq mənə yaxınlaşıb qolumdan tutdu, "Gəlin, siz yellənin, mən daha istəmirəm", deyib tərk etdiyi yelləncəyini göstərdi. Anası mərhəmətlə "mənim ağıllı balam!" deyib oğlunu qucaqladı, mənə: "Narahat olmayın, o, sonra da minə bilər, siz buyurun", – dedi.

Oğlana təşəkkür edib qızımı yelləncəyə oturtmaq istəyəndə, o, qorxaraq boynumdan bərk-bərk qucaqlayıb "sən də" dedi. Ehtiyatla oturdum. Təkan vermək üçün geriyə iki addım atıb ayaqlarımı yerdən üzdüm və...

Nə attraksion işlədən kişinin niyə qışqırdığına, bayaqdan bizi izləyən insanların nədən təəccübləndiyinə məhəl qoymadan bir neçə saniyəlik özünü səmada azad quş olub pərvaz etdiyini düşünərək dünyanın ən xoşbəxti olan qızımın çöhrəsində, gözlərində çoxdan görmədiyim xoş təbəssümə şahidlik edərkən havanın boşluğunda dördüncü yarımdairəni bitirməmiş guruppultuyla qumluğa çırpılana qədər, əlbəttə, yelləncəyin hansı ağırlığa davam gətirəcəyini ağlımdan belə keçirməmişdim, nəticədə yelləncəyin zənciri qırılmışdı... Qəribəsi o idi ki, qucağımda möhkəm tutsam da, mən qızımın əzilməsindən qorxduğum halda o, şən qəhqəhəylə gülürdü. Necə bəxtəvər idik! Sanki dəliliyimiz tutmuşdu. Bir neçə dəqiqədən sonra mən də ona qoşuldum. Bizə yardım etmək istəyilə hövlnak başımıza toplaşan insanlar əhvalımızın heç də kritik olmadığını görəndən sonra bəzisi başını bulayıb aralansa da, bəzisi bizə qoşulub gülməyə başladı. Əlbəttə, özümə gələndən sonra attraksionun sahibinə dəymiş ziyanı ödəmək üçün pul təklif etsəm də, o, hər şey normaldı deyib məni qızımın arabasına kimi müşayiət elədi...

Yenə bu hadisəni yada salıb onun könlünü almaq istədim. Elə danışmağa təzəcə başlamışdım ki, qaş-qabağını salladı, dodaqlarını büzüşdürdü, saymazyana üzünü divara çevirib gözlərini yumdu. Sözüm ağzımda qaldı. Susdum.

Əlbəttə, nə qədər istəsəydim də ona ana kimi yaxın ola bilməzdim. Amma çalışırdım, çalışırdım ki, heç olmasa anasızlığını hiss etməsin. Buna nail ola bilirdimmi?.. Nənəm həmişə deyərdi ki, qız uşaqları nə qədər əlli-ayaqlı, diribaş olsalar da, atalarını çox sevsələr də, həmişə anaya ehtiyacı olur. Qızım isə bu xoşbəxtlikdən məhrum idi...

Öpüb-oxşayırdım, istədiyi kitabları, şirniyyat və oyuncaqları əskik etmirdim. Hər nazıyla oynar, hər şıltaqlığına dözürdüm. Heç olmasa yaxşı ata olmağa çalışırdım. Bu durumda mənim pis ata olmağa haqqım da yox idi!

Son vaxtlar mənə qarşı olan haqsızlığına, yaşına uyğun gəlməyən qəddarlığına tab gətirə bilmirdim. Qəribəsi o idi ki, içim göynəsə də ona heç nə demir, ürəyini qırmaq istəmirdim. Anlaşılmaz sözlər deyir, dediklərini başa düşmək üçün ona yaxınlaşanda üz-gözünü turşudub durur, səsini kəsirdi...

O axşam yenə də eyni sözləri təkrarladı:

– G-get... o-o-nun ya-a-nı-na...

Nitqində baş verən dəyişikliklər məni sevindirməyə bilməzdi. Əvvəllər sözləri elə hala salardı ki, dəfələrlə təkrarlasaydı da, heç nə ayırd etmirdim. Qüsurunu gizlətməyə səy etdikcə, alınmırdı, əsəblərini cilovlaya bilmirdi. Amma loqopedinin əzmkarlığı sayəsində ara-sıra kəkələsə də, fikirlərini aydın çatdırmağa başlamışdı. Moskvadan növbəti müayinəyə gələn professor təəccüblənərək bunu gözəçarpan irəliləyiş kimi qiymətləndirmiş, "bu xəstəliyə iradəli və mətanətli insanlar qalib gəlir", – demişdi... "Mənim qızım iradəlidi, mətanətlidi, inadkardı... bir az da kinli, acıqlı..." – Özümü toxtatmaq naminə düşüncələrim bundan ibarət idi.

“Onun yanına...” Onun, yəni kimin? Bu sual qəzaöncəsinə qədər məni rahat buraxmırdı. Və birdən, hə, birdən, deyəsən qızımın nəyə işarə elədiyini başa düşdüm axı. Əlbəttə, başa düşdüm. Burda anlaşılmaz nə varmış ki?

Ax, qadınlar, qadınlar!.. Qadın, neçə yaşında olmasından asılı olmayaraq, qadındı. Belə çıxırdı ki, o, məni Nelliyə qısqanırmış!? Belə çıxmırdı, bu, beləydi. Deyəsən, anasından irsən qazandığı yeganə xasiyyəti qısqanclığıydı. Elə düşünürmüş ki, işimi buraxıb bütün günü Nellinin dalınca düşür, onu isə tamam yadımdan çıxarmışam?! Əlbəttə, elə düşünürmüş! Yoxsa birdən-birə mənə qarşı bu qədər kin, sayğısızlıq hardan ola bilərdi?!..

## *NELLİ*

Avropada təşkil olunan ilk fərdi sərgisini mən maliyyələşdirmişdim. Hələ təzə tanışlıq zamanı sərgi müvəffəqiyyət qazanmayacağı halda, pullarımın batacağından ehtiyat edib mənə ağız açmadığını duymuşdum. Təkidlə kömək etmək istədiyimi bəyan edəndə razılaşdı. Sərgi gözləmədiyimiz uğurla bitmişdi. Həmişə ilk uğuruna, həm də başqa nailiyyətlərinə görə mənə minnətdar olduğunu desə də, onun təkrarolunmaz sənəti rəngkarlığa dəyər verməyi bacaran Avropa tamaşaçılarını belə heyran qoyandan sonra qoyduğum sərmayəyə heç də heyifsilənmədim. O, istedadı sayəsində günü-gündən məşhurlaşır, əsərləri tanınmış sərgilərdə nümayiş edilir, satılırdı.

Oğlumla Tamaranın faciəli ölümündən bir il sonra tanış olmuşdum onunla. Təsadüfən. Onda Səlimlə Almaniyaya, “Adidas” firmasıyla müqavilənin müddətini uzatmaq üçün gedəcəkdik. Mütəmadi yazışmalarımızdan, telefon danışıqlarımızdan firmanın Yaxın Şərq üzrə icraçı direktorunun biz gedən ərəfədə ad günü olacağını bilirdim. Onun Şərq ədəbiyyatına, musiqisinə və incəsənətinə vurğunluğunu duymuşdum. Düşündüm ki, cənublu olasan, paysız, əliboş qonaq gedəsən, düz çıxmaz. Nə alacağımı Səlimlə götür-qoy edəndə, dedi ki, bir tanışım var, gözəl rəssamdı, qeyri-adi üslubda çəkir ...Əsərlərində rənglər, mövzu, kolorit... bambaşqadı, bir sözlə, əfsanədi! Sanki nağıllar aləmindəsən... xoşun gələcək... Gəlsənə gedib baxaq?..

Razılaşdım. Səlim səhərisi günü axşamüstünə görüş təyin edə bildi. Sovetlər dağılandan sonra park və meydanlarda rastlaşdığım, ilk baxışdan pinti, bomj təəssüratı yaradan rəssamlara rast gəldiyimdən, nədənsə yol boyu təsəvvürümdə keçəl, keçi saqqallı, ya da günlərlə daranıb qulluq edilmədiyindən pırtlaşıq saç-saqqallına dən düşmüş, boynuna uzun nimdaş şarf dolamış, cins pencəkli ahıl kişi canlanırdı.

Amma o, qapını üzümüzə açanda xəyalımdakı saqqallı kişi obrazı əriyib yox oldu və əvəzində eynən Monika Beluççinin əkiz tayına bənzər, hündür boylu, ağlagəlməz dərəcədə cəlbedici, mehriban, gülərüz, həlim bir qız qarşımızda peyda oldu. İyirmi iki-iyirmi dörd yaşlarında olardı. Çaşıb qalmışdım. Səlim dostunun qız olduğunu deməmişdi axı. Səlimlə qucaqlaşıb görüşəndən sonra məni yüz ilin tanışı kimi salamlayıb evə dəvət edəndə yuxuda yox, real aləmdə olduğumu hiss edib güclə gülümsədim. Səlim məni dürtmələdi ki, ayıl. Mən isə astanada dayanıb heyranlıqla onu seyr edirdim. Bəlkə də ilk baxışdan vurulmaq deyərdim buna. Hə, dəqiq, bu, beləydi.

– Deyəsən, ayaqların yerdən üzülüb ha, göylərdə süzürsən, dostum. – Səlim qımışa-qımışa qulağıma pıçıldayanda elə bil açılmayan paraşütlə göy üzündən yerə çırpılıb ayıldım.

– Nelli. – Qız əlini uzatdı, görüşdük, adımı söylədim. Çox istiqanlıydı. Elə nəzakətlə gülümsəyirdi ki!

– Xoş gördük, – deyib, ayaqlarımı astanadan güclə qopardıb ona yaxınlaşdım. Deyəsən, tanışlığımıza çox şadam dedim, sonra yenə nəsə... Unutmuşam... Səlim gözləriylə “sənə nə oldu?“ soruşur, bic-bic qımışır, mən isə heç nə anlamırmış kimi, döyüküb qalmışdım.

– Keçin içəri, xahiş edirəm. Qapının ağzında görüşmək yaxşı deyil, çəkinməyin...

Səlimlə divarları qəribə dekorlar, saxsı qablar, kitablarla dolu rəfləri olan geniş dəhlizdən keçib işıqlı qonaq otağına daxil olduq. Çox keçmədi ki, Nelli ləbləbi, rahatlukum və üç fincan qəhvə olan məcməyini jurnal masasının üstünə qoydu. Məzələrdən yeyib qəhvəmizi içə-içə gəlişimizin məqsədini açıqladı Səlim. Nelli ona diqqət yetirdiyimi sezmişdi, çətinliklə olsa da, baxışlarımız toqquşmamaq üçün çalışırdı ki, mənə sarı baxmasın.

Xeyli söhbət etdik. Daha doğrusu, Səlimlə o söhbət edir, mən dinləyirdim. Diletant görünməmək üçün tam mənimsəmədiyim sahələrdən söhbət gedəndə qarışmamağa üstünlük verməyi bacarır, burnumu hər yerə soxmurdum. Düzünü deyim ki, dinləməklə intellektlərdən çox şey qoparda bilmək istedadım var. Yəqin bir neçə dəfə belə söhbətlərin dinləyicisi olsam, rəngkarlıqdakı bütün cərəyanlardan, dünyaca məşhur rəssamlardan, ən çox tamaşaçısı olan sərgi salonlarından, beynəlxalq hərraclarda ən baha satılan əsərlərdən də xəbərdar olaram.

Emalatxanası balaca, lakin rahat və işıqlıydı. Otağın mərkəzində yəqin ki, növbəti şedevrin yaranmasını gözləyən molbert, yanındakı kiçik dəyirmi masanın üstündə onlarla fırça yığılmış gil qab vardı. Bütün divarlar isə tavana qədər onun əl işləriylə dolu idi.

– Hansını bəyənirsinizsə, götürə bilərsiniz, – dedi ürəklə. Heyrətimi gizlədə bilmirdim. Gənc bir xanımın rənglərlə belə möcüzələr yarada bilməsinə mat qalmışdım. Sanki sehirli xalçayla uçub ecazkar nağıl aləminə, qoca Şərqin min çalarlı rənglər dünyasına düşmüşdüm. Ən əsas da emalatxanaya girərgirməz, nəzərimi qaçıra bimədiyim bir tablodakı rənglərin sehrinə düşmüşdüm. Xeyli baxdıqdan sonra “Bunu... olar?” – deyib, çəkinə-çəkinə barmağımı küncdə asılmış mənzərəyə tuşladım.

– Şeh? – gülümsəyərək şəklə yaxınlaşdı, onu ehtiyatla divardan çıxardıb boş molbertin üzərinə qoydu. – Bu mənim ilk işimdi. Xamlığım hiss olunur yəqin... Aralıdan baxın, zəhmət olmasa, elə də tabloda görünməsə də, təzəcə doğan günəşi, işığı daha yaxşı təsəvvür edə bilərsiniz.

Bütün kətan boyu təzəcə boy atmış yamyaşıl zərif yarpaqların üzərinə incə muncuqlar kimi səpələnmiş şeh damcıları parlayan taxıl zəmisi çəkilmişdi. Üfüqdən doğan günəşin sübh şəfəqləri hər damlanın üzərində göy qurşağı yaratmışdı sanki. Bir az da uzaqlaşıb diqqətlə baxdım, özümdən ixtiyarsız “Bu, əsl möcüzədir! Möhtəşəm!..” dedim.

– Bir sinfoniyalıq tablo! – Bunu da Səlim söylədi.

İkimizin də təkidlə əvəzində pul təklifimizə “dostlara satmıram” dediyi əsərin “ayağı” düşərli oldu. Onu Almaniyadakı dostumuza təqdim edəndə, heyrətdən donub qalmış Daniel, səhərisi gün ad günü şərəfinə təşkil etdiyi ziyafətə dəvət almış dostlarına xüsusi məftunluqla bizim hədiyyəmizi – Nellinin “Şeh” əsərini nümayiş elətdirdi. Qonaqların heyranlıqla tamaşa etdiyi bu mükəmməl sənət əsərini sonralar geniş kabinetinin ən görkəmli yerində asması bizi sevindirməyə bilməzdi. Bax, onda Nellinin istedadının hüdudsuzluğuna bir daha əmin oldum...

Onunla dostlaşmışdım. İşlərimizlə əlaqədar vaxt azlığından gec-gec görüşəndə elə sıxılırdım ki! Telefon karımıza gəlsə də, hər gün birlikdə

olmağımızı istəyirdim. Kədərimi unutmağı bacarmasam da, onunla olanda sakitləşir, çoxdan məni tərk eləmiş rahatlığıma qovuşurdum. Adına xoşbəxtlik dediyim çoxdan məni tərk etmiş, bəlkə də heç vaxt olmamış bu duyğu varlığıma hopduqca ürəyimin dərinliyində məni silkələdən başqa bir hiss də oyadır, qışqıra-qışqıra: "Bu sənin qismətinə yazılmayıb!" deyib içimdə kök salıb cücərirdi. Bu, qorxu idi. Qorxu! Onu da itirmək qorxusu canıma rahatlıq vermirdi. Və bu, getdikcə məni inanılmaz dərəcədə üzürdü...

Körpəliyində ata-anasını təyyarə qəzasında itirib bibisinin himayəsində yaşayan Nelli doğmalarını itirməyin acısını erkən yaşlarında dadmışdı. Çox həssas və kövrək idi. Deyirdi ki, ağlım kəsəndən gözləməyə öyrəncəliyəm, qəza olana qədər də daima özümü atılmış uşaq kimi hiss etmişəm; sahibsiz və tərk edilmiş... Əvvəllər elə bilirdim valideynlərim həmişəki kimi uzaq ekspedisiyaya gedib (onlar geoloq olduqlarından belə düşünürdüm), nə vaxtsa mütləq qayıdacaqlar. Artıq həyatı dərk edirəm, uşaq deyiləm, ancaq onların qayıdacaqları barədə uydurduğum möcüzəli nağıllara hələ də inanıram, hələ də gözlərimi yoldan yığa bilmirəm. Yəqin sən də eləsən... İtki pis şeydi...

Nelli, təyyarə qəzasında həlak olan, tikəsi də ələ gəlməyən, ziyarət edib təsəlli tapacaq məzarı belə olmayan valideynlərinin ölümünə inana bilmir, bəlkə də inanmaq istəmirdi. Mən isə ondan fərqli olaraq Tamarayla Adili öz əllərimlə əbədi mənzilə yola salmışdım deyə, bu fani dünyanın heç bir möcüzəsinə ümidli deyildim...

Həsəd aparılacaq qədər xoş, doğma münasibət qurmuşduq. Hər ikimizin təmiz, saf sevgiyə ehtiyacımız vardı. O bunu hiss edir, bütün varlığı ilə zədələnmiş həyatımı öz mərhəməti, şəfqət və məhəbbətiylə bərpa etməyə çalışırdı. Bunun sevgi olduğuna tam əmin deyildik. İkimiz bir yerdə kinoya, teatra gedəndə, dondurma yeyəndə, şəhər kənarına meşə gəzintisinə çıxanda özümüzü çox rahat hiss edirdik. Gündüzlər vaxtımızı xoş keçirsək də, birgəyaşayış barədə qərar verməyə tələsmirdik. Əslində, Nelli tərəddüd edir, elə bil ikilikdə bağlı qapı arxasında qalmaqdan qorxurdu. Gəzintilərdən sonra onu bir neçə dəfə evimə dəvət edəndə nədənsə "mən hələ hazır deyiləm" deyib təklifimi rədd edirdi. Bəlkə də onu başa düşmək olardı; qafqazlı, özü də dul qalmış kişiylə intim guşəyə çəkilməyə hər qız risk etməzdi. Sənətinə ayırdığı zamanından oğurlayıb mənə sərf etdiyinə peşman olmasa da, hiss edirdim ki, daha çox öz rəng dünyasında qalmağa üstünlük verirdi. Bəlkə də evliliyin (bu barədə fikirləşirdik) onu sənətdən uzaq sala biləcəyinə inanırdı. Mən də onu tələsdirmir, əvvəl-axır bir yerdə olacağımıza şübhə etmirdim. Fikirləşirdim ki, ikimiz də buna hazır olandan sonra, nəinki oxşar yaşantılarımız, oxşar dərdimiz, eyni zamanda, dünyagörüşümüz, birgə maraq və istəklərimizin üst-üstə düşməsi bizi daha da yaxınlaşdıracaq, bəlkə gözləntilərimizdən də gözəl bir ömür sürəcəkdik, əgər onun rəfiqəsi Raya həyatımıza daxil olmasaydı...

Nelli əvvəllər rəfiqəsi barədə söhbət açmazdı. Ümumiyyətlə, ikilikdə olanda ancaq özümüzdən, gələcəyimizdən danışardıq. Ad günü olmasaydı, yəqin ki, heç görüşməyəcəkdik də.

## *RAYA*

Bizim həyatımıza nə səhrada bir göz qırpımında əsl cəhənnəm yaradan qəfil qum fırtınası, nə də okeanın altını üstünə çevirən şiddətli qasırğa kimi gəldi. Onun gəlişi ikimiz üçün də qəfil, səssiz və gözlənilməz oldu.

Şıltaqlığı və çılğınlığı, hə, bir az da eqoistliyi nəzərə alınmasa, heç də yaşıdlarından fərqlənmir, hətta hərəkətləri və üz cizgilərinə uyğun gəlməyən aldadıcı fağır görkəmiylə onlardan seçilirdi. Xarakterlərinə görə aralarında dağ boyda fərqlərə, təzadlara baxmayaraq Nellinin uzun müddət onunla necə dostluq etməsinə təəccüblənmişdim də. “Sən onu yaxından tanısan, fikirlərinin alt-üst olacağına əminəm, Raya heç də göründüyü kimi biri deyil, ilk təəssürata aldanma” deyərək fikrimi dəyişdirməyə çalışsa da, sonradan hər şey, onunla qurduğumuz xəyallar, arzular gözlənilmədən gözümüzün qarşısında məhv olanda, Nelli illər boyu əminliklə ürək qızdırdığı rəfiqəsinin səmimiliyinə yanıldığını dərk edəndə, artıq gec idi.

Bütünlüklə onu qınaya bilməzdim. Bu işdə mənim də az günahım yox idi. Başlanğıcdan məhəl qoymadığım, gözümün ucuyla da baxmadığım o şıltaq, özündənrazı qızla aramızdakı məsafənin birdən-birə necə yaxınlaşdığına səbəblərdən biri, bəlkə də ən əsası, Nellinin həddən ziyadə sentimentallığı idi. Raya onun bu xislətindən öz mənafeyi üçün tam yararlanmışdı. Axı Raya Nellidən fərqi olaraq eqoistcəsinə, “istədiyim hər şey mənim olmalıdır!” şüarı ilə yaşayan, açıq-saçıq, hikkəli, iddialı, hiss və duyğularını biruzə verməkdən çəkinməyən biriydi!

Qısa bir müddətdə onun iti caynağına keçdiyimə əminlik romantik sevgi vurğunluğumdan çox, ehtiras düşkünü olduğuma dəlalət edirdi. Raya mənə yaxınlaşdıqca Nelli elə bil bilərəkdən əks qütbə çəkilir, gözümüzdən yayınır, sakitcə dayanıb olacaqları müşahidə edirdi. Rəfiqəsi bizim həyatımıza daxil olandan sonra nə baş verdiyini başa düşmürdüm. Onun hər fürsətdə rəfiqəsinə güzəştə getməyi məni əsəbiləşdirir, gələcəkdə ikilikdə olmağımıza heç bir ümid yeri saxlamır, aramıza saldığı məqsədli soyuqluğu dözülməz həddə çatdırırdı. Mənimlə görüşməkdən qaçır, hər dəfə bir bəhanə uyduraraq uzaqlaşmağa qərar verirdi. Bu, istər-istəməz Rayanı məmnun edir, əl-qolunu açır, qəlbimi ələ almağa, ürəyimdə Nellinin özü tərk edib boşaltdığı yeri tutmağa, mənə sahib olmağa imkan yaradırdı. Şəhvətpərəst olduğumu duyduqlarından, Rayanın çılğın ehtirası qarşısında tab gətirə bilməyib ona tabe olacağımı hər ikisi yaxşı bilirdi. Mən, məqsədini anlamadan hiss edirdim ki, Nelli bu “oyunda” bilərəkdən qalib olmaqdan çəkinir, rəfiqəsinin yoluna yaşıl işıq salır, mənə sahib olub “özününküləşdirməkdə” ona dolayısı kömək edirdi.

Ad günündən sonra tez-tez, əvvəllər Nelli ilə, sonradan oğrun-oğrun təkcə mənim ofisimə gəlməyə başladı, özü də heç bir səbəb olmadan, elə-belə, hər dəfə bir yalan uydurmaqla. Uydurma bacarığı, fantaziyası geniş olsa da, gözləri hər dəfə onu ələ verirdi və bilmirəm nədənsə bu şirin uydurmalar bəzən məni məmnun da edirdi. Vaxtsız-vədəsiz təşrif buyurmağı işlərimin qaynar vaxtına düşəndə ona diqqət yetirə bilmədiyimdən, incik düşüb getməyinə də məhəl qoymurdum. Mənim üçün onun qalması ya getməsi, küsüb-inciməsi elə əhəmiyyətli olmasa da, sonradan xanımlığına görə üzrxahlıq etməyi də unutmurdum. Deyəsən o, bu jestimi başqa yerə yozurdu. Məni “təsadüfən”, “yolüstü“ yoluxmağında qəbahət görməsəm də, təklikdə görüşməyimizdən, hələ ki aramızda dostluq səddini keçəcək heç nə olmasa da, Nellinin bizi qəfil görə biləcəyindən, şübhələnəcəyindən narahat olurdum. Məqsədini gecdən gec anlasam da, sən demə, narahatlığım əbəs yerə imiş, hisslərimə cavab vermədən aramızdakı məsafəni getdikcə uzaqlaşdırması onun tərəfindən bilərəkdən, görünməz sədd yaratmaq üçün düşünülübmüş. Düzdür, Raya bu sirri dilinə gətirməsə də, onun təhdidindən, hədə-qorxusundan ehtiyat edərək öz sevgisini qurban verdiyini gec də olsa ağzından qaçırmışdı Nelli. Hələ onu

da əlavə etmişdi ki, əgər arada tikan kimi bitib qalsaydı, onu öldürməyə də hazır imiş Raya. Mən bunları biləndə Raya artıq həyatda yox idi. Deme, mənə görə iki rəfiqə arasında ölüm-dirim müharibəsi gedibmiş və mən axmaqcasına gizlincə döyüşən hər iki tərəfin hansının məğlub, hansının qalib olacağını ağlıma gətirmədən, beynimə vuran ehtirasımın əsirində qalıb baş verənlərə məhəl qoymadan gerçəkliklə kortəbii barışmışammış...

Həmən məqamlarda Rayaya qarşı olan duyğularımı gizlətməyə çalışsam da, özümdən ixtiyarsız, yavaş-yavaş bu hisslərin əsiri olmağa başlamışdım. Hiss edirdim ki, Tamaranın həlakından bu yana qadınla olmadım deyə rahatlana, fizioloji tələbatımı ödəyə bilməməyim məndə psixoloji travmalar yaratmışdı. Nelliyə yaxınlaşmağa çalışdıqca bir yandan da onun qəfildən dəyişən müəmmalı mövqeyi hövsələmi daraldırdı. Nə qədər şəhvətpərəst olsam da, hər yetənlə, ələlxüsus, iyrəndiyimdən əxlaqsız qadınlarla yatağa girmək prinsipial olaraq gigiyenik qaydalarıma zidd olduğundan, məni başa düşmək istəməyən Nellinin hərəkətlərinə haqq qazandıra bilmirdim. Səbrim tükənir, nə istədiyimi açıq söyləyə bilmədiyimdən əsəbiləşir, hətta dəli olmaq dərəcəsinə çatırdım. Ofisdə yeri gəldi-gəlmədi özümdən çıxır, haqsız olduğumu bilə-bilə hirsimi kimə gəldi boşaldırdım. Bu vəziyyətimdə Rayanın müəmmalı təşrifləri məni sakitləşdirir, bəzən lap yerinə düşürdü. Nədənsə mənə elə gəlirdi ki, rəfiqəsinin sevgilisiylə gizlincə sevişmək onun ən böyük istəyidi və nə qədər iyrənc olsa da o, bu məqamdan istifadə etməyə can atırsa və ən əsas, birlikdə böyük həzz alacağıqsa, nədən ondan qaçmalıydım? Eləcə düşünərək beynim dumanlanmış, o andaca fikrimdən onunla yatmaq istəyi keçmişdi. Sonradan xəyanət adlansa belə, dəhşətli dərəcədə bütün vücuduma hakim kəsilən, ruhuma hopan bu azğın istək ona daha yaxın olmağıma təkan verir, rahatlığıma səbəb ola biləcəyinə əmin olurdum. Ən maraqlısı o idi ki, Nellidən fərqli olaraq, Raya ağlımdan keçənləri telepat kimi oxuya bilir, fikirlərimə anındaca böyük sevgiylə qarşılıq verirdi. O, ağlımı başımdan alan erotik hərəkətləri, söhbətləri ilə buna şərait və imkan yaradırdı. Əvvəllər də bir neçə dəfə də bu imkandan yararlanmaq ağlımdan keçmişdi, amma ehtiyat etmişdim. Onu bütünlüklə dərk etmək qəliz məsələydi. Əxlaqsızlığa meyilli olmasa da, məni yatağına salmaqdan ötəri əlləşir, bunu açıq-aydın bildirməkdən çəkinmirdi.

O yaz gecəsindən üzü bu yana hər ikimizi üzən içimizdə gəzdirəcəyimiz, sona qədər də biri-birimizə etiraf etməyə cəsarət tapmadığımız peşmançılıq hissinin necə ağır yük olacağını zamanında dərk etməyi bacarmadıq. Bu, xəta deyildi, bu, böyük xəyanət idi. Və gedişatdan şüurlu olaraq etdiyimiz xəyanətlə ikimizin də Nelliyə uduzduğumuzu dərk edəndə iş işdən keçmişdi.

Nellinin yüksək mədəniyyəti bizə qarşı olan qəzəbinə, nifrətinə üstün gəlmişdi. O, bu iyrənc döyüşdə qalib idi. O, ikimizdən də iyrənirdi, amma ikrah hissiylə ağız da büzmədi, səsini belə qaldırmadı, üzülsə də, qəribə idi ki, heç heyifsilənmədi, sanki belə də olmalıymış kimi olanlarla rahatca barışıb bəlkə tənhalığa çəkiləndə özünü lənətləsə belə, kənara çəkilməyə vadar etdi özünü. Onun bu susqunluğuna heyrət etməyə bilmirdim. Axı qadınlar özünə məxsus olan hətta ən dəyərsiz bir əşyanın belə rahatlıqla əlindən çıxmasına imkan verməzlər.

* * *

...Son vaxtlar Nelliylə münasibətlərimizi gizli saxlamağa cəhd edirdik deyə, heç vaxt ictimai yerlərdə qoşa gəzmirdik. Onsuz da tez-tez görüşməyə vaxt

olmurdu. O, daima səfərlərdəydi. Mənzilindən çox vağzallarda, aeroportlarda olurdu. Həm Avropada ən çox satılan, həm də məşhur muzeylərdə ardıcıl olaraq sərgiləri keçirilən tanınmış rəssam olduğundan, görüşümüz də atüstü-ayaqüstü olurdu. Təsadüfən ürəyimizdən romantik şam yeməyi keçəndə də çalışırdıq ki, ya qonşu əyalətə, ya da Moskvaya üz tutaq. Kiçik şəhərlərdə demək olar ki, hamı hamını tanıyır, maraqlanır, adamlar var ki, az qala burunlarını özgə yatağına soxub iyləmək istəyir, öz problemlərini unudaraq şayiə yaymaq üçün yeni bir söz eştmək xatirinə qulaqlarını qonşu divarına dirəyir, təki dedi-qodu üçün "sanballı" əsası olsun.

Axı bir dəfə də olsun onun adını ağzımdan qaçırmamışdım, ağlım kəsəni, deyəsən palatasına da onunla gəlməmişdim. Buna tam əmin idim. Hardan bilirdi bəs, nədən belə pərişanlıq keçirirdi mələyim? Qəfil, havaxtsa ehtiyatsızlıq etdiyimi yadıma saldım. Hə, xəta etmişdim. Bircə dəfə. Deyəsən, o gün hava qaralmışdı. Yüngülcə yağış çisəyirdi... Doğrusu, çəkinir, həm də məni dilə-ağıza düşməkdən qoruyan Nelli maşından düşmək istəmirdi. Bu yağışda bizi kim görüb tanıyacaq? – deyə mən təkid etmişdim. Lənət şeytana, necə ağlıma gəlməyib ki, qızım pəncərənin qənşərində oturub məni gözləyə bilər? Çiskinli hava olduğundan, dünyanı vecimizə almadan, cavan sevgililər kimi bir çətir altında xəstəxananın ikinci korpusunun girişinədək uzanan xiyabandan keçərkən yəqin bizi görübmüş, əlbəttə...

Məncə, kənardan baxan hər kəs necə ata olduğuma həsəd apara bilərdi. Bu, gəlişixoş söz deyil, həqiqətdi. Bəzən öz hərəkətlərimdən özüm də heyrətə gəlirdim. Dərrakəli uşaq olduğundan, canımdan artıq sevdiyimi, həyatımın mənası olduğunu sübut etməyə ehtiyac duymur, "yəqin hər şeyi vaxtı çatanda başa düşər" – deyə fikirləşirdim. Mənə elə gəlirdi ki, bu, kifayət idi. Sən demə, yox. Deyəsən, artıq onu yola gətirmək gücündə deyildim. Yalan danışa bilməzdim, həqiqəti isə etiraf etməyə cəsarətim çatmırdı. Görünür yaşlaşıram. Son vaxtlar qadınlarla dil tapmaq zəif yerim idi... Nə deyim? Necə deyim? Əgər Nelliylə münasibətim onu incidirsə, əlil arabasına məhkum olmuş mələyimin ağrı-acısını çoxaltmaq istəməzdim, özü də ciddi əməliyyat öncəsi... Təcili Nelli ilə danışıb bir çıxış yolu tapmalıydım.

Xəstəliyi olmasaydı, on iki yaşlı qızımla Nelliyə olan hisslərimdən, sevgimizdən rahatlıqla danışa bilərdim. Yəqin o, məni başa düşərdi. Düşməliydi. Əminliyinə şübhəm olmasa da, açıqlamamı qızımın tam sağalacağı günə saxlamışdım.

Həyatımın on iki ilini ona, ancaq ona həsr etdim və zərrəcə peşmançılıq hissi keçirmədim. Min cür bəhanələrlə qayğılarımdan, qəlbimi üzən kədərimdən qaçaraq dostlarım ilə bahalı restoranlarda, eyş-işrət məclislərində həzz almaq üçün vaxtımı öldürmədim. Qırx iki yaşım olsa da, gəncliyimdəki kimi hələ də şux, cəlbedici, sevgi dolu, eyni zamanda, maddi imkanlarımın yetərincə olmağına baxmayaraq, hər zövqdən imtina edib bütün zamanını xəstə qızına xərclədim.

Bəli, çətin idi, ilk illər, lap çətin. Özümü bitməyəcək fırtına haqlamış qayıqçıya, çovğuna düşmüş ovçuya bənzədirdim. Etiraf edim ki, bəzən hətta bu müsibətlərə dözə biləcəyimə şübhələrim o qədər çoxalırdı ki, hər şeyi amansız taleyin umuduna buraxıb uzaqlara, lap uzaqlara qaçmaq istəyim də olub. Onda da qarşımı kəsən günahsız körpənin məsum baxışları olurdu. Aman Allah, elə mənalı və kədərli baxışla həyatımda rastlaşmamışdım! Sanki ürəyimdən keçənləri duyur, indicə durub gedəcəyimi bilirmiş kimi, yazıq-yazıq gözlərimin içinə baxıb "sən də məni tərk etmə!" deyə yalvarırdı. Hərdən də

körpəsinin qoxusunu, heç qığıltısını da duymadan bizi tərk edən Rayanın xəyalı ikimizin arasında dayanardı. Heç bir mənəvi dayağı olmayan tənha kişinin serebral iflic diaqnozlu qız uşağının qulluğunda durmasının necə məşəqqətli olduğunu heç cürə başa sala bilməsəm də, tanrıdan güc, dözüm arzulaya-arzulaya yaşayırdım. İnadcıl olduğumdan, çox ümidli idim. Bilirdim ki, bu dünyada mənim qızım kimi minlərlə, on minlərlə xəstə var və o xəstələrin əksəriyyəti sağalır, normal həyata qayıda bilir. Durmadan tibbi kitablardan, internet resurslarından bu xəstəlik barədə bütün informasiyaları öyrənirdim. Xarici səfərlər, məşhur klinikalarda məsləhətlər, müayinələr, qızımın müalicəsiylə əlaqədar maliyyə problemləriylə üzləşməmək üçün biznesimi daha da genişləndirmək sahəsində yeni layihələrə imza atmaq, iflasa uğramasın deyə, işlərimə tam nəzarət etməkdən ötəri yeni, müasir texnologiyalardan istifadə etməklə günü-gündən çiçəklənən biznesimi uzaqdan idarə etmək qarşımda duran ən vacib məsələ idi. Hələ də düşünürəm ki, eyni vaxtda bu qədər çətin, ağır, dözülməz işin öhdəsindən necə gəlmişəm?..

Nə yaxşı ki, Nelli varmış. Onun, beynəlxalq sərgidə tanış olduğu miniatür rəngkarlıq vurğunu olan alman uşaq cərrahının məsləhəti və təkidi ilə qızımın Almaniyada müayinəsi erkən, indiyə kimi təxirə salınmadan edilən müalicələrin effektiv olduğunu, nəticədə xəstəliyin ağır formaya keçməməsini üzə çıxardı və fasilələrlə müalicəni bir il də davam etdirmək böyük irəliləyişə səbəb oldu. Nəticənin çox uğurlu olacağına əminlik məni sevindirməyə bilməzdi. Etdiyimiz bütün səylərin heç də mənasız olmadığı ürəyimə sakitlik, gözlərimə işıq gətirirdi. Optimist olmağım dadıma çatır, inamımı itirmirdim...

İllər ötdükcə, necə dəyişdiyimi hiss edirdim. Demə, həyat məni ağır sınaqlardan keçirdib bərkitmişdi. Bir vaxtlar yaşıdlarımın çoxu məcrasından çıxmış dəlisov çay kimi azad və sərbəst ikən ixtiyarsız, sadəlövh bir gənc idim, müstəqil qərar çıxartmaq mənim üçün müşkül məsələyə çevrilmişdi. Elə bu sadəlövhlüyümün ucbatından əsgərlik illərində düşdüyüm gülünc bir vəziyyət demək olar ki, gözləmədiyim halda mənim bütün həyatımı dəyişdi. Sanki taleyimlə lotereya oynayırdım və həmişə də bəxtsizliyimdən qismətimə uduşsuz bilet düşürdü...

## *TAMARA*

deyəndə ki, hamilədi, çox qorxmuşdum. Demə, mənə avam, dünyadan bixəbər deyənlər haqlıymış. Axı bircə kərə olmuşdum onunla? Tək bircə kərə! İlk toxunuşdan, birinci təmasdan qadının uşağa qalmağı ağlıma girmirdi.

Xəbər elə gözlənilməz olmuşdu ki, nə edəcəyimi bilmirdim. Əsgərliyi bitirməyimə saylı aylar qaldığı bir zamanda bu xətanın acı nəticəsini göz önünə alıb çıxış yolları arayırdım. Əsəblərim təzə köklənmiş saz simi kimi tarıma çəkilmişdi. Əsgərliyə “ağzından süd iyi gələn” ana uşağı kimi gedib ailəli kişi olaraq dönməyimə anamın, babamın, dost-tanışımın qəzəbli, kin dolu baxışları gözümün önünə gəldikcə canımı qoymağa yer tapmırdım nədənsə. Əlbəttə, dədə-baba qanun və qaydalarına sədaqətli bizimkilərin bu xəbərdən hansı hallara düşəcəkləri qabaqcadan məlum idi. Vəziyyətim ən azından atamın əmisi nəvəsi Tariyelin aqibəti kimi ola bilərdi. Bəlkə ondan da betər. Onda uşaq idim, amma bəzi incəliklər mənə çatmasa da, az-çox ağlım kəsirdi. Tariyel əsgərliyini bitirib onu nələr gözlədiyini göz altına almadan Murmanskdan Yelena adlı qızla Bakıya qayıdanda, anası bir oyun çıxardıbmış ki! Oğlunu bir yana itələyib, qızın qabağını Ərəbzəngi kimi kəsib, uzaqdan gəldiyinə, Bakıda Tariyeldən

savayı kimsəsi olmadığına baxmayaraq, evinin kəndarına ayaq basmağa da imkan verməyib, sonralar şəstlə dediyi kimi “it küçüyü kimi evdən” qovubmuş. “O bu evə ayaq bassa, od vurub evqarışıq özümü yandıraram!” – deyibmiş. Arvadının hikkəsinə, dediyini edəcəyinə əmin olan, belə qalmaqallarda başqulağının sakitliyini qoruyaraq neytral qalmağa üstünlük verən atası qorxusundan oğluna ultimatum verib ki, ya biz, ya da Yelena! Cəmi ikicə il Bakıdan uzaqda olmağıyla tamam dəyişən, doğmalarının qədim adət-ənənələrə bağlı istək və arzularını vecinə almayan Tariyel, belə qarşılanacaqlarını gözləməsə də, valideynlərinin üzünə ağ olmayıb, amma sevdiyi qızın yanında xəcil olduğundan onlardan bərk inciyib, güclə yola gətirdiyi Yelenanı dayısıgilə aparıb, gizlincə Murmanska iki bilet götürüb, iki gündən sonra da qızı yola salmaq adıyla aeroporta gedibmiş. Sonradan Tariyelin qızla qaçdığından xəbər tutan atasını infarkt vurmuş, anası “xalxın oğlu qız qaçırdır, mənimki qıza qoşulub gedir” deyə-deyə od tutub yansa da, neçə dəfə oğluna xəbər göndərtdirib, xahiş-minnət, yalvar-yaxardan sonra umu-küsü nisbətən bitib, amma Tariyel bir daha geri dönməyib. Uşaq olduğumdan hamı kimi həm Tariyeli, həm də oğlu üçün hər gün göz yaşı tökən anasını qınamışdım.

Tariyelin faciəsini düşündükcə onu özümlə Bakıya aparsam, necə fəlakət qopacağını təsəvvürümə gətiririrdim. Bilirdim ki, axırı ürəkaçan olmayacaq. Bəlkə anamı dilə tutub birtəhər yola gətirərdim, – hansı ki buna da ümidli deyildim, – amma babam, babam eşidib bilsə, çətin ki ömrü boyu üzümə baxardı, xasiyyətinə bələd idim. Köhnə kişilərlə bu barədə razılığa gəlmək mümkünsüzdü.

Başıma gələnlərdən sonra, o vaxt tələsik qərar çıxardığıma indi peşman olsam da, bir həftə içimi yeyə-yeyə gəzdiyim xatirimdədi. Nə yediyimi bildim, nə içdiyimi. Nəhayət, “ata olmağa hazır deyiləm, bir xətadı elədik, özümüzü qoruya bilmədik... Görürəm, heç sən də bunu istəmirsən” – deyib başımdan eləməkdənsə, “əsgərliyi bitirim, qayıdım evə, bir-iki ay gözə görsənim..., atamın qəbrinə and olsun, qayıdacam, ailə qurub, adam kimi yaşayarıq”, – dedim. O yaşım deyildi ki, uşaq barədə düşünəm. Başı havalı əsgər idim; iki ilimi tezcə başa vurub evimizə qayıtmaqdan özgə heç nə başıma girməsə də, bu qələti eləmişdim, özü də nə vaxt? Tərxis olmağıma dörd ay qalmış...

Ehtirasdan aldığımız bir gecəlik həzzin sonradan o dərəcədə çaşqınlıq, qorxu yaradacağını ağlıma belə gətirməzdim. Düzdür, əvvəllər Tamara ilə üç-dörd dəfə xəlvəti görüşmüşdük, amma o gecəki kimi yaxınlığımız olmamışdı.

“Deyəsən, əməllicə zibilə düşmüşəm!” – deyə fikirləşirdim... Elə bilirdim hərbi hissədə bunu duysalar, məni həbs edəcəklər... Axmağam vallah!.. Gecə hissəni icazəsiz tərk etməyim cəhənnəm, məni əsas qorxudan komandirim, – Tamaranın atası, – gələcək uşağımızın babasıydı. Çox zəhmli kişiydi, qulağına çatsaydı, tutdurmaq nədi, bəlkə də təpəmə özü güllə çaxardı!

"Niyə"sini bilməsəm də, yeganə təsəllim o idi ki, cəmi üç dəfə görüşsək də, deyəsən, Tamara məni həqiqətən sevirdi. Sevməsəydi, bircə kəlməsi bəs idi məni “dizbat”a basdırsın. Aborta razılıq verməsi də bu fəlakətdən xilasım naminə idi. Bəlkə uşağı aldırmağa razılıq verməsinə başqa səbəbləri vardı? Qorxu, inamsızlıq, ikrah hissi?.. Bax, bunu bilmirdim.

Yəqin ki, analıq hissi lazımınca formalaşmamışdı, bəlkə ana olmağa hazır deyildi, ya da qeyri-rusdan dünyaya gətirəcəyi uşağının gələcək taleyini düşünərək tərəddüd edir, qayıtmasam, ömrü boyu atasız böyüdəcəyi günahsız körpəyə və mənə nifrət etməkdənsə, risk edib bıçaq altına girməyə üstünlük verirdi? – Dəqiq deyə bilmərəm, amma məncə seçimə qalsaydı, yəqin ki, nor-

mal qadın bətnində gəzdirdiyi uşağı seçərdi, atasının kimliyindən, onun verdiyi qərarından asılı olmayaraq... İkimiz də uşaqlıq edib nəticəsini dərk etmədən ilk cinayətimizə imza atmağa hazırlaşırdıq. Hiss edirdim ki, o, “abortdan sonra sonsuz da qala bilərəm” dilemmasını göz önünə almadan, bütün ehtimallara çalınçarpaz xətt çəkərək məni “dizbat”dan, bütün qorxu-hürkülərimdən, zamanı yetişməmiş atalıq məsuliyyətimdən xilas etmək istəmişdi.

* * *

– İki aya qayıdacaqsansa... bəlkə gözləyək? – demişdi Tamara. – Axı uşaqlar sevgidən doğulur? Tanrı bizi bağışlamaz... Narahat olma, atamı yola gətirəcəm, təki... sən dönəsən. Söz versən... Nə deyirsən, razı...

– Yox! – Bu da mənim qəfil, gözlənilməz və qəti qərarım kimi səslənsə də, Tamara hələ də məndən daha məsuliyyətli, daha tutarlı cavab gözləyirdi. Söhbət gələcək körpəmizin həyatda qalıb-qalmamasından gedirdi axı. Qayıdacağıma əmin olmadığımdan, məsələni necə həll edəcəyimə çətinlik çəkirdim. Əslində səhlənkarcasına, gözüm görə-görə əlimdən çıxacaq hələ dadını çıxartmadığım subaylığı əvəz edəcək ailə məsuliyyətindən qaçmağa səy göstərirdim. – Başa düş, iki ayda çox şey dəyişə bilər axı?

Onu sakitləşdirmək, özümə inandırmaq istəyim, yəqin ki, səmimi görünmür, fikirlərimi aydın tərzdə ifadə edə bilməmək cəhdlərim Tamaranı şübhəyə salırdı. Bu dünyanın adamıydıq, heç birimiz Marsdan gəlməmişdik. Buna bənzər o qədər hadisələr olub ki?! Adına sevgi deyib min bir oyundan çıxan xarici tələbələrin, tikintidə işləyən “sezonşik” miqrantların, bazarlara burada yetişməyən nar, üzüm, xurma gətirib satıb bir-iki aya evlərinə dönən qafqazlıların elə bu şəhərdə neçə-neçə atasız övladı yaşayırdı. Bundan Tamara da bixəbər deyildi. Burada dil-dil ötmək, “bağ belə, bostan belə” demək iyirmi qəpiklik dondurma alıb istədiyin sadəlövh qızı öpmək qədər asandı. Tərəddüdlə çapalayırdım. Mənə elə gəlirdi ki, dabanıma tüpürərək buralardan uzaqlaşıb Vətənə qayıdandan sonra əclaflıq edib sözümü tutmaya da bilərəm.

“Çox şey dəyişə bilər” – qəfil dilimə gəlsə də, bilirdim ki, təsadüfdən kimsə sığortalanmayıb. Bu, bəraət üçün ən yüngül və asan çıxış yolu idi. Bir dəqiqədən sonra nə baş verəcəyinə zərrəcə gümanı, inamı olmayan gəncin dilinə başqa hansı fikir gələ bilərdi? Hər şey ola bilər... Birdən qoymadılar, ya qayıtmaq imkanım olmadı, onda necə? Bəlkə alnıma təyyarə qəzasında həlak olmaq yazılıb? Hərçənd ki, tərxis olunanda biletimi qatara versələr də, evə tez çatım deyə cüzi qiymət fərqini ödəyib təyyarəylə də uça bilərdim, amma bu qorxulu fikirlə qəti qərara gəlmişdim ki, salamatı qatarla getməkdi. Mən torpaq adamıyam, səma mənlik deyildi.

Elə bil ürəyimi oxuyurdu. Əsəbi və incik dedi:

– Yəqin, qayıtmaq fikrin də ...

– Dəyişməz! – Nə deyəcəyini bildiyimdən, tez sözünü kəsdim. – Atamın qəbrinə and olsun, demək istəyirdim ki, yəni... yəni iki ayda çox şey olar, məsələn... məsələn, mən, ölə bilərəm... Həyatdı daa... İstəyirsən mən ölüm? İstəyirsən?

Heç nə demədi. Atamın qəbrinə tez-tez and içməyim özüm kimi onu da bezdirmişdi. “Yalançılar çox and içər” deməsə də, dırnaqlarını didişdirdi, sonra gözlərimə baxıb qərar çıxaran hakim kimi qətiyyətlə:

– Mənim üçün ağır olsa da, – dedi, – bəlkə də, həyatımın ilk və ən ağır cinayətinə qol qoyacam, çünki yanımda olmasan, o uşağı dünyaya gətirə

bilmərəm. Üç ay gözləyə, gizlədə bilərəm... Düz üç ay!.. Amma sözünü tutmasan... sözündən qaçsan, yerin altından da olsa, səni tapdıracağam!.. Aldatma məni.

Bu, ultimatum kimi səslənsə də, xeyli rahat idim. Beynimi “məni Bakıda tapmaq samanlıqda iynə axtarmaq kimi bir şeydi” fikriylə sakitləşdirsəm də, hər günün bir hökmü var, deyə qarşıda məni nə gözlədiyini ağlıma belə gətirmədən Tamara ilə razılaşmaqdan savayı yolum qalmamışdı.

Xidmətimi başa vurandan sonra düşünüb-daşınmaq üçün Tamaranın da, mənim də ehtiyatda iki-üç ayımız olacaqdı. İki-üç aya kim ölə, kim qala...

Bu öhdəliyin yükünü hər gün təsəvvürümdə canlandıra-canlandıra, nəhayət ki, hərbi xidmətimi başa vurub, havasına Xəzərin duzu hopmuş, qırlı damları, qəmbər döşənmiş əyri küçələri, mixək, zəfəran qoxulu, meynəli həyətləri göz oxşayan doğma Bakıya qayıtdım – bir şirin xatirə kimi yaddaşımda qalan olub-keçənləri mənə tezliklə unutdura biləcək şəhərə...

## *YAD KİŞİ*

...Bilmirəm nədən, hələ vağzalda o naməlum kişini görəndə dalağım sancmışdı. “Kim ola?” Vaqondan düşərkən anam məni görcək qollarını açaraq qənşərimə cumanda, primitiv çekist filmlərindəki kimi onu müəmmalı baxışlarıyla izləyən, arxasınca ehtiyatla, asta-asta addımlayan yekəpər kişini tanımadım. Çiynimdəki idman çantamı yerə atıb anama sarıldım. Unuda bilmədiyim şirin qoxusunu duyduqca ondan aralanmaq istəmirdim. Yanımızdan ötüb keçənlər həsəd dolu xoş niyyətlə bizə baxırdılar. Özümü elə xoşbəxt hiss edirdim ki!

Nədənsə narahat görsəndiyini duydum. Zəndim məni aldatmırdı. Ürkək baxışlarını çalışdıqca gözümdən yayındırırdı. O, üzümdən, alnımdan, saçlarımdan öpür, nəsə deyir, əsgər formamı sığallayıb ağlamsınır, kövrəlirdi, – nəhayət ki, əsgərlikdən sağ-salamat qayıdan oğlunu qarşılayan başqa analar kimi.

Paravozun bacasından ətrafa yayılan daş kömürün acı tüstüsü mazut qoxusuna qarışıb gecənin havasını korlayır, ciyər dolusu nəfəs almağı imkansız edirdi. Perron boyu yayılan, yarırus, yarıazərbaycanca danışan diktorun reproduktordan ətrafa yayılan anlaşılmaz cingiltili səsi, ikinci platformaya yaxınlaşan qatarın fiti, yük arabalarının, təkərli çemodanların taqqıltısı, sərnişinlərin, qonaq qarşılayanların hay-küyü bir-birinə qarışaraq qulaqlarımda uğuldayır, heç nə eşitmirdim. Yorğun gözlərim isə zəif işığın altında sifəti aydın görünməyən o naməlum bədheybət kişiyə zillənmişdi. İri, ətli burnu çətir kimi bığının üstünü örtən yoğunboyun kim idi görən? Bu sifəti, elə də çox olmayan yaxın-uzaq qohumlardan hansınasa oxşatmağa çalışırdım. Oxşada bilmirdim. “Qohum olmayıb kim olacaqdı ki? Yəqin gecə vaxtı arvadı vağzala tək buraxmaq istəməyib. Qohumdusa, bəs niyə tanıya bilmirəm onu?.. Birdə ki, qohum olsaydı, yaxınlaşıb görüşərdi, hal-əhval tutardı axı?.. Bəlkə, taksi sürücüsüdü?”

Çantamı götürüb çiynimə atdım. Gözümü kişidən çəkmədiyimi görən anam qoluma girdi, boynunu uzadıb yanağımdan öpdü, ürkək baxışlarını sual dolu gözlərimdən yayındırmağa çalışaraq, “iki ildi görüşmürük, eh, deyiləsi, danışılası o qədər sözümüz var ki... Evə gedək, ana-bala oturub rahatca dərdləşərik” deyib dayanacağa tərəf üz tutduq.

İndi bizdən qabaqda iti-iti addımlayaraq dayanacağa çatıb bizi gözləyən, köhnə tanışlar kimi “xoşgəldin” eləyən həmən kişinin rayon seriyalı “07”-sinə minəndə dalağım yenidən sancdı. Bu dəfə daha bərk. Rayon maşınıyla Bakıda

taksavatlıq eləmək? Soruşmağa da çəkinirəm. Yox, demək, yanılıram, taksi sürücüsü deyil. Babamdan başqa rayonda olanımız yox idi axı. Kimdi bu? Beynim dumanlı, qatmaqarışıq fikirlərlə, suallarla əlləşdiyindən yol boyu danışan anamın kəlməsi də qulağıma çatmırdı. Ürəyimdə ilişib qalmış axtardığım sualların da cavabı daş olub dərin quyuya düşmüşdü, qaldırmağa taqətim yox idi. Bir yandan da güzgüdən gözlərini sifətimə zilləmiş naməlum kişinin qızarmış, bic baxışları sinirlərimi oynadırdı.

Gecə saat ikinin yarısında evə çatdıq. Sakitləşə bilmirdim. Çantamı götürüb maşından düşə-düşə kişiylə sağollaşmaq istəyəndə, o, gülümsədi, mənə cavab vermədən, anama: “Siz qalxın, rahatca dərdləşin, mən də maşını qaraja qoyub, qayıdıram”, – dedi. “Siz haa!.. intelligent!.. Hara qayıdır bu, bizə?” Gecəni diksindirib uzaqlaşan maşının səsi kəsilhakəsildə acıqla soruşdum:

– O nə deyirdi, bəlkə... başa salasan? Kimdi axı bu? – Təəccüblə baxmağından bildim: sualı əlbəttə gözləmirdi, elə bil beş-on il əvvəlki qanmaz ana uşağıydım, heç böyüməmişdim onun gözündə. “Aaaa... Qonşumuzdu da, tanımadın? Sən əsgərliyə getməmişdən bir az əvvəl köçmüşdülər ki?! Yəqin unutmusan...” Elə istəyirdim buna bənzər nəsə deyib məni sakitləşdirsin. Təzə qonşu, lap atamın köhnə dostlarından, tanımadığım uzaq qohum olsun təki, amma beynimdə cücərmiş əcaib şübhə toxumu boy atmamış qurusun, izi-tozu da qalmasın.

Özünü itirmişdi. Susurdu. Başını yerə dikib durmuşdu. Hiss edirdim ki, o, nə deyəcəyini bilmədiyindən cavabdan yayınır, pörtmüş sifətini, hisslərini biruzə verən gözlərini gizlətmək istəyir, amma alınmır. Qəfil baxışlarımız toqquşdu; arvadın sifətində irili-xırdalı nə qədər əzələ vardısa, hamısı dərisinin altında atılıb-düşürdü... O susduqca, deyəsən, yavaş-yavaş vəziyyətin nə yerdə olduğunu dərk eləməyə başlasam da, hələ də tərəddüd içindəydim. Ağlıma gələn fikir düz ola bilərdimi? Karıxıb qalmışdım. Doqquzmərtəbəli bina az qala üstümə gəlirdi. Giriş qapısından çətinliklə keçdim. Boğulur, havam çatışmırdı. Liftin qapısına yaxınlaşsam da, hiss edirdim ki, minə bilməyəcəm. “Onsuz da işləmir” – anam dedi. Səsi titrəyirdi. Birnəfəsə, iki-iki qalxıb düşdüyüm pillələnləri adlamaq elə uzun çəkdi ki, mənzilimizin qapısına çatanacan atalı-atasız ömrüm aybaay, günbəgün, saatbasaat göz önündən gəlib keçdi və mən qapıdan içəri girəndə o illərin acılı-şirinli xatirələrinin köhnə divar kağızı kimi qoparılıb atıldığına şahid olacağımı başa düşdüm. Zəndimdə yanılmamışdım: otaqların heç birində atamı andıran nəsə qalmamışdı, evdən yad kişi iyi gəlirdi...

Evə girən kimi “Xoş gəlmisən evinə” dedi, çantamı əlimdən alıb dolabın üstünə qoydu. Gördüklərimə heyrət etdiyimi duymuşdu. Ağzımı açıb söz deməyimə imkan verməyəcəkdi. Süni bir canfəşanlıqla çalışırdı ki, fikrimi yayındırsın. Hamama girib suyu açdı, “pitiminutkanı” yandırıb üzümə baxmadan dedi: “Gecələr su yaxşı gəlir, gündüz kəsiləcək, gir yuyun, rahatlan... Utanıb-eləmə, çağırarsan, gəlib kürəyini sürtərəm, iki ildi belinə kisə dəymir... Arvadlar danışır ki, guya rejimə düşməkdən əsgərlər kökəlir... Baxıram, sən heç dəyişməmisən ki?.. Hə, dəsmalın, paltarların siyirtmədədi, yəqin əyninə gələr, olmasa, birtəhər geyin, sabah gedib əyin-baş alarıq... Başuva dönüm, tələsmə, rahat-rahat çim... Mən də süfrə hazırlayım... Sevdiyin yarpaq dolması bişirmişəm... qatıq, təndir çörəyi... gör nə vaxtdan yemirsən... Hamamdan çıx, oturaq...” deyib mətbəxə keçdi. Sanki düşünüb-daşınmaq, sualıma cavab hazırlamaq üçün vaxt udurdu. Mən bunu duymuşdum.

Səsinin ahəngi pozulmuşdu. Mətbəxdə olsa da onun həyəcandan titrədiyini hiss edirdim. Özümü sakitləşdirməkdən çox fikirləşmək, vaxtı bir az da uzat-

maqdan ötrü hamama girdim. Əlbəttə, kürəyimi kisələməyə çağırmadım, heç onun da yadına düşmədi deyəsən, yoxsa hamam qapısını cəftələmədiyimi bilsə də, adətən, qapını tıqqıldadardı.

Yuyunub qurulandım, əsgərlikdən qabaq aldığım köynək də, şalvar da əynimə kip oturdu. Anam hiss etməsə də, deyəsən, arvadlar düz deyib, iki ildə mən də bir balaca ətə-qana gəlmişəmmiş.

Hamamdan çıxanda gecədən xeyli keçmişdi. Sakitləşə bilmirdim. Təkid eləsə də, ürəyim nə çay, nə yemək istəyirdi. Qənşərimə qoyduğu çay çoxdan soyumuşdu. Gözləyirdim. Hər şeyi onun dilindən eşitməliydim. O da elə bil qəsdimə durmuşdu, dinib- danışmırdı. Dillənməsəydi, əsəblərimi cilovlaya bilməyəcəkdim.

Yaxşı ki, susmağı çox çəkmədi. Elə bil neçə illərdi əzbərlədiyi sözləri ipə düzmüşdü:

– Görürəm, maşallah, yekəlmisən, day uşaq deyilsən, vəziyyəti başa düşmüsən... Belə... Mərhəmət gözləmirəm. Bu da mənim taleyimdi... Mən bədbəxt... nə edəydim?.. Məktubda yaza bilmirdim, qərib yerdəydin, dedim düz başa düşməzsən, pis olarsan, rəhmətlik atan kimi tərsin birisən axı, qayıtmazdın birdən. Qayıtmasaydın, özümü bağışlamazdım, ömrüm boyu lənətləyərdim özümü... Bilirəm, qınayacaqsan məni. Mələk ola bilmədim. Bacarmadım... Qına... İstəyirsən lap öldür. Bəlkə də haqqın var... Ancaq bil ki, nə atanın adına xələl gətirəcək, nə sənin başını yerə soxacaq iş tutmamışam. İnanmaq istəməsən də, bu, belədi... Uzun illər dörd divar arasında sıxılırdım, boğulurdum. Mənim də insan kimi yaşamaq haqqım var... Var, ya yox?.. Elə nifrətlə baxma mənə... İstədiyi kimi yamaq ancaq kişilərə aiddi məgər?.. Uşaq deyilsən artıq, məni başa düşərsən, qınasan da... heç nə dəyişən deyil, olan olub, artıq gecdi... Biz... biz, çoxdan bir yerdəyik...

“Çoxdan?.. Yəni, nə vaxtdan? Bir ilmi? Beş ilmi?.. Bəlkə elə atam sağ ikən?.. Yox, yox-yox-yox!.. Bu mümkün deyildi!.. İlahi, ağlımı əlimdən alma... Bu, doğrudanmı mənim anamdı?!”

Qəribəsi oydu ki, beynimin içində süd qazanı kimi aşıb-daşan bu sualları ona verə bilmirdim. Elə bil dilimi udmuşdum, səsim batmışdı. Danışdıqca yazıqlıq, ümidsizlik yağan gözlərini gizlətməyə çalışırdı. Şübhələrə qarışmış gerçəkliklər göz qabağında vərəq-vərəq açılsa da, nə edəcəyimi bilmirdim. Sanki çiynimdə ağacdələn oturub dayanmadan gicgahımı döyəcləyirdi. Keyləşib, fağır, sadəlövh uşaq kimi onun nağıllarına qulaq verirdim. O danışdıqca gah ona acıyır, gah qəzəblənir, gah da hayqırıb üstünə getmək istəyirdim. Dediklərinə, daha doğrusu, baş verənlərə təmkinlə hansı reaksiya verəcəyimi gözləyirdi. Baxışlarımız toqquşanda yazıq görkəmi məni sarsıtdı. O, edam öncəsi peşman olub rəhm diləyən bir cani kimi gözlərimə baxırdı. Yəqin əmin idi ki, mən nə ədalətsiz hakim, nə də daşürəkli cəllad ola bilməzdim; nifrət və qəzəbim nə qədər güclü olsaydı da, bilirdi ki, mənə qarşı olan sevgisini, bəzən hətta əndazədən çıxan qayğı və nəvazişlərini yada salıb ona qəsd etmək nədi, hətta təsadüfən, ixtiyarsız olaraq əl qaldırmaq üçün də zərrəcə əsas tapa bilməyəcəyimdən, onsuz da son anda qəzəbimi soyutmaq üçün silahı özümə sarı tuşlayacaqdım.

Başımda quduz bir uğultu vardı. Sinəmdə üsyankar ürək çırpınırdı... Göz yaşlarım isə buz parçasına dönüb kirpiklərimdə ilişib qalmışdı...

Hələ də üyüdüb-tökür, hey onu tərifləyir, bu neçə illərdə ona arxa, dayaq, nə bilim nə zibil olub, deyirdi. Özünə haqq qazandırmaqla onun yaxşı, qayğıkeş insan olduğunu, atam həlak olandan sonra boynumuzda qalan

borcların ödənilməsinə təmənnasız yardım etdiyini vurğulayıb məni dilə tutur, yola gətirmək istəyir, daha doğrusu, bu izdivaclarda mən günahkaram kimi dolayısıyla dilimi gödəltməyə çalışırdı. Dəhşət! Qarşımdakı doğma anam olduğuna inana bilmirdim. İnanmaq istəmirdim!..

Gəlməmişdən, Tamaradan ayrılanda verdiyim sözə xilaf çıxacağıma əmin idim. Mənə bənzəməyən tək-tük adam olar. Bilirdim ki, xidməti borcumu ödəyib evimizə, məhləyə ayaq basandan sonra, arada, yəqin ki, əsgərlikdə olanları xoş xatirə kimi yada salar, adətən əsgərlikdən qayıdanların çoxu kimi ora-burasına bər-bəzək vuraraq sevgi macəralarımdan ağız dolusu danışar, bundan xoşallanıb da zaman-zaman unudaram, vəssalam! Lakin qayıdışdan aldığım ilk təəssürat əksini diqtə edirdi. Onda anladım ki, mən labirintə düşmüş səbirsiz, səriştəsiz yeniyetmədən çox, iki qaya arasında hansı səmtə addım atdığının fərqində olmadan yeriyən kor kəndirbaz kimiyəm. Bəlkə vaxt itirmədən geriyə qayıtmaq, Tamaranı əl qoyacağı cinayətdən çəkindirmək, çıxardığımız səhv qərarı pozmaq daha düzgün olmazdımı? Bunu etsəm, həyatım boyu bir körpə qatili olduğuma görə vicdan əzabı da çəkmərəm. Cavab tapa bilmədiyim sualların əlində aciz qalmışdım. Ancaq baş verənlər ağlıma sığışdıra bilmədiyim hadisələrin ağır nəticələrə aparıb çıxarmasını gözləmədən son qərarı vermək gərək idi. Hələ ki, gec deyildi.

O kişi, – guya məqsədi iki il görüşməyən ana-balanın dərdləşməyinə imkan yaratmaq imiş, – evə səhərə yaxın qayıtdı. Onu yenidən görəndə başıma elə küt ağrı doldu ki! Qapının ağzındaca səssiz dayanıb maraqla anama baxır, baxışlarıyla: “Noldu, danışa bildin?” – soruşurdu. İndi yadımda deyil, söhbətimiz nədən başlayıb, harada qurtarmışdı, amma o, otağa daxil olanda, anam sanki bilərəkdən, ona da eşitdirirmiş kimi, təkrar-təkrar: – “Atanın bütün borclarını qəpiyinə kimi o ödədi, yoxsa biz batardıq!” – deməsiylə özü bilmədən, bəlkə də bilərəkdən mənə əzab verirdi. Borclarını qaytarıbsa, deməli, çoxdan münasibətdəymişlər! Bu, iki ilin, beş ilin haqq-hesabına bənzəmirdi... Deməli, mən burada olanda da?! Lənətə gələsiniz! Məhəllə adamları, sinif yoldaşlarım, qonum-qonşu... hamı bilib, duyuq düşübsə... Amma yox, yoox... Elə olsaydı, ucundan-qulağından mənə də çatardı. Deməli, gizlincə, kənarda görüşüblər, ehtiyatlı tərpəniblər... Sizin var-yoxunuzu!..

“Atanın...” Sanki yazıq atam borc götürdüyü pulları ona yox, kənarda saxladığı ailəsinə xərcləyibmiş. Ağlım kəsəni, kirayələrdə qalmaqdan bezmişdin. Firavan, rahat yaşamağımız üçün borca girib sənə ev almışdı axı?! Borcunun bir hissəsini qaytarmışdı da. Torpağın üzü kimi bəzi adamların ürəyi də soyuq olurmuş. Onu nə tez unutdun axı? Belə çıxır bu idbar kişi təmənnasız deyilmiş, sənin sadəlövhlüyündən istifadə edib arın-arxayın evimizə soxulmağı heç də sevgidən, qayğıdan deyilmiş, mənə minnət qoymaq lazım deyil. Guya atam dənizdə batmasaydı, borcunu ödəməyəcək, kimlərinsə qarşısında başıaşağı, diligödək qalacaqmış?! O, heç vaxt ailəsini çıxılmaz vəziyyətə düşməsini istəməzdi. Heç vaxt!..

“Atanın borclarını...”

“İstəyirsən öldür...”

“Biz çoxdan bir yerdəyik...”

“Başa düş...”

Qulaqlarımda uğuldayan onun sözləri həm də sinəmi güllə kimi dəlib keçirdi.

# QAÇIŞ

İkicə həftəni güclə dözə bildim bu səssizliyə. Hər gün onun gözündən yayınmaq, yataq otağımdan üsulluca çıxıb getmək istəyim baş tutmurdu. Bilirdim ki, babamın pensiyası dava-dərmanına gücnən çatırdı, kişiyə yük olmaq istəmirdim, yoxsa birdəfəlik baş alıb gedərdim kəndə, – can onun, cəhənnəm tanrının, – qoy necə yaşayır, yaşasın. Bu bədduanı dilimə gətirməsəm də, belə düşünür, göynəyə-göynəyə özümə əzab verib yaşayırdım. Həqiqətdə isə ona acıyır, yazığım gəlirdi.

İş-zad olsaydı, başqa məsələ, başım qarışardı...

Bir gün qəti qərara gəldim ki, çıxıb gedim. Hara gəldi, lap cəhənnəmə, təki onları görüb ürəyim bulanmasın. Məhəllə cavanlarının arasına çıxa bilmirdim. Hər dəfə kiminləsə rastlaşanda ləngimədən tez uzaqlaşmaq üçün min cürə bəhanə uydururdum. Əslində, heç nə demirdilər, deməyə cürətləri çatmazdı. Hə, nə olsun? Gözlərində yazılanları maymaq da oxuyardı. Gözükölgəli olmaq istəmirdim. Birdə ki, hər dedi-qodunu, söz-söhbəti qol gücü ilə yatırtmaq olmur. Nə dərəcədə haqlıydım, ya haqsız, anlamaqda aciz idim. Axx, qabaqcadan bilsəydim, məktubla xəbərdar etsəydi, heç olmazsa ucundan-qulağından eşitdirsəydi, əsgərlikdən qayıtmazdım, qalardım qəriblikdə, təki bu rüsvayçılığa şahid olmayaydım. Canfəşanlıqla yazdığı “şanlı məktublarında” bircə kəlmə bu iyrənc izdivacına işarə vursaydı... O, bunu xoşbəxtlik sanırsa sansın, mən niyə içimi yeyə-yeyə ömür sürməliydim axı?! Belə axmaq vəziyyətə düşəcəyimi zərrəcə düşünmədən yaşına yaraşmayan addım atmağına nə ad verə bilərdim?

Uşaqlardan Əjdər, Mübariz, bir də Natiq ara-sıra məktub yazırdı. Həmişə də məhəllədə, şəhərdə baş verən yeniliklərdən, oxuduqları institut həyatından, gəzdikləri qızlardan yazırdılar. Mübarizlə Natiqi deyə bilmərəm, amma Əjdər qırmızının, abırsızın biridi, qulağı nəsə çalsaydı, burnuna “iy” dəysəydi, dayanan deyil, dostluğa-filana baxmazdı, yazardı. Deməli, bilmirmiş. “Çox ehtiyatlıymışlar”.

Komandirim dirənmişdi ki, gəl, sənədlərini milis məktəbinə göndərim, oxu, qal burda, gələcəyini təmin elə. Əvvəl elə başa düşmüşdüm bəlkə Tamara ağzından nəsə qaçırdıb, münasibətimizdən, uşaq məsələsindən də xəbəri var, məni ələ almaq fikrindədi, yoxsa belə canıyananlıq eləməzdi. Tamaradan soruşanda, dedi ki, narahat olma, heç nə bilmir, sadəcə, atam səni çox istəyir, yaxşı əsgər kimi qiymətləndirir, ondandı... Axmağam vallah, qulaq asmadım. Cavabım da bu oldu ki, “Yox, neçə vaxtdı yolumu gözləyən anamı tək qoya bilmərəm, bizdə belə şeylərə birtəhər baxırlar e, Allah bilir yazıq iki ildi nələr çəkir, məndən özgə kimi var, qayıtmalıyam...” Gözləyirmiş. Sən demə, bu kişi ağlını başından necə alıbmışsa, mən də yadından çıxmışam, yoxsa iki ildə heç olmasa bircə səfər “Əsgər balam bayram xuruşlarından tamarzı qalmasın” deyib elə də xərc aparmayan bir bağlama, kiçik bayram sovqatı göndərə bilərdi axı? Yaxşı ki, məktub yazmağa imkan tapırmış...

Öz evimdə adam kimi yaşaya bilmirdim. Sanki ayağımın altında döşəmə çökür, divarlar üstümə yeriyir, tavan başıma uçurdu. Yalandan işə düzəldiyimi demişdim. Heç soruşmurdu nə işidi. Metro açılmamış, yuxudan durur, hamama da girmirdim ki, suyun şırıltısını eşidər. Neçə gün idi əl-üzümü evimizin tinindəki bulaqda yuyurdum onsuz da... Qaçmaq, sakitcə, oğrun-oğrun aradan çıxmaq deyərdim buna. Etirazımı başqa formada bildirməyi

bacarmırdım. Yenə alınmırdı ki, alınmırdı; elə bil sinəmi yarıb ürəyimin içinə girmişdi, nə fikirləşdiyimi anidən duyurdu.

Qapının ağzında dayanır, əlində paket, yəqin içində də axşamdan mənim üçün hazırladığı nahar. Bəxtəvər başıma, qayğıma qalırmış!.. Neçə dəfə istəmişəm götürməyəm, bağlamanı geri qaytaram, bacarmamışam. Elədiklərinə rəğmən yenə də acıyırdım, yazığım gəlirdi ona. “Hər şeyi ürəyinə salır, bunu da özünə dərd edəcək” – fikirləşirdim. Yalandan gülümsəməyinə, özünü bəxtəvərlər bəxtəvəri kimi göstərməyinə baxma, kor da görərdi ki, bədbəxtin yekəsidi. Lap yekəsi!.. Gözlərində yalvarış, üzündə nigarançılıq, bəlkə də peşmançılıq... Hə, ən çox da peşmançılıq... Nə bilim, bəlkə mənə elə gəlir ki, o, xoşbəxt deyil? Bəlkə elə qadın xoşbəxtliyi bu cür olmalıdı?..

Heç vaxt maraqlı gəlməyib paketin içinə baxam. Baxsaydım, bilərdim axşam nə bişirib yeyiblər, dadı necədi, mənim üçün nə qədər ayırıb qoyub...

– Fasilədə yeyərsən, ana qurban, – gözlərimə baxmadan, səsi titrəyə-titrəyə paketi mənə uzadıb, pıçıltıyla deyirdi. – Üzmə özünü, noolar... qurbanın olum... Bu qədər zalım olma, insafın olsun, axı mən də... “...insanam... əzab çəkirəm... yazığam... bədbəxtin yekəsiyəm...” – demək istəyir bəlkə, amma demir, deyə bilmir. Ürəyindən gələnlər dilinə çatmır...

Guya heç eşitmirdim. Getdikcə qəddarlaşırdım. Dilucu “sağ ol” deyib paketi könülsüz alır, tuflilərimi geyinib cəld çıxırdım, təki hönkürməyini görməyim. Bilirdim ki, çıxan kimi gözünün yaşı ovucunda olacaq.

“Üzmə özünü...”

Bəlkə də “qınama məni, gün gələr, anlayarsan” kimi şablon kitab sözləri demək istəyir... Amma onu da deməyə cəsarəti çatmır. Bilir ki, elə bunu gözləyirəm... Yaxşıca cavabını verəcəyimdən, hər şeyə tüpürüb gedəcəyimdən qorxur. Onsuz da bir girəvə gəzirdim...

Dayanacaq evimizin on metrliyində olsa da, qonşu binaların arasından keçib, iki-üç tin uzaqlaşıb gözdən itirdim. Əmin idim, arxaya baxmasam da, yüz faiz, eyvandan məni izləyəcək, ta qələbəlikdə əriyib yox olanacan... Əvvəllər, elə ki mərkəzi küçəyə çıxırdım, mağazanın yanındakı zibil qutusuna tullayardım paketi. Evə qayıdanda başımı xarab eləyirdi: “Bankanı niyə gətirmədin?.. Paket də təptəzəydi. Yedin, qurban olum, yumaq gərək deyil ki, qoy paketə, gətir, özüm yuyacam daa... Yadından çıxıbsa, sabah gətirərsən”, – deyir, cavab verməyəndə əlacsızlıqdan başını yelləyir, incimiş kimi gülümsəyirdi. “Uşaqsan hələ, heç nəyin qədrini bilmirsən”. – Bunu, otağıma girib qapını örtəndən sonra arxamca söyləyir, mən də bankayla cındır paketə verilən dəyərə heyrət edə-edə yerimə sərələnirdim.

Mənasız həyatımın bir ayı beləcə keçdi. Bir gün qəti şəkildə: “Yemək-zad qoyma, zavod işçilərinə yaxşı nahar verir“,– dedim. Yenə qızarmadan yalan danışdım. Sözsüz ki, inandı. Sevindi də. Kim sevinməz ki?! Elə bilirdi abırlı bir zavodda işləyirəm... Bilsəydi ki, bekaram, gizlincə sənədlərimi düzəldir, qalan vaxtımı şəhərin küçələrində, bulvarda veyillənirəm, görəsən, neylərdi? Əsəbiləşərdimi? Bilmək olmaz, bəlkə üzə vurmasa da, sevinərdi. Əlbət, sevinərdi... Amma, yox, anadı axı...

Ürəyim bir parça daşa dönmüşdü...

Bütün günü küçələri eninə-uzununa vurub evə bütün qonşuların işığı sönəndən sonra qayıdardım. O isə başını mətbəxin pəncərəsinə dayayıb yarıqaranlıq həyətə boylanar, məni gözləyirdi. Əsəbiləşirdim. Amma başqa vaxt olsaydı, bunu tükənməz ana sevgisi kimi qiymətləndirib boynuna sarılar, belə etmə, qurban olum, məndən nigaran qalma, harda olsam evə qayıdacam

da, yuxuna niyə haram qatırsan axı? – deyərdim. Onda isə... Başımdan eləmək üçün hər dəfə bir yalan, bir nağıl uydururdum. Nə bilim, işdən sonra uşaqlarnan kinoya getdik... Dostumun ad gününə yığışmışdıq... Gülya rast gəldi, kafedə dondurma yeyib keçən günləri xatırladıq, guya xatırlamalı nəsə olubmuş... Hər gün yeni bir uydurma fikirləşməkdən təngə gəlmişdim. Hətta yalanlarımı bilmədən təkrar edəndə, acı-acı gülümsünür, amma "bunu ötən dəfə demisən" deyib yalanı üzümə vurmurdu.

Divarlarından kədər tökülən cansıxıcı, boz, birotaqlı komunal mənzil kimi məni sıxırdı şəhər. Bu boyda şəhərdə getməyə yerim də yox idi! Əlbəttə, dostum, ərk elədiyim qonşularım, atamın xətrini istəyən neftçi dostları vardı, hər vaxt qapılarını döyə, "bir-iki gecə sizdə qalmaq olar?" deyə bilərdim, yaxşı da qarşılayardılar, amma üzüm gəlmirdi. Deməzlər ki, o boyda ev-eşiyinə niyə sığmırsan, a bala? – Deyərlər, deməzlər? – Qınayardılar, hətta şübhələnərdilər də. Guya duyuq düşmələrini istəmirdim. "Onsuz da hər şeydən halidilər, elə axmağı mənəmmiş". Bir də ki, iki-üç gün vaxt uzatmaqla nə dəyişəcəkdi?

Nə ona ata deyəcək (boynunun ardını görər!), nə də anamı bağışlaya biləcəkdim. Özümü tanıyırdım. Tərsliyim-zadım tutmamışdı, qəbul edə bilmirdim, kəbinli ər-arvad olsalar da, mənim evimdə yad kişinin gecələməyinə, atamın döşəyində (bəlkə onu çoxdan tullayıb?), anamla qol-boyun olub yatmağına dözə bilmirdim. Gic bir qısqanclıq beynimi didib-dağıdırdı. Yəqin ki, onun da ailəsi olub, bəlkə indi də var. Hər gün oğlu, qızı bir ümidlə yolunu gözləyir bəlkə?.. Belə insanları heç cürə başa düşə bilmirdim.

İlk baxışdan sərt, qəddar, özündənrazı, ədabaz görünsə də, sir-sifətindən qəm, əlacsızlıq tökülürdü. Deyəsən, bütün tənha kişilərin gözləri kədərli olur. Onun baxışlarında Xəzər boyda kədər vardı... Sözün düzü, hərdən halına acıyırdım, ürəyimdə söysəm də, nədənsə yazığım gəlirdi ona. Amma atamı xatırlayan kimi hər şey dəyişirdi.

Cavan dul gəlin, mən körpə olanda – özünə arxa-dayaq, mənə ata tapsaydı, bəlkə də haqq qazandıra bilərdim. Amma indi, hələ də uşaq sandığı evlənməli oğlu olan qadının bu hərəkətinə hiddətlənməyə bilmirdim. Biri elə dostum Arif. Atası türmədə vərəmdən ölmüşdü yazığın. Başsız qalmış Firuzə xala dörd uşağın əlindən bezar olmuşdu. Dünyanın dərdi kül olub başına tökülmüşdü. Ərsiz, arxasız dörd uşaq böyütmək elə də asan deyildi o vaxtlar. Nə qədər fağır, başıaşağı gəzsəydi də, hərə bir başqa gözlə baxırdı arvada. Düz bir il Arif dərslərdən yayınır, çox vaxt ümumiyyətlə məktəbə gəlmir, körpə bacı-qardaşını saxlamaqda anasına kömək edirdi. Hökumətin verdiyi cüzi uşaqpulu, iki yerdə çalışaraq xadiməliklə qazandığı doxsan manat, əlbəttə, ailəyə bəs eləmirdi. Qonşu qadınlar ailənin ağır vəziyyətini görüb Firuzəni dilə tutmuş, məhəlləmizin o başında mağaza işlədən Kazım kişiylə aralarını düzəldib evləndirmişdilər. Kazım kişinin arvadı çoxdan rəhmətə getmişdi, ikimərtəbəli evində xəstə oğluyla yaşayırdı. O da əziyyət çəkirdi. Firuzə xalanı dörd uşağıyla öz mülkünə köçürəndən sonra qayğıları başından aşan Kazım kişinin rəngi-rufu özünə qayıtdı, Firuzə xalanın üzü güldü, Arif daha dərs buraxmadı, geyim-kecimi də yaxşılaşdı... Bax onda xeyirxah insanların zamanında atdığı addım dağıla biləcək bir ailəni xilas etmişdi.

"Mənimki" rəsmi nigaha girsə də, elə bilirdim ki, küçə qadınıdı, pula, bir qarın yeməyə görə bədənini satan əxlaqsızdı, oğrun-oğrun yatağına kişi salır... Neyləyim, özümlə bacara bilmirdim. Bunu fikirləşmək dəhşət olsa belə, ovuna bilmir, vicdanıma təcavüz edir, özümü qınaya-qınaya ölüb-dirilirdim...

"Allah, mənə dözüm ver!" Səbrin, dözümün də bir həddi var axı...

## İKİ GİLƏ ÜZƏRLİK VƏ...

Zamanla hər şeyə alışırsan, bir növ, öyrəncəli olursan. Guya müdriklər belə deyib. Səbirliydim, amma səbrin də bir həddi var, könlümə xoş olmayan heç bir şəraitə öyrəncəli olmaq istəmirdim.

Hələ də qəlbimi didən ağrılar məni tərk etmirdi, bu, mümkün də deyildi. Evə nə qədər vaxtsız gəlsəydim, qapını ehmallıca açıb içəri girsəydim də, mən qayıtmamış rahatlanıb yerinə girmir, mətbəxdə oturub yolumu gözləyərdi. Bu məni daha da qıcıqlandırırdı. Çox vaxt dilucu “axşamın xeyir” deyib kəlmə kəsmədən ən son və yeganə sığınacaq sandığım otağıma soxulurdum. Arxamca gəlib qapının dalında durduğunu nəfəsindən hiss edirdim. Acıqlı cavab verəcəyimdən ehtiyat edib heç nə soruşmağa cürət etməsə də, ona qarşı olan soyuq münasibətimdən əzab çəkdiyinə şübhə etmirdim. Məncə o, acıqlı cavab verəcəyimdən deyil, daha çox, kinimi içimdə boğub saymamazlıq etdiyimdən əzab çəkirdi. Qəbahətini üzünə vurmaq artıq mənasız göründüyündən, susmağım onu yəqin ki, hövsələdən çıxardır, dilini dişləyə-dişləyə mənim dinəcəyim günü gözləyirdi. Mən isə sanki bir daş parçasıydım...

Hərbi komissarlıqda qeydiyyata düşəndən sonra veyil-veyil fırlanmaqdan əl çəkməyə qərar verdim. Dostum Fəridin atası gəmiqayırma zavodunda mühəndis idi, yanında işə düzəldəcəyinə söz vermişdi. İşləyəcəkdim. Nolsun? İşdən ki evə qayıtmalıydım? Onların üzünə? Yox, nifrət elədiyin adamlarla bir dam altında yaşamaq mümkün deyildi. Uşaq olsaydım, yenə dərd yarıydı, bəlkə də həzm edərdim, amma bu yaşımda anamın aşnasıyla (ögey ata deməyə də dilim gəlmir) eyni mənzildə yaşamaq əzabdan da betər idi. Xəcalətimdən dostlarımla üz-üzə gəlmək istəmirdim. Çöldə-bayırda yaxşı olurdum, elə ki qapıdan içəri girirdim, divarlar üstümə gəlirdi. Boynuma minnət qoyub, bəlkə də ruhu balaca mənzilimizdə dolaşan atamın xatirəsinə etdiyi xəyanətə bəraət qazandırmağı ürəyimi bulandırırdı. Günü-gündən nifrətim artırdı. Özümlə bacara bilmirdim. İyrənirdim, hər ikisindən iyrənirdim.

İlk günlər dörd divar arasında qəfəsə salınmış tənha quşcuğaz kimi çırpına-çırpına qalmışdım. Quşcuğazdan bircə fərqim ondaydı ki, istədiyim vaxt qapını açıb azad olar, istədiyim səmtə üz tuta bilirdim. Sərbəst olduğum qədər azad olmasam da, qərar tuta biləcəyim kiçicik yuvama ümidli idim.

Aborta razılaşandan sonra məni Tamaraya bağlayan bütün tellər, demək olardı qırılmışdı. Çobanyastığı çiçəyi ilə fala baxmağa da ehtiyac qalmamışdı. Çünki onun sevgisinə şübhəm yox idi. Üç ayı gözləyəcəyinə də inanırdım. Sözünə naxələf çıxan mən olacaqdım, mən. Heç qayıtmaq fikrim də olmayacaqdı, əgər düşdüyüm bu şərait məni vadar etməsəydi...

Atalığım oğraş, evdə, aramızda bir nazik divar olduğunu vecinə almadan hər gecə eybəcər-eybəcər səslər çıxardır, sanki mənə acıq verə-verə, elə bil “bax, adamın gözü qabağında anasını belə ...” – deyirdi. Bəlkə də bu barədə heç fikirləşmirdi, amma mənə elə gəlirdi ki, o, bu sözləri həqiqətən bağıra-bağıra deyir və onun səsi divarlarda əks-səda verərək otaqlara dolur, pəncərədən çıxıb həyət-bacaya yayılırdı. Qulaqlarımı tıxasam da, onun eybəcər səsi gicgahımı güllə kimi dağıdır, məni hövsələdən çıxardaraq cin atına mindirirdi. Dəli olmaq səviyyəsinə çatırdım. Hətta bir neçə dəfə gecə çarpayının cırhacırını, onun yaralanmış şimal ayısına bənzər bəyirtisini, anamın iyrənc “ah-uf”unu eşidəndə cin təpəmə elə vurmuşdu ki, mətbəxə cumub ən yekə bıçağı qapıb otaqlarına soxulmaq, ikisini də o dünyalıq eləmək istəmişdim...

"Qaçmaq!.. Qaçmaq, bacardıqca uzaqlara..."

Bu eybəcərlikləri hər gün görmək halında deyildim. Bezmişdim. Handan-hana sakitləşib qərara aldım ki, lənət şeytana, əlimdən xəta çıxmamış, bu xarabadan uzaqlaşmalıyam, qoy bildikləri kimi rahat yaşasınlar. Elə də dəliqanlı deyildim, amma əlimdən xəta çıxmayacağına heç kim zəmanət verə bilməzdi.

İnsafən, yad kişi bir neçə dəfə aramızdakı soyuq müharibəyə son qoyulmasına cəhd etmişdi. Bunu inadcıl cəhd hesab etməsəm də, səmimiyyətdən doğan təqdirəlayiq addım atdığına əmin idim. Ən azından, səs tonundan, üz mimikasından yaranmış vəziyyətdə anamı deyil, özünü müqəssir sandığını biruzə verməyi bacarırdı. Bəlkə də məndə ona və anama qarşı kəskin nifrətin mülayim kinə çevrilməsində onun bu addımının təsiri olmuşdu, ancaq üzə vurmamışdım.

– Hər şeyin nədən başladığını söyləmək, yəqin ki, səninçün mənasız olar, – deyib filosofluq edir, başıma ağıl qoyurdu guya. – Soyuq başla düşünsən, gələcəkdə hisslərə qapılıb günahkar axtarmaqla mənəvi sarsıntılar keçirməyinin əbəs olduğunu dərk edəcəksən. Özünə zülm eləmə, çünki belə məqamda ən çox əzab çəkən yenə də özün olacaqsan. Körpə deyilsən, bilirəm ki, sənə ağıl vermək gülünclük olar. Mənə ata de fikrində deyiləm, buna lüzum da yox. Ananı isə üzmə, o, səni çox istəyir.

Hansısa filmdən, ya oxuduğum hansısa kitabdan tanış gələn bu çeynənmiş monoloq ətimi töksə də, rolunu yaxşı oynayan aktyor kimi qəlbimin dərinliyində kövrək iz buraxa bilmişdi. Və o aktyor utanmaz-utanmaz çıxışına veriləcək qiyməti gözləyirdi... Yaxşı tamaşaçı ola bilmədim. Əfsus. Alqışlamaq cəhənnəm, heç tüküm də tərpənmirdi. Yəqin ki bir xoş kəlməm, üzümdə bircə anlıq təbəssüm bəs idi ki, olanlar unudulsun, yaşananlara nöqtə qoyulsun. Gözlədiyi bu deyildimi? Mən nə etmişdim? Qəti şəkildə "heç bir barışıq olmayacaq!" – demişdim.

Münasibətlərimiz getdikcə şiddətlənirdi. Üz-üzə gəlməyək deyə, bir neçə gün Sabunçu vağzalında, biyöndəm gözləmə zalının taxta skameykalarında yatmalı oldum. Belim, ayaqlarım keyimişdi. Arada qalxıb gəzinir, özümə gələndə qayıdıb təzə yer arayırdım. Gözləmə zalı balaca, oturacaqlar narahat və az, boşalan yerə lövbər salıb rahatlanmaq istəyən çox idi deyə, isti yerimi tərk etdiyimə it kimi peşman olurdum. Gündüzlər şəhəri dolaşıb, cibimdəki dar gün üçün saxladığım az-maz pulla axşama yaxın nəsə alıb qarnımı doyuzdururdum ki, gecə yata bilim. "Sığınacağım" narahat olsa da, nədənsə geri dönmək barədə fikirləşmirdim. Tərs damarım tutmuşdu. Yatanda xoruldadığımı ilk dəfə orda bildim. Daha doğrusu, bildirdilər. "Cavan oğlan, vətəndaşları narahat edirsən, bura yataqxana deyil axı?" deyərək çiynimi dümsükləyib şirin yuxudan eləyən milis nəfərinə, yanındakı kapitana gözlərimi ova-ova ölüm-zülüm açıb baxanda, narazı-narazı məni süzən ətrafımdakılar milisin müdaxiləsini gözləyirmişlər kimi "ah" çəkib, nəhayət, dərindən nəfəs aldılar. Zalın yarısı əsnəyir, yarısı da elə bil tamaşaya baxırdı. Yəqin xorultum divarları silkələyirmiş! Xəcalət çəkdiyimdən durub qaçmaq istədim, amma tərpənə bilmədim, elə bil yuxuluykən çarmıxa çəkmişdilər. Gözlərim şişmiş, dodağım qurumuşdu, bir yandan da iflic olmuş adam kimi quruyub qalmışdım. Məndən hara getdiyimi soruşdular, biletimi tələb elədilər. Özümü itirmədim, onlara rayondan gəldiyimi, qohumumun evini tapa bilmədiyimi, çantamın oğurlandığını, geri qayıtmağa da pulum olmadığını uyduranda mənə yazığı gəlmiş orta yaşlı milis kapitanı iyirmi manatı ovucuma basıb bu bəhanəmi də kəsmişdi. Rüsvay olmamaq üçün vağzaldan tez uzaqlaşmaq, mənə inanıb yardım edən həmən kapitanla

təsadüfən üz-üzə gəlməmək üçün evə qayıtmaqdan başqa çarəm qalmamışdı.

Ürəyimin hökmünü dinləməliydim. Artıq məqamıdı. “Daha fikirləşməyə dəyməz! Nə qədər gec deyil, Tamaraya verdiyim sözü tutmalıydım. Buralarda qalıb neynəyəcəkdim ki?”

* * *

Bəlalı başıma çarə qılmamışdan əvvəlcə rayona, xidmətimi başa vurub qayıdandan bəri hələ yoluxmadığım babamın yanına getməliydim.

* * *

Kişi məni görəndə sevincindən kövrəldi, elə bilirdim buralara dönməzsən dedi. Məzəmmət elədi, qınadı ki, nə vaxtdı qayıtmısan, nə əcəb indi yadına düşmüşəm? Mən heç, bilirəm, gec də olsa gələcəkdin yanıma, bəs atan, nənən? Onları ziyarət eləmək borcundu axı, iki ildi görmürdün... Haqlıydı babam. Yaxşısı heç bir bəhanə gətirmədən susmağım idi. Başıma ələnən dərdimi ona yük eləmək istəmədim. Nə çəkdiyimi bilsəydi...

Birlikdə qəbiristanlığa baş çəkdik, nənəmin, atamın qəbrini ziyarət etdik. Babam cibindən dəsmalını çıxardıb əvvəlcə atamın, sonra da nənəmin “üz-gözünü” sildi, alnından öpdü, “qulağına” nəsə dedi, geriyə çəkilib aralıdakı mamır basmış əski başdaşına kürəyini verib pəsdən yasin oxumağa başladı. Avazı şirin imiş babamın. Oxuyub bitirəndən sonra üç dəfə salavat çəkib yəqin ki, məni atamla təkbətək qoymaq xatirinə, “söhbətləşin, mən onsuz da hər gün yanlarındayam, doyanda qayıdarsan evə” deyib qəbiristanlıqdan çıxdı.

Ölülər söhbətcil olmasa da, yaxşı dinləyicidi. Beləcə atamla xeyli dərdləşdim, elə bil kişi diriydi, səssiz-səmirsiz dayanıb dinləyir məni. Ürəyimi açıb Tamara barədə, uşaq barədə danışdım, qərarımız ciddidi, bəlkə evləndik deyə xeyir-duasını istədim. Susurdu, deməli, razıydı. Qəribədi, xatırladığım qədər atam bütün şəkillərində çox zəhmli, qaraqabaq düşərdi, amma nədənsə başdaşındakı şəkildə gülümsəyirdi. Bəlkə mənə elə gəlirdi?

Əlbəttə, anam barədə heç nə demədim. Yadına salıb narahat ruhunu incitmək istəmirdim. Ruhlar diridirsə, deməli, məsələdən agah olmalıydı...

Babam, mən qəbiristanlıqdan qayıdanda bir budu yeyilmiş toyuğu parçalayıb masadakı nimçələrə qoyurdu. Çörək, göy-göyərti, pamidor-xiyar salatı, motal pendiri də öz yerində. Məni görcək:

– Əlini yu, – dedi, – gəl, dünən axşam bişirmişəm, boğazımdan bircə tikə gücnən keçmişdi. Nənən rəhmətə gedənnən tək yeyə bilmirəm, elə bil boğazım qıfıllanıb... Həyət çolpasıdı. Sənin qismətin imiş. Gəl... – Boyat təndir çörəyini ikiyə böldü. – Hə, nuş elə. Sənə baxıb mən də tikə elədim bəlkə.

Mən yedikcə babamın yorğun gözləri gülürdü, deməli, ürəyi sevinir, nəvəsini görməkdə məmnun görsənirdi, hələ iştahası da açılmışdı. Bu, mənə ləzzət eləyirdi.

Yeməkdən sonra süfrəni yığışdırdım, babam etiraz etsə də, qabları yuyub quruladım. Elə bil işimi bitirməyimi gözləyirdi, oturan kimi məni xeyli sorğu-suala tutdu. Hər şeylə maraqlanırdı kişi. Çalışırdım suallarına ətraflı, həm də ehtiyatla cavab verəm ki, sözümdən söz tutmasın. Danışdıqca düz gözlərimin içinə baxırdı ki, yalan-palanım yoxdu ki? Kişi köhnə atıcıydı, gözündən heç nə yayınmazdı.

Uzaqlara gedəcəyimi deməsəm də, babam nəsə duymuşdu. Soruşdu ki, yola çıxan adama oxşayırsan, a bala, narahatsan, çox əsəbi, həm də yorğun görünürsən, fikrin nədi? Mən: "Heç..." – dedim. Ancaq babamı "yola vermək" mümkün deyildi. Ciddi görkəm alıb təmkinlə dedi:

– Day yekə kişisən, əsgərlikdən qayıtmısan, indi öz yolunu özün seçməlisən. Onsuz da indiki cavanlara deyilən söz havada qalır, ay oğul, nə desəm, qulağına çatmayacaq. Zamana dəyişib e, indikilər day ağsaqqal öyüdünə fikir vermirlər... Ümid edirəm nə edəcəyini yaxşı bilirsən. Dinmirsən?

Kişi məndən söz qopartmaq istəyir, mənsə onu razı salmaqdan ötəri nə deyəcəyimi bilmirdim.

Dinmədiyimi görüb başını buladı, durub təzədən samovara od saldı. Ancaq qulağı məndəydi, söz gözləyirdi.

Qaş qaralandan sonra sarmaşıqlı eyvanda itburnu çayı içə-içə xeyli dərdləşdik. Babam danışa-danışa gözlərini küçə qapısına dikmişdi, adam gözləyirmiş kimi, gözləri yol çəkirdi. Bilirdim ki, kənd yerində qonaq gedən şəhərdəkilər kimi qabaqcadan xəbərdarlıq eləmir, ürəyi istəyəndə durub gəlir, lap şər qarışandan sonra da. Maraq üçün soruşdum:

– Qonağın gələcək, baba?

Kişinin qırışığı açılsa da, nəzərini qapıdan çəkmədən:

– A bala, – dedi, – şər qarışanı nə qonaq? – Kənddə adam qalıb ki o andır qapını aça? Ölən ölüb, qalanlarını da... şəhər zəli kimi soordu... Üç qonşu kənddə beş-on adam qala-qalmaya... Kəndə-kəsəyə baxan nə gəzir? Bala, bir vaxtlar şəhərə kefə, gəzib-dolanmağa gedərdi kəndçi, indi bir parça əppəy dalınca... Hər gün, bax, burda oturub o üzüpis qapıya baxıram... Baxıb fikirləşirəm ki, ilahi, o qapıdan içəri kimlər girmədi, kimlər çıxmadı?.. Hər gələn bir işıq, bir sevinc gətirdi evimə. Bu həyətdən uşaq, böyük səsi kəsilməzdi. Neçə toylar görüb bu həyət, şənliklər görüb... Atam bu qapıdan müharibəyə gedib, mən, atan, bibilərin, rəhmətlik əmin, sən də burda doğulmusan... Qız köçürmüşəm, gəlin gətirmişəm, nəvə böyütmüşəm... Hanı bəs? – Yol tutub getdilər. Bu balaca doqqazdan gör neçə yol şaxələndi. Bir vaxtlar səs-küydən qulaq batardı, indi də səssizlikdən... Arada o hay-həşirə elə yerikliyirəm ki?!. Axı ağaclarla, daş-divarla nə qədər dərdləşmək olar?.. Bu boyda ev-eşik, həyət-baca dar gəlir mənə... Ölüm çərə dönmüş də qəhətə çıxıb, gəlmək istəmir. Nənənin, atanın qəbriylə dərdləşib sakitlənirəm.

– Sən arada kənddən çıx, ay baba, get rayona, havanı dəyiş. Tək qalmısan, onnandı, darıxırsan.

– Darıxmaq nədi, ürəyim üzülür e, a bala... Çıxmağına çıxıram, ay başı pensiyamı almağa rayona gedirəm. Pulu götürüb köhnə bazarda Qulamrzanın pitixanasına baş çəkirəm, hava qaralana qayıdıram. – Gülümsəyir. – Bir vaxtlar, heç olmasa bir gün, lap bircə saat tək-tənha qalmağımı, qulaq-başımın sakit olmasını o qədər istəmişəm ki! İndi isə o basırığı, ağız deyəni qulaq eşitməyən çağları arzulayıram. Tənhalıq bezdiriciymiş, bezdirici. – Diqqət və maraqla dinlədiyimi görən babamın ürəyi açılmışdı deyəsən. – Nənən təzə rəhmətə gedəndə, qırxdan sonra ki hamı çəkildi öz evinə, qaldım tək-tənha. Bax, onda halım qarışmışdı. Evin divarları, həyət-baca ağzını əjdaha kimi açıb üstümə yeriyirdi, bir yerdə qərar tutmurdum. Bəzən tezdən durub pəyəyə girirdim, görürdüm inəyi sağmayıb arvad, qalxırdım evə, qışqırırdım ki, a zalımın qızı, bu, nə vaxtın yuxusudu, qalx, inəyi sağ ki, buzovu salım altına, hay vermirdi, hirsimdən çatı gövşəyirdim, dalınca otağa girirdim... baxırdım ki, kiminləyəm? Arvad nə gəzir? Cumurdum qonşuya ki, çağırım, evə yığışsın,

qəfil yadıma düşürdü ki, a başı daşlı axmaq qoca, o gedən yerdən hələ geri dönən olmayıb... Yoxluğuna öyrəşə bilmirdim... Hələ bu harasıdı, neçə kərə gecə ürəyimin sancısından ayılıb dərman istəmişəm, durub, su gətirib, dərman verib, içmişəm, başımı körpə kimi tumarlayıb, mən də alnından öpmüşəm, təzədən başımı atıb yatmışam, səhər duranda görmüşəm yerində yoxdu, haylamışam, dalınca həyətə çıxmışam... Demə, yuxuymuş hamısı, ay bala, yuxu. Cavanlığımda heç yuxu-zad görməzdim, təsəvvür edirsən?..

Kövrəlmişdi babam. Onun boynuna sarıldım.

– Deməli, sən də gedirsən, – dedi, – qalacam tək bu üzüdönük dünyada.

– Hə, babacan, – dedim, – getməliyəm, belə yaxşıdı. Hamı üçün...

– “Hamı üçün...” Barı istədiyin, yəni sevdiyin varmı orda, hə?

– Harda, baba? – Özümü lap qanmazlığa qoymuşdum. Babam yüngülcə ah çəkib qımışdı, “ay yaramaz” deyib ovcunun içiylə başımı tumarladı, saçlarımı qarışdırdı.

– Orda daa, – dedi, – nə bilim hara gedirsən? Orda – can atdığın yerdə... Olmasaydı, belə havalanmazdın... Məni qandırma, ay oğul, iki il az deyil, dinc oturmazsan, bilirəm. Bir də ki, qanımızdadı nəsillikcən... Rəhmətlik nənən danışmamış olmaz yəqin. Eşitməmisənsə, qulaq as. Axı sənin ulu baban – mənim atam, müharibəyə gedəndə mən hələ doğulmamışdım, üç-dörd aylığammış anamın boynunda... Müharibə şoğərib, başlayanda elə biliblər bir-iki aya nemesin payın verib qayıdacaqlar. Çox arxayın imişlər. Gedib, iki il vuruşub, plen düşüb, ordan qaçıb Macarıstanda partizanlara qoşulub, ta qırxüçə qədər... Qırxüçdə qara kağızı gəlibmiş anama, inanmayıb, kağızı gizlədib, göz yaşı da tökməyib, deyib o ölə bilməz, ölsəydi, mən hiss edərdim... Düz deyirmiş anam. Hiss edibmiş. İnanırsan, ölməyibmiş... 82-ci ildə sağ olduğunu bildik, demə, İtaliyada yaşayırmış, üç qızı, bir oğlu da varmış... Gəlmək istəyib, anam razı olmayıb, kişinin ailəsi harda, özü də orda olmalıdı deyibmiş... Məni görmək, ordakı uşaqlarıyla tanış etmək istəyib, anam unut bizi deyib... Heç şəklimi də yollamayıb... Uzun illər sağ olduğunu bildirmədiyi arvada yer eləmişdi. Təsəvvür edirsən, sən sevdiyin adamın gizlin-gizlin yasını saxlayıb dərd çəkirsən, o isə dünyanın o başında kefində-kifayətində rahatca yaşayır, səsini belə çıxarmadan... Kinliydi anam, çox kinli... Ölənəcən də bağışlamadı atamı...

Babam bayaqdan danışa-danışa gözlərini doqqazdan çəkmir, daha nə fikirləşirdi, bir Allah bilirdi. Qəfil üzümə baxıb:

– Ürəyini boşaltsaydın, yüngülləşərdin, ay oğul. Görürəm axı, boğulub durmusan, amma babanla bölüşmək istəmirsən... Əgər məsələ bu qədər ciddidisə... Gedəni saxlamaq, gələni qovlamaq günahdı, əlbəttə, əgər gedən düz yola çıxırsa, gələn də xain deyilsə...

Bir xeyli susduq. Babam da mənim kimi dilinin altında söz qovururdu. Axır ki dindi:

– Gərək anan belə eləməyəydi... Eləməyəydi... Təklik pis şeydi, bilirəm... Anam dədəmin qara kağızını alanda nə yaşı vardı ki? Cavan, gözəl-göyçək... Özü demiş, çoxu dərdindən ölürmüş kənddə, görmüşdün də qocalığın, o yaşında da qaməti əyilməmişdi, amma ərə getməyib, min zillətnən məni böyüdüb, oxudub, adam eləyib. Ömrü boyu gözü heç kimin əlində qalmadı arvadın, halallıqla yaşadı, ərinin ocağına ləkə gətirmədi... Eeh!.. Mən heç, amma səni əzməyəydi, tapdayıb keçməyəydi gərək... Ürəyin doludu, görürəm. Amma susursan... içində çəkirsən... Nələr çəkdiyini mən də qanmasam, kim qanacaq?.. Dərd eləmə özünə... Boyuna qurban olum, indi yol üstəsən, ağlından başqa şeylər keçməsin haa!.. Day olan olub... Bir də ki, belə baxanda, pozğun olma-

yıb, xəyanət eləməyib, ərinin, sənin başını yerə soxmayıb, irağ-irağ... Deməli, taleyimizlə barışmalıyıq... Sən onları tapşır Allaha. Ölüm-itim dünyasıdı, bil. Qismətdən artıq yemək olmur, qurban sənə... Bu da bizim qismət payımızdı...

Bilirdim, babam dişiylə bağırsağını gəmirə-gəmirə bunları məni sakitləşdirmək, ovundurmaq üçün deyirdi, ürəyində isə başqa şeylər fikirləşirdi. Tamam başqa şeylər...

– Yormadım səni?

– Yox, ay baba, səndən doymaq olur ki?..

– Baba sənə qurban. Harda olursan, ol, babanı yaddan çıxartma. Arada yadına sal ki, bir dağ başında, uçuq komada həmişə sənə dualar edən sarsaq bir qoca var...

– Darıxacam səninçin, baba... çox darıxacam.

Babamı yenidən qucaqladım. Kişi kövrəlsə də, gözləri gülürdü.

– Yalan danışma, ordakılar qoymaz darıxmağa, – eyhamla deyib samovara iki talaşa atanda bildim ki, babamın sözü hələ bitməyib, nəsə deyəcək, çay bir bəhanədi. – Nə sirdisə, a bala, Rusyətə gedənlər beş günlük adıyla evdən çıxır, ancaq illərlə geri dönmürlər. Oraların suyunda nəsə var. – Bic-bic qımışdı. – Niyəsini bilməmiş olmazsan, irilənmisən tay... Hə, mən qocadan sənə bir vəsiyyət, deyim, qulağında sırğa elə. Bizim vaxtlara ağlın getməsin e, arxayınçılığ, baş-qulağımız dinc idi, ac da deyildik, gözümüz onu-bunun təknəsində qalmazdı, kiməsə möhtac olmazdıq... İndi başqa zamanadı, sabah nə olacaq, bilmək olmur, çox çətindi, baş çıxarmağa baş lazımdı. Hərə bir kaprativ açıb tacirriy eləyir. Bilmirlər ki, hər bığına yağ çəkəndən bəy olmur. Tacirriy də bəylik kimidi, gərək qanında ola... Bax, əgər işin taraz gətirdi, əlinə pul, var-dövlət keçdi, məbadə qudurasan, heç vaxt pula, vara qul olma, oldun, koman yıxıldı!.. Ora qürbətdi, nə qədər rahat da olsan, işlərin yağ kimi getsə də, bil, qürbət elə qürbətdi. Çalış çörəyini yediyin torpağın dilinə, adətinə, dininə hörmətlə yanaş ki, sənə də hörmət etsinlər. Bunu edə bilməyəcəksənsə, qayıt geri. Çünki sevilmədiyin, sevə bilmədiyin xalqın torpağında yaşamaq əsl işgəncədi... Qanunlarını öyrən. Dost qazan, əsl dost... İçmə!.. – Tutkeşi qaldırıb sinə dolusu üflədi, talaşalar alışmışdı onsuz da, elə bil söhbətini daha kəsərli etmək üçün fasilə verir, məni həyəcanda saxlayırdı babam. – Onu deyəcəydim axı, Mürsəl kişinin üç oğlu getmişdi Rusyətə. Sən tanımazsan... Ağıllı-başlı uşaq idilər, vallah. Ən azından, kənddə olanda bir şərəşurruğlarını, əyri əməlləri qulağıma çatmayıb... Noolsun? Eşitdiyimdəm, böyük gədəsi bir arvada ilişib, yəni yaşayırmış da onunla... Qardaşlarını da aparıb yanına. Bazarda alver edirlərmiş. Bizimkilərin də çoxu hara getdi, lap Yaponiyaya, düz-əməlli şey öyrənməz, alverdən başqa... Hə, qazandıqlarını böyüyə verirlər, o da xərcliyini ayırıb qalanını arvadına verirmiş saxlamağa. Bir aymı, beş aymı beləcə dolanıblar, axırda arvadı dilə gəlib ki, bəs, qardaşların nə vaxtacan mənim evimdə qalacaq, rahat ola bilmirəm, bura yataqxana-zaddı, adam kimi sevişə də bilmirik, de, çıxıb getsinlər... Beləcə incik düşüb ayrılıblar, hərə bir yana... Arif var e, tanıyırsan, ya yox, dədənin sinif yoldaşıydı, xurma aparmışdı Rusyətə, orda rastına çıxıb balacası, pis gündəymiş Arifin deməyindən, yazığı gəlib, əvvəlcə mağazadan pal-paltar alıb, sonra aparıb hamama, pak eləyib, aldığı əyin-başı geyindirib, hələ pul da verib... Deyir, qayıdan başı rastına çıxıb, yenə görüşüblər, qulaq günahkarıyam, yanında olmamışam, and içirdi ki, elə köhnə, çirkli paltarındaydı, aldığlarını da dəyər-dəyməzinə satıb veribmiş arağa... Deyib atan yataq xəstəsidi, yalvar-yaxar gətirmək istəyib bura, razı olmuyub, qayıdıb ki, nə üzlə gedim kəndə, qardaşlarını soruşub, deyib bilmirəm hardadılar...

Bax, belə... Qürbət adamları belə udur – bataqlıq kimi... Qurban olum, qərib eldə adımıza layiq yaşa. Bacarmasan, utanma, qayıt mənim yanıma, birtəhər dolanarıq... Bacarsan, ən əsası, pula qul olma, qoy pul sənin qulun olsun. Hər şey həddən artıq olanda insana fəlakət gətirər. Ehtiyacın olanı al, yeyə biləcəyini ye... Bir də, ən çətin anlarda, çıxılmaz vəziyyətdə ürəyinə qulaq as, ən doğru yolu o sənə deyəcək. İnan, ürək safdısa, aldatmaz...

Susub ovucunun içiylə gözlərini ovxaladı. Kövrək, ağlamaqdan doymuş gözlərini beləcə gizlədirdi babam...

– Yordum səni. Dur, yerini salmışam, gecdi, get yat, yola yorğun çıxmayasan...

* * *

... Göy üzü çoxdan açılsa da, nə xoruzlar banladı, nə qoyun-quzu mələşdi, nə də atlar kişnədi... Dəni sovrulmuş dəyirman idi kənd.

Hiss etdim ki, babam məni əliboş yola saldığına görə məyusdu. Gileyləndi ki, dişə çəkməli heç nə yoxdu xarabada, cavanlar çörək dalıycan şəhərə üz tutandan kəndin basaratı bağlanıb, bağ-bağat baxımsız qalıb, Allaha and olsun, belə getsə, kənddəki həyətlərdə tək-tük salamat qalan ağacı da qurd içindən yeyib qurudacaq. Sənə zarafat gəlməsin, axı bu sortlar dünyanın heç bir yerində yetişmir? Baxan olmasa, on ildən sonra bu mer-meyvəni ancaq kinolarda görərsən, o da yolka oyuncağı kimi əldəqayırma...

Çiyin-çiyinə qəbiristanlığa üz tutduq. Nənəmlə atamın qəbrini son dəfə ziyarət edib vidalaşdım. Qayıdan başı babam dərin ah çəkdi. Baxdım ki, kişi başını aşağı salıb ağır-ağır nəfəs alır. İlk dəfə görürəmmiş kimi, ona baxdım: yaman əfəlləmişdi babam... Dilə gətirməsə də, canı ilə əlləşdiyi hiss olunurdu. Yataq otağındakı dolabın üstündə cürbəcür dərmanları axşam özüm görmüşdüm. Onun bağa-bostana baxan halı nə gəzirdi. Öz dediyimə inanmasam da, təskinlik üçün dilucu dedim:

– Gec-tez şəhərdən bezənlər qayıdacaqlar kəndə, onda ağaca baxan tapılacaq, ürəyini üzmə, özündən muğayat ol, ay baba. – Onu qucaqladım, vidalaşıb kənddən çıxdım. Kövrələcəyini görməmək üçün dönüb geriyə də baxmadım. Bilirdim ki, arxada uca-uca dağlar, boş kənd, bir də divarlarının suvağı qopub tökülən komada arxamca dualar oxuyub ölümünü gözləyən bir qoca qaldı...

* * *

...Payız çoxdan girsə də, yay çıxmaq bilmirdi; günəş adamın cızdağın çıxardır, meyvələr yetişmədən budaqlarda quruyub qaxaca dönür, yarpaqlar tökülmür, elə budaqlardaca büzüşürdü, ta qar yağanacan. Deyirlər, neçə ildi beləydi. Fəsillər çaşbaş düşməmişdi, bu, incik düşmüş torpağın üzü dönük insanları qarğışıydı...

* * *

Gödəkçəmin cibində iki gilə üzərlik toxumu və iki şax əllilik bükülmüş qəzet parçasını qatar Bakıya çathaçatda yox, kənd yolunda görsəydim, geri cumub babamın qabarmış əllərindən, yaşı qurumuş gözlərindən dönə-dönə öpərdim...

Babam bilmədən (bəlkə də bilərəkdən) yoluma yaşıl işıq salmışdı. Artıq necə qayıdacağım barədə düşünməyə dəyməzdi. Fikrim qətiydi.

Evə çatan kimi sənədlərimi götürdüm, – yaxşı ki, evdə heç kəs yox idi, – bağlamaya bir-iki dəyişək qoydum, kağız parçasına “Biryolluq gedirəm, çalış xoşbəxt ol. Məni axtarma”, yazıb, evə girən kimi görsün deyə dəhlizdəki güzgünün qənşərinə qoydum, evdən çıxıb qapını kilidlədim, açarları qapının ağzındakı şəlpənin altında gizlədib vağzala tələsdim. Gecə qatarına bilet götürdüm. Hələ beş-altı saat vaxtım vardı. Vağzalın həndəvərində vaxtımı güclə öldürdüm. Anama qarşı kinim soyumasa da, yazdığım başdansovdu məktubu oxuyan kimi qaçaraq vağzala gələcəyini, məni həmişəlik itirəcəyindən qorxub geri dönməyim üçün yalvararaq “Getmə mənim balam, hər şey sən deyən kimi olacaq, qayıt! Qurbanın olum, getmə... Bağışla ananı...” – deyəcəyini düşünürdüm. Onsuz da fikrimdə qəti olduğumdan mənə elə gəlirdi ki, lap qarşımda diz çöksə də, ürəyim yumşalmayacaq. Ürəyim bir söz deyir, gözlərim isə əksinə, bu qələbəlikdə onu arayıb-axtarırdı...

Qatar fit verib yerindən tərpənəndə xəyalımda canlanan sima yüzlərlə insanın arasında itdi, qulaqlarıma gələn səs polad təkərlərin getdikcə şiddətlənən tıqqıltısına qarışıb eşidilməz oldu...

İnana bilmirdim ki, iki sutkadan sonra Tamaranın yanında olacaq, onu verəcəyi qərardan çəkindirə biləcəyəm. Əgər bu baş tutsa, onda babam nəinki mənim, hətta gələcək övladımın da xilaskarı olacaqdı... Ağlıma ilk gələn də o oldu ki, oğlum olsa, ona babamın adını qoyacağam.

## *ADİL*

...Belə qarşılanacağımı gözləmirdim. Gedərkən iynə ucu boyda ümid yeri qoymadığımdan, mənə elə gəldi ki, o, gözlərinə inanmır. Qarşısında məni görür, amma inanmır! Bakıda olanda “bir-iki ay xiffət edib unudacaq” düşünmüşdüm. Əslində, özümün qəti fikrim yox idi. Aramızda olanlara qeyri-ciddi yanaşdığımdan, məsuliyyət hissini itirmişdim. Doğrusu, o hiss yox dərəcəsindəydi. Elə bil cinayət törədirsən, amma bunu kimsə görmür, kimsə izinə düşmür deyə, hadisə yerindən qaçıb canını qurtarırsan, heç itirib-axtaran da olmur, milyonların içindəcə itib-batırsan ha, bax elə... Demişdim axı, evə döndəndən sonra hər şey başqa cür ola bilərdi. Həyatdı, qəfil xəstələnib ölə bilərdim. O qədər cavan ölən var ki! Ölmüş olsaydım, əlbət ki, bundan Tamara bixəbər olacaqdı və mən əclafın ölüsünə-dirisinə söyə-söyə ömrünü ya tənha, ya özgəsiylə, ya da nakam sevgisindən yadigar qalmış övladıyla başa vuracaqdı.... Yaxşı, ölüm-itimlə işimiz olmasın, əgər bəxtim gətirsəydi, məsələn, yaxşı işə düzəlsəydim, pul-para qazanıb özümə gün-güzəran qursaydım, havaxtsa sevib-sevilib ailə qursaydım və olub keçmiş gənclik səhvi bəzən yada düşəndə də, ola bilsin, heç heyifsilənməzdim. Bəlkə ömür səhifəmə yazılmış acı xatirə kimi içimi göynədərdi. Onu bilirəm ki, “hər şey başqa cür ola bilərdi”.

Olmadı. Taledən qaçmaq mümkün deyilmiş! Anamın oğul evləndirməli vaxtında kəlləsinə vurmuş eşqi bütün planlarımı alt-üst etməsəydi, burda nə itim azırdı? Lap deyək ki, bunu da həzm edərdim. Yəni özümü eşşəkliyə vurub hər şeyə göz yumar, uzaqbaşı Günəşlidə, ya Hövsanda ucuz bir otaq kirayə edib yaşyardım, bəd ayaqda babamın kölgəsinə sığınar, kənddə torpaqla əlləşər, əkib-becərərdim... Deyirəm də, taledən qaçmaq olmur. Nə pisindən, nə yaxşısından... Əslində, tale açıq-aşkar səninlə qumar oynayır – fərasətli olsan sən, səfeh olsan o son qəpiyini də əlindən alacaq – kazinodakı kimi...

Babamın gizlincə cibimə qoyduğu pul istiqaməti dəyişmişdi. Kişi elə bil ürəyimi oxuyubmuş.

İndiki kimi yadımdadır, Tamara qapını açanda həqiqətən gözlərinə inanmırdı. Məni görən kimi quruyub yerindəcə qaldı. Bir az da belə baxsaydı, qızın döyükmüş gözləri hədəqəsindən çıxacaqdı. Əlləriylə qapıdan elə yapışmışdı ki, elə bil bir balaca aralansa, hərəkətsiz bədəni ilgəyi qırılıb asılqandan sürüşən paltar kimi yerə səriləcək. Özümü itirmədim, çantamı yerə tullayıb onu var gücümlə qucaqladım. İlk baxışdan hamiləliyi elə də bilinməsə, amma yaman ağırlaşmışdı. Müvazinətimi itirdim, o yıxılmasın deyə Tamaranı qollarım arasında tutub kürəyimi dar girəcəyin divarına sıxdım, gözlərindən, alnından öpə-öpə, asta-asta döşəməyə oturdum.

– Mənəm... qayıtmışam... İnanmadın? Toxun mənə... hə... mənəm, əzizim, yanındayam... – deyib yanağından, gözlərindən öpdüm. – Daha səni tərk etmərəm... Hə-hə, həmişəlik gəlmişəm.., sənin yanına... sizin yanınıza... başa düşürsən, həmişəlik...

O, sevindiyindən hıçqırıb ağlamaq, yüngülləşmək istəyir, amma bacarmırdı. Sinəmə yayılmış saçlarını tumarladım. O, qucağımda, mənsə döşəməyə sərili qalmışdım. Liftdən çıxan qonşu qadın qapını açıq görüb ehtiyatla içəri boylandı, əvvəlcə ətrafı şübhəylə süzdü, bizi yarıqaranlıq dəhlizdə çaşqın vəziyyətdə görüb narahat oldu, həyəcanla soruşdu:

– Tamarıçka, qızım, nəsə olub?.. Kömək lazımdı? – Tamaraya müraciət etsə də, əslində, gözlərini qıyaraq kim olduğumu dəqiqləşdirmək üçün mənə baxırdı. – Ona həyəcanlanmaq olmaz, heç olmaz... Bəlkə həkim çağırım? – deyib durdu. Əlbəttə, Tamaranın cavab verəcək halı yox idi, mən əlimlə təşəkkür edib, “Hər şey yaxşıdı, narahat olmayın, sağ olun, keçib gedər... sevincdəndi” dedim. Əlbəttə, qadın məni tanımasaydı, mütləq milisə zəng vurardı. Deməli, məlumatlıydı. Amma yenə də gözlərini qıyıb şübhəli nəzərlərlə xeyli baxıb qapıdan aralandı, addım səsi kəsildisə də, – bu yerlərin yaşlı qadınlarına bələd idim, – bilirdim ki, getməyəcək, vestibüldə dayanıb gözləyəcək...

Çətinliklə olsa da, sağ ayağımı uzadıb qapını itələdim. Ağır dəmir qapı çırpılıb örtüləndə tappıltısına diksinib gözlərini açdı. İlk dəfə görürmüş kimi, gözlərimin içinə baxdı. Dodaqlarına yüngül təbəssüm qondu. Məni bərk-bərk qucaqlayıb:

– Əvvəl elə bildim yuxu görürəm, – dedi. – Qayıtdın... Lənətə gələsən... Bilirdim... inanırdım... qayıdacağına inanırdım... İnanırdıq...

“İnanırdıq” – deyəndə ovucumu əlinə alıb əvvəlcə sinəsinə, sonra göbəyinin üstünə qoydu. Beşinci ayına keçsə də, qarnı elə də iri deyildi. Uşağı tələf etmədiyinə sevindim. Gözlərindən öpüb:

– Çox sağ ol, – dedim.

– Nəyə görə?

– Hər şeyə...

Ağlayırdı. Onu heç ağlayan görməmişdim...

Tamaranın atası Kiril Matveyeviç qayıtdığımı eşidən kimi çox sevindi. “Sənə demişdim axı, qafqazlılar sözünə bütöv olur! İnanmırdın. Gördün? Qayıtdı!..” – deyib təkrarlayır, hər dəfə də sözlərinin təsdiqini gözləyirmiş kimi, qızına baxır, Tamara başını yelləyəndə fərəhdən hər ikimizi qucaqlayıb kövrəlirdi.

İki həftəlik məzuniyyət götürdü, təcili kəbinimizi kəsdirdi (bir ay irəlidən ərizə vermədiyimizə baxmayaraq tanışlıq işə yaramışdı), dost-tanışını dəvət edib “Meçta” kafesində xudmani toy çaldırdı. İkiotaqlı mənzilini bizə verib özü hərbi hissənin yataqxanasına köçdü. Oğlumuz dünyaya gələndən altı ay sonra Kiril Matveyeviçi Uzaq Şərq hərbi dairəsinə göndərdilər.

Oğlumuzun adını Adil qoymuşduq. Babama oxşamasa da onu “baba” deyib çağırırdım. Onun həyatda olması, mənimlə, bizimlə olması babamın cibimə

qoyduğu pulun sayəsindəydi axı! Qayıda bilməsəydim, nələr olacaqdı, bir Allah xəbərdardı. Mən ömrü boyu cani kimi yaşamaqdan qurtulmuşdum həm də. O böyüdükcə, dil açıb danışdıqca, şıltaqlıq edib boynuma mindikcə fikirləşirdim ki, axı mən necə əclaf və qatil ola bilərdim?!

Təsəvvür edirdim ki, əgər Bakıda işlərim sahmanlı olsaydı, Tamara da körpəmizin "qətlinə" qərar verməyib onu doğsaydı, böyüdüb boya-başa çatdırsaydı və bundan xəbərsiz, arın-arxayın yaşaya bilərdimmi? Babamın anası ərinin ölüm xəbərini eşidəndə "o ölsəydi, mən hiss edərdim" deyibmiş. Deməli, nənəm sevdiyi insanın dünyanın axırında da olsa nəfəs alıb-almadılğını hiss edirmiş, o ki qala öz ətindən-qanından olanın... Bəs ulu babam? O ki doğmaca övladını qoyub getmişdi. Müharibəyə getmişdi. Ölməsəydi, dönməliydi, bütün çətinliklərə, qadağalara baxmayaraq... Ulu babamız qorxaq olub! Yüz faiz!.. Müharibə bitdi, lap əsir olmusan, nolsun, satqın ki olmamısan, qayıdaydın.., çoxları qayıdıbmış, həbs olunanı da olub, sürgün ediləni də... Amma həsrətdə qoymayıblar uzun illər iztirabla yollarını gözləyənləri... Qorxaqlar həm də manyak olurmuş!.. Oğlunun, ailəsinin yanına qayıtmaq əvəzinə, hələ ağlından evlənmək də keçib! Pah, nə qədər ki canı suluymuş, ailə qurub, vətəndə sahibsiz qoyduğu arvad-uşağını düşünmədən həyatını yaşayıb, qocalanda, əldən düşəndə uşağı yadına düşüb, burnuna vətənin iyi dəyib guya... Bilirəm o avropalıları, Allah bilir, yəqin ki, italyan balaları onu adam yerinə qoymayıb deyə, inciyib, bax, onda yadına boya-başa çatdığı kəndi, evi düşüb, xiffət eləyib... Qürbətdə olanların çoxu çətinliyə düşəndə, bir də ölüm ayağında doğmalarını arayır, "vətən-vətən" deyir, kefi-damağı saz olanda yadları... Yox, mən elə yaşaya bilməzdim...

Əvvəllər mənasını dərk etmədiyim "xoşbəxtlik" deyilən bir hiss var, onun dadını tamır, ətrini duyur, hətta rəngini görürdüm. O bizimləydi. Yaz çiçəkləritək pak və təravətli, bulaq suyu kimi saf, şirin sevgi yaşayırdıq. Biz çəmənliklərdə, dağ döşündə, meşələrdə bitən ən gözəl, ən ətirli çiçəklərdən şirə şəkib pətəyinə daşıyan arılar qədər təmkinli və qayğısız ömür sürürdük. Mənə elə gəlirdi ki, bunun sonu olmayacaq. Ancaq hər başlanğıcın bir sonu olmalıdı.

Oğlumuz doğulandan sonra qayğılarımız artsa da, balaca evimizə dolan körpə səsi bizə hər şeyi unutdurmuşdu. Demə, uşaq ailədə bütün anlaşılmazlıqlara, soyuqluğa, sevgisizliyə son qoyan yeganə varlıq imiş. İlk qığıltısı, ilk gülüşü, iməkləməsi, qorxa-qorxa, dayaq üçün kimdənsə yardım umaraq ilk addım atması, ilk kəlməsi... Yaddaşımıza əbədi hopan "ilklər" həyatın ən unudulmaz anları deyilmi? Gözümüzün qarşısında saatbasaat yeniləşən, günbəgün dəyişən balaca insan bizi həyatdan zövq almağa həvəsləndirdi. Tamara ilə münasibətimiz günü-gündən daha da istiləşirdi. Beləcə, Adil yenidən sevməyi öyrətdi bizə. Sevgi bütün dərdlərin dərmanıdı.

Kooperativlərin tüğyan edən vaxtıydı. Bazarda balaca bir köşk icarəyə götürüb çax-çuxumu edirdim. Həyatımda alıb-satmaqla əlaqəm, marağım olmadığından, kiçik uğurlarım özümə təəccüblü gəlsə də, əlim babat gətirdiyindən ticarətlə ciddi məşğul olmağı qarşıma məqsəd qoydum. Bir neçə vaxt alver etdikdən sonra tacirlik bacarığımı duyan Tamara atası ilə əlaqə saxladı, əyalətdəki köhnə dostlarından xahiş edib həmən köşkü cüzi xərclə özəlləşdirdi. Sərmayə üçün pul da göndərdi. Tanışlıq və pul qarşılığında mümkün olmayan hər işi aşırmağın zamanıydı. Daha icarə haqqı ödəmirdim, həmən pulu dövriyyəyə buraxmışdım. Şükür, maddi sıxıntılarımız yox idi. Həftədə bir dəfə Moskvanın iri topdansatış bazalarından mal alıb gətirirdim. Qazancımı planlı surətdə xərcləyir, məsrəflərimi minimuma endirirdim. Alverim əməllicə gedirdi.

Bir ildən sonra köşkü mağazaya çevirdim. Gəlirim artdıqca malların çeşidlərini də artırırdım. "Sən demə, elə ticarət üçün doğulmuşammış!?" deyib özümə inamı birə-beş artırır, fürsət düşdükcə obyektimi daha da genişləndirirdim.

Kiçik biznesi ağılla, təmkinlə idarə etmək belə vaxtlarda ticarətçini uçurumdan qoruyan əsas və yeganə meyardı. Səbrimə heyran olmuşdum. İki ildə baş vermiş bütün təhlükəli vəziyyətlərdən bacarığımla, az zərərlə çıxa bilmişdim. Müflis olmaq cəhənnəmə, ağlasığmaz məbləğdə borca düşmüş tanışlarımla müqayisədə mən milyonçuydum! Bir ara, vəziyyət normallaşana qədər gözləmə mövqeyi tutub, ümumiyyətlə ticarətdən aralandım. Necə deyərlər, fəaliyyətimi dondurdum. Maddi durumum yaxşı olmasa da, pis də deyildi, ən azı, beş-altı ay dözüb yaşamaq olardı. Dözdüm. Dözdük. Yaşadıq. Tamara mənə dəstək idi. Oğlumuzu da götürüb bitəcəyinə ümid qalmayan bu böhranın sonunu gözləmək üçün Murmanska, qayınatamın yanına getdik. Necə olmasa, mənəvi dayaq idi. Böhran Tornado qasırğası kimi bütün ölkəni amansızcasına alt-üst etməkdəydi. Küçədə, qiymətləri od tutub yanan bol çeşidli vitrinlərin qənşərində tərəddüdlə vurnuxan insanların kədər dolu gözlərinə baxmaq olmurdu. O gözlərdə inqilab alovu közərirdi... Səkkiz ay beləcə uzaq Murmanskda böyük dünyadan təcrid olunmuş kimi yaşadıq.

Biz əyalətə döndük. Kriminal dairələrin, monopolistlərin, korrupsiyaya bulaşmış hüquq-mühafizə orqanlarının təhdid, işlərə qanunsuz müdaxilə mexanizmi, tamamilə olmasa da, məhv edildiyindən yenidən işlərimi sahmana salmağa başladım.

Həmən adıbədnam böhran illərində yaşamaq, yalnız yaşamaq uğrunda dözülməz mübarizə tanrıya belə ümidsiz insanların təbəssümü, şaqraq gülüşləri, toy-bayram əhval-ruhiyyəsi ərşə çəkilmişdi. Hətta körpə uşaqların da baxışları kədərli idi.

Başlanğıc və son.

Doğum və ölüm.

Yox, həmən gün nə terror, nə hərbi çevriliş olmuşdu, heç müharibə də başlamamışdı. Həmən gün...

...Tamara oğlumla Mixaylov teatrının qastrol tamaşasına – "Şelkunçik" baletinə baxmağa getmişdilər. Əlbəttə, gündüz tamaşasına. Güclü qar yağsa da, hava xoş idi. Yəqin ki, tamaşadan həzz alandan sonra bir balaca gəzişmək, oğlumun çox xoşladığı isti şokoladla qlazurlu kömbə yemək istəyiblər, yoxsa teatrın binasından çox aralı olan qış parkının çıxışındakı qəhvəxanaya gedib çıxmazdılar ki.

Bunları mən "təcili yardım" xəstəxanasında öyrənmişdim. Sən demə, sürücü yol ayrıcında qəfil yanan qırmızı işıqda əyləci basmağa cəhd etsə də, avtobusu dayandıra bilmədiyindən buz bağlamış asfaltın üstündə sürüşüb, yol kənarındakı kafenin içinə girib. Xeyli tələfat olubmuş.

Yerli televiziya kanallarında hər iyirmi dəqiqədənbir baş vermiş faciə barədə yerindən reportajlar veriləndə, qurbanlara acısam da, rahat idim. O kafeni tanıyır, bizimkilərin orda olma ehtimalını ağlıma gətirməzdim, əgər axşama yaxın mənə Tamaranın telefonundan zəng gəlməsəydi...

Dəstəyin o başından eşidilən yorğun, xırıltılı kişi səsini eşitcək karıxmışdım. O məni tanıma məqsədilə xəstəxanaya dəvət edəndə damarımda qanım donmuşdu. Maşını necə sürdüyüm yadımda deyil. Çatanda gözlərimə inanmadım; xəstəxananın darısqal dəhlizi həyəcanlı, başını itirmiş əsəbi adamlarla dolu idi. Ağız deyəni qulaq eşitmirdi. İzdihamı yarıb içəri keçdim. Kimi buz bağlamış küçəni başdansovdu təmizləmiş yol işçilərini, kimi

peşəkarlığı şübhə doğuran sürücünü, kimi vaxtında yetişməyən “təcili yardım” maşınlarını, kimi də iki həftə durmadan yağan qarı günahlandırıb lənətləyirdi. Səs-küy qulaqlarımı burğu kimi ova-ova beynimin içinə soxulurdu. Məlumat üçün qeydiyyat şöbəsinə daxil olanda bir neçə milisi yola salan gənc həkim yenicə gəldiyimi görüb soyadımı soruşdu, əlindəki siyahıya baxdı, yəqin ki, siyahıda axtardığını tapmadığından soyuqqanlılıqla telefonu qaldırıb harasa zəng vurdu, sonra mənə yaxınlaşıb üzücü səslə dedi: “Bu gün lap başımızı itirmişik... Görünməmiş faciədi!.. İndi zirzəmidə kimliyi təyin edilməmiş dörd nəfər qalıb, zəhmət olmasa mənimlə gəlin, bəlkə...”

Dəhlizin sonunda pilləkənlə iri hərflərlə “MORQ” yazılmış soyuq zirzəmiyə endik. Sümüklərim də gizildəyirdi. “Kaş burada da olmayaydılar” deyib ağlıma gələn bütün tanrılara, möminlərə, müqəddəslərə dua edib yalvarırdım. Həkim “məlumat səhv də ola bilər” deyib məni təmkinli olmağa çağırdı. Necə sakitləşə bilərdim? Tutaq ki, burada deyildilər, bəs indiyəcən evə niyə qayıtmayıblar? Tamaşa dörd saatdı qurtarıb axı?! Zəng Tamaranın telefonundan gəlmişdisə, deməli, ya yaralıların, ya da ölülərin arasında olmaları ehtimalı böyük idi və buna əmin olmaq lazım idi.

Dəhlizdən şüşəli qapısı olan otağa girəndə mavi xalatında qan ləkələri aydınca görünən morqun qəssababənzər həkimi qarşısındakı boş blankları doldururdu. İlk baxışdan sərt və kobud adama bənzəyirdi. Bizi görcək, heç nə soruşmadan kağız-kuğuzu bir kənara qoyub yerindən qalxdı, meyitlər saxlanan bölmənin işığını yandırıb qapını açdı. Zalın mərkəzində metal xərəklərdə üzərinə ağ mələfə çəkilmiş dörd meyit vardı. Ömrümdə belə yerdə olmadığımdan, ayaqlarımı əsməcə tutdu. Əl uzadıb xərəkdən yapışmasaydım, yıxılacaqdım. Həkim köməyimə gəldi. “Özünüzü pis hiss edirsizsə, bəlkə...” “Yox” – dedim, – yaxşıyam...”

Elə yapışdığım xərəkdəki cəsədin üzündən mələfəni azca qaldırdı – kişi meyidi idi. İkinci – tanımadığım orta yaşlı qadın çıxdı. Təskinlik və həyəcan burulğanındaydım. Sanki çiyinlərimdən ağır daş asılmışdı. Ürəyim çırpınırdı. Növbəti xərəkdə Tamaranın solğun bənizini görəndə qışqırmaq istəsəm də, səsim çıxmadı. Boğulurdum. Həkim qolumdan bərk-bərk tutdu. Soyuq ölüxanada bədənimi isti tər bürüdü. Əyilib Tamaramın donuq gözlərindən öpəndə qəhər məni boğdu. Hıçqırdım. Özümü güclə ələ alıb arabadan yapışdım. Nədənsə həkim sonuncu xərəyə yaxınlaşmağa tələsmirdi. Heç mənə də maraqlı gəlmirdi. Çünki dörd meyiddən də iriydi dördüncü, uşaq cəsədinə bənzəmirdi. “Yəqin ki, oğlum yaralıdı, hansısa palatada, ya da reanimasiya şöbəsindədi”. Fikirlərimi alt-üst eləyən həkimin otaq kimi soyuq sözləri oldu.

“Mənə elə gəlir ki, bunu görməsəniz yaxşıdı”. Baxışlarımla niyəsini soruşdum.

Həkim “Bilirsiniz, onun paltarını belə soyundura bilmədi sanitarlar. Tanılası vəziyyətdə deyil... Bəlkə... baxıb paltarından tanıyarsız?.. Dəhşətdi!.. Güman ki... yəqin ki, avtobus onun üstündən keçib... Təəssüf olsun...”

Elə bil dünyanın zülməti ölüxanaya doldu; heç nə görmür, eşitmirdim. Təkərli xərəyə yaxınlaşmağa da cəsarətim çatmırdı. Amma əmin olmalıydım... “Ola bilməz! İlahi, axı sənə dualar edirdim. Bu qədər ədalətsizlik olarmı?! Hər şeyimi bir anda əlimdən ala bilməzsən axı?!”

Və həkim narahatçılığıma son qoymaq üçün ehtiyatla mələfənin bir ucunu qaldırdı. Laxtalanmış qandan rəngi güclə seçilən yaşıl gödəkcəylə cins şalvarının içinə elə bil maşında çəkilmiş əti doldurub presləmişdilər. Gördüklərim məni dəhşətə gətirdi. Keyləşib durmuşdum. Az qala gözlərim hədəqəsindən

çıxacaqdı. Deyəsən tək salamat qalan sol əlinin düyünlənmiş barmaqlarıydı. Özümü onun üstünə atdım. Qanlı barmaqlarını dodaqlarıma sürtüb bağırdım, ancaq bunu özümdən özgə kimsə duymadı – səsim içimdəcə batmışdı...

Ovcunda nəsə vardı. Göz yaşımla islatdığım qanlı barmaqlarını dodağıma sürtə-sürtə isitdim, ehtiyatla, çox çətinliklə barmaqlarını aralayıb baxdım – kafenin adı yazılmış kağız dəsmal imiş. Gözlərim acı su ilə doldu.

"Sən axı nə yaşadın ki?!.. İlahi!.. İlahi, sən... sən bu günahsız körpəyə necə qıydın?!.. Nədən?!.. Nədən?!"

Kürəyimin ortası buz bağlamışdı. Bədənim ruhu tərk edilmiş cəsəd kimiydi. Təpərdən düşmüş ayaqlarım əsim-əsim əsir, elə bil sümüklərim əriyir, qum kimi axıb gedirdi. Dizi üstə soyuq döşəməyə çökdüm. Bir əlimlə Tamaranın, o biriylə Adilin cəsədi olan soyuq arabadan elə yapışmışdım ki, sanki havadan asılıydım, ayağımın altındakı döşəmə yox olmuşdu, əllərimi buraxsaydım, uçub dərin bir boşluğa düşəcəkdim...

Bir anda iki itki! Bu, dəhşət idi. Sarsılmışdım, nə edəcəyimi bilmirdim. Tamaranı, Adili itirməkdə özümü lənətləyir, sərsəm kimi vurnuxurdum. Başıma yığışan dost-tanış məni ovuda bilmirdi. Dünya gözümdə toz zərrəsikcə qiymətsiz və mənasız görsənirdi. Sevdiklərini dünyanın taraz vaxtında itirmək fəlakətdi...

Dəfn günü əzmkar bələdiyyə işçilərinin, fövqəlvəziyyəti tarazlamaq üçün cəlb olumuş onlarla texnikanın səyi nəticəsində şəhərin küçələri təmizlənsə də, durmadan yağan qar hamının hövsələsini daraltmışdı...

Qızının və nəvəsinin faciəli ölümünü Səlimin vurduğu təcili teleqramdan öyrənən Kiril Matveyeviç gəlməsəydi, bəlkə də dəli olacaqdım.

Dəfndən sonra bir həftə mənimlə qaldı. Hamımızı qəfil yaxalayan dərd onu tamam üzsə də, bəzən özünü unudur, elə hey məni sakitləşdirib ovundurmağa çalışırdı. Kişidə olan təmkinə, soyuqqanlılığa heyran olmaya bilməzdim. Əsl hərbiçi mətanəti belə ağır, çıxılmaz vəziyyətdə özünü biruzə verirdi.

Son günlər narahat olduğundan başa düşürdüm ki, dilə gətirməyə çəkinsə də, xidməti borcu geri dönməyini tələb edir. Getməsini istəməsəm də, onu ləngitməyim yersiz olardı. "Qayıdın iş-gücünüzə, Kiril Matveyiç, məndən narahat qalmayın, Səlim yanımdadı, hər şey düzələcək" – dedim. Bunu dilim dedi, ürəyim yox. Tənha qaldığımdan başımı itirmək qorxusu məni tərk etmirdi.

Səlim Kiril Matveyiçi yola salandan sonra lap sıxıldım. Ürəyim tövşüyür, sancıları kəskinləşirdi. Yaxşı ki, məni ovundura biləcək, dərdimə şərik çıxacaq Səlim yanımdaydı. İş-gücünü buraxıb düz bir ay yanımdan əl çəkmədi. Deyəsən, intihar edəcəyimdən ehtiyat edir, başımı qatmağa çalışır, ta yerimə girib uyuyana qədər otağı tərk etmirdi. Dərdə dözümüm, iradəm zəif olsa da, əlbət ki, özümə qəsd etmək fikrim heç vaxt olmayıb. Yəqin, Səlim halımın çox pərişan, vəziyyətimin ağır olduğunu görüb əlimdən xəta çıxacağını düşünüb. Hər şey kənardan daha aydın görünsə də, hər halda Səlimdən bu barədə fikirləşməməyi, rahat olmağını xahiş etdim. Düşünülməmiş hərəkət etməyəcəyimə inansa da, vəziyyəti nəzarətində saxlayırdı.

Mənəvi dayaq insanı sınmaqdan, uçuruma yuvarlanmaqdan qoruyur. Stress, beyin yorğunluğu, gərginlik artdıqca özümü ölüm hökmünün icrasını gözləyən məhbus kimi hiss edirdim. Sarsılmışdım. Darıxmamağım üçün dilə tutub gah nişanlısı yaşayan kəndə xizək sürməyə, gah da donmuş Volqada balıq ovuna aparırdı Səlim. Ürəyim bərk sıxılanda isə tanış psixoloqunun görüşünə gedirdik.

Hər şey gözümdən düşmüş, əl-ayağım hər şeydən soyumuşdu. Özümü cansız əşya kimi hiss edirdim. Heç yediyimin tamını da duymurdum. Səlim başımı nə qədər qatsa da, canımı qoymağa yer tapa bilmirdim. Gündüzlər ürəyimi üzən ağrılarım, əzab dolu həyatım gecələr yuxularımda davam edirdi. Gözlərimi qapamağım kifayət idi ki, qaragünlüyüm yenidən başlasın...

İki ay idi işə çıxmırdım. Arxayın idim ki, menecerim Boris, – nə qədər kefinəqulu olsa da, – işinə məsuliyyətlə yanaşır. Asudə vaxtlarında hansı qələti elədiyi öz işiydi. Şəxsi işlərinə qarışa bilməzdim. Hər axşam eyni vaxtda hesabatlarla hüzurumdaydı. Rəqəmlər, cədvəllər, imzalanası sənədlər, bank hesabatları... Yorucu və bezdirici... Əvvəllər xoşum gələn bu prosedurlar indi ürəyimi bulandırırdı. Xahiş elədim ki, yoruluram, həftədə bir dəfə gəlsə yaxşıdı.

Belə davam edə bilməzdi. Özümə qapanmaqla psixoloji sarsıntılardan yaxa qurtarmağın mümkün olmadığına əmin olan Səlimin təkidiylə işimin üstünə dönməli oldum. “Baxma, işə başlasan, başın qarışar, – deyib canıyananlıqla məsləhət verdi, – hər halda, üz-gözün öyrəşdiyi kollektivdi, yavaş-yavaş səni bədbin hisslərdən, yorucu fikirlərdən uzaqlaşdırar. A başına dönüm, belə getsə, dəlixanalıq olacaqsan! Başa düş, Tamaranın, Adilin nakam ruhları göylərdən bizi seyr edir, sənin bu halını görüb üzülürlər. İncitmə onları... Günahdı... Özünə zülm etməklə heç kəsi geri döndərə bilməzsən...” – demişdi Səlim və mən razılaşıb sakitləşmişdim...

Qəribə hisslər isə məni tərk etmirdi. Sanki ailəmin faciəli ölümündə qış günahkarmış – səbirsizliklə onun bitməsini arzulayır, nədənsə, həsrətlə baharın gəlişini gözləyirdim. Hərçənd ki yaddaşımda, uzaq-yaxın xatirələrimdə belə məni sakitləşdirəcək, dərdimi, ağrı-acımı unutdura biləcək heç nəyin baharla bir əlaqəsi olmasa da, əhvalımı dəyişə biləcək yazın gəlişinə ehtiyac duyurdum, yəqin ki, donmuş ruhumun buzunu isindirib əritməsi üçün...

## *YENƏ HƏMƏN PALATADA*

“Nə etmək olar, özümə gələn kimi gedərəm”, – deyib, uzandığım çarpayıda darıxa-darıxa götür-qoy edirəm. Nə maşın, nə telefonum, nə də bahalı hədiyyələr gözümdə deyildi, amma Nellinin toxuduğu corablara görə heyifsilənirəm. Qəşəng idi. Londonda olarkən, Viktoriya və Albert muzeyində gördüyü Şeyx Səfi xalçasının ornamentləri ağlını başından alıbmış, muzeydə şəkil çəkməyə qadağa olduğundan, yaddaşına hopdurduğu naxışlardan toxuduğu corab həqiqətən də möhtəşəm sənət əsəriydi. Şübhəsiz, həyatımda görmədiyim o məşhur xalçanın zərif naxışları, möcüzəli rəng çalarları, bənzərsiz gözəlliyi Nellidə mənim məmləkətimə, xalqıma sevgi oyatmışdı və o sevgidən mənə də pay düşdüyündən qürur duyurdum.

...Məni bura kim gətirib? – Xatırlamıram. Yəqin ki, təcili yardım maşını... Bu, vacib deyil. Əsas odu ki, vaxtında gətiriblər...

Rentgendən sonra bir neçə həkim iri monitorda kəlləmin böyüdülmüş şəklinin qarşısına yığışıb baş verən dəyişiklikləri müzakirə edir, gah pıçıldaşır, gah da qonşu otağa keçib, nə barədəsə mübahisə edirlər. Az sonra, yəqin ki, beyin zədəsinin nə qədər ciddi olub-olmamasını dəqiqləşdirmək üçün həkim psixoloqu mənimlə söhbətə qoşdular. Suallara səmimi cavab verməyə çalışır, çətinliklə də olsa, yadıma düşənləri ağ xalatlı gözəl qıza həvəslə danışıram; gülməli heç nə danışmasam da, nədənsə o, gah uğunub gedir, gah da ciddi görkəm alıb deyir ki, əgər nəyisə yadınıza sala bilmirsinizsə, darıxmayın, səbirli olsanız, hər şey yavaş-yavaş öz yerini tapacaq... Psixoloq sözündən

zəhləm getsə də, nədənsə mən o ağ xalatlı qıza inanırdım... Deyəsən, həkim-psixoloq xoşuma gəlirdi axı.

Ağlım yavaş-yavaş üstümə qayıtdıqca, zehnim təmizlənir, qırıq-qırıq da olsa, yaddaşım bərpa olurdu...

Nədənsə yadıma Rayanın məktubları düşdü. Qəzadan ikicə gün əvvəl Nelligildəki söhbətimizi xatırlamağa çalışdım. Yaddaşımı saflaşdırmaq üçün ən doğru variant yaxın keçmişdə olanları yada salmaq idi. Uzaq keçmişin xatirələri onsuz da unudulmur...

Bir balaca içmişdik – maqnitafonda Enrike İqlesiasın "Si tú te vas" albomuna qulaq asaraq hərəmizə iki bokal burqund şərabı...

Qaqrada Rayanın dediyi ikibaşlı sözləri xatırladım. "Hər şeyi mən korladım... Bağışla..." demişdi Raya. Dəqiq yadımdadır: söz deməmişdim, "nəyi korladın, nəyi bağışlamalıyam?" soruşmaq da heç ağlıma gəlməmişdi onda. Deməli, belə çıxır ki, hələ Qaqraya getməmişdən, evdə tənhalığa qapandığı vaxtlarda çox fikirləşib, götür-qoy edib, deyəcəklərini yazmaq qərarına gəlib. Yazdıqlarını münasibətləri pozulmuş rəfiqəsi Nelliyə göndərməsində məqsədi aralarındakı söz-söhbətlərə aydınlıq gətirməkmi olub? Yoxsa başqa bilmədiklərim vardı?.. Məktubları gərək oxuyaydım...

Sanki nə barədə düşündüyümü hiss etdi, divandan qalxıb pəncərənin qarşısına keçdi, deyəsən, deyəcəklərini nədən, haradan başlamaq lazım olduğunu götür-qoy edirdi; asta-asta tökülən yarpaqlara xeyli tamaşa edib, nəhayət, üzünü mənə çevirdi.

– Mən, – dedi, – onu çoxdan bağışlamışam. Hələ məktubları oxumamışdan. Olanlar və baş verəcəklər ovuc içi kimi aydın idi mənə. Bəlkə yazmasaydı da, hiss etdiklərim mənə bəs idi. Əlbəttə, zamanında qarşısını ala biləcəyim, acizlikdənmi, ya özümə hörmətdənmi irəli gələn hərəkətsizliyimə bəraət qazandırmaq istəməsəm də, indi cəsarət tapıb bunları danışmaq mənasız olduğu qədər də idbar görünür. Axmaqlıq edib ipinizi boş buraxdığıma görə özümü günahkar sanıram. İncimə, sən də, Raya da mənim etibarımdan məharətlə istifadə edə bilmişdiniz. Mən sevirdim. Sadəcə, sevirdim... Raya, orta məktəb illərindən ancaq yatandan-yatana ayrıldığım rəfiqəm, gərək belə etməyəydi. Bəlkə də indi bu söhbətin yeri deyil, amma bilməlisən ki, o, ikimizi də marionet kimi oynada bildi. Bacardı... Mən lal oyuncaq olmaqdan bezərək ipləri qırıb oyundan çıxdım, sənsə... Sən onun oyuncağı olmaqda məmnun idin, çünki məndən fərqli olaraq o, səni əyləndirirdi... Məktublara gəlincə... Rayanı tanıdığın kimi xatırlamaq istəyirsənsə, oxumasan da olar. Heç məsləhət də görmürəm. Necə olmasa, sənin arvadın, uşağının anasıdı axı... Geridə qalanları, əfsus ki, qaytarmaq mümkünsüzdür. Çünki orada yazılanları siz Şekspir teatrının aktyorlarından da yaxşı oynamışdınız... Arada düşünürəm ki, görəsən, Raya bunları yazmaya bilərdi? Cavab verirəm – yox! Sadəcə, o, təkcə ürəyini qübar edən iyrənc hərəkətlərini etiraf etməklə özünü rahatlamaq, yüngülləşdirməkdən də çox, etdiklərini rəsmi təsdiqləmək istəyibmiş... O indi haqq dünyasındadır. Qoy Tanrı günahlarını bağışlasın. Biz kimik ki?

Nellinin mənə dikilmiş baxışlarında "sən mənimlə razısanmı?" yazılmışdı. Başımla onun səssiz sualını cavabladım: "hə".

– Narahatlığını başa düşürəm. Axı sən onun keçmişindən bixəbərsən? Bildiklərimi o vaxtlar sənə desəydim, yəqin ki, düz başa düşməyəcəkdin məni, ehtiras gözlərini tutduğundan, münasibətlərinizə paxıllıq etdiyimə, qısqandığıma yozacaqdın bəlkə də. Heç indi də danışmazdım, əgər Raya məktubun-

da hər şeyi yazmasaydı. Körpəliyindən həyatı iztirablı olub Rayanın. Mən elə bir həyatı yaşaya bilməzdim.

Anası fağır, zəhmətkeş, həm də gözəl kənd qızı, atası ondan dörd yaş böyük, dəlisov “detdom” uşağı olub. Harda tanış olublar, məlumatım yoxdu, onu bilirəm ki, Raya doğulandan iki ay sonra, anasının təkidi ilə rəsmi nigaha giriblər... Belə ailələr yüzlərlədi.

Atası çox qəddar olub, həm də içki düşkünü. Tez-tez içki məclisi təşkil edib əyyaş dostlarını evinə yığır, gecədən xeyli keçənəcən əylənir, anası buna narazılığını bildirəndə onu təpiyinin altına salıb vəhşicəsinə döyür, təhqir edib alçaldırdı. Günlərlə gözünün altı gömgöy gəzirmiş. Məktubda bunları oxuyanda dəhşət məni bürümüşdü. Hə, gücü ağlayıb-sıtqamağa çatan qadın bütün əzablara dözər, ərinə cavab qaytarmağa cürət etməz, qul kimi ona itaət edərək hər istəyinə qarşılıq verərmiş. Arvadının həddən ziyadə susqunluğu, itaətkarlığı əl-ayağını o dərəcədə açıbmış ki, hətta çəkinmədən məşuqəsini, daha doğrusu, ucuz barlarda müştəri axtaran fahişələrdən gözəgəlimlisini evinə gətirir, sərxoş olunca içəndən sonra arvad-uşağının gözü qarşısındaca soyundurub yatağına salır, xəcalətdən ölə-ölə darısqal mənzilin balaca mətbəxində artıq bəzi şeyləri dərk edən on iki yaşlı Rayanın anasına qısılıb ağlamasına belə məhəl qoymadan özünü rahatlayırmış. Lakin bir gün... Əlbəttə, heç bir qadın davamlı olaraq işgəncələrə, iyrəncliklərə dözə bilməzdi. Ərinin bu hərəkətlərinə görə xəsalətdən əriyir, qonşuların arasına çıxa bilmirdi. Rayanı bu rüsvayçılıqdan uzaqlaşdırmaq üçün kəndə, bacısıgilə qaçırmışdı... Deyirsən ki, bir dəfə də dənizə girmədi, oturub dalğalara baxırdı. Bilirsən niyə? Sudan qorxur, hətta nifrət edirdi... Atası onların dalınca gələndə, anası çay kənarında paltar yuyurmuş. Əvvəlcə söhbətləri alınmayıb. Rayanın anası nə qədər aciz olsa da, şərəfini üstün tutan qadın idı. Əri şirin dilini işə salaraq yalançı vədlərlə başını yeyib geri dönməyini istəyib, əlbəttə, qadın inanmayıb, içməyəcəyini, evdə yetkin qız böyüdüyünə əyyaş dostları ilə içki məclislərinə son qoyacağını tələb edəndə, “itin qızı, belə qudurmusan ki, mənimlə şərt kəsirsən?!” deyib qadını yumruqla elə vurub ki, o, çaya yıxılıb. Qızmış kişi onun üstünə atılıb. Lakin içkili olduğundan lildə onun da ayağı sürüşüb üzü üstə suya düşüb. Rayanın anası fürsətdən istifadə edib sudan çıxmaq istəyib, əl atıb ərindən yapışanda kişi çayın dibinə çökərək boğulubmuş... Ən azından, məhkəmə sənədlərində belə yazılıb. Anası Rayanın hadisə yerində olduğunu, atasını suda batırmaqda ona kömək etdiyini dilindən çıxartmamışdı...

Nelli danışdıqca gərgin olduğunu duyurdum. Rayanın gecikmiş etiraflarını oxuyarkən hansı hallar keçirdiyini təsəvvür edirdim. Bir qurtum şərab içib sakitləşdi.

Onu da bildim ki, on il iş alan anası üç ildən sonra həbsxana xəstəxanasında vərəmdən ölüb. Yetim qalan Rayanı şəhər internat məktəbinə verən xalası sonradan şəhərə köçəndə onu Nellinin oxuduğu məktəbə köçürdüb. Fikir vermişdim ki, Nelli nəyisə, bəlkə də ən əsas demək istədiklərini sona saxlayır. Bilmirəm mənim kefimə soğan doğramaq istəmirdi, yoxsa nə, amma hiss edirdim ki, tərəddüd edir. Və qəfildən qədəhini pəncərənin önünə qoyub mənə yaxınlaşdı, arxama keçib boynumu qucaqlayıb dodağını qulağıma yaxınlaşdırdı. Bilirdim ki, o, deyəcəklərini qarışdırmasın, fikirlərində çaşqınlıq yaranmasın deyə belə edir və əmin idim ki, məlum olmayan gizlinləri mənə asta-asta agah edəcək.

– Sənin şübhələrinə, – pıçıldadı, – narahatlığına əsas varmış... İlk gündən, məni atıb ona yaxınlaşandan ehtiras, boşalmaq, rahatlanmaq istəyi o qədər

güclü olmuşdu ki, hətta həqiqi sevgiyə belə, biganə olmuşdun. Elə bilirdim bu ötəri maraqdı, məndən ala bilmədiyini rahatlıqla bölüşən Raya ilə bir neçə dəfə yatıb uzaqlaşacaqsan... Rəfiqəm olsa da, sənə qarşı hisslərindəki süniliyi, yalançı məhəbbət nağılını, aldadıcı cazibəsini, iyrənc ehtiras düşkünlüyünü, nə yolla olur olsun səni məndən qoparmağa çalışdığını duymuşdum, amma sənin gözlərin qapanmışdı, üzr istəyirəm, bütün hisslərini bir yerinlə idarə edirdin deyə, heç nəyin fövqündə deyildin... Raya sənə vermədiyim başqa məktub da yazıb axı. Məxsusi mənə. Sənin oxumağını istəmədiyi bir məktub...

"Sənin oxumağını istəmədiyi..." – Marağımı çəkdiyindən yerimdən dik atıldığımı görüb, sakitləşdirib demişdi:

– Əlbəttə, Lala əməliyyatdan uğurla çıxsın, hər şeyi yerli-yataqlı danışacam. Bu günlər heç birimiz gərgin olmamalıyıq".

* * *

Xatırlayıram, son anda, idarəetməni itirib yoldan çıxanda bircə ona görə Tanrıya dua edirdim ki, hələ ölməyim. Havaxt olur olsun, lap səhərisi gün, iki gün sonra, amma o gün yox...

Bilmirəm qəfil qarşıma nə çıxmışdı, yoxsa gözümə nəsə görsənmişdi, yadımda deyil... Zərbə güclü olmuşdu. Çox güclü... Yəqin ki, təhlükəsizlik yastığı vaxtında açılmasaydı, tikəm ələ gəlməzdi... Deyəsən, qapını nəyləsə sındırıb məni maşından çıxarmışdılar...

Səlim də, Nelli də min dəfə xəbərdarlıq edirdi ki, mənə maşın idarə etmək olmaz. "Son vaxtlar diqqətin yayınır, fikrin Allah bilir haralarda olur, özünü bilə-bilə ölümə aparırsan, belə olmaz", – deyirdilər. Bilirəm də, xəstəxanaya düşdüyümü eşidən kimi gəlib yenə düşəcəklər üstümə – danla ki, danlayasan!

...Gərək Səlimə deyim, tatar məscidinə nəzir versin. Yadına salmasam, eləməyəcək. Nellinin kilsədə şam yandıracağına onsuz da əminəm, dayanan deyil, xəbər tutubsa, bəlkə də yandırıb.

...Özümə gələndə həkimlər dedi ki, qorxulu heç nə yoxdu. Pəh, lap inandım. Yəqin indilik yoxdu, bilirəm, təskinlik verirlər, bir-iki aydan sonra fəsadları üzə çıxasıdı. Mütləq çıxasıdı...

Artıq belə şeylərə öyrəncəliyəm. Qızımın müalicəsi başlayandan illərlə xəstəxana yollarındayam, həkimlərinin təmkinliyinə bələdəm. Yalanı da elə gözəl deyirlər ki!.. İlahi, görürsən, hiss edirsən ki, əlac yoxdu, bundan sonra heç Allah da kömək edə bilməz, onlar isə üzünə gülür, hər şey əla olacaq deyirlər. Adam can verir e, hər şeyə çarə var, – deyib rahatlayırlar səni, dərdin də yadından çıxır, adın da...

Ağır avtomobil qəzasından qurtulmuşdum, elə bil Əzrayılın qucağından sürüşüb düşmüşdüm pambıq tayasına. Bəlkə də Əzrayıl özü bilərəkdən əlindən "yumşaq" yerə salmışdı. Belə deyirlər ki, əgər maşın ora körpünün məhəccəri təmir olmamışdan əvvəl çırpılsaydı, birbaşa çaya uçacaq, çətin ki salamat qalacaqdım. "Sağ olsun körpüsalanlar!" Köhnə məhəccəri görmüşdüm, demək olardı adı vardı, əlli ilin yağışı-qarı döyəcləmişdi, müharibədən sonra çiy kərpicdən tikildiyindən ovulub tökülmüşdü...

Yəqin ki, Allahın, mələklərinin də mənə rəhmi gəlmişdi o gün. Böyük sınağa çəkdiyi fağır övladının doyunca sevinməsini, göz yaşı tökə-tökə gülümsəməsini istəmişdi bəlkə? Heç şübhəsiz, bu, Tanrının işiydi, vəssalam! O, istəyirdi ki, mənim Rayamın, etdiyi bütün günahlarına rəğmən, nakam Rayamın göylərdə süzən ruhu uzun illər gözlədiyimiz günü mənim gözlərimlə

seyr edib sevinsin. Milyonların içində bir övladını bir anlığa azacıq xoşbəxt etməyə nə var ki? O istəsə, bütün yer üzündəki insanları xöşbəxt edər. Axı Tanrının əlində bu, bir qarışqa yaratmaqdan da asandır?!

Heç kəsə arzulamadığım bu vəziyyətdə kim olsaydı, yəqin ki, canının hay-həşirində olardı, mən isə özümü unutmuşdum, qızımı fikirləşirdim, ancaq Lalə balamı... Canımın hayında ola bilməzdim. Əsas odu ölməmişəm, sağam, lap yarıcan da olsam, yaşayıram. Ancaq mənim qızcığazım, qonur gözlü mələyim on ildi əzab çəkir... Nələr çəkir, ilahi!.. Ondan başqa kim bilər bunu?!

Qəza, qəza, qəza!..

On ildə ilk dəfə bütün ağrı və acılarıma son qoyacaq o görüş barədə düşündükcə həyəcanlanırdım. Qəza baş verməsəydi, onun atacağı ilk addımının, bəlkə də addımlarının şahidi olacaqdım. On il başqaları kimi olmamaq, ilmə-ilmə, qarış-qarış böyüyən yaşıdlarından fərqlənmək, daima həkim nəzarətində onlarla xəstəxana, sanatoriya, reabilitasiya mərkəzlərinin havasını udmaq, ətrafında minlərlə, milyonlarla insana həsədlə baxmaq, göynəyə-göynəyə gecələrin, gündüzlərin necə cansıxıcı, həyatın nəinki divar və döşəmələrinə, hətta həyətlərində bitən ağaclarına, gül-çiçəyinə də spirt, irinli qan, dərman iyi hopmuş müalicə müəssisələrindən ibarət olduğunu biryolluq unutmaq xoşbəxtlik deyilmi? Sentimentallığım başıma vurmuşdu. Onun gözlərində parlayacaq sevinc qığılcımlarını görmək üçün illərimi verməmişdimmi? Onu görmək, bağrıma basıb gözlərindən öpmək istəyirdim. Mənə başqa nə lazımdı ki?! Vücudumu əsarətində saxlayan ağrılarımı unudub onu düşünürdüm.

Lənətə qalmış telefon!.. Bircə o itməsəydi... zəng eləyib yerli-yataqlı öyrənərdim hər şeyi. Yəqin salamat qalsaydı, xilasedicilər təcili yardım işçilərinə təhvil verərdi. Çox heyif... Belə vəziyyətdə telefonun yerini heç nə verməz.

"Görəsən, əməlli-başlı yeriyə bildimi? Yeridimi?.. Heç olmasa Səlim, ya Nelli gəlsəydi... hər şeyi ətraflı danışardı... Tibb bacısı məni aldatmırdı ki?"

Ürəyim yerində çırpınır, onu görmək arzusu saniyəbəsaniyə böyüyür, məni rahat buraxmırdı. Bir yandan da sevinirdim; nə yaxşı ki, bədbəxt hadisə xəstəxanaya gedərkən olmuşdu, qayıdarkən yox. Nə yaxşı ki!.. Qayıdarkən mələyim yanımda olasıydı axı. Ona söz vermişdim ki, inşallah, əməliyyat uğurla keçsin, səni həkimlərin əlindən alıb dünyanın o başına aparacam, həmişə arzuladığın sakit, ən təmiz suyu olan dənizi göstərəcəm. O dənizi ki, səmanın əkizidir, suyu firuzə mavisidir. O dənizi ki, baxdıqca sanki ananın gözlərini görəcəksən...

...İri pəncərəni qapayan yaşılımtıl jalüzün barmaq naziklikdə aralığından bayıra baxdım; cərgəylə sıralanan dirəklərdəki lampalar qaranlığı narıngi rənginə boyamışdı.

"Neçə gündü burdayam?" – fikirləşdim. Gecənin düşməsindən savayı, zamanı andıra biləcək təqvimmi, saatmı axtararaq palatanın divarlarına göz gəzdirdim. Görünən – zəif işıqlı neon lampası, yəqin ki küçə rəssamlarının akvarellə çəkdiyi şəhər mənzərələri asılmış ağ divarlar, avtomatik hərəkət edən çarpayının havadan asılmış pultu, sağ yanda ağ tumbanın üstündə iki qırmızı alma (görəsən, kim gətirib?) olan saxsı vaza, damarıma sancılmış, qolumdan çıxıb düşməsin deyə, plastırla fiksasiya olmuş kateterin boğazı, başımın üstündə sallanan nazik şəffaf borucuqlar, işlək halda iki kiçik monitor idi, – özgə heç nə... Yuxulu kimiyəm. Ehtiyatla yerimdən durub qapıya sarı gedirəm ki, bir ins-cins görə bilim. Bu sakitlikdən bağrım çatlayır. Xəstəxananın bəmbəyaz uzun dəhlizi boş və çox cansıxıcıdı. Gecədən xeyli keçdiyindən, növbətçi həkim masa arxasındaca mürgü döyür. Yanında oturan tibb bacısı

yuxusunu qovmaq üçün corab toxuyur. Məni görüb əlindəkiləri ehtiyatla boş oturacağa qoyub durdu, həkimi göstərdi, işarət barmağını dodağına sıxıb “sssss...” elədi, qoluma girib “sizə durmaq olmaz, bilsə, hirslənəcək” deyib məni palataya tərəf apardı.

– Saatı bilmək istəyirdim, – sakitcə soruşdum. – Yata bilmirəm. Bura çox darıxdırıcıdı.

Yorğun-yorğun gülümsəyərək:

– Bura xəstəxanadı, – dedi, – gecə klubu deyil ki...

– Vaxtı demədiniz...

– Beşin yarısıdı. Səhərə az qalır... Keçin, uzanın, – deyib getdi.

Palataya girib var-gəl elədim... “Axx, ayın neçəsi olduğunu soruşmağı unutdum”. Əşi, tutalım, bildim, guya nə fərqi vardı?

Yaxşı ki, dəhlizə çıxmışdım. Heç olmasa tənha olmadığıma əmin oldum.

“Görəsən, cərrah Zinaida Valeryevna ad günü hədiyyəsi kimi hansısa sürprizdən danışaraq, “nəhayət ki uzun sürən müalicələr öz nəticəsini verməyə başlayıb” dediyindən neçə gün keçər?.. Bəlkə hər şey dünən baş vermişdi?.. Eyib etməz, yəqin ki Səlim gəlib məni yoluxar. Mütləq gələr... Bəlkə də mən özümdə olmayanda gəlibmiş, o almaları da o gətiribmiş?.. Balaca şəhərlərdə xəbər tez yayılır. Eşitsə özümdəyəm, yoluxar, onda ayın tarixini də soruşaram...”

Ad günündən iki gün əvvəl, bu neçə illərdə keçirdiyim sarsıntılarımın şahidi olan tibb bacısı, yəqin ki məni sevindirmək məqsədiylə “qızınız, nəhayət ki, sərbəst yeriməyə başlayacaq” – deyib sürprizin “sirrini” açmışdı. İnana bilməsəm də, hədsiz xoşbəxtlik vəd edən bu xəbər məni elə qanadlandırmışdı ki, xəstəxana dəhlizindən birinci mərtəbənin çıxışına necə çatdığımdan, dayanacaqda maşınımı işə salıb şosseylə şütüdüyümdən xəbərim olmamışdı.

Zəng edib sevincimi birinci Səlimlə bölüşmüşdüm. İkicə gün dözüb gözləmək gərək idi. Mənə elə gəlirdi ki, saatlar dayanıb. Həmişə vaxt azlığından, günlərin, ayların göz qırpımında biri-birini əvəz etdiyindən şikayətçi olan mən, onda zamanın insafsızcasına astagəlliyindən, tısbağa ləngliyindən narazılıq edir, saatların tənbəl əqrəblərini lənətləyirdim.

“Sənə şükür, Allahım!.. Deməli, mənim də qızım yaşıdları kimi gəzə biləcək?!” Dualarım məni arzularıma qovuşduracaqdı. Vaxt az idi... Hər şeyi çatdırmalıydım. Ən yaxşı şirniyyat mağazasına gedib tort sifariş verdim, cərrahın sirrini açan tibb bacısına bahalı hədiyyə aldım, axşam Səlim və Nelliylə bunu qeyd etmək üçün iki şüşə “Bordo”, bir parça holland pendiri, mayasız qara çörək, üç yüz qram hisə verilmiş nərə balığı alıb evə tələsdim. Zamanı aldatmaq üçün asta-asta içmək lazım idi... Vaxt isə öz işindəydi.

Nəhayət ki, səbirsizliklə gözlədiyim gün yetişdi. Şirniyyat mağazasına iki gün əvvəl sifariş verdiyim, üstünə “12 yaşın mübarək, Lalə qızım!” yazılmış tortu götürmüş, bir səbət ağ zanbaq almışdım. Tibb bacısının hədiyyəsini, hə, bir də qızım üçün Nellinin məxsusi toxuduğu bir cüt yun corabı zanbaqların arasında gizlətmişdim. Qızımın belə sürprizlərdən xoşu gəlir... Yol boyu təsəvvür edirdim ki, iri səbətdəki bəyaz zanbaqları qoxuyanda, gözəl naxışlarla toxunmuş corabları tapacaq, onları sevinə-sevinə götürüb, uzun illər hərəkətsizlikdən nazilmiş qılçalarını, topuqlarını oxşaya-oxşaya ayaqlarına geyəcək. Yəqin ki, körpə ürəyi həyəcandan çırpınacaq, kövrək-kövrək gülümsünüb ayaqlarını yaraşığa gətirən corablardan gözünü çəkməyəcək. Kimin toxuduğunu soruşacaq. Mütləq soruşacaq. Bilmək olmaz, bəlkə heç maraqlı gəlməyəcək?.. İşdi, əgər soruşsa, bir şey uyduraram. Əsas odur ki, mələyim,

şahzadəm sevinsin. Mən də içimdə göynəyə-göynəyə şahzadəmin on il məhkum olduğu əlil arabasından aralanmasına, ilk sərbəst addım atmasına, vücudunun necə dirçəlməsinə tamaşa edib heyrətdən kövrələcəkdim. Yəqin o da mənim nəmli gözlərimi görcək təəccüblə gülümsəyəcək, kəkələyə-kəkələyə, "sa-aağ o-ol, ata!", deyəcəkdi. Nə bilmək olardı, bəlkə də başqa bir söz... Hər halda, könlümü alacaq bir sözə, kəlməyə ehtiyac duyurdum. Məni göylərə qaldıracaq bir sözə... Bunu ummağa haqqım yoxdu ki?..

* * *

Yuxum qaçıb. Səhərin açılmağını gözləməkdən özgə çarəm yoxdu. Gözlərim pəncərəyə dikilib. Pəncərənin o üzündə məsum şəhər mürgü döyür, gündəlik qayğılarını müvəqqəti də olsa unudan yorğun-arğın insanlar bəxtəvər-bəxtəvər uyuyur.

Bu sakitlikdən bezib yenidən ayağa durmağa çalışıram. Bacarmıram. Başım dəyirman daşı kimi hərlənir. Özümü qapalı məkanda deyil, tənha, göydən asılı qalan hava şarında hiss edirəm, dörd yanım da boşluq. Bayaq dəhlizdə həkimlə tibb bacısını görməsəydim, elə bilərdim ki, bu nəhəng xəstəxana binasında məndən başqa kimsə yoxdur...

Ürəyim sıxılır. Tənhalığın quduz caynağından qurtulmağın ən yaxşı yolu yaşanmış zamanlara təkrar-təkrar baş vurmaqdı. Xatırlamaq... Xatırlamaq – öz uşaqlığını, gəncliyini kənardan, həm də özgə gözüylə ağ-qara filmə baxırmış kimi, seyr etməkdi sanki. İllər ötdükcə, təkcə yaşanmış acılar qəlbimizi sıxmır, hətta xatırlaya biləcəyimiz ən şirin anlar da insanı kövrəldir. Belə anlarda unudulmuş, hadisələr cərəyan edən ötmüş zamanlarda gözdən qaçan kiçicik məqamlar da diqqət çəkə bilir, gah təəccübləndirir, gah da həyəcanlandırır. Ötən günləri xatırlamaq bəzən təəssüf, ağrı doğursa da, çox vaxt məni elə kövrək duyğuların qoynuna atır ki!.. Zamanı öldürmək, onun varlığını duymamaq üçün gözlərimi yumsam belə, yenə uzaq-yaxın xatirələr məni rahat buraxmayacaqdı. Son günlər bütünlüklə xatirələrlə yaşayırdım.

* * *

... Raya doğuş zamanı həlak olandan sonra onu müalicə edən həkimlə söhbətim gec də olsa bəzi şübhələrimə aydınlıq gətirmişdi. Zarafata salıb "sən həkimi düz başa düşməmisən, ay neruski" deyərkən mən çox ciddi ölüm-dirim məsələsinə səhlənkarcasına yanaşan Rayaya nahaq inanmışdım. Nədən belə addım atdığını heç cürə anlamırdım... Bilsəydi ki, özü öləcək və həyatı boyu iflic qalacaq uşaq dünyaya gətirib məni zillət içində yaşamağa vadar edəcək, görəsən, o addımı atardımı? Təcrübəli həkimin tələbinə məhəl qoymadan sağlam uşaq doğacağına əminlik hardan ola bilərdi? Axı həkim "sağlamlığına tam zəmanət verməsəm də, təəssüf ki, ikinizdən birinizin qalmaq ehtimalı var" deyibmiş. Elə idisə, lap buna əmin olsan belə, gənc həyatına qıymaq, özü də düşünülmüş halda bu addımı atmaq cinayət deyildimi? Həkim ilk növbədə ananı qorumaq üçün "hələ ki, gec deyil" deyib dölü vaxtında tələf etməyi təkidlə bildirəndə, özünü yox, tam formalaşmamış uşağı fikirləşmək heç də fədakarlıq deyildi. O, bunları dərk edərək özünü qurban seçibmiş?! Niyə?

Heç bilmirəm bunları yada salmağın mənası varmı? Məqamında əhəmiyyət vermədiyim söhbətlərimizi xatırladım. Nələr baş verdiyini mənimlə bölüşməsə də, tez-tez nəyisə yadına salıb heyifsilənən, tənhalığa çəkilib ağlayan zaman

yaxalayırdım onu. Dəfələrlə qida rasionuna, əhval-ruhiyyəsinə, dolayısıyla sağlamlığına zərər verə biləcək yanlışlıqdan uzaq durmağını təkrarlasam da, hamiləliyini unutmuş kimi davranır, boş vaxtlarında həzin musiqilər dinləməkdən, mütaliə etməkdən, meyvə-tərəvəz yeməkdən vaz keçir, dinib-danışmır, xidmətçi qadını qovur, televizoru, telefonu söndürüb, saatlarla divanda uzanıb gözlərini məchul nöqtəyə zilləyirdi. Demək olardı ki, günlərlə bir-birimizlə kəlmə də kəsmirdik. Mən bunu hamiləliyi ağır keçirməsiylə əlaqələndirir, depressiv hallara düşməsin deyə, hətta əhvalını yaxşıya doğru dəyişdirə biləcəyimə inamlı olsam belə, elə məqamlarda ehtiyatlı hərəkət etməklə onun həssas durumunu yersiz müdaxilələrdən qoruyurdum və mənə elə gəlirdi ki, ona necə qayğı ilə yanaşdığımı duyacaq bir gün. Əfsus ki, ara sakitləşəndə mənim diqqətsiz, sevgisiz, daş ürəkli yırtıcı olduğumu durmadan təkrarlayıb ilan kimi günlərlə zərrə-zərrə topladığı zəhərini üstümə püskürür, qarşılıq verməyəcəyimi bildiyindən, onsuz da alt-üst olmuş həyatıma pərişanlıq gətirirdi. Şükür, dəlilik səviyyəsinə çatmasa da, inadkarlığından doğan şıltaqlığı məni özümdən çıxarırdı. Axşamlar evə qayıtmaq dözülməz əzaba çevrilsə də, üzə vurmurdum.

Həyəcanı ötmürdü. Nədən narahat olduğunu soruşanda da söhbətdən yayınırdı. Hamiləlik dövrünü ağır keçirdiyindən, dəniz səyahətinə çıxmağı təklif edəndə, mənə elə baxmışdı ki, elə bil Ostankino qülləsindən özünü tullamağı əmr etmişdim. Soruşanda ki, dəniz havası indiki vəziyyətində sənə, körpəmizə xeyirli ola bilər, nədən belə heyrətləndin? Qəribə bir çaşqınlıqla susmuşdu. Bir vaxtlar rəfiqəsiylə Qara dəniz sahillərində istirahətdə olduğundan xəbərdar idim, şəkillərini də görmüşdüm, yəqin dənizlə əlaqəli hansısa xoşagəlməz xatirəsi vardı deyə, çox da dərinə getməmiş, hisslərinə aydınlıq gətirmədiyinə görə mən də elə əhəmiyyət verməmişdim.

Axır ki, onu yola gətirə bilmişdim. Şərti o olmuşdu ki, dənizə girməyəcək, eləcə sahildə oturub ətrafı seyr edəcək. Niyəsini soruşmadan razılaşdım. Asudə istirahət etmək üçün maşınımla getməkdən vaz keçmişdim. Rayanın yüksəklik əndişəsi olduğundan, bir həftə sonra qatarla Qaqra şəhərinə yola düşəndə son vaxtlar tez-tez mübahisəyə səbəb olan həkim söhbəti də, heç olmayıbmış kimi, eləcə unudulmuşdu...

Mehmanxanada qalmaq əvvəldən fikrimizdə yox idi deyə, elə vağzaldaca həyətindən dənizə açılan gözəl mənzərəsi, təmiz havasıyla lovğalanan ev sahiblərinin birindən narıngi ağacları, palma və qızılgüllərlə əhatələnmiş, geniş eyvanı düz dənizə açılan ev kirayə etmişdik. Qara dəniz sahilində yerləşən, hər addımda Roma, Osmanlı, rus və sovet memarlıq nümunələrinə rast gəlinən sakit kurort şəhəri nədənsə Rayanı ovsunlaya bilmədi.

Elə bil gəlməyinə narazı olduğunu biruzə verməsə də, hiss edirdim ki, dəniz havasından sıxılır, bunun nə ilə əlaqəli olduğunu dilinə gətirmirdi. Yadımdadır, az-az danışar, söhbət açdığım bütün mövzulara qıcıqla, bəzən saymazyana reaksiya verirdi, elə bil yüz il idi bir yerdəydik, hər şey barədə söhbət edib tükənmişdik. Əgər qəlyanaltıya, ya şam yeməyinə getməsəydik, saatlarla kətilə yayxanar, sirli-sehirli nəyinsə peyda olacağını gözləyirmiş kimi, baxışları dənizin sonsuzluğunda itib-batardı. Yəqin ki, ətrafda nələrin baş verdiyi onun üçün maraqsız idi. Çox vaxt yanında olduğumu da unudurdu. Hər gün davam edən bu etinasızlıq, diqqətsizlik, bezdirici hərəkətsizlik məni özümdən çıxartsa da, yanından uzaqlaşmırdım. Başqası bu fürsətdən məharətlə istifadə edib bir neçə saatlıq da olsa aradan çıxar, adamı hər addımda cuşa gətirən gözəllərlə dolu kurort şəhərində özünə müvəqqəti sevgili tapıb əylənərdi. Kənardan onu seyr etdikcə mənə elə gəlirdi ki, ehtirasla köpüklənən çılğın ləpələrin yaladığı

rəngarəng xırda daşların üstündə oturub mavi sulara tamaşa edən o deyil, hansısa heykəltaraşın ustalıqla yaratdığı qadın heykəlidi – illərlə bu sahildəki daş kətildə beləcə əyləşib dənizlə “dərdləşir”. Belə vədələrdə aralıda sakitcə dayanıb onu müşahidə edir, günü-gündən nəyin peşində olduğuna marağım artsa da, qapandığı məchul aləmdən yayındırmaq, düşüncələrini dağıtmaq istəmirdim. Bir dəfə yaxınlaşıb boynunu qucaqladım, dəniz mehindən oynayan saçlarını öpdüm, ehtirasa gətirim, bəlkə də özümü yanında hiss etdirim deyə, duzlu işarət barmağımı dodağına sürtdüm, nə barədə düşündüyünü, niyə səssiz özünə qapandığını, dənizdən özgə hər şeyi, hətta məni də unutduğunu soruşdum. O, handan-hana başını qaldırdı, qollarını açıb məni özünə çəkdi. Xeyli beləcə dayandıq. Gözləri qayğılıydı. Bir neçə dəfə dodaqları tərpəndi. Qərarsızdı, deməyə söz tapmadığındanmı, bəlkə demək istədiyinin yersiz, mənasız olacağındanmı ehtiyat edib dodaqlarını bərk-bərk sıxdı, könülsüz gülümsədi. “Sualıma cavab vermədin, sevgilim” pıçıldadım. Susan, qurumuş dodağından öpdüm. Sanki bu təmasdan azca hərəkətə gəldi. Nəm dodaqlarımın hərarətini duyunca, cavab öpüşünə xəsislik etmədi. Və qəfil mənim vəcdə gələcəyimdən ehtiyat etdiyindənmi, elə bil harada olduğunu anlayıb gözucu ətrafa nəzər yetirdi, boynunu sağa əyib məndən aralandı. Tərəddüdlə, gözlərimin içinə baxmadan peşmançılıq sızan asta səslə dindi:

– Hər şeyi mən korladım... Bağışla...

Bilmədim dənizlə danışır, səmaya söylənir, ya mənə eşitdirirdi. Özlüyündə bəlkə də hansısa günahının etirafı kimi pıçıldadığı bu ikibaşlı kəlmələri ürəyincə olmayan dəniz səyahətinin onun ucbatından pozulduğuna yozmuşdum. Hətta onu sakitləşdirmişdim ki, özünü üzməsin, nə vaxt istəsə geriyə, evimizə dönə bilərik. Bax, o anda, mənim heç nə anlamadığıma işarə kimi başını yırğalamağının hansı məna kəsb etdiyinə məhəl qoysaydım, anındaca bir çox mətləblərdən agah olardım bəlkə, daha üstündən on iki il keçəndən sonra yox...

* * *

...Bir günün içində qara saçlarımın ağarmasına heç də təəccüb etmədim. Hələ də inana bilmirəm ki, bu qırx iki ildə bir yox, neçə bəşər övladının çəkə biləcəyi yükü çiyinlərimdə daşımışam. “Dərd verən dərmanın da verir” deyirlər. Amma mənim dərd dozam həddən çox, dərmanım bir atımlıq olmuşdu. Bir ara, elə indi də, bütün daşınan və daşınmaz əmlakımı satıb, xəstə qızımı da götürüb, harasa uzaqlara köçmək fikrimdən keçmişdi. Özümə bir xəyal qurmuşdum. Məni buralara bağlayan bağlar artıq kökündən qırılmışdı və mənə elə gəlirdi ki, getsəm, uzaqlaşsam, sabit, daha maraqlı, daha rahat bir ömür sürmək mümkün olacaq. Elə bu anda, bu bəyaz palatada, bəyaz yataq dəsti olan çarpayıda uzanıb xəyalımda qurduğum yuxu kimi şirin gələcəyimi təsəvvür edirdim. Hündür mərtəbəli müasir binalar, super-qiper marketlər, yarıqaranlıq zirzəmilərdə siqaret tüstüsündə boğulan ucuz kafelər, addımbaşı xəstə cəmiyyətdə yaşadığımızı yada salan bərbəzəkli aptek köşkləri, şəxsi mənafeyi naminə yaltaqlıq, ikiüzlülük edib pillə-pillə qalxaraq alçalan, şəxsiyyətini, əxlaqını, əqidəsini pula satan marionetlər, sadə, fağır insanları borc içində çabaladan lombardlar, vicdanını itirmiş sələmçilər, bankirlər, pullu məktəb və xəstəxanalar, Çexov, Tolstoy zəmanəsindən qalma, hələ də daş kömürlə qızdırılan, yosmaca taxta komaları olan əyalət şəhərləri xəyali qurduğum dünyamdan çox-çox uzaqlarda qalacaqdı...

Yenə xəyalımdan məni səs ayırdı. Tibb bacısı, onun ardınca çiyninə ağ xalat atmış Nelli bir əlində kiçik çanta, o birində bir dəstə ağ xrizantem içəri girdi. Axır ki!.. Dağınıq fikirlərin orbitindən çıxmadan yerimdən sıçrayıb dursam da, o, məni qabaqladı, gülləri tibb bacısına uzadıb yüz ilin həsrətlisi kimi qol açıb boynuma sarıldı. Çantasını vaza olan dolabın üstünə yerləşdirdi. Gözləri dolmuşdu, özünü güclə saxlayıb gülümsündü, yəni, Allaha şükür, sağ-salamatsan. Tibb bacısı gülləri güldana qoyub çıxdı. Oturduq. Bilirdi ki, indi özümdən çox, qızımdan narahatam. Mənim əhvalımı soruşmağını istəmirdim. Qarşısındaydım. "Qızımdan danış" deyən gözlərimdəki narahatçılığı sezdiyindən, həyəcanıma tələsik son qoymaq istədi. Nəfəsini dərib təmkinlə bildirdi:

– Gözlədiyimizdən də yaxşı oldu! Lala, şükür Tanrıya, ilk addımlarını atdı. Bu, ağlagəlməz möcüzəydi. Xoşbəxtlikdən qanadsız uçurduq. Təsəvvür edirsən, professor öz uğurundan məmnun halda qızın alnından öpüb boğazına yığılmış qəhəri güclə udmuşdu. "Bəs, atam hanı?" deyə-deyə Lalanın gözləri səni axtarırdı, həyəcanlanmasın deyə, Səlim anlatdı ki, ata vacib, çox vacib sənədləri imzalamaq üçün Moskvadadı, tezliklə qayıdacaq. Əlbəttə, üzə vurmasa da, Lala inanmadı, illərlə gözlədiyin gündən daha vacib işinin olacağına da, Səlimin quraşdırdığı ağ yalana da... Qəfil qəza keçirdiyini deyə bilməzdik axı?.. Həkim onu xüsusi palataya aparanda Lala məni də, Səlimi də qucaqlayıb elə kövrəldi ki!

Nelli danışdıqca bədənim süstləşir, ürəyim çırpınır, nəfəsim daralırdı. Elə indicə təpər tapıb durmaq, xəstəxana paltarındaca lap ayaqyalın, şəhərin o başına qaçmaq, qızımı görmək, gözlərindən öpüb onun ayaqlarını qucmaq, dizlərinə baş qoyub doyunca ağlamaq istəyirdim. Sevincdən, özü də dəli kimi ağlamaq istəyirdim! Həyatımın on ilini sərasər, heç nə düşünmədən sağalmasına sərf etdiyim balaca qızcığazıma bircə an qovuşmaqdan ötəri hər şeyimdən keçməyə hazır deyildimmi?!

Nelli duyğulandığımı hiss etdiyindən, başımı sinəsinə sarı çəkdi, körpə uşaq könlü alırmış kimi, saçlarıma sığal çəkdi, həlim hərarətini bədənimə hopdurdu.

Sonra, əhvalımın getdikcə yaxşılaşdığını görüb özümə də yuxu kimi gələn qəza barədə soruşdu, "on gündü kilsədə şam yandırıb dualar edirəm, şükür Tanrının böyüklüyünə, dualarımı eşitdi, axı sən ölə bilərdin!?" deyib məni uşaq kimi tənbeh elədi. Dedi ki, eksperimental klinikaya yerləşdirildiyini bilən kimi, Səlimlə bura gəldik, komada olduğunu bildirdilər, bilirsən də, indi çox yerə əlim çatır, Səhiyyə Nazirliyində bir dostum işləyir, ona zəng vurub baş həkimə səni tapşırtdım, ikicə saatdan sonra özü zəng etdi, zəhmət çəkib klinikaya gəlməyin dedi, ayılan kimi özüm zəng edib xəbərdar edəcəyəm. Hə, çox punktual insanmış, srağagün zəng etdi, təbrik eləyib ayıldığını, vəziyyətinin kritik olmadığını, amma görüşün iki gündən sonra mümkünlüyünü dedi. Bax belə, on gündü hamımız iynə üstündə oturmuşuq, rahatlığımız yox. Lala bala şübhələnməsin deyə, hər gün yanına gedirəm, axı sənin ağır qəzaya düşdüyünü bildirmədik ona...

"Deməli, on gündü buradayammış?" Əllərindən yapışdım. Sanki ürəyi barmaqlarının ucunda döyünürdü. Hərarəti yavaş-yavaş bədənimə yayıldı. Qəfil kimsə gələr deyə, onu qızğın bir ehtirasla qucaqlamaq, xəstəxana çarpayısındaca şirin öpüşlərə qərq eləməkdən özümü güclə saxladım. Canım bu istəklə, bu yanğıyla qovrulurdu. Qəfildən soruşdu:

– Məktubları oxudun? – Cavabımı gözləmədən davam etdi. – Bilirsən, sənin qəzaya düşdüyünü eşidəndə özümü günahkar bilib lənətlədim! Bəlkə oxuduqlarının təsirindən yolboyu diqqətin yayınıb, deyə düşündüm. Gərək

məktubları sənə verməyəydim. Yeri deyildi. Oxumuşdum, yandıraydım, gərək sənə verməyəydim...

– O gün danışdıqlarından savayı nə vardı axı o məktublarda? – Təəccüblə soruşdum. Barmaqları hələ də ovcumu yandırırdı. Hipnoz edirəmmiş kimi, tərpənmədən gözlərinin düz içinə baxırdım. Yəqin ki, baxışlarımdan diksinib əllərini çəkdi.

– Oxumadın? – Soruşdu. Başımı yellədim. Elə bil bir az sevindi və qəfil də əlavə etdi. – Yaxşı ki... oxumamısan, yaxşı ki... yoxsa...

– Yoxsa, nə? – Cavab gözləmədim. Heç ehtiyac da yox idi. Başa düşdüm ki, əgər Nelli belə həyəcanlıdırsa, deməli, Rayanın yazdıqları çox ciddiymiş. Bəlkə mən düşündüyümdən də ciddi? Uzaq olduğu qədər də yaxın keçmişimizdəki hansısa gizlinlərə işıq salacaq məktubların məzmunu maraq doğurmağa başlayırdı. Neçə illər hansısa küncdə atılıb qalmış məktubların birdən-birə üzə çıxmasına bir səbəb olmalıydı, ya yox? Görəsən, nə yazıbmış? Birdən, “mənim oxumağımı istəmədiyi” məktubu yadına saldım. Axı söz vermişdi ki, Lala əməliyyatdan çıxandan sonra açıqlayacaq. Artıq hər şey geridə qalıb. Qızım yeriyir, mən də hələ ölməmişəm, o müəmmalı məktub da mənə aiddi ki, belə cidd-cəhdlə oxumamağımı xahiş edibmiş. Deməli, nə baş verdiyini bilməyə haqqım var.

Nelli çantasında eşələnib dördkünc qatlı saralmış kağızı çıxartdı, unutduğunu bildirib qoluma girdi. Palatadan çıxdıq. Səlim istənilən vaxt gələ bilərdi deyə, məktubu təklikdə oxumağı məqsədəuyğun bildyini başa düşdüm. Bir yandan da “görəsən, daha nələrdən bixəbərəm?” deyə çox fikirləşirdim. O yanımdaydı deyə, rahat olmağa çalışdım. Amma həyəcan bitmirdi.

Dəhlizdə bizi görən tibb bacısı israrla geri – palataya qayıtmağımızı tələb etsə də, Nellinin yalvarışlı tonda “yarımca saat hava alıb, gəlirik” xahişi işə yaradı. İkicə addım atmışdıq ki, tibb bacısı arxamızca əmrici tonda səsləndi:

– Ancaq yarım saat!

Elə çıxış qapısıyla üzbəüz, ətrafında ağ və qırmızı qızılgüllər pardaqlanmış nəhəng küknarın altındakı taxta oturacaqda əyləşdik. Qəzadan sonra ilk dəfəydi açıq havadaydım. Başım azca gicəlləndi. On dəqiqə vaxtımız vardı. Sual və maraq dolu baxışlarım Nellinin ovcunda sıxdığı kağıza dikilmişdi. Nəhayət, qat kəsmiş solğun kağızı aça-aça soruşdu:

– Oxumaq istəyirsən, yoxsa mən... – Sözünü yarımçıq saxladım ki, “oxu”.

– Səni tanıyana qədər başına nələr gəldiyindən artıq məlumatın var deyə, əvvəlini oxumuram. Təkrarlar çoxdu... – Gözləriylə axtardığı yeri tapıb, – hə, – dedi, – burdan başlayır... Yazıb ki, qonşumuzun kirayə verdiyi ikiotaqlı mənzildə üç qafqazlı kişi qalırdı. İkisi orta yaşlı, biri cavan. Bazarda meyvə-tərəvəz satırdılar. Səhərin alaqaranlığından işə gedirdilər deyə, ancaq axşamlar rastıma çıxırdılar. Ən cavanı mənə pərəstiş edirdi. Ondan mənim də xoşum gəlirdi. Adı Timur idi. Bəzən bekar vaxtımızda kafeyə, karaoke-bara dəvət edir, qulluğumda dururdu. Aramızda heç nə olmamışdı. Həqiqi... Doğrusu, o, mənə başqa gözlə də baxmırdı. Deyəsən, sevirdi, hə, vurulmuşdu mənə. Bir dəfə, çəkinə-çəkinə, dostlarının evdə olmayacağını deyib məni qaldığı evə dəvət elədi. Əvvəlcə ehtiyat elədim. Amma sonra necə oldusa, razılaşdım. Adı dilimə yatmayan gürcü yeməyi bişirmişdi. Babasının göndərdiyi şərabın dadına baxmağı təklif elədi. İçdik. İki buynuz – hərəmizə biri... Məclis qızışdı. Rəqs elədik. Əməllicə keflənmişdim. Xalama zəng edib yalan danışdım, sizdə gecələyəcəyimi dedim. Sonra... Timurun ağuşuna atılıb özümü ona təslim etdim. Səhərəcən sevişdik – əsl ər-arvad kimi. Elə xoşbəxt idik ki! Dörd ay beləcə görüşdük. Sonra görünmədi, yox oldu Timur. Çəkinə-çəkinə

dostlarından onu soruşdum, hara getdiyini bilmirdilər, elə bil yer aralanıb Timuru diri-diri udmuşdu. Və onu sənin ad günündə görəndə məni elə bil ildırım vurdu. İnsan insana necə oxşayarmış! Yox, yox, o Timura oxşamırdı, o sanki Timurun klonu idi! Göydə axtardığımı yerdə tapmışdım. Gördüyüm andan vurulmuşdum. Dəlicəsinə... Təsəvvür edə bilməzsən necə... Sənin sevgilin olduğunu sonradan bilsəm də, onu əlimdən buraxa bilmədim. Etiraf edirəm ki, bunu şüurlu surətdə etdim. Bağışla... Bu, böyük günah idi, lakin özümlə, hisslərimlə bacarmadım... Hiss edirəm, buna görə Tanrı məni cəzalandırır... Yəqin ki, bu yaxınlarda mən öləcəyəm... Ona uşaq doğmağa söz vermişəm. Həkimlər dölü məhv etməyi təkid etsələr də, buna razı olmadım. Bəlkə də səhv elədim... Ancaq ümidliyəm. Dua edirəm, hər gün kilsədə şam yandırıram ki, körpəmə heç nə olmasın. Ona söz vermişəm... Təki uşaq sağlam doğulsun... Əgər mən ölsəm, yalvarıram, uşağıma sahib çıx, ona analıq elə, sev onu... Çalış, məni bağışlayasan... Onu da tənha qoyma... Əgər ikimiz də həlak olsaq, Aliki xoşbəxt elə... Mən bunu bacarmadım...

Sanki bu neçə illərdə, bəlkə də hər gün gözləri dola-dola əzbərlədiyi mətni birinci dəfə oxuyurmuş kimi, həyəcanlıydı.

Heyrətdən ağrılarımı unutmuşdum. Nelli asta, güclə eşidiləcək səslə dedi:

– Məni qınayırsan əlbət.

– Bu, sənin seçimin idi, – incik dedim.

– Yəqin elə bilirdin on iki ildi bu məktubları azı min dəfə oxumuşam, eləmi? İnan, bu məktubların Rayadan olduğunu görəndə poçtumdan necə götürmüşdümsə, eləcə də belini bağlayıb emalatxanamın bir küncündə gizlətmişdim. Ürək eləyib açmırdım. Oxuyub məyus olmağımı istəmirdim. Qəribədi, onun yazdıqlarından savayı, ağlıma hər cür fikir gəlirdi. Təəssüf edirəm... zamanında oxumadığım üçün... Daha doğrusu, təhqir, təhdid dolu yazılara rast gələcəyimdən qorxurdum. O, nədənsə uğursuzluqlarında məni günahkar sayırdı. Son vaxtlar özündə-sözündə olmadığından xəbərdar idim axı... Bu yaxınlarda sənin son evlilik təklifini götür-qoy edirdim, nədənsə qəfil bu məktublar yadıma düşdü. Elə bil kimsə, bəlkə də Rayanın ruhu, hələ də açılmamış məktubların oxunmasını istəyirdi... Belə... Daha sənə hər şey məlumdur.

Pərişanlıq duyğusu məni üzdü. Zamanında həkimlərin mənim dediklərimi qulaqardına vurduğuna məyus oldum. O, ölməyə də bilərdi. Məsuliyyətsizliyinə, məlum hikkəsinə görə bir daha onu qınadım.

Deməli, bilirmiş – öləcəyini də, uşağın xəstə doğulacağı ehtimalını da...

Neçə il bir yerdə yaşadığımıza, bütün həyatımın xırdalıqlarını onunla bölüşdüyümə baxmayaraq, məşəqqətli, acınacaqlı uşaqlıq illərini, anası ilə şərikli cinayətini, ilk sevgisini, bəlkə də hələ yazmadığı nələri... məndən gizlətməyinə səbəb nə ola bilərdi? Saxtakarlığını anlayıb ondan uzaqlaşacağımı, Nellinin yanına dönəcəyimi gözəmi alıbmış? Şübhəsiz, bu, beləydi. Əslində, o, əfsus ki, məni itirdiyi, müəmmalı şəraitdə yoxa çıxmış sevgilisinin oxşarı olduğuma görə sevirmiş...

Nelli doluxsunmuş gözlərimə baxıb susdu. Təskinlik verməsinə ehtiyac duymurdum. Çəkdiklərim bəsim idi. İndi qızım üçün, nakam anasının ruhunu sevindirmək naminə yaşamağa dəyər. Nelli bizimlə olacaqmı? Bilmirəm!

– Rayanın ruhu göylərdən bizə baxıb sevinir yəqin... İndi də tərəddüd edirsən? – Soruşdum.

– Xəstəxanada olmasaydın, axşama restoranda masa sifariş edərdik, – məmnun halda dilləndi. Bu, sürpriz idimi? İnana bilmədim.

– Mən düz eşitdim? – Təəccübümü gizlətmədim. O, başı ilə “hə” dedi.

Bir gündə iki şad xəbər xəstə üçün əsl məlhəm idi.

Səlim gəlib çıxmasaydı, tibb bacısına verdiyimiz sözü unudacaqdıq. Yarım saat ötmüşdü. Görüşüb hal-əhval tutandan sonra üçüncü şad xəbəri də Səlim verdi; baş həkimdən qızımla görüşmək üçün icazə almışdı! Artıq qanadsız uçmağa hazır idim. Belə məqamda mənə elə gəlirdi ki, azacıq, yüngül təkan olsa, səmanın ənginliklərində quş kimi süzə bilərəm! Bu, hədsiz xoşbəxtlikdən yaranan hissdir.

Səlim tələsirdi deyə, bizimlə görüşüb getdi. Nelli də məni palataya ötürdü, çantasını götürüb -üzümdən öpüb çıxdı. “Görüləsi çox işlər var” dedi.

## *YUM GÖZÜNÜ, UÇAQ QOŞA*

...Səlim maşını saxlayanda dizlərim əsməyə başladı. Ürəyimin qəribə ahənglə döyündüyünü ilk dəfə duydum. Ən həyəcanlı anlarda da belə döyünməzdi – sanki sinəmdən qopub ovcumun içinə düşmüşdü, şıltaq körpə kimi ipə-sapa yatmırdı, yerə düşəcəyindən ehtiyat edib ovcumu ixtiyarsız bükdüm, şiddətlə çırpındı köksümdə...

Səlimə baxdım. Vəziyyətimdən agah idi deyə, məni sakitləşdirmək üçünmü gülümsədi? Gözucu güzgüyə baxdım; arxada oturan Nelli qucağındakı al qırmızı astra çiçəklərinə heyranlıqla baxır, düşməyə qərar vermirdi. Deyəsən, hər ikisi qapını nə vaxt açıb düşəcəyimi gözləyirdi. Səlim qoltuqaltı mini soyuducudan mineral su götürdü, açıb mənə uzatdı. Bir neçə udum aldım. Su həyəcanımı azca toxtatdı.

Lalə xəstəxanada yatdığımı bilməsin deyə, evdən təzə köynək, kostyum, tufli gətirmişdi Nelli. İki qutu da “Moskva” şokoladı almışdı – hardan gəldiyimə şübhə yaranmasın deyə... Xeyli vaxtdı xəstəxana pijamasına öyrəşdiyimdən, paltarlarım bədənimə rahat oturmurdu. Pencəyim çiynimdən basır, kəmərim belimdə laxlayır. Arıqlamışam güman ki.

Tərpənmək, tələsmək lazım idı. Səlim baş həkimi güclə yola gətirib iki saatlıq icazə almışdı. Həkimlər düz deyirmiş, mənə elə gəlirdi ki, qəzada elə də zədə almamışam, amma indi təmiz havada, səsli-küylü şəhərin küçələrindən keçib reabilitasiya mərkəzinin giriş qapısına gəlib çatanacan hal-dan-hala düşdüyümü görəndə onlara haqq qazandırdım. Nə yaxşı ki, kəcliyim tutub tibb bacısının sakitləşdirici iynə vurmağına mane olmamışdım.

Bir neçə qurtum da sudan içib butulkanı pəncərənin qənşərinə qoydum. Yerimdə qurcalananda Səlim maşından düşüb mənə sarı keçdi, qapını açıb qolumdan yapışdı. Ha istədim “özüm düşərəm” deyim, Səlim fikrimi göydə tutdu, gülümsəyib təsdiq mənasında başını tərpətdi. Nelli hələ də telefonla danışırdı, buketi, konfet qutusunu götürüb maşından düşəndə biz artıq qapıya yön almışdıq.

Bütün vücuduma sirayət edən həyəcandan qurtulmaq, özümü ələ almaq istəsəm də, alınmır, sakitləşə bilmirəm. İldən uzun gəlirdi neçə günün ayrılığı. Sanki sərhədləri qapanmış ayrı-ayrı ölkələrdə yaşayırdıq. Qəza günü görüşə tələsərkən nə qədər narahat olsam da, belə həyəcanlı deyildim. Məni necə qarşılayacağını yox, nə deyəcəyimi, soruşacağımı düşünürəm.

Məktublarda yazılanları yaddaşımdan silib atmaq istəyirəm. Belə qərara gəldim. Daha məktubları da oxumayacağam. Artıq ehtiyac yoxdu. Evə qayıdan kimi hamısını sobaya!.. Bunları bilməsəydim də dünya dağılmazdı. Nə yazıb yazsın, Rayanın etirafları indi, uzun illər keçəndən sonra heç bir əhəmiyyət kəsb etməməlidi mənim üçün. Ən azından, mən belə istəyirəm. Onu olduğu kimi, tanıdığım kimi xatırlamaq! Ruhu yanımızdadır, vəssalam!

Babam deyərdi ki, ölən adamı yaxşı əməllərinə görə yada salarlar. Sənə görə "pis" olduğunu sağlığında deməyə cəsarətin çatmayıbsa, deməli, pis elə sən özünsən. Ola bilməz ki, insanın yada salınası bir xoş əməli, xatirəsi qalmasın, hətta sevmədiyin olsa belə. Dönə-dönə təkrar edərdi ki, hər canlıya, hətta əşyaya belə, münasibətin necədirsə, qarşılıqda da o cür rəftar görəcəksən...

Bilmirəm, bəlkə də rahat olmağıma səbəb uzun illər məni pərişan edən şübhələrimə cüzi də olsa cavab tapdığımdandı. Sağ olsaydı, cavabını öz dilindən eşitmək istədiyim o qədər suallar vardı ki? Əfsuslar olsun...

Sarsıdıcı, qanqaraldan fikirlərdən uzaqlaşmaq yerinə düşər. Niyə axı vaxtında xəbərdar olmadığım, bəlkə də olub keçənləri dəyərsiz, heç bir şeyə yarımayan tullantı kimi onsuz da yüklənmiş beynimə doldurub əzab çəkməliyəm? Bundan sonra ancaq qızım üçün yaşamalıyam, vəssalam!

Həyat qədərincə döyəcləyib, qamçılayıb məni.

Səlim və Nelli yanımdadı. Həyəcanımı boğuram. Nelli növbətçi həkimdən görüşə icazə almaq üçün qabağa düşüb mərkəzin qapısına tələsir. Səlimlə mən onun işarəsiylə dayanıb gözləyirik. Səlim nəsə demək istəyir, amma susur. Bilirəm, təskinlik verməyə çalışacaq. Yerinə düşəcək kəlmələri tapa bilmir deyə, susur...

Baxışlarım masmavi səmada nəhəng gəmilər kimi süzən topa-topa ağ buludlarda ilişib qalıb. Birdən elə gəldi ki, o nəhəng ağ buludların arasından mənə kimsə baxır. Düz gözlərimin içinə. İxtiyarsız onunla danışıram. "Mənə güc ver, heç zaman diləmədiyim təpər ver mənə. Nə var-dövlət, nə şöhrət gərəyim deyil. Yetər ki, qızımın acı yaşamasını görməyim! İlahi, bu görüşdən çox şeymi gözləyirəm? İllərdi arzuladığım qızımın yaşıdlarıtək addım atıb yeriməsi deyilmi? Axı mənim balaca şahzadəm torpağa öz yaşıdlarından on il az ayaq basıb. O da bütün uşaqlar kimi yaz yağışının altında islanaraq atılıb-düşmək, şehli otların içində ayaqyalın qaçmaq, çayda çimmək, ayaqlarını sahildəki qumsallıqda basdırmaq istəyir... Bax, necə bəsit istəklərmiş... Çoxdumu?"

Sehir dolu o baxışın ovsunundan güclə qopub Səlimə çevrildim ki, görəsən, dediklərimi odamı eşitdi?

– Nəsə lazımdı? – soruşdu.

– Heç... – cavab verdim.

Deyəsən, dəli oluram.

Sinəmi göynədən qəhəri boğa bilməsəm, gözlərim dolacaq, onda özümü saxlaya bilməyəcəm. Təmkinli olmağım vacibdi. O, məni həmişəki kimi nikbin görməlidi!

Nəhayət, Nelli bizə əl edir. Səlim "getdik" deyib qolumdan tutur. Həyəcanlı olsam da, özümü ələ alıb irəliləyirəm.

Mərkəzin geniş qapısından içəri girib qeydiyyat şöbəsində ağ xalat götürdük, geyinə-geyinə dəhlizin sonuna doğru addımladıq. Ürəyim yerində oynayır.

Növbətçi həkimlə tibb bacısı bizi palatanın qarşısında gözləyirdi. Məni tanıyıb sevincək təbrik etdi.

– Biz bunu bacardıq, – deyib, bu qələbədə mənim də payım var kimi, əlimi sıxdı. – Çoxdan görsənmirsiniz. Qızınız sizə görə yaman narahatdı. Gözlərini qapıdan çəkmir... Keçin... keçin içəri. Rahatca görüşün, biz sonra gələrik, mane olmayaq.

Həkim tibb bacısıyla bizdən aralananda Səlim qapını açıb dayandı. Mən içəri atıldım. Qızım çarpayıda əyləşmişdi. Məni görüb sevindi, "bax, artıq ayaq

üstə dura bilirəm" deyirmiş kimi, ayağa qalxdı. "Ata!" – deyib qollarını açdı. Həyatımda ilk dəfəydi onu ayaqda gördüyümdən, heyrət və sevincdən qışqırmaq istədim. "Mənim qızım necə də gözəlmiş!" Ürəyim əsdi. Aman Allah, elə bildim o, indicə müvazinətini itirib səntirləyərək yıxılacaq. Ayaqları tutulub döşəməyə sərildiyi o dəhşətli gecə yadıma düşdü. Cumub onu qucaqladım. "Qızım, mənim körpə şahzadəm! Mən burdayam", deyə bildim. Başını sinəmə sıxdı. Çarpayıda oturub onu qucağıma aldım, başını çiynimə söykədim, boynunu bərk-bərk qucaqlayıb, görməsin deyə, dolmuş gözlərimin yaşını sildim.

Səlimin içəri girmədiyini indi anladım: o qədər kövrəkdi ki, bu səhnəni görüb özünü saxlaya bilməyəcəkdi. Nelli çiçəkləri və konfet qutularını dolabın üstünə qoyub hiss olunmadan astaca palatadan çıxdı. Susmağımız uzun çəkmədi.

– Elə bildim, daha gəlməyəcəksən, – dedi. Kədərlə sevinc qarışıb səsinə dolmuşdu.

Bu neçə ildə dilinə ilk dəfə gətirsə də, hər dəfə onu ziyarət edəndə baxışlarından eyni sözləri oxuyurdum: "Elə bildim, daha gəlməyəcəksən". Məni sarsıdan da onun mənə inamsızlığıydı. Sanki sağalacağına ümidini itirmişdi. Hər dəfə "hər şey yaxşı olacaq!" deyib könlünü alanda, görmək, səsini eşitmək üçün bütün vacib işlərimi atıb xəstəxanaya tələsəndə məni görüb bir anlığa sakitləşsə də, palatanı tərk edəndə eyni qüssə üzünə qonar, səhərisi gün gələcəyimə inanmırdı – anasının doğuş zamanı öldüyünə inanmadığı kimi. Hələ də elə sanırdı ki, xəstə olduğu üçün anası bizi atıb.

– Niyə, qızım? – Təəccüblə soruşdum.

– Bilmirəm ki.

– Qızım!..

Hələ də başı çiynimdə idi. Deyəsən, o da beləcə, sanki qulağıma pıçıldayırmış kimi, danışmağa üstünlük verirdi.

– Yadındadı, balaca qara balıq haqqında kitab o-oxumuşdun mənə? – sakit soruşdu.

– Əlbət ki, yadımdadı.

– O balaca balıq yuxuma girmişdi. Neçə dəfə...

Heyrətdən donub qalmışdım. Qızımın nitqindəki səlislik, səsindəki şirinlik qəlbimi riqqətə gətirirdi. Təsadüf halda, yəqin ki, yerində işlətmək üçün lazım olan istədiyi sözü tapmaqda çətinlik çəkəndə, azca kəkələyirdi. Hiss edilməz dərəcədə... İstəyirdim o, durmadan danışsın, nə oldu, indiyəcən deyib-danışmaq istədiklərini muncuq kimi sıraya düzsün, mən də acgözlüklə dinləyim. Heç yorulararammı?

– Uşaqlar gözəl yuxular görür, deyilmi? – Sakitcə soruşdum.

– Axı o, niyə geri, evlərinə dönmədi?

– Qara balıq arzusunun dalınca uzaq dənizlərə üzmüşdü axı. – Başını tərpətdi. – Deməli, istədiyinə nail olan kimi dönəcək. – Gülümsəməyə çalışdım. – Əgər gözləyəni varsa, gedənlər mütləq qayıdar. Mənim kimi. – Onu dizimin üstünə otuzdurub gözlərinə baxdım. Məzlum-məzlum nə deyəcəyimi gözləyirdi. – Gözəlim, mənim də ən böyük arzum sənin istəklərini yerinə yetirmək deyilmi? Neçə illərdi bu günü həsrətlə gözləmirdikmi? Ah, mən necə xoşbəxtəm!

– Ata! – deyib, yenidən boynuma sarıldı. – Səni çox istəyirəm! – Çatdığımız bu məqama təkan verən hər şeyə, hər kəsə minnətdar olaraq ürəyimdə dualarımı oxuyuram. Qəzadan qabaq keçirtdiyim nigaranlıq tutduğu yerini həyat sevgisinə bəxşiş verir.

Pijamasının üstündən əlimi ehmalca gəzdirəndə hərəkətsizlikdən nazilmiş ayaqlarının sümüklərinə toxunduqca ürəyim sancsa da, mənə təskinlik verən

qızımın tam sağalması idi. O, yeriyirdi! İnanırdım ki, çox çəkməz, həyat öz normal ritminə qayıdar. Neçə illər çəkdiyimiz zəhmət hədər getməmişdi.

Gözlənilmədən soruşdu:

– Neçə vaxtdı hardaydın, demək istəmirsən?

Səlimin yalanını ört-basdır etmək, qəfil sualı cavablandırmağa vaxt udmaq üçün onun gözlərindən, alnından öpdüm, təzə tumurcuqlamış söyüd salxımları təkin yumşaq saçlarını qoxuladım. Nəhayət, özümü ələ alıb:

– Mən hər zaman səninləyəm, – dedim, – yanında olmasam belə. Səndən özgə kimim var ki?!. Yəqin Səlim əmi deyib, biznesimlə əlaqəli çox vacib görüşə görə Moskvadaydım. Oradan qayıdarkən yüngül qəzaya düşdüm. – Qızım “qəza” eşidəndə dikəlib yerindən sıçramaq istədi. Ona hələ qəfil hərəkətlər etmək olmaz deyə, qollarından yapışdım. – Qorxma! Bax, görürsən, – ayağa qaxıb rəqqas kimi qarşısında fırlandım, – görürsən, sağ və salamatam! Heç narahat olma, oldu, keçdi. Görürsən, Tanrı da səni üzmədi, ölməyimi istəmədi. Kəfənimi yırtıb sənə döndüm. İndi mən bir Səməndər quşuyam. İllərdi odda yanıb öz külündən doğulan Səməndər quşu. Mən sənin üçün yenidən doğuldum, qızım. Qədim bir nəğmədə deyilən kimi:

***Alovlardan qurtulmuşam,***
***Nəğməm göyə nur calayır...***
***Gör necə işıq saçıram,***
***Ah, məni günəş yalayır...***
***Odur mənə nəfəs verən,***
***Dünya məndən gəlir cuşa.***
***Mən bir Səməndər quşuyam,***
***Yum gözünü, uçaq qoşa...***

– Uçuşa hazırsanmı, mənim şahzadəm?.. Sənə uşaqlığımda gördüyüm yerləri – dağları, meşələri, dənizi göstərmək istəyirəm. O dənizin sahilində ki, mən yaşamışam... Dünyanın ən gözəl dənizinin sahilində.

Qızım məni daha möhkəm qucmaq üçün sarmaşıq kimi boynuma sarıldı. O, kövrəlmişdi, mənim kimi...

– O yerlərə anamın da yerinə baxsam, görəsən, bunu hiss edəcəkmi?

– O, hər zaman səni izləyir. Göylərdən... Sevin ki, ananın ruhu şadlansın.

Üzümdən öpdü, ehtiyatla yeriyib pəncərəyə yaxınlaşdı. Atdığı inamlı addımlarına baxıb qürrələnirdim. İlahi, bunu da ölmədən gördüm! Durub qızıma yaxınlaşdım. O, pəncərədən ağ buludlara sarı boylanaraq, anası üzünə baxsın deyə, gülümsədi. İlk dəfəydi qızımın al çöhrəsini belə işıqlı görürdüm. O, çox xoşbəxt idi!

Özümü qələbəsinin bir addımlığında olan-qalan gücünü toparlayıb son zərbəni vuracaq idmançı kimi inamlı hiss etməyə başladım. İnam olan yerdə uçmaq elə də çətin deyil – hətta gözü yumulu da...

Qızım məsum baxışlarını səmadan çəkmədən fərəh içində, asta-asta o qədim nəğməni zümzümə edirdi.

***...Mən bir Səməndər quşuyam,***
***Yum gözünü, uçaq qoşa...***

Uçmağa isə bircə təkan lazım idi. Tək bircə təkan...

## ♦ Poeziya



*Məmməd İSMAYIL*

***ZAMAN NƏDİR, SAÇLARINI TÖKÜB GEDƏN YEL,***
***TARİX NƏDİR, ƏLİNDƏKİ BİR DAŞ PARÇASI…***

### OĞUL ŞƏHİD OLAR VƏTƏN YOLUNDA

***Ölümsüz şəhidlərimizin xatirəsinə***

Açılan çiçəklər barında ölər,
Hörümçək hördüyü torunda ölər,
Alışan kösövlər qorunda ölər,
Ölsə, bal arısı balında ölər,
Pərvanə işığın yolunda ölər, –
Oğul şəhid olar vətən yolunda.

Həyatın sonunda bir "və"si varsa,
Əvəz olunmazın əvəzi varsa,
Və... bəxtin şəhidlik zirvəsi varsa,
Oğul şəhid olar vətən yolunda...

Uca zirvə varsa, dağ var deməkdir,
Açılan gül varsa, bağ var deməkdir,
Əgər ölən varsa, sağ var deməkdir...
Oğul şəhid olar vətən yolunda...

Ana elə-belə oğul doğurmaz,
Qəhrəman doğurar o, qul doğurmaz!

Övlada ananın bətni vətəndi,
Duyduğu laylanın mətni vətəndi...
Əgər o vətənin düşməni varsa,
Bir mənin yerinə beş məni varsa
Oğul şəhid olar vətən yolunda...

## ÜRƏYİN QUŞDU DEYİRDİN GƏNCLİYİNDƏ

Arxada
zamanın sellərində axıb getmiş
bir ömür,
öndəsə
hər şey ögey, hər şey yad.
yeni köhnədən boyad
Oyana bilirsən oyan, yata bilirsən yat.
Bu nə ömürdü belə
Hər şey fani, hər şey puç...
Ayaqların getdiyi, əllərin tutduğu,
Gözlərin gördüyü nə varsa, suç.
Ürəyin quşdu deyirdin gəncliyində,
Hadi səni görəyim
Sınıq qanadlarınla qaça bilirsən qaç,
uça bilirsənsə, uç!

## SƏSSİZ DUALAR…

Göndərsəm də xeyri nə, fikir teleqramları,
Eşitdim ki, xəstəsən, halın özündə deyil.
Qanınımı qaraldıb qürbətin axşamları,
Dünya gözündə deyil.

Diləklərin çatarmı əlin çatmayan yerə,
Ümidlər qapalısa, yolçu durar, tol durar.
Gəmilərin SOS səsi batana ümid verər,
Aradakı boşluğu xatirələr doldurar.

Köməyəmi çağırsam mələkləri, cinləri,
Nəyə yarar ümidin boşa çıxan əlləri?
Nə qürbət durnaları, poçta göyərçinləri
Nə Füzuli nəfəsli bəxtin səhər yelləri…

Keçmişindən xəbəri varmı gələcəklərin,
Bəxtlə bəhsə girənlər qismətindən yarımır?

Çatmaz sənə zənglərim, ümidsiz diləklərim,
Bəlkə Allah eşidə səssiz dualarımı…

## SƏKSƏNİ KEÇMİŞSƏ YAŞIN

Səksəni keçmişsə yaşın,
Ayaqlarından öncə səkkiz yazırsa yaddaşın
Qabından daşıb tökülürsə su,
Sonunsu üksüyünə qədər dolursa pətək, –
Möhlət bitmişdir demək…

Bu 70-80 il
Hardan keçdi deyirsən,
Alnımın qırışından,
Kim-kimi yarışından,
Ölüm bir qarışından keçdi…
Sulara axmağın,
Şimşəyə çaxmağın
Gülə açmağın
Yolunu öyrədən tanrı,
Bizə də yaşamağın yolunu öyrət.

## YADI DA YAXINA DÖNDƏRƏR KƏDƏR

Başımın üstünü ölüm kəsəndə,
Ürəyim köksümə düşəndə halsız...
Xəstə bədənimdən ruhum küsəndə,
Beynim dayananda fikir-xəyalsız.

Ölüm üzə durar dərddə, qubarda,
Bağlanar sevincin dili, ağızı.
Doluxar anamın şəkli divarda,
Atamın sandıqda qara kağızı...

Evi bürüyəndə ağlaşma səsi,
Qızlarım hönkürüb ağı deyəndə,
Xətlərdə kiminsə kövrək nəfəsi
Ölüm xəbərimi verəndə kəndə.

Əllərim sinəmin üstündə çarpaz,
Dünyaya yumulu göz qapaqlarım.
Beləcə başımın üstündə pərvaz
Dünənə qədərki ömür çağlarım.

Üzümdə titrəyər peyğəmbər nuru,
Alnımın saçları bir az da seyrək...
İmansız mollanın səsi qupquru
Bir şeylər oxuyar höccələyərək.

Cənazəm önündə ruhum kəpənək,
Deyirlər ölünün yükü duz yükü.
Yer altda göynəyər ana döşütək,
Haçansa əkdiyim ağacın kökü.

Ölüm yolçusuymuş hər addım atan,
Payız ölümümə yaz qarğış eylər.
Yola qoyularam mən bu dünyadan,
Anam o dünyada yır-yığış eylər.

Yadı da doğmaya döndərər kədər,
Fərqinə vardımı dostlar, tanışlar:
Uzaq bir səfərə misram yol gedər,
Şeirimin ölümsüz günləri başlar...

## SƏN DƏ QOCALDIN

Ümid, ümidini kəs deməzdi ki,
Arzu yaşamağa bəs deməzdi ki.
Ürək gocalığı istəməzdi ki,
Çıxıb ürəyindən gendə qocaldın.

Hardasan yerişi yer yaran oğlan,
Dəhnəsi dağılan, suyu soğulan.
Cavanlıq görmür ki, yetim doğulan
Dünyaya gəldiyin gündə qocaldın.

Başının üstündən gəl deyir evrən,
Ayağın altını qazmada çevrən.
Əl-ələ verdilər zamanla dövran,
Səni də saldılar bəndə, qocaldın...

Çoxala-çoxala ömrün illəri
“Ağ günə çıxartdı” qara telləri.
Qocalmam deyirdin, qürbət elləri
Səni də qocaltdı, sən də qocaldın.

## YAYIN ORTASINDA DOLU YAĞIRDI

Gecəni sis tutub, üfüq ağarmır,
Uğursuz qismətin daşı ağırdı?

Yayın ortasında dolu yağarmı,
Yayın ortasında dolu yağırdı.

Bu nə alçalışdı, nə yüksəlişdi,
Şimşəklər göyləri döyür aramsız.
Gəlişi daş olsun, bu nə gəlişdi,
Bəlkə qazan dibi yalayıb bu qız?!

Dünyanın ən mübhəm kəlməsi namus,
Üzə duracaqdı bu gecə vaxtı.
Oğlanı şəhərdə aldatmışdı qız,
Oğlan da kəndini aldadacaqdı.

Ümid edəcəkdi dörd divara qız,
Omu, divarlarmı sağ çıxacaqdı?
İki cahanda da üzü qara qız
Necə bu gecədən ağ çıxacaqdı?!

Qaramı gəlmişdi cavanlıq baxtı,
Sirrini söyləsə, dilə xoş deyil.
Yayın ortasında bu gecə vaxtı
Bu kəndi talayan dolu boş deyil.

Dolu yox, göylərdən yağan acıqsa,
Hələ yerlərdə də şimşək çaxacaq.
Bu qız bu gecədən təmizə çıxsa,
Sabahı bir qarış dili çıxacaq.

Oğlanı üzürdü bu işin ardı,
Sevgi yollarının yolu yağırdı.
Başına qar yağsın qarğışı vardı,
Hələ ki başına dolu yağırdı…

## BU DÜNYANIN DƏRDİ BİRSƏ, DƏRMANI DA BİR OLMALI...

Biz evdə qalmışıq, dünya bayırda,
Yazın tüğyan edir çəmən-çayırda.
Ayır da yaxşını pisdən, ayır da
Üzünə üz tutub ərk edənləri,
Yolunu, izini tərk edənləri,
Günah havasına bərk gedənləri
Beləmi sınağa çəkirsən, ey haqq?!

Məkkədən, qiblədən sənə sığındıq,
Ruh-ruh, bədən-bədən sənə sığındıq.

Lap elə heç nədən sənə sığındıq.
Niyyət edənləri, etməyənləri,
Camiyə, kilsəyə getməyənləri,
Əli ətəyinə yetməyənləri
Beləmi sınağa çəkirsən, ey haqq?!

Çəmbərə saldığın yerüstü nədi,
Şeytanlar varına varisdi nədi,
Bu gözəgörünməz virusdu, nədi? –
Nə sabahı bəlli, nə dünənləri,
Görünməz etdinmi görünənləri,
Varlıqdan yoxluğa bürünənləri.
Beləmi sınağa çəkirsən, ey haqq?

Nə bəlaydı birdən-birə,
bizi saldın ağzıbirə...
Açması insana yasaq
bu bir başqa sirr olmalı,
Dərgahında bir yer ayır
özün yaratdığın yerə,
Bu dünyanın dərdi birsə,
dərmanı da bir olmalı...

## SƏKSƏNİNDƏ NƏ BU HALLAR...

Səksənində nə bu hallar? –
Dərd sevinci yıxmada.
Ürəyinə düşən xallar
Yanağına çıxmada.

Güzdən qışa, qışdan yaza,
O çəkilməz acılar.
Qönçələrin dodağında
Çiçək kimi açılar.

Bir olsaydı nə vardı ki,
Yarımadın üçündən.
Sevgi adlı toxum əkdin,
Fitnə çıxdı içindən...

## GƏLƏ BİLMƏRƏM...

Gəl deyir həsrətdən yüksələn haray,
Neçə dost-aşina, gələ bilmərəm.
Yüz tanrıtanımaz, yüz qəlbiqara
Fikrindən daşına, gələ bilmərəm.

Qürbət yağmurları ölü yağırsa,
Həsrət fikirlərin yolu yağırsa.
Və dolu yağırsa qış buludları,
Mən boşu-boşuna gələ bilmərəm.

Yaşamaq olurmuş bunun harası? –
İnsan özü boyda dərd füqərası.
Yox daha Adəmlə Həvva arası,
Ömür savaşına gələ bilmərəm.

Nə göy cazibəsi, nə yer çəkimi,
Kimi qınayasan yad isə, kimi?..
Qəfil fikir kimi, hadisə kimi
Kimsənin başına gələ bilmərəm.

Gəzmə, hər kilidə tapılmaz açar,
Ölümdən qaçanlar ölümə qaçar.
Səksənin əlində qaldımsa naçar
Sevənlər yaşına gələ bilmərəm...

Əgər açıldısa sevgidə sirr yox,
Bir dəfə açılar, ikidəbir yox,
Hayandan gəlim ki, gəlməyə yer yox,
Mən sənin xoşuna gələ bilmərəm...

## ÖZÜN AÇILASAN ÖZÜN İÇİNDƏN

Bildim dediyindən bilməcə çıxar,
Hər günün sonundan bir gecə çıxar; –
Qranit qayadan su necə çıxar;
İşıq necə çıxar gözün içindən.

Görünən gerçəklər – görünməz haqdan,
Çıx görüm dünyaya çıxdığın çağdan;
Toxum necə çıxar qara torpaqdan,
Məna necə çıxır sözün içindən?

Bu dünya dediyin qaramı, ağmı,
Fikrində tutduğun bir ayrı çağmı?
İçində alışan odun ocaqmı,
Dərddimi küllənən közün içindən?

Yenə bu dünyadan əvvəl söz ola,
Kəsən ağıl ola, görən göz ola.

Bir ana, bir ata özbəöz ola,
Özün açılasan özün içindən.

## DOXSAN YOX, SƏKSƏNƏ ÇATMAZDI BƏLKƏ

Dünən bayatıymış, sabah tapmaca,
Bu gün tərəddüddən çaşıb deyinir.
Gününü gəzməklə keçirir qoca,
Heç özü də bilmir nə gəzdiyini.

Bu sirri soruşasan hansı alimdən,
Durub deməzmi ki, açılan solar.
Yolunu gözləyən qəfil ölümdən
Qorxmasan nə olar, qorxsan nə olar?

Nə deyir ruhuna bu ögey bədən? –
Bacarsan səksəni doxsana yetir.
Dəyib budağından düşən meyvədən,
Axtarsan, yerin də zəhləsi gedir.

Demək ki, bu imiş əvvəlin sonu,
Kiminlə istəsən mərcə gir daha.
Bir vaxt göy çəkərdi təzə ruhunu,
Köhnə ətəyindən yer çəkir daha.

Dünən bayatıymış, sabah tapmaca,
Bu gün tərəddüddən çaşıb deyinir.
Gününü gəzməklə keçirir qoca,
Heç özü də bilmir nə gəzdiyini.

## SƏNDƏN SONRA...

Sən getdin, gedəli varikən yoxum
Pərişan ömrümdü, qarışan yuxum.
Vücudum torpaqdı, ürəyim toxum,
Bəlkə də göyərdi, ək, səndən sonra.

Sənsiz sevincim heç, qəmim qəm olmaz,
Qəlbi daş olanın gözü nəm olmaz.
Yığıb toplasam da fikrim cəm olmaz,
Cəmə çevrilərmi tək, səndən sonra?

Üç-beş misra imiş ömrün mirası,
Könül fəryadıymış gözün qorası.

Yox ki bu dünyanın səndən sonrası,
Ölüm deyilənlər yey, səndən sonra.

Dalana dirənən ömür mənzilim,
Bu bəxti vaxt silsin, yoxsa mən silim?
Adını çəkməyə çəkinən dilim
Bircə söz söyləyər hey, səndən sonra...

Bəlkə xeyirdə şər, şərdə xeyirdin,
Hələ yazılmamış sirli şeirdin.
Ağzımı açdımmı sonra deyirdin,
Varmı bir sonrası səksəndən sonra?

## QOCALIQ RUHUNA ÇÖKƏNDƏ

Qocalıq ruhuna çökəndə,
Fikrin pərpətöyün toxumu kimi dağılanda,
Səksəndən sonra
Sənə ölü namizədi kimi baxılanda
Çay soğulacağına,
Dəniz yox olacağına
inanmadığı kimi inanma
Öləcəyinə...
Ulduzlar çoxluğuna,
Varlar varlığına, yoxlar yoxluğuna
sığındığı kimi
Sığın gələcəyinə.
Sən elə gələcəksən,
Getsən də gələcəksən.
Allah göydə inanmış,
Sən də yerdə inan buna
Ruhun sonsuzluğuna...

## BU OCAQ...

Bu ocaq zamanın gənclik halıydı,
Ömür qatarıydı keçən illəri...
Bu ocaq torpaqdan güc almalıydı,
Göyə çıxmalıydı alov dilləri...

Arzusu bir uzaq gələcəkdimi,
Bir içim suydumu ömür deyilən?!
Amansız dövrana boyun əydimi,
Zamana uydumu ömür deyilən?!

Ay da göy üzündən əl edən vaxtdı,
Nə var bu üzündə, o biri üzündə?
Gözünə görünən nə var ocaqdı? –
O da bir ocaqdı bu yer üzündə.

Nə qalar bir ilə üç aylıq yazdan
Kim yaxın edəcək bu uzaqları?
Qürbət gəmiləri keçir boğazdan,
Baxır qərib-qəmgin sahil bağları...

Qırılan ümiddi, kəsilən əldi,
Dərdimi duydumu ömür deyilən?!
Allahım, nə zaman səksənə gəldi,
Allahım, buydumu ömür deyilən?!

Həvəsi tükənib sönən fanardı,
Köhnə kül yerinə dönür bu ocaq.
Bu ocaq bir zaman gur-gur yanardı,
İndi korun-korun sönür bu ocaq.

## MƏCHUL ÖLÜM, NƏ QALDI Kİ SORASI

Görünür, ölənlər bizimçün ölür,
Kimsə xəbər tutmaz öz ölümündən...

Olmadı ki "ol" deyilən "ol"ları,
Uzalımı yetim yurdun qolları...
Tikanlımı qərib-qürbət yolları,
Ölüm-zülüm gəlirsənmi, gəlirsən?!

Bir ömür ki dərdi yüyrək, bəxti ləng,
Yapışmağa nə əl qaldı, nə ətək.
Bir zamanlar mən ocaqdım, sən külək,
Söndüyümü bilirsənmi, gəlirsən?!

Arxan ilə nələr çəkdim, bilirdin,
Sən tək idin, mən də təkdim, bilirdin...
Axır bir gün öləcəkdim, bilirdin,
Öldüyümə ölürsənmi, gəlirsən?!

Məchul ölüm, nə qaldı ki sorası,
80-90 qalan ömrün urası...
Hayandasan, nərəsiymiş orası,
Mənmi gəlim, yoxsa sənmi gəlirsən?!.

## AYRILIQ VAR SAHİLİNDƏ HƏR ÇAYIN

Məmməd İsmayılsan, ya da
Mehmet İsmail...
Yox,
Doğmaca qardaşların kəndirini kəsən
Hazırca Məlik Məmmədsən,
Məlik Məmməd...
Haqq yolunda cibi dəlik,
Dəmir Məmməd
Çəlik Məmməd!
Ömrünün cümləsinə
Dərd mübtəda, ələm
xəbərdi
Yaşayırdı ayrılıqlar ölkəsində
Və...
Vətəndən əsən yelləri
Gözlərinə təpərdi...
Düşmüşdü çəmbərinə
Qışın, baharın, yayın
Və... Bir təsəllisi vardı:
Hər dənizin sahilində qürbət var,
Ayrılıq var sahilində hər çayın...

**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına 2022-ci il üçün abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

*Vüsal NURU*

# QARABAĞ GÜNƏŞİ



Səhər saatlarında Bakı bizi Şuşaya yola salırdı. Hisslərim qarışıb düyün düşmüşdü, bilmirdim bir yerdə dayanıb gözləməliyəm, ya gedib avtobusda yerimi tutmalıyam. Yola düşmək vaxtımızdan keçirdi, hər keçən dəqiqə məni bir az da sıxırdı. İçimə qara tüstü kimi bir nigaranlıq yayılmışdı; qorxurdum ki, kimsə bu səfəri hansısa bəd xəbərlə təxirə sala. Ya da kimsə məni bu şirin yuxudan oyada. O qədər buna bənzər günlərin xəyalını qurmuşdum ki... Bütün bunlara baxmayaraq, içimdə ruhum sevincindən bağırırdı; Şuşaya gedirəm! Şuşaya! İstəyirdim Bakı bu səsə oyansın, pəncərələrə, eyvanlara çıxıb görsün ki, biz Qarabağa gedirik. Nə gözəl səslənir bu söz: “Qarabağa gedirik!” Yolumuz Şuşayadı! Axı, bu, adi səfər deyildi.

Günəş ötürürdü bizi. Vaqif Poeziya Günlərinə elə Molla Pənah Vaqifin durnaları kimi sıralanan, qatarlanan kortejlə gedirdik. İndi içimdəki qara tüstü yavaş-yavaş çəkilirdi; eşitdik ki, bu günləri bizə yaşadan Cənab Prezident də səfərə çıxıb. Deməli, bizi heç kim saxlaya bilməzdi. Bəxtimə yazılan ən müqəddəs günü yaşamağa başlayırdım.

Kortejimiz kəndlərin başından, rayon mərkəzlərinin kənarından, qəsəbələrin ayağından keçirdi. Bizi ilk qarşılayan yol kənarlarındakı şəhid lövhələri oldu; yolumuza boylanırdılar. Hamısı məğrur baxırdı, hamısı qürurlu görünürdü. Bu yolu bizə onlar açmışdı; canla, qanla, cəsarətlə... Nə qədər minnətdar olsaq, azdır. İndi bizə düşən onların yarımçıq ömürlərini xatirələrdə yaşatmaqdır.

Füzuliyə çatmışdıq. Burda Günəş ağac tapmırdı kölgəsini yerə sərsin, bir evin damı yox idi ki, quş qonsun, bir divar qalmamışdı daldalanmağa. Düşmən 28 ildə bütün şəhəri duzlu tum kimi çırtlamışdı; hər tərəfdə evlərin topa-topa qabıqları qalmışdı. Mənim kimi hamı heyrət edirdi: bunu necə bacarıblar? Daşları necə yeyiblər? Hanı şəhər? İlk dəfə buraları görən adamı necə inandırasan ki, burda şəhər olub? Ayağı, başı bilinmirdi, əvvəlki Füzulidən bircə Günəşi qalmışdı; sabahlarını açacaq Günəşi.

Kəndlərin özləri olmasa da, adlarını əks etdirən göy fonlu, ağ hərflərlə yazılmış lövhələr qarşımıza çıxırdı. Lövhələr bu kəndlərin ağ gününə işarə edirdi. Hər dəfə kəndlərin adını oxuduqca müharibə dövründə Cənab Prezidentimizin azad olunmuş kəndlərin adını sadaladığı o mübarək, o kövrək

günləri xatırlayırdım. İndi həmən kəndlərə çatırdıq, həmən yollardan gedirdik. Heyrət! Burda insanın yaşadığı ən böyük hissin adı budur.

Baxırdım, yenə heyrət! Burda necə döyüşüblər? Düşmən sipər arxasında, illərlə qazdığı xəndəklərdə, səngərlərdə, pusqularda, bizim o arxada qalan kəndlərdən gələn qardaşlarımız bu çölün, düzün ortasında, açıqda... Burdakı döyüşü təsəvvür eləmək də çətindi.

Dolanbac yollara girdikcə xəyallarım da qarışırdı. Yenə heyrət. Hər yerdə iş gedir; adamlar qarışqa kimi işləyirlər. Üzünü çevirib baxdığın hər tərəfdə briqadalar çalışır. Onlar mənə xəstəni əməliyyat eləyən həkimlər kimi görünürdülər; qəlpəni çıxarır, yaraları tikir, məlhəm qoyur, sarıyırdılar...

Zəfər yoluna girdik. Çölümdə günəş, içimdə yenə heyrət. Cənab Prezidentimiz hər Qarabağa gələndə bu yollarda deyirdi: “Bizi günəş qarşılayır. Yolumuzu aydınladır”. Bunun adi söz, adi təbiət hadisəsi olmadığına indi şahid oluram. Bizi dənizdən ötürən Günəş burda dağların başından qarşılayırdı. Həqiqətən də indi yolumuza gülümsəyirdi. Deməli ki, bundan sonra yolumuz həmişə belə aydın olacaq. İndi bu zəngin meşələr, baxdıqca mənzərəsindən doyulmayan dağlar, enişli-yoxuşlu yollar bizə qayıtdığı kimi, Qarabağın Günəşi də artıq bizimdir. Bizim alnımızdan öpür, sabahları bizim üzümüzə açır.

Qarabağ Günəşini mən axırıncı dəfə uşaq vaxtı görmüşdüm. Amma bugünkü ağlımla o, məni daha çox isidirdi. İndi onun şəfəqləri həsrətdən nəm çəkmiş xatirələrimin üstünə düşürdü. Yaddaşımın quzeyi isinirdi. Biz hər yay Ağdamdan Şuşaya, Turşsuya qalxardıq. Atam gəzdirərdi bizi. Heyrətlə baxardıq yollara, indi də həmən uşaq heyrəti ilə baxırdım. Bir yandan mənzərə məni valeh eləmişdi, bir yandan da düşünürdüm ki, görəsən hələ bu asfalt yolların olmadığı, bir yandan da başlarına mərmi yağanda bizim o yollarda lövhəyə çevrilmiş şəhidlərimiz, yaraları sızıldayan qazilərimiz bu dağları necə qalxıblar?! Bu keçidlərdən, aşırımlardan, sıldırımlardan keçməyi necə bacarıblar?! Maşınların çox çətinliklə qalxdığı yolları pay-piyada gedən də olub, tank, maşın üstə hücum çəkən də. Qalxıblar bu meşələri, bu dağları, bizə yol açıblar.




Yol uzandıqca uzanır, heyrət böyüdükcə böyüyür, dağların üstündən dağların üstünə qalxırdıq. Ruhum pıçıldayırdı: “Boyuna qurban, ay Şuşa, ayağına dolana-dolana gəlirik”.

Hələ də hər tərəfdə işçilər görünür; Qarabağı qarış-qarış, addım-addım tikirlər. “Biz səni dirçəldəcəyik!” Cənab Prezidentimizin dediyi sözlər qeyri-şüuri beynimdə dolaşır. Qarabağ dirçəlir!

Şuşa görünür! Hamı pəncərələrdən Şuşaya boylanır. Hamı yanındakından daha tez görməyə çalışır. Daşaltı, Çıdır düzü...

“ŞUŞA” – dağın ətəyində düşmən gözü çıxaran iri qırmızı hərflərlə yazılıb. Şuşaya girdik, qəhər boğazımda düyünləndi. Üzümü pəncərənin şüşəsində gizlədib, gözlərimi Şuşaya geniş açmışdım. İstəyirdim gördüklərim yaddaşımda, görə bilmədiklərim şüuraltına yığılsın. Hər şey çölümdən içimə keçsin, Şuşanın havası kimi.

Avtobusdan düşən kimi ciyərlərimi doldurdum, lap acgözcəsinə, suyun altından boğulub çıxan adam kimi. Özümü tövşüdürdüm.

Şuşaya ayaq qoyduğumuz birinci gün idi: Bizə oteldə yerimizi göstərdilər, Şuşa mətbəxindən nuş elədik, mən qaçdım gəzməyə. Müharibədən çıxmış şəhər necə olar?! Eyvanlar, pəncərələr hər ayaq səsinə boylanırdı. Şəhərin bütün küçələrində, evlərin divarlarında əsgərlərimizin, şəhidlərimizin, qazilərimizin əl izi var idi; “Komandir, qisasın alındı!” Hər əsgər öz rayonunun adını yazmışdı, elə bil göstərmək istəmişdilər ki, Şuşanın azadlığında hər yerin öz payı var. Şuşanı o kəndlərdən, o rayonlardan gələn oğullar azad ediblər. Şuşanın divarları bir salnamədi. Ev-ev, küçə-küçə səhifələyib oxumaq istəyirsən. Hər yazı bir tarixdir, hər divar bir kitabədir.

“Ev yiyəsi qayıdıb”: qapıya belə yazılmışdı. Gözün aydın, ay qapı! Gözün aydın, ay ev! Gözün aydın, ay ev yiyəsi!

Düşmən qıfıllı darvazaların pəncərəsini, qapısını söküb aparmışdı. Adam məəttəl qalırdı, yaşaya biləcəyin halda, niyə xaraba qoyasan? Qıfılı açıb darvazadan girmək pəncərəni, qapını söküb aparmaqdan asandı axı. Hər ev, hər küçə düşmənin buralara yad olduğunu göstərirdi. Hətta Natəvan küçəsinin müharibədən əvvəlki ad-göstərici lövhəsi də böyürtkən kollarının arasında gizlənib qalmışdı.

Görünən bu idi ki, illər ərzində ermənilər öz gəmirici xislətlərindən bir gün də əl çəkməyiblər. Amma Şuşanı bitirmək, yeyib-dağıtmaq onlara qismət olmadı. Bu xarabaya çevrilmiş halıyla-günüylə öz ecazkarlığını, qədimliyini, biz türklərə məxsus olduğunu göstərmişdi Şuşa. Koluyla, daşıyla, küçəsiylə düşmənin saxtakarlığına qarşı çıxmışdı, özünü qorumuşdu Şuşa.

Gəlib çıxdım mərkəzə. Küçənin sağ çiynində, tində Heydər Əliyev Fondunun təmir elədiyi, içini qurub-yaratdığı sərgi salonudur. İçəri girib baxdıqca hər divarda Şuşanın bir səhnəsini, bir dahisini görürsən. Əgər buralara yadsansa, Şuşa haqqında ilk təəssüratın bu sərgi salonunda yaranacaq. Sərgi binasının iyirmi-otuz metrliyində uca boylu “Qarabağ” oteli səni dörd ulduzuyla qarşılayır. Cənab Prezident onu dünyanın üzünə açdı; gələcəkdə burada qalacaq hər xarici turist özüylə bir Qarabağ aparacaq. Küçənin sol çiynində, sərgi binasıyla çiyin-çiyinə Karvansaranın tarixi binasıdır. Buranı da Heydər Əliyev Fondu bizə qaytarıb. Bir az aşağı düşürsən, güllələnmiş heykəllərin parkıdı; Şuşaya qayıdan şuşalıların yanında durub şəkil çəkdirmək, günü tarixləşdirməyin növbəsinə dayandım.

Bu da Xan qızının həyəti. Həmən o möhtəşəm ev, saray, tarixin şahidi, gövdəsinə qolum çatmayan o ağaclar. Həyətin hər tərəfi zaman tunelidir; hər addımını qoyanda gedib bir aləmə düşürsən. Xarabaya çevrilmiş sarayın divarları birdən-birə qurulur, bütövləşir, pilləkənləri, pəncərələri yerinə qayıdır. Otaqlarından işıq düşür. Səslər gəlir; tələsən səslər, arxayın səslər...

At arabası lap qarşımda dayanıb. Hərə bir iş üçün qaynaşır. Eyvandan Xan qızı baxır... Baxır, “Şuşa Bəyannaməsi”nin imzalandığı həmən səmtə boylanır, mən də düz burda dayanmışam. İçimdə əllərimi qaldırıb bağırıram: “Nəvələrin gəlib, Xan qızı. Biz qayıtdıq. Alnıaçıq qayıtdıq, üzüağ qayıtdıq”.

Sarayın girilə biləcək bütün otaqlarına gəzdim. Sonra getdim Xan qızı bulağına, ovuclarımı doldurub ciyərimin illərdi Qarabağ üçün yanan yerinə axıtdım. İçimin küllüyündə tumurcuqlar çıtlayır, qönçələr əlvan-əlvan açırdı...

Ordan məni aparan düz yol Xan bağına gətirdi. Burda Üzeyir bəy Hacıbəyovun lap təzəcə yerinə qayıtmış heykəli əzəmətlə durmuşdu, bizdən əvvəl Cənab Prezidentimiz onun üzünün ağ örtüyünü alqışlarla açmışdı, indi heykəl Şuşa qalasının üstündən Xankəndiyə baxırdı.

Üzeyir bəyin evi bağın o biri başındadı, lap yaxında. Gedib tağlı qapısının qarşısında dayandım. Taxta qapısı yox idi, daşı döydüm, içəri girməyə icazə aldım, yerə döşənmiş daşlara ayağımı ehtiyatla qoyub həyətə girdim. Üzeyir bəyin çəliyi bu daşların sinəsini hər gələndə öz ritmiylə döyəcləmişdi. Həyəti gəzdim, evin qarşısında dayandım, nə taxta pilləkən var idi, nə eyvan. Pəncərələrin yeri də itmişdi. Daşlar evin içinə tökülmüşdü. Evin astanasında hamar daş tapıb oturdum; üzü Xankəndiyə tərəf. Qulağıma piano səsi gəlirdi: Bu daşların hərəsi Üzeyir bəyin dağılmış notları idi; o musiqilər daşlara hopmuşdu, indi həmən daşlar ayaq səsi eşidəndə hərəsi bir notu səsləndirirdi. Mənim beynimdə o notlar “Sevgili canan”a çevrilirdi.

Burdan aşağı yolu seçsən, Şuşa türməsinə çatana qədər gedə bilərsən. Mən də seçdim. Hər tərəfi yaddaşıma yaza-yaza gəlib çıxdım əzabların, ağrıların, lənətlərin qarışdığı yerə. Buranı heç vaxt görməmişdim, nə efirdə, nə də şəkildə. Ümumiyyətlə, türməyə, qapalı, pəncərəsiz yerə fobiyam var. Hətta lifti də sevmirəm. Olub ki, Bakıda sosial tədbirlər çərçivəsində türmədə görüşə dəvət ediblər, getməmişəm. Amma bu dəfə qorxumun üstünə yeridim. Bir bələdçinin arxasınca düşmüşdüm. Əsas maraq Dilqəmin, Şahbazın, onlar kimi orada illərlə saxlanan digər əsirlərin olduğu şəraiti görmək, ağrılarını qismən də olsa təsəvvürümdə canlandırmaq istəyirdim. Qalın divarların, dəmir qapıların xofu qara ruh kimi boğazıma dolanmışdı, boğulurdum, amma quyuya düşüb “yandım, yandım” deyən Məlik Məmməd kimi geri qayıtmaq istəmirdim. Qırxıncı qapıya qədər getməyi qarşıma məqsəd qoymuşdum, hər şeyi görmək istəyirdim. Bələdçim sağ olsun, bildiyi hər şeyi səbirlə izah edirdi, göstərirdi. Nəhayət, gəlib çıxdıq ən ağır kameraya. Yoldaşım dedi ki, Dilqəmgil bu otaqlardan birində qalıblar. Nə işıq, nə hava. Altı il. Həm də erməni əlində. Sonra onların həftədə bir dəfə hava almaq üçün gəzişdikləri üstü açıq dörd divar arasına çıxdıq. Burdan ancaq buludu, səmanı, bir də dəmir barmaqlığın üstüylə yeriyən silahlı əsgərin ayaqqabısının altını görə bilərsən. Burdan dünya görünmür. Burdan o tərəfdə həyatın necə keçdiyi məlum olmur. Gəzinti mənim üçün kifayət idi. Arxa həyətə çıxdıq, ordan da çölə. Həyat gözümdə bir az da gözəlləşdi, bura çıxa bildiyimə şükür elədim. Sonra Xankəndiyə baxdım, Şuşanın ovcundaydı. Burdan baxanda bir daha əmin olursan ki, buracan gəldiyimiz kimi, bu bir addımlıq yolu da gedəcəyik. Oranı görmək də qismətimizdə var.

Hava qaralmışdı. Aşağıdan yuxarı xeyli yolum var idi, vaxtında otelə çatmalıydım. Bu qədər gəzməyimə baxmayaraq yorulmamışdım, hətta yoxuş da məni təngnəfəs eləmirdi. Ciyərlərimə dolan hava məni helium şarı kimi havada saxlamışdı, mən uça-uça yeriyirdim. Düşünürdüm ki, mərkəzdən sol tərəfə axıra qədər gəzdim.

Sabah yolum mərkəzdən sağa olacaqdı. Nə var idi sağda, nə görəcəkdim – bilmirdim. Məşhur şuşalıların evləri, oxuduqları gimnaziyalar, bulaqlar hardaydı, dəqiq yerini bilmirdim. Soruşmurdum ona görə ki, istəyirdim qəfil qarşıma çıxsın. Gedib özüm görüm. Belə daha maraqlı idi. Gedirdim, gedirdim, qarşıma bir lövhə çıxırdı; Əhməd bəy Ağaoğlunun evi. XIII əsrə aid bulaq...

Küçələrin hər döngəsi bir tarixi abidəyə açılırdı. Yol boyu kitabələri maraqla oxuyurdum; hər evin daşında, divarında bir iz qoymuşdu igidlərimiz. Qəribə idi, bilərəkdən, ya bilməyərəkdən heç bir tarixi abidənin divarına bir barmaq da boya çəkməmişdilər. Azərbaycanın ən ucqar kəndindən bura qədər gələn əsgər o divarlara toxunmamışdı. Onun müqəddəsliyinə xələl gətirməmişdi. Bizi düşməndən fərqləndirən cəhətlərdən, xislətlərdən biri də bu idi. Biz bizim olanın qədrini yaxşı bilirik. Bizim genetik yaddaşımızda yaratmaq, qurmaq, qorumaq var. Bu da Şuşanın hər məhəlləsində, hər küçəsində görünürdü.

Gəlib çıxdım Şuşa bazarına, ordan da endim Gövhər Ağa məscidinə. Həyətdə lap qədim məzarlar qəmli bir sükuta bürünmüşdü.

Məscidin arxasındakı ensiz yolla gedib yaşı XIII əsrə uzanan bulağın qarşısına çıxdım. Bu bulaq qorunan tarixi abidələr siyahısında idi.

Gördüyüm hər bulaqdan su içirdim, fürsətdən istifadə edirdim. İstəyirdim bu su qanıma keçcin, ürəyimə axsın, beynimə yayılsın. Yolun sağında Heydər Əliyev Fondunun zövqlə tikdirdiyi kamp var. Bura gələnlər kampın həyətində otura bilərdilər; səliqəli, zövqlü, maraqlı görünürdü.

Aşağı gedirdim, meydançanın ayağından keçib sağa döndüm. Yolların kənarları böyürtkən kolları idi, qırmızı, qara böyürtkənlər adamın üzünə gülürdü. Hər biri bir qan düyünçəsiydi. Dərib ağzına qoyurdun, dadı, şirəsi damağında, rəngi barmaqlarında qalırdı. Yeyə-yeyə hara döndüyümə fikir vermədim, bir də gördüm Xanın sarayının qarşısındayam. Həmən yer idi; Cənab Prezidentimiz bu tağdan içəri keçmişdi, ətrafa baxmışdı, girişdəki ən enli, ən uzun, bəlkə də, ən ağır daşa əlini qoymuşdu. Daşın yaddaşına baxmışdı, səsini dinləmişdi. Mən də əlimi o daşa qoyub, gözümü yumdum. Daş danışırdı. Hər şey yuxudakı kimi idi; bəzən uzun-uzadı bir yuxu görürsən, ayılanda hər şey uçub gedir. Bilirsən ki, nəsə maraqlı bir yuxu görmüsən, amma ha fikirləşirsən, bir səhnəsi də yadına düşmür. Bu daş da eləyidi; elə ki əlini çəkirdin, gözünü açırdın, ovsundan çıxırdın.




Əvvəllər ola bilsin ki, bu küçənin ayağı hansısa küçənin başına birləşirmiş, amma indi bağlanmışdı; yan-yana iki bina yolu kəsmişdi. Geri qayıtdım. Bu dəfə meydança aşağıda qaldı. İki qədim binanın qarşısına çıxdım. Bunlar da qoruğa alınmışdı. İndi quru divarları qalsa da, üstündəki lövhədən bilinirdi ki, Heydər Əliyev Fondu onu da bizim üçün diriltdib.

Üzü yuxarı gedən yol Vaqif məqbərəsinə, ordan da Cıdır düzünə aparırdı.

Bu gün Vaqif Poeziya Günləri başlamışdı. Səhər avtobuslar bizi bu yollarla həmən məqbərəyə gətirmişdi. Məqbərənin yerinə fikir verəndə görürsən ki, Ümummilli Liderimiz Heydər Əliyev təsadüfi, gələcəyə hesablanmamış heç bir addım atmayıb. Şair-vəzirin yerini bu yüksəkliyə layiq bilib. O, burdan

baxmalıdır. Vəzir burdan Xankəndini də, Xocalını da, kəndləri də ovcunda görür. Bu məqbərə Şuşanın qürur sütunlarından biridir.

Ən həyəcanlı, ən sevincli an başladı: İlham Əliyev gəlirdi, Mehriban xanım gəlirdi. Yəni onlar bu meydana hamı kimi gəlirdilər. Mən hardan bilim Prezident tədbirə necə gələr? İlk dəfə idi bu qədər yaxından görürdüm. Addımları şax, qaməti dik, başı qürurlu, üzündə məğrurluğun təbəssümü... Gözlərim dolu-dolu baxırdım. Bizi Qarabağa qaytaran, qırılmış qürurumuzu, vüqarımızı dikəldən, alnımızdakı köçkün damğasını silən, evimizə gedən yolları açan, vətənimizin sərhədlərindən düşməni qovan Sərkərdə qarşımızdan keçirdi. Bir Qızıl Tarix yaşayırdıq, bir qibtə olunacaq günün içində idik, bəlkə də hələ bunun dəyərini o qədər dərk eləmirdik, sadəcə, sevincini yaşayırdıq. Duyğulanmamaq, qəhərlənməmək mümkün deyildi. Şuşa döyənək olmuş bütün hisslərimi, duyğularımı əritmişdi, elə bil kövrəlməyə bəhanə axtarırdım.

Tədbirdən sonra İlham Əliyev onunla şəkil çəkdirmək xoşbəxtliyini, şansını bizə verdi. Ətrafında səfləndik, sıralandıq, hamı çalışırdı daha yaxın dursun. Yanında duran adamın kimliyi, sosial stasusu unudulmuşdu, onun önünə keçib Prezidentə yaxın dayanmaq istəyirdik. Bu, tarixin bir də tərkar olunmayacaq anı idi, hamı fürsətdən istifadə edirdi. Mən də münasib yer tapdım özümə: Cənab Prezidentin lap arxasında, pilləkəndə durdum, özümü şanslı hesab elədim. Bu möhtəşəm bir tarixin şəkli idi. Ən dəyərli əsərin qəhrəmanlarından birinə çevrilmişdim. Çatdığım bu yaşın ən böyük hədiyyəsini aldım. Ədəbiyyatın mənə verdiyi ən dəyərli mükafat idi bu günlər.

Cənab Prezident növbəti təməlqoyma, açılış mərasiminə gedirdi. Özü dediyi kimi, Şuşanı addım-addım, məhəllə-məhəllə dirçəldirdi. Ayağa qaldırırdı.

Alqışlarla yola saldıq.

Tədbirdən sonra nahar fasiləsi, sonra sərbəst saat başlayırdı. Axşama qədər gəzmək olardı. Mən dəqiqələri boşa yandırmadım. Tədbirə gəldiyim həmən yolla yuxarı qalxırdım. Burda evlərin çoxu lap qocaman idi, əsrləri görmüşdü. Qovğalı tarixlərin şahidi olmuşdu.

Səhəri gün tədbirin ikinci hissəsi oldu. Dedilər ki, nahardan sonra Cıdır düzünə gəzinti olacaq. Bu dəfə bir dəstə toplanıb Cıdır düzünə piyada getməyi





qərara almışdıq. Yolumuzu yuxarı tərəfdən salmışdıq, kilsənin qarşısından keçib aşağı düşürdük. Burda da bir bulaq var idi, mağazadan aldığım suyu boşaldıb bulağın suyundan doldurdum. Evlərin yeri, baxışı hamının diqqətini çəkirdi. Buradakı pəncərələrdən, eyvanlardan açılan mənzərələr adamın ürəyini sərinlədirdi.

Şuşaya qayıtmış bir çox ailə evlərin işığını yandırmışdı, ocağını tüstülədirdi. Binanın həyətində uşaqlar oynaşırdı. Onları görəndə bu dəfə də İntiqam Qasımzadənin “Şuşanın dolayları” essesini xatırladım. Şuşaya ilk gedənlərdən idi İntiqam müəllim. Yazını da “Xarıbülbül” Festivalından qayıdanda yazmışdı. “Azərbaycan” jurnalında dərc olunan ürək pıçıltılarında təxminən belə yazmışdı ki, Şuşa dirçəlir, abadlaşır, küçələrdə hərəkət var, binalar tikilir, bünövrələr qoyulur, amma mənim zənnimcə, Şuşaya dinc həyat uşaqlarla qayıdacaq, uşaqlarla gələcək. “Xarıbülbül” Festivalından sonra “Vaqif Poeziya Günləri” Şuşada keçirilən ikinci ən böyük hadisə idi. Aradan elə də çox vaxt keçməmişdi. Mən uşaqları Şuşada tapdım, başıma yığıb şəkil çəkdirdim. Şuşaya dinc həyat bu qədər tez qayıtmışdı; bir də buna sevinirdim.

Gəzə-gəzə, dolaşa-dolaşa gəlib çıxdıq Cıdır düzünə. Sıldırım qayalardan aşağı baxırdıq, yenə heyrət! Hamı, hamı burdan qalxan, Şuşanı düşməndən təmizləyən əsgərlərimizin cəsarətinə, şücaətinə mat-məəttəl qalırdı. Eşitməklə görməyin fərqi də burda bilinirdi. Bəlkə, bu sıldırım qayalara dırmaşmaq alpinistlər üçün elə də çətin məsələ olmazdı, bizə göründüyü qədər onlara təəccüblü gəlməzdi, amma gecə vaxtı, mərmi yağışının altında, ya mərminin yağdığı bir saatda buraları qalxmaq əfsanə kimi görünürdü. Amma bu inanılmazı Azərbaycan əsgəri bacarmışdı. Düşməni də, onun dostlarını da mat qoya bilmişdilər. İndi biz həmən yerlərdə durub xoşbəxt-xoşbəxt şəkil çəkdirirdik. Hər anın tarixləşməsinə çalışırdıq.

Bura gələn ən qocaman adam Nəriman Həsənzadə idi, o da bir qayanın üstündə oturub üzünün xoşbəxt ifadəsi ilə Cıdır düzünə yayılmış adamlara baxırdı, dağları seyr edirdi, ömrünü uzadırdı. Bəlkə də, burda – bu qayada oturmaq bu qocaman şairin ən sonuncu, ən böyük arzusu idi?!

“Gün o gün olsun gələn ili Cıdır düzündə qeyd edək...” Tanıdığım az qala hər kəsin ən məşhur arzusu bu idi, dilində bitmişdi; elə mənim də. Elə mən də arzuma çatmışdım. Hiss eləyirdim ki, məndən bir neçə mən ayrılıb, hərəsi Cıdır düzünün bir tərəfinə qaçır, bir tərəfinə gedir, hərəsi bir qayanın üstündən boylanır, şəkil çəkdirir... Cıdır düzünün hər tərəfində mən var idim.

Bu gün axırıncı gün idi. Nahardan sonra avtobuslar bizi Bakıya qaytaracaqdı. Şuşanı sərgi salonunun divarındakı tablo kimi görüb keçmək istəmirdim. İllərdi can atdığım, darıxdığım yer idi buralar. Bir bəhanə olsaydı, – deyirdim, – bir imkan, bir fürsət əlimə keçsəydi, ətəyindən yapışıb qalardım.

Təəssüf ki, kortej bizi geri qaytarırdı, ağır-ağır çıxdığımız dağlardan sürüşüb düşürdük. Xəyallarımın ip ucu Şuşada qalmışdı, mən bir qırmızı yumaq kimi dağların başından açıla-açıla aşağı dığırlanırdım.

Bu dəfə Şuşanın günorta günəşi bizi ötürurdü. Dolanbac yollarda hər dəfə gah qarşımıza çıxırdı, yolumuza boylanırdı, gah da arxadan baxıb əmin olurdu ki, sərt yoxuşlardan sağ-salamat endik. Bax, belə istiqanlı, belə mehriban, belə qayğıkeşdi Qarabağ Günəşi.

Enirdik; ucalıqdan enmək, çox çətindi Şuşadan ayrılmaq. Səhərindən, küçəsindən, mənzərəsindən, mehindən, suyundan doymadan gedirdim. Beynimdə bir səs pıçıldayırdı: "Ölüb elə bu yerlərdə qalasan". Şuşa mənim üçün bir turistin gəzib-görmək istədiyi yer deyildi axı, uşaqlığımın xatirəsidi, Ağdama əbədi qayıtmağın qarantıdı. Qarabağın azadlığının nişanəsidir. Zəfərin tacıdır. Qələbənin heykəlidir. Ağdamın başının üstündə dayanıb, “arxayın ol!” – deyən qardaşıdır. Qürurumuzun, vüqarımızın boyu, şərəfimizdi Şuşa. Şuşa Qarabağın Günəşidir!

Qayıdırdıq; elə bilirdim yaralı əsgər balamı qoyub gedirəm, canımdan bir can qalmışdı o dağların başında. Nə ürəyim gedirdi, nə şüurum, nə ayaqlarım. Sürücü avtobusun qabaq oturacağında müqəvvamı aparırdı. Mən qırmızı yumağı sarıya-sarıya Şuşaya qayıtmışdım. Gördüyüm nə var idisə, beynimdən, şüuraltıdan çıxarıb düzmüşdüm xatirə masasının üstünə; köhnə albom kimi vərəqləyir, bir də yaddaşıma həkk edirdim. Elə bil qorxurdum ki, nəyisə, hansısa məqamı unudaram, yaddaşımdan düşüb itər. Hansısa şəkil gözümün önündən silinər.

Avtobus gedirdi, mən isə Şusaya qayıtmışdım, pay-piyada gəzirdim həmən küçələrdə. Avtobusun çölündə zəmilər, tarlalar idi, mənim gördüyüm isə enişli-yoxuşlu küçələr. Pəncərələr, eyvanlar... Orda gördüklərimi yol boyu kino lenti kimi geri çevirib təkrar-təkrar baxırdım. Şuşa məni öz tilsiminə salmışdı. Bu tilsimin qırılmasını istəmirdim.

Qayıdırdıq, günəşin şəfəqləri buludlardan asılmışdı. Avtobusda demək olar ki, hamının evi Qarabağda qalmışdı, hamı müvəqqəti sığındığı yerə qayıdırdı. İndi Bakı mənə paytaxtdan çox, sığınaq şəhəri kimi görünürdü. Adam itirməyənə qədər sahib olduğu şeylərin qədrini, dəyərini bilmir. Bəlkə də bizdən böyüklər Qarabağda olanda onun bu qədər müqəddəs olduğunu bilməyiblər. Fərqinə varmadan yaşayıblar. Onun suyunu, havasını, dağını, dərəsini indiki qədər arzulamayıblar. Buna görə də Qarabağı indi daha çox sevirik. Qanımızdakı bütün leykositlər Qarabağ sevgisini damarlarımızla beynimizə daşıyır, hüceyrələrimizə ötürür. Bu gün biz təpədən-dırnağa Qarabağıq. Bizim üçün Qarabağdan müqəddəs heç nə yoxdur. Bundan sonra bu müqəddəsimizi daha çox qoruyacaq, daha çox keşiyində duracağıq. Bundan sonra səhvə yol vermək, unutmaq haqqımız yoxdur.

Biz sonuncu məntəqəyə çatanda Günəş əlini buludların ətəyindən üzmüşdü. Mən heç kimlə, heç nə danışmaq istəmirdim. Bu susqunluğum iki gün çəkdi. Qoruxurdum ki, danışsam, yuxudan oyanaram, hər şey yadımdan çıxar, xatırlaya bilmərəm.

İndi yaxşı xatırlayıram: Deməli, səhər saatlarında Bakı bizi Şuşaya yola salırdı...

***29-31 avqust***
***Şuşa-Bakı***



## ***KƏRAMƏT***

* * *

İndicə qaş qaralıb, ömür qürub edəcək,
Tapdaladığın torpaq üzərini örtəcək.
Yolların da yolları qəbristanda bitəcək.
Arxamızca tökülməz ipisti göz yaşları,
Diriləri çağırmaz soluxmuş başdaşları.

Bütün başdaşlarında şəkillər gülür bizə,
Ölülər can qurtarır, zülmlər qalır bizə.
Görərsən, Yer üzü də bir gün dönəcək buza,
Əllərim soyuyubdu, bax, buz dövrü başlanır,
Diriləri çağırmaz soluxmuş baş daşları.

* * *

dayandı Çay
Çayda axan Ay
Tutub saxladılar zamanı, həyatı
Ötdün, dönüb geri baxdın
kürəyimdə, boynumda
Gözlə, "Gözləmə salonu"nda

Evi də, məni də bomboş görərsən,
İtiylə danışan sərxoş görərsən.
yanağına yağan yağış görərsən,

Gəzmə məni məndə, mən məndə yoxam.

Gəzmə məni məndə, mən məndə yoxam,
Şərqisi ağıya dönən bir "ah"am.
Təpədən-dırnağa yalan, günaham,
soxma gözlərimə köhnə şəklimi.

Soxma gözlərimə köhnə şəklimi,
yığışdır şübhəni, apar şəkkini
kimə dəyişibdi bu kimsə kimi,
Hələlik, əlvida, görüşənədək.

Hələlik, əlvida, görüşənədək
Gəzmə məni məndə, mən məndə yoxam.

* * *

Buz evdəyəm, buz evdə
Yayın cırhacırında
Özümə-sözümə Buz ev tikmişəm
İsveçdəki "Buz otel"də yox
Ömrün sırsıralı cəhənnəmində
cənnətdə, qaya qaşında
gözlərim yol çəkir

## GECƏQONDULAR

***Yalan olmasın, bəlkə 40 yaşı var bu şeirin***

Tikilib qurtarmaz gecəqondular,
Ya suyu kəsilər, ya qazı gəlməz.
Oğul evləndirər, qız ərə verər,
Elə üzdən gülər, ürəyi gülməz.

Divarı nəm çəkən yanaqlarıdı,
Gözü də damcılar tavanı kimi.
Yarı-yarımçıqdı, kəmdi, yarıdı,
Özüylə danışar havalı kimi.

Başının üstünü "JEK", polis alar,
Kəndçi olduğundan hamı qandırar.
Ömür də, arzu da yarımçıq qalar,
Tikilib qurtarmaz gecəqondular.

## KÖLGƏ QATİLİ

Həmişə öydüyünü söy,
sərxoş, əyyaş ol.
8 yazsın ayaqların,
divardan tuta-tuta yeri,
borc istə, həmişə pul paylamısan.
tanı özünü
sözünün üzünə qan çilənib görəcəksən
kölgəni bıçaqlayırsan durmadan,
işə bax
kölgənin də qanı olurmuş.

## GİZLƏN-TAP SEVGİSİ

Sevgi biri-birində gizlənməkdi
bunu sənə mən deyirəm, –
EŞQ bilicisi – ustadı, Köhnə kişi – sarı tülkü
kürəyini yerə vurmayan
Peyğəmbər pişiyi
Əlbəttə, səhralar aslanı,
ÖZÜNDƏ tapa bilirsənmi məni.
Mən özümü özümdə tapa bilmirəm
gəl, "Gizlən-tap" oynayaq
mən səni məndə tapım
sən məni səndə

## YOLLAR PANDEMİYAYA YOLUXUB

boşluq
sıxıntı
həmişə, qəbrə qədər
səbrli sənsizlik
gözün yol çəkir
yollar pandemiyaya yoluxub
bomboş, bir qaraltı yox
Bütün bunlara rəğmən
deyəsən ki, bir sıxıntı yox

olmur, canım-gözüm
nə sıxıntı olacaq ki
qəbir əzabı da olmayacaq
Həyat özü elə Qıl Körpüsüdü

yalan, bizim ritorik şeirlər
mərsiyəxan-meyxanaçı şairlərfason bir şey

yadımdan çıxdı ye...
"Mən səni sevdim"
p ı ç ı l d a y a c a q d ı m
Ay dil-qafil
ADAMA HƏR SÖZÜ
SÖZLƏ DEMƏZLƏR
İLLAH DA EŞQ OLA

## SƏN MƏNƏ HƏR ŞEYİ UNUTDURURSAN

– Onsuz da unudulacaq hər şey, – deyirsən
Ürpəndiyim və bildiyimdi,
üzünə telefon qapanmış kimiyəm:
-du...du..du..(sonsuza qədər)
gömülmüş səslər də cücərməyəcək
hamı hamını unudacaq, onsuz da
dünən yazı taxtasını silən silgi də
bu gün internet camına "sil" əmrini verən də
unudulacaq, unudulacaq, unudulacaq
Yaddaşına bir virus yoluxacaq
ruhun da inciməyəcək
sən mənə hər şeyi unutdurursan
yavaş-yavaş
özünü mənə yoluxdurursan
qulağıma layla
– onsuz da unudulacaq hər şey, – deyirsən
kəsilir YERlə rabitə əlaqəsi
əzabkeş yaddaşdan azad oluram
sönür qulaqlarımda duaya bənzəyən layla
– onsuz da, onsuz da

## LƏNƏTLƏNƏN ÖMÜR

Səni lənətləyiblər, atıblar Yer üzünə
Çaylar da YUYA bilməz ürəyinin kirini
Görürəm qarışıbdı at izi it izinə
hardan tapa bilərdin mənim kimi birini

yenə aldanacaqdım, özüm də bilə-bilə
bilirəm ki, yenə də sənə yem olacaqdım

mərhəmətim qıymazdı mənə uzanan ələ
Başım iki əlimdə… beləcə qalacaqdım

Hər şeyə gücüm çatdı, eh... özümdən savayı
tökülübdü üstünə, arzum, ölü torpağı
bazarlıq edəmədim, satdım ömrü havayı
Mənə əmanət qaldı Diogenin çırağı

## ÖMÜRLÜK HƏBS OLUNMA XATİRƏLƏRƏ

Yorularsan, qırılarsan
belə bərk-bərk qucma, qorxma
bilirəm, boğursan aradakı təkliyi
bitər, bitər qucağın, yatağın məhkumluğu
Sonra sürgün olunarsan
tənhalığın Sibirinə, Sibir tənhalığına
Xatirə məhkumluğu başlar
həbs olunma
ömürlük həbsə – xatirələrə
Azadlığa çıx xatirənin Bayıl türməsindən
kimsə qarşılamasın,
sən türmədən çıxanda.
Ölümün də qorxduğu Adamsan

Küçə uşağı, bir gecə
zibil yeşiyinin yanında tapdılar
inqə səsinlə.
"Uşaq evi"ndə böyüdün
Həmişə təklənib döyüldün.
Dünya vağzaldı, vağzal
Gələndə qarşılayan olmayıb
...gedəndə də, gedəndə də
yola salan olmayacaq

## BARDAŞ QURUB OTURMUŞAM İT GÖZLƏRİNDƏ

Bayquş gözləri çəkici –
ovunu çəkib gətirər
Ceyran gözləri ürkək
qorxar özü öz gözəlliyindən
Ah... baxma insan gözünə
doymaz, dünyanı versən də
Özü öz başını yeyəcək sonda.

hə... it gözlərindən danışacaqdım
("Şadlıq sarayı" tikəcəksən
şad olacaqsansa,
əlinə al külüngü
sən də bərbad et bərbad könlümü)
eşşək gözlərində məzlumluq
İt gözlərində məhzunluq
...dibsiz həsrət, kədər

Hə... onu deyəcəkdim
itimin gözlərində
bardaş qurub oturmuşam, gözləyirəm
darıxmasın deyə
İtimin gözlərindən əlimi çıxarıb
yaralı – bəlalı başını əzizləyirəm.

## KÖHNƏ SİNİF OTAĞI

Dünya sinif otağı, Həyat da ki müəllim
Sinifdən qovulansan, şuluqluğun "ah"ı var
Dartdığın qız saçında qalıbdı uşaq əlin
Dərsin şirin yerində Əzrayıl da çağırar

Hələ yolun əvvəli, əvvəl sonmuş sən demə
Sən demə... bütün bunlar yuxuymuş, nağıl imiş.
Köhnə gordan səs gələr; "Qoca uşaq, qəm yemə"
İmperatorlar belə qorxaqmış, fağır imiş...

Daşı dəli ruhumu dar bədəndə – dar Yerdə
Səhranın tərs küləyi dayanıbdı qəsdimə
Ya it, ya quş şəklində sənə dönərəm bir də
Köhnə sinif otağı, oyandım zəng səsinə

## ƏSMƏ, SƏHRA KÜLƏYI, ...ƏSMƏ ÜSTÜMƏ

Fani, köçəriyəm, daldanacaq yox,
Yandır, qovur məni, səhra küləyi.
Mənə yağ, təkadamlıq kameraya yağ,
Sovur, sovur məni, səhra küləyi.

Yanarsan, əlini uzatma mənə,
Yüz dəfə gedərsən, dönərsən yenə.

Yanginən sən məndə sönərsən yenə,
qumlarla… vur, vur, vur, səhra küləyi.

Gör hardan gəlirsən, hara gedirsən,
Cəhənnəmə gedir, gora gedirsən.
Ordan əsmisənsə, bura gedirsən,
ustadıını qovur, səhra küləyi.

Səhra küləkləri gəlsə üstünə,
deyəsən, külək də… nəsə, kəsdi nə.
mən varam, kimsənə durmaz qəsdinə,
əsmə, nə olur, dur, səhra küləyi.

## ADAM OLMAYAN ADAM

Əgər vaxtım olsa.., səhərə çıxsam,
Evimdən qurtulub şəhərə çıxsam,
Mən səni arasam, görsəm ki yoxsan,
Sonranın sonrası sonra da olmur.

Olmur, canım-gözüm, olmur ki olmur,
Əriyir bu ömür, sabaha qalmır.
Günahda yuyulur, savaba qalmır,
İthürən tərəfə yüyürür axşam.

Zormu istəyirsən, zor mənlik deyil,
Beşik mənlik deyil, gor mənlik deyil.
Kimdən istəyirsən, sor, mənlik deyil,
Adam, adam deyil, adam... bu adam.

# TƏSVİRİ SƏNƏTİ SÖZLƏ ANLATMAQ MƏHARƏTİ



## *Əlifba və estetika*

Mən bunu tərcümə elədim sənətşünas və rəssam tanışlarıma kiçik bir hədiyyə kimi, balaca bir sürpriz kimi bağışlamaqdan ötrü. Bəlkə də kimlərsə artıq çoxdan oxuyub, öyrənib və hətta öyrədib də öz davamçılarına bu miniatür risaləni, harada ki boyakarlıq peşəsinin sirləri yüksək poetik üslub və intonasiya ilə, bədii obrazlarla ifadə olunur. Bu risalə rəssamın təfəkkürünə açar, xəyalına işıq salır, sənətkara baxıb çəkməyi yox, nəzərlərilə fikirləşməyi, düşünüb çəkməyi, hər hansı bir mənzərəni rəsmin strukturu ilə şeirə, poetik mətnə, sevgiyə, meditasiya obyektinə çevirməyi təlqin eləyir.

Ona görə çalışdım ki, təsviri sənət haqqında bu misilsiz qədim risalə Azərbaycan dilində də olsun, sadəliyin, adiliyin rəsmdə necə poeziyaya döndüyünü azərbaycanca görükdürsün; çalışdım ki, orijinalın sözünü yox, ruhunu köçürüm vərəqlərə. İş prosesində rus-sovet akademiki V.M.Alekseyevin (1881-1951) tərcüməsindən yararlandım, ondan örnək götürdüm: gördüm ki, Şərq dünyasına bu məftun insan fenomenal heç nə eləməyib, sadəcə, orijinalın ruhunu rusca danışdırıb. Mən də dedim ki, bu ruh azərbaycanca da, qoy, nəsə desin: elə desin ki, sənətşünaslar, rəssamlar onun dediklərinə bayılsınlar.

İndi də keçirəm "Təsviri sənətin sirləri" adlı heyranedici bir əsərin heyranedici müəllifinin təqdiminə; unikal bir şəxsiyyətə: o adama ki, yüksək rütbəli dövlət məmuru ola-ola zahidsayağı həyat tərzinə üstünlük verib, şeir yaza-yaza sözlərlə şəkil çəkib, şəkil çəkə-çəkə sakitliyin nəğmələrini bəstələyib: həm şair olub, həm rəssam olub, həm xəttat olub, həm də musiqiçi.

Van Vey VIII əsrin Çin poeziyasında bir Çan nəsimidir: dzen-buddizm fəlsəfəsinin mahiyyət gözəlliyini şeirlərinə yansıdıb; Lao-dzı və Çjuan-dzının təlimlərindən təsirlənib. Əgər Li Bo Çin poesiyasına romantik vüsət verdisə, Du Fu ona klassik ciddiyyət və vətəndaşlıq pafosu aşıladısa[1], Van Vey (699-759) Tan imperiyasının təbiət şairi oldu. Onun hər şeiri bir tabloda təsvirlənən peyzaj timsalıdır. Van Veyin şeirləri ucadan səsləndirilmək üçün deyildir, ürəyində oxuyub susmaq üçündür, susub təxəyyülündə gördüyünü yaşamaq üçündür, anlamaqdan qurtulub nurun sükutuna qərq olmaq üçündür. Çan-buddaçı rahib xislətinə uyğun mediativ şeirlərdir, təbiət mənzərəsinin ruhsal təcəssümüdür, qəlb müşahidələridir Van Veyin yazdıqları... "Heç nə" haqqında poeziyadır onun şeirləri məzmun etibarı ilə.

Lakin mən Van Veyi bir şeir ustadı kimi yox, təsviri sənətin bilicisi, təsviri sənətin şairi kimi tanıtmaq istəyirəm. Hətta o özü elə hesab eləyirdi ki, daha çox rəssamdır, xəttatdır, nəinki ədib. Van Vey bunu etiraf etməkdən çəkinməyib də bir şeirində haradasa utana-utana boynuna alır ki, özünü bu dünyada yalnız rəssam kimi qavrayır:

***Çətin ki şair doğulaydım***
***keçmiş həyatımda mən.***
***Çün yaxın olmuşam daim***
***rəssamlığa fitrətən.***

Van Veyin "Təsviri sənətin sirləri" risaləsi mənzərə janrının əlifbasını rəssam olmaq arzusunda bulunanlar üçün sərgiləyir. Bu mükəmməl "əlifba" həm janrın texnikasını, həm estetikasını, həm də fəlsəfəsini özündə qapsayır: boyakarlığa da açılır, qrafikaya da, xəttatlığa da. Nədən ki, Orta çağların Çin təsviri sənəti onların qırılmaz rabitəsində, birgəliyində mövcuddur.

Risalə rəssam ruhuna ipək və ya kağız üzərinə ləpir sala-sala möhtəşəm mənzərələr yaratmağın sirlərini pıçıldayır. Burada söhbət gördüyünü şəklə yansıtmaqdan getmir: məsələ peyzajı insan duyğularının dilində danışdırmaqdır, fırça ilə rəngləri yox, emosiyaları mənzərə rəsminə qondurmaqdır. Təsadüfi deyildir ki, mənzərə həmişə hisslərin, yaşantıların, ruhsal durumun mənzərəsidir, əhvaldır, insan ruhunun güzgüsüdür.

Əlavə daha nə söyləyim? Yaxşısı budu, rəssamlıqla maraqlanan kimsələri Van Veyin zövqlə, aram-aram nəql etdiyi nəzəri risaləsilə, şeir ovqatlı təhkiyəsilə baş-başa buraxım. Ümidvaram bəyənərlər Van Veyin Orta əsrlərdən göndərdiyi bu poetik dərsliyi də, mənim tərcüməmi də.

***Tərcüməçidən***

*Van VEY*

# TƏSVİRİ SƏNƏTİN SİRLƏRİ

Rəngkarın təsvir üsulları sırasında sadə tuş[2] hamısından üstündür: çünki təbiətin təbiətini faş edər, Yaradanın işlərini tamamlar.

Bəzən rəssam ölçüsü cəmi çərək[3] yarım olan şəklə yüz min kilometrlərlə uzanan bir məsafənin mənzərəsini sığışdırar. Elə sığışdırar ki, Şərq də, Qərb də, şimal da, cənub da öz gözəlliyilə gözlər önünə gələr. Bahar yaxud yay, payız, qış fırçanın ipəklə, ya da kağızla öpüşündən doğular.

O zaman ki sən ucsuz-bucaqsız, geniş su hövzələrinin təsvirinə girişirsən, ora üzən dağları çəkməkdən qorx. Nə vaxt ki şaxələnən yolları rəsm eləyirsən, düz, birbaşa, şümşad olanları bürmələmə.

Yuxarıda sahib kimi dayanmış zirvənin şiş ucu, yaxşı olar ki, asimana diklənsin, göylərə dirənsin: digər dağlarsa zirvənin qonaqları qismində ona tərəf dartınsınlar.

Orada ki dağ əyilir, qurşaq taxır, biz oraya çox güman ki, bir rahib xanəgahı yerləşdirərik; yol üstünə, çay kənarına isə sadə bir daxma qoyarıq.

Kəndi və ya tövləni ağaclar sırası ilə pərdələ: orada bir meşəlik düzəlt; mütləqdir ki, budaqlar şəklin bədənini qucaqlasın. Dağa və yarğana çayı lent kimi sarı: qoy, köpüklənə-köpüklənə şığısın irəli... Hərçənd gərək necə gəldi axmasın çay.

Bərənin durduğu yer bomboş olmalıdır: sakitlik olmalıdır orada; gəlib-gedən tənha adamların da sayı tək-tük.

Aman ver, yastı qayıqlar üstündə düzəldilmiş körpü üzsün; yaxşı olar onu yuxarı başda təsvir eləyəsən. Balıqçı təknəsini aşağıda çəkməyinsə, deyim ki, heç bir ziyanı yoxdur.

Havadan asılı sərt, təhlükəli qayalar arasında tərcih edilir ki, qəribə bir ağac sığınacaq tapsın. O yerlərdə ki alçaq sıra dağlar divar kimi bütövlənib yüksəlirlər, oralardan mümkünsüzdür yol aparmaq.

Çox-çox aralıda qərarlaşmış təpənin yanağı dumana toxunub ona qovuşar, göylərin üfüqü öz işığını sularla birləşdirər.

Dağlar iç-içə keçib qıfıllananda, ya da qarmaq kimi qatlananda, oradan bir şırnaq götürüb gəl üzü aşağı. Haçan ki yol sıldırıma yaxınlaşdı, bura bir asma körpü də at: ziyan eləməz.

Nə vaxt ki düz, hamar bir müstəvidə imarətlər və eyvanlar ucalır, lazımdır ki, insanların yaşadıqları evlərin qarşı tərəfində hündür söyüdlər bitsin salxım-salxım; məşhur dağ məbəd və tapınaqlarında çox ləyaqətli görünər ki, əcaib bir küknarın qol-budaqları yatsın günbəzlərin üstünə.

Göz işlədikcə uzanan uzaqlar şəkildə tüstü ilə örtülər, uca sıldırımlar isə qəsrə girən kimi girərlər dumana. Çaxır dükanının bayrağı, qoy, yüksəkdən dalğalansın yolun ortasında, zəvvar qayığının yelkəni, pis olmaz, sahil sularında aşağı endirilsə.

Gendən görükən dağları kiçildib sıralamaq gərəkdir, onlara yaxın meşəliklər isə, lazımdır ki, qəfildən boy verib görünsünlər.

O zaman ki əl fırçaların, tuşun yanına gəlir, olur ki, azır və tənbəlləşib unutqanlığa qapılır... İllər, aylarsa uçub-uçub qeyb olur üfüqdə; əbədiyyət olur və bax, onda fırçanın özü düşüb gedəcək gizlin sirləri axtarmağa. Məxfi

gözəlliyi dərk etməkdi şərt: bunun sirri heç də sözçülükdə deyil; amma o adam, onsuz da öyrənməyi bacaran öyrənir, qoy, hər halda qayda-qanunları mənimsəsin hər şeydən öncə.

Elə elə ki məbəd qalaçasının başı göylərə dirənsin: quruluşunu göstərməyə nə ehtiyac. Sanki var, sanki də yox; gah yuxarı dırmanır, gah da aşağı qaçır...

Kol basmış təpəciklər, torpağın şiş papaqları yalnız bir damcı görükdürər komanın yuxarısını: otlarla örtülü daxma; qamış eyvandan isə şüvüllər sallanır sakit-sakit...

Dağ səkkiz üzə bölünüb, daş isə üç tərəfdən görünür yalnız.

Dumanların əhlikef, qayğısız görkəmini rəsm edəndə, aman vermə, onlar cji[4] naxışı kimi burum-burum qalxıb topalansınlar.




Fiqurlar baş barmaqdan[5] azacıq böyük olsalar, kifayətdir: sun və tui bo adlandırılan şam ağacları isə, qoy, iki qarış yuxarıya ulaşsınlar.

Haçan ki dağları, suları mənzərəyə gətirirsən, onda sənin fikrin fırçanın arxasına keçib önə çıxır... Dağların boyu üç arşın, ağaclar çərək yarım, atlar baş barmaqdan biraz böyük, adamlar daha xırda...

Uzaq fiqurların ağzı sezilməz.

Uzaq ağaclar budaqsız çəkilər.

Uzaq zirvələr daşlarsız görünər: tük kimi nazik qaşlar kimi olar zirvələr...

Uzaq axınlar dalğasız verilər: onlar yüksəklərdə buludlarla bərabərləşər.

Belədir müjdələr!

Dağ beli dumanla örtülüb: qaya divarları şəlalə ilə duvaqlanıb; qalaça-eyvan yelpik tutub ağacları üzünə: piyada yolu isə adamlarla doludur.

Daşa üç tərəfdən, yola iki başdan baxarlar: ağaclara onların tacından nəzər sal, küləyin ayaq izlərinə sularda tamaşa elə.

Belədir qanunlar!

Dağları su içində görükdürəndə, təpələri dümdüz çək, amma zirvələrini şişuclu elə; zirvələri dimdik rəsm edəndə onları zəncir kimi bir-birinə bağla; qayanı mağara yarığı ilə təsvir elə, böyrünə sərt qaya divarı pərçimlə; qaymaları boşluqlardan asılmış çək və təpələri top kimi yumrulat.

Çay hər yerdən axıb keçən bir yoldur uzaqlara; nə vaxt ki dağlar iki yandan sıxsalar yolu, onda oranı dərə adlandır; yox, əgər dağlar iki tərəfdən çayı sıxsalar, buna biz sel deyərik.

Yuxarıda bir-birinə qısılıb cərgələnən nə görürsənsə, onun adı beldir; o nəsnə ki göz işlədikcə düppədüz uzanıb gedir, bunlar təpələrdir.

Əgər buna bir təhər diqqət yetirilsə, ümumi bir oxşarlıq tapılar mənzərə ilə!

Kim ki şəklə baxır, çalışır ki, hər şeydən öncə ruhu görsün. Yalnız sonradan fərqləndirir ki, haranı fırça yaxıb-yaxmalayıb, harasa təmiz qalıb.

Özün qənaətə gəl, kim qonaqdır, kim – ev yiyəsi; kim qəbul edir, kim təzimdə bulunub gəlir. Möhtəşəm bir cərgəyə yerləşdir zirvələri; əgər lap çox olsalar, sahmansızlıqdı bu; yox, gərçi az olsalar, darıxdırıcı, solğun təəssüratdı bu.

Nə çox, nə az olsun zirvələr... Ancaq ayırd elə, onlardan hansı yaxındadır, hansı uzaqda.

Gendən görünən dağlar yaxın dağlara birləşməz; gendən axan sular yaxın sulara qovuşmaz.

Harada ki dağ qurşaq bağlayır, ora məbəd tikililərini yerləşdir; harada ki çayın sahilləridir, oradan bir yarğan açılsın, sonra yaş daşlar, çınqıllar, qum təpələri və sal olsun, ora bir dənə balaca körpücük də, mümkündür, qoymaq.

Orada ki yol yoxdur, həmin yerdə meşəliklər üstün olsun; harada sahil dağılıb, orada olsun köhnə bir keçid; harada sular qurtarır, orada ağacların tacı duman içində; harada çaylar daşar, orada yelkənlər oynar; meşənin gizlinlərində isə – insanların yaşayış məskənləri.

Uçurumdan öncə – qədimi ağaclar; onların kökləri ilan kimi bir-birinə dolanıb düyünlənib; sel qarşısında – daş qaymalar; onların üzərində heyrətamiz naxışlar suyun barmaq izləridir.

Haçan ki meşələrin ağacları rəsm edilir, uzaqdakılar nadir və hamar olur, yaxındakılar – sıx-sıx və hündür. Əgər şəli varsa onların, budaqlar zərif, yumşaqdır; gərçi yarpaqlar yoxdursa, budaqlar görünüşcə qüvvətlidir, möhkəmdir. Küknarın qabığı balığın pulu kimidir: ağ küknarın gövdəsinə zireh qismində sarınır. Əgər torpaqda bitirsə, kökləri uzundur, oduncağı dümdüz; yox, əgər daşlıqda bitirsə, tənhadır, kökləri də düyünlənib yumruğa dönür.

Köhnə ağaclar çoxsaylı hissələrdən ibarətdilər: yarı ölüdür onlar, yarı – diri; bumbuz meşəlikdə quşcuğaz gizlənib; soyuqdur ona, qəmgindir, büzüşüb əsim-əsim əsir...

Nə vaxt ki yağış yağır, nə göy bilinir, nə yer: müəyyənləşdirmək olmur Şərq haradadır, Qərb harada. Gərçi yağış yoxdursa, hava küləklidirsə, ağacların budaqlarını seyr elə. Əgər külək yoxdursa, yağış ələnirsə göydən sakit-sakit, ağacların tacı ağırlaşır, aşağı yatır. Yoldan ötən isə çətirini açıb, balıqçı isə həsir bürüncəyini başına çəkib...

Yağış qurtarır, iməkləyə-iməkləyə buludlar dağılır göy üzünə: səma laciverddir...

O zaman ki duman yüngülcə çəkilər, tutqunluq pərən-pərən düşər, dağların yəşəm daşları kimi şuxluğu artar, günəşin çəpəki şəfəqləri dağın döşünü döyər...

Təbiətdə min zirvə birdən açmaq istəyir səhəri hamıdan erkən; zərif duman, ələkeçməz tüstü; qayıdan ayın üzü bulaşıqdır, görkəmi – qanıqara...

Amma bir axşama fikir ver: dağ qırmızı məşəli udur, çayın dayaz yerində isə yelkən yığışdırılıb. Öz yolu ilə gedənlər tələsirlər, kasıb daxmasının qapısı artıq yarıya qədər örtülüdür.

Yazda duman qəsrdir, tüstü duvaq kimi. Tüstü uzağa qaçdıqca ağarır... Bənövşəyi rəngə boyanıb çay, dağlar isə aralıdan gömgöy görünür.

Yay şəkli: səmanı örtüb qədimi ağaclar; yaşıl gölməçə iradəsizdir, su ləpələnmir; dumanı dəlmiş şəlalə qənarədən asılmış kimidir; və burada, lap yaxın suların yanında bir ev var xudmani, sakit...

Payızın görkəmi: göylər suların rənginə çalır; meşə tənha, kimsəsiz, qalın, ağır... Payız gölündə sonalar, qazlar; qamışlıqda, qumlu sahillərdə quşların nadir səsi...

Qışa diqqət elə: torpağı qar əsir götürüb. Bu da odunçu şələni belinə atıb yolunu gedir. Balıqçı təknəsi çoxdandı sahilə yapışıb qalıb... Çay dayazlaşıb, qum hamardır, dənəvərdir.

Əgər sən dağlarla suları birgə təsvir eləyirsənsə, bu dəyişikliklərə uyğun çəkməlisən şəkli.

İndisə belə yekunlaşdıraq dediklərimizi:

"Mərtəbəli sıldırımlar duman qəsrindədir"; və ya:

"Buludlar uçur Çus dağlarına sarı"; ya da ki:

"Payız səması səhərə tərtəmiz oldu"; və yaxud:

"Köhnə məzarın yanında aşmış abidə"; ya da belə:

"Duntin" (göl) gözəl yaz köynəyindədir"; yaxud da ki:

"Kol-kos tutub yolu: mən azmışam" – bax, bunların hamısına və ya buna bənzər digər ifadələrə biz şəklin altına atılmış imza deyərik.

Dağların zirvəsini qəlibə salmaq olmaz; ağacların tacını eyni bir üslubda çəkmək olmaz. Ağacları geyim kimi götürür özünə dağlar; dağları sümük sanır özünə ağaclar.



Saysız ağac rəsm etmək qutsal sayılmaz: dağları qamətli, mehriban göstərmək daha vacibdir. Onları başdansovdu təsvir etmək yaramaz: gərəkdir ki, dağları çəkəndə ağacların sağlam inkişafı da sezilsin rəsmdən.

O şəkildə ki bütün bunlar gerçəkləşər, mümkün olar, məhz onu mən məşhur peyzaj adlandıraram.[6]

***Tərcümə edən:***
***Aydın TALIBZADƏ***

[1] – Сухоруков В. О Ван Вэе и его поэзии // В кн. Ван Вэй. Стихотворения. – М., Худ. лит.-ра, 1979. – С.6.

[2] – Sadə tuş – monoxrom: tuş rəsm, cizgi, yazı üçün qara və başqa rəngli akvarel mürəkkəbə deyilir.

[3] – Çərək – qarış, haradasa 20-22 sm.lik uzunluq ölçüsü: fut anlayışının qarşılığı.

[4] – Çji – naxış növü: hərçənd bu söz əfsanəvi ölümsüzlük göbələyini bildirir, Çin qumaşlarının üzərində onun şəklini görmək olar.

[5] – Baş barmaq – 2,54 sm.-lik ölçü, düym anlayının qarşılığı.

[6] – Əsər dilimizə ruscadan bu mətn əsasında çevrilmişdir: Ван Вэй. Тайны живописи: пер. академика В.М.Алексеева // В кн. Ван Вэй. Стихотворения. – М., Худ. лит.-ра, 1979. – С.22-27.

# NİZAMİ GƏNCƏVİ OBRAZI BƏDİİ ƏDƏBİYYATDA

***Həmsöhbətimiz Nizami irsinin araşdırıcısı Əlimuxtar Muxtarovdur. Ə.Muxtarovla "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda" mövzusuna işıq salmağa çalışmışıq:***

**–Nizami Gəncəvinin obrazı şeirlərindəki obrazı, yaxud real həyatı ilə bağlı hadisələr onun bədii obrazını yaradan hansı müəlliflərin yaradıcılığında uyğundur, hansı müəlliflərin əsərlərində isə təhriflərə məruz qalıb?**

–Bədii ədəbiyyatda, eləcə də poeziyada Nizami Gəncəvinin bədii obrazı ilk dəfə şairin öz əsərlərində canlandırılmışdır. Nizami Gəncəvinin əsərlərindəki müəllif obrazı Azərbaycan ədəbiyyatında şairin həyatı haqqında yazılmış bədii əsərlərin ilkin istinad mənbəyi, dahi ustadın bədii portretinin yaradılmasında yazıçı təxəyyülünün faydalandığı ən əsas qaynaqlardandır. Dahi mütəfəkkirin ilk bədii portretinin müəllifi məhz şairin özüdür. Məhəmməd Əmin Rəsulzadə ölməz elmi əsəri "Azərbaycan şairi Nizami" monoqrafiyasının "Nizami öz gözü ilə" bölümündə bu fikri təkrar olunmayacaq tərzdə ifadə edir. M.Ə.Rəsulzadə məqaləyə epiqraf kimi Nizaminin bu fikirləri ehtiva edən bir beytini əlavə edir:

***Hər kəs için birər inci işlədim,***
***Kəndimə də bir qəsidə söylədim.***

Rəsulzadə yazır: "Kəndisindən məqsəd şairin ədəbi və mənəvi "mənliyi"dir. "İskəndərnamə"sindəki bir yakarışında Şair "can" dediyi bu mənliyini böyük bir hikmətlə ifadə edib; vücudunun çürüyüb torpağa dönəcəyini bilən hakim kəndini əbədiləşdirmək ümidi ilə "can"ını nəzmdən bir qəlibə qoyub və "ey Tanrı, sənin əbədi varlığını cana sinən bunca parlaq dəlillərlə isbat edib durdum; nə olurdu, sən də mənim mənliyimin əbədiliyini bildirəydin" – deyib.

Sidq-ürəklə edilən bu niyazın haqq qatında qəbulunun göstəricisidir ki, Nizami Gəncəvi dühası 900 ilə yaxındır ki, elmimizdə, ədəbiyyatımızda, incəsənətimizdə, bir sözlə, aid olduğu hər sahədə yaşayır və bundan sonra da yaşayacaq.

Və yaxud "Xəmsə"nin başqa bir yerində Nizami Gəncəvi həm özünün yazdığı əsərlərlə, həm də haqqında yazılacaq hər bir misra ilə ölməzlik qazanacağına özünəməxsus şəkildə eyham edib:

***Şeiri oxunanda bu Nizaminin***
***Özü də hər sözdə görünər yəqin.***
***Gizlənib özünü verməzmi nişan***
***Sənə hər beytində bir sirr danışan.***
***Yüz il sonra sorsan bəs o, hardadır?***
***Hər beyti səslənər burda, burdadır.***

Bu beytlərin ehtiva etdiyi mənalara diqqət yetirsək, görərik ki, Nizami Gəncəvi bu misralarla təkcə Gəncədə deyil, həm də yazdığı və haqqında yazılan hər bir misrada yaşadığını bədii cəhətdən ifadə edib.

Nizami Gəncəvi obrazının həyatı ilə bağlı uyğunluq və təhrif məsələsinə gəldikdə isə, dahi mütəfəkkirin həyat amalından doğan ümumbəşəri ideyaların təhrifi daha çox sovet dövrü ilə bağlı olub ki, bu da dövrün ideoloji təbliğatının və senzuranın dövrə meydan oxuması ilə bağlı olub.

Nizami Gəncəvi obrazını öz dolğunluğu ilə əks etdirən, məcazi mənada desək, qızıl kimi solmayan ədəbi nümunələrə, demək olar ki, orta əsrlərdən başlayaraq, keçən əsrin 20-ci illərinə qədər olan bədii ədəbiyyat nümunələrində rast gəlirik.




**–"Mehr və Müştəri"də Nizaminin obrazı daha parlaqdır...**

–Bəli, XIV əsr Azərbaycan şairi Əssar Təbrizi "Mehr və Müştəri" poemasında Nizami Gəncəvini belə xatırlayır:

***Bilirəm ki, İsa dəmli böyük şair Nizami,***
***Bu üslubda xətm elədi hər sözü, hər kəlamı.***
***"Məsnəvidə o, misilsiz incəliklər yaratdı,***
***O ustadın məharəti məsnəvini ucaltdı.***
***O təfəkkür meydanında at oynadan zamanda,***
***Fələk özü geri qaldı şairdən bu meydanda".***

Tərənnümün dərəcəsinə diqqət yetirsək, olduqca yüksəkdir; Nizaminin nəfəsi, dühası Allahın elçisi olan İsa peyğəmbərlə müqayisə edilir.

Əssar Təbrizinin əsərindəki Nizami portreti şairin özü haqqındakı təsəvvürləri ilə yaxından səsləşdiyi üçün əvvəlcə "Mehr və Müştəri" poemasını dilə gətirdim, lakin Nizami haqqında yazılmış ilk bədii əsər kimi Əsirəddin Əxsikətinin mədhiyyəsini görürük. "Azərbaycan ədəbiyyatı tarixi"ndə Əsirəddin Əxsikəti haqqında məqalədə şairin Xaqani və Qətran Təbrizi ilə ədəbi əlaqələrindən bəhs olunursa da, Nizami ilə münasibəti haqqında heç bir məlumat əldə edə bilmirik. Lakin Əkrəm Bağırovun "Nizaminin müasiri"

məqaləsindən şairin ədəbi əlaqələri və həmçinin, həyatı haqqında xeyli məlumat var. Ə.Bağırov Əsirəddinin Divanının əlyazması haqqında məlumat verərək burada Nizamiyə həsr olunmuş bir mədhiyyədən də söhbət açırdı: “Əlyazmanın 230-232-ci səhifələrində şairin müasiri olduğu böyük Nizamiyə həsr etdiyi 21 beytlik “Daneş” rədifli qəsidəsi var. Dövrünün, demək olar ki, ona yaxın olan bütün hökmdarlarına və mənsəb sahiblərinə mədh söyləmiş şairin söz ustadları içərisində məhz yeganə Nizamiyə mədh söyləməsi və onu “dövrünün ən böyük alimi” adlandırması Əsirəddinin özünün şeirə, sənətə nə qədər böyük hörmət və ehtiram bəsləməsinin aydın sübutudur. Şair bu qəsidəni ömrünün son illərində Nizaminin “Yeddi gözəl” poemasından ilham alaraq yazıb və çox güman ki, Nizaminin özünə də təqdim edə bilib. Mədhiyyədə Nizamiyə xitabən deyir:

***Bilik məlhəmiyçün dilənən şüur***
***Sənin kandarında qul kimi durur.***
***Sənin qüdrətinlə bu torpaq belə***
***Elmin kimyasıtək düşübdür dilə.***

Başqa bir hissədə isə:

***Var idi çəməndə cəh-cəh vuranlar,***
***Ağlının önündə tez susdu onlar.***

– deyərək şirin dahilik mərtəbəsinin əlçatmazlığından danışır.

Nizamini olduğu kimi, heç bir təhrifə yol vermədən tərənnüm edən Məhəmməd Füzuli olub. Sultan Süleyman Qanuninin sifarişi ilə türk dilində “Leyli və Məcnun” poemasının yazılmasını xahiş etməyə gələn Rum zərifləri ilə söhbətində Məhəmməd Füzuli Nizami Gəncəvini özünə ustad, özünü də ona şagird hesab edib:

***Olsaydı təsərrüfündə rahət,***
***Çox kamil ona qılırdı rəğbət.***

***Billah ki, nə xoş demiş Nizami,***
***Bu babdə xətm edib kəlami.***

***Bir iş ki, qılır şikayət ustad***
***Şagirdə olur, riciyü-bidad.***

Anlaşılan odur ki, Füzuli Nizamini ustadı adlandıraraq, bir işdən ustad şikayət edirsə, şagird üçün də asan olmayacağını yazaraq Nizamiyə böyük ehtiram göstərib. Şair sanki Nizamidən sonra bu əsəri yazmaqla məsuliyyətini dərk etdiyini bildirir, həm də ustadın xatirəsi qarşısında üzrxahlıq edirdi. Eyni zamanda, burada Nizami dövrünə tarixi bir ekskursun da şahidi oluruq. Ədəbiyyat tarixindən məlumdur ki, həm Axsitanın etinasızlığından, həm də mövzunun dağınıqlığı səbəbindən Nizami də vaxtilə “Leyli və Məcnun” poemasını yazmaq istəməmiş, lakin oğlu Məhəmmədin xahişindən keçməmişdir.

Beləliklə, Nizami nəfəsini İsa peyğəmbərin nəfəsi ilə müqayisə edən Əssar Təbrizi, Nizamini özünə ustad sayan Məhəmməd Füzuli, Nizami Gəncəvini

"həkimi mənəvi şeyximiz" kimi yad edən Abbasqulu ağa Bakıxanov, Nizami türbəsinə gələrək, "Şeyx" – deyə dahi mütəfəkkirimizə dərin ehtiramını ifadə edən S.Ə.Şirvani kimi ədiblərimizin XIX əsrə qədərki dövrdə Nizami dühasına qədirşünas münasibətinin şahidi oluruq.

**–Bəs XX əsrdə Nizami Gəncəvini kimlər yad edirdi?**

–XX əsrin əvvəllərindən etibarən Azərbaycan elmi-ədəbi ədəbiyyatında Nizami Gəncəvi dühasına böyük diqqət olub. Xüsusilə Salman Mümtaz, Firudin bəy Köçərli, Mir Möhsün Nəvvab kimi ədiblərin timsalında. Lakin Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra fərqli yanaşmaların meydana çıxdığını görürük ki, bu da daha çox şəxsiyyətə pərəstiş dövrünün əlamətlərindən irəli gəlirdi. Bununla bağlı nizamişünas alim Zəhra Allahverdiyeva qeyd edir ki, "1939-cu ildə Stalinin imperiya əsarəti altında olan millətlərin gözündən pərdə asmaq naminə etdiyi "Milli ədəbiyyatların inkişafı haqqında" məruzəsi və 3 aprel "Pravda" qəzetində dərc olunmuş Nizami Gəncəvi irsinin təbliğ və tədqiqinin vacibliyi haqqında qərar Azərbaycan alimlərinin illərdən bəri çarpışdığı məqsədə çatmağa imkanlar açdı". Nizami irsinə dövlət tərəfindən qayğı göstərilməsi, tədqiqatçının qeyd etdiyi kimi, yalnız gözdən pərdə asmaq deyil, həm də milli ədəbiyyatı ideoloji rejimin nəzarəti altına almaq, ideologiyanın silahına çevirmək idi ki, mövcud siyasi rejim qarşısına qoyduğu məqsədə çatmağın yollarını da yaxşı bilirdi. Aparılan siyasət sayəsində dahi Nizami sadəcə sovet ideologiyasının tribununa çevrilirdi. Nizami haqqında orta əsrlər mənbələrinin verdiyi məlumatların hər cəhdlə şübhə altına alınması yolu ilə təqdim olunması şairin yüksək ruhani-mənəvi dünyasından ayrılaraq, yalnız maddi, sosial münasibətlər səviyyəsinə endirilməsinə xidmət edirdi.

Amma bu da o demək deyil ki, bu dövrdə yazılan poeziya nümunələri tamamilə bayağı sevgi üzərində qurulub. Xeyr! "1947-ci il iyun ayının 3-də Azərbaycan SSR Elmlər Akademiyasının böyük salonunda Nizaminin həyat və yaradıcılığına həsr olunmuş elmi konfrans təşkil edilir. Azərbaycan ziyalıları adından Səməd Vurğun çıxış edir. Çıxışını Nizamiyə həsr etdiyi şeirilə yekunlaşdırır. Azərbaycan sovet ədəbiyyatında Nizami Gəncəvi obrazını "Nizami" şeiri dolğunluğu ilə tərənnüm edən şeirlərdən biri məhz Səməd Vurğunun idi. Səməd Vurğun yeddi beytlik bu şeirində şair məhəbbətini ifadə edir, sənətinin qüdrətindən, əsərlərinin əsrlərlə təsirindən, idrakın ölməzliyindən bəhs açırdı:

***Keçdikcə nəsillər o sənin söz çəmənindən,***
***Ellər, obalar dərs alacaqdır hələ səndən.***
***Ölməz bu aləmə idrakla gələnlər,***
***Məna evinin sirrini vicdanla bilənlər.***

Səməd Vurğun şairin dühasının nurunun hələ də dünyaya yayıldığını vurğulayaraq onu "xalqın gözü, qəlbi, vicdanı" adlandırırdı.

Bu qəbildən olan şeirlərə biz müxtəlif dövrlərdə Rəfiq Zəkanın, Nigar Rəfibəylinin, Nəbi Xəzrinin və başqa lirik şairlərin yaradıcılığında rast gəlirik.

Nizami Gəncəvi dühasının, obrazının təhrifi, əsası olmayan xarakterlərlə təsvir edilməsi iri həcmli əsərlərlə müqayisədə kiçik şeirlərdə o qədər də rast gəlinmir. Sadəcə olaraq, bu dövr ədəbiyyatında ən çox üzücü məqam odur ki, yazılan şeirlər sanki yubiley xarakteri daşıyaraq sifarişli təsiri bağışlayırdı. Maraqlı bir statistikaya diqqət yetirmək yerinə düşərdi. 1939-cu ildə Nizami

Gəncəviyə həsr olunmuş bədii əsərlər, əsasən, qısa şeirlərdən ibarət idi: Hüseyn Abbaszadə "Böyük sənətkar", Əhməd Cəmil "Bu yerlər", "O yerlər", Tələt Əyyubov "Nizami" və b. Adları çəkilən şeirlərin eyni başlıqlı olması, eyni vaxtda – 1939-cu ilin son aylarında və həmçinin eyni qəzetlərdə dərc olunması elə ilk baxışdan bu əsərlərin sifarişli olmasından xəbər verirdi. 1950-ci ilə qədər bədii ədəbiyyatda Nizami obrazının yaradılması təbliğ məqsədi daşıyan tərənnüm xarakterini davam etdirir. Bu isə Nizaminin təbliğindən daha çox şəxsiyyətə pərəstiş dövrünün tələblərindən irəli gələrək, "dahi rəhbər"in – Stalinin şəxsiyyətinin tərənnümünə çevrilirdi.

50-ci illər poeziyası da, demək olar ki, 30-40-cı illərin məntiqi davamı idi. Yenə də ümumilikdə yubileylə bağlı olan şeirlər jurnalların səhifəsini tam əhatə edirdi.

40-cı illərə nisbətən, sonrakı 50-70-ci illər, ilk baxışdan, durğunluq, sakitlik dövrü kimi nəzərə çarpsa da, əslində, nizamişünaslıq artıq qurulmuş sxem əsasında geniş elmi təhlillərə keçmişdi. Lakin bədii ədəbiyyatda vəziyyəti haqqında bunu demək olmur. 1981-ci ilə qədər mətbuatda və kitab səhifələrində Nizamiyə aid tək-tək kiçik mətnlərə təsadüf edilir. Bunlardan bəziləri də şairin əsərlərinin motivləri əsasında yazılmış kiçik hekayələr idi.

Poeziya ilə bağlı fikrimizi yekunlaşdıraraq demək istəyirəm ki, bu dövrdə Nizamini tərənnüm edən şeirlərdən biri də Məmməd Alimin yazdığı şeiri qeyd etmək istəyirəm. Kiçik olsa da, ideya və məzmun cəhətdən dolğun, dahi mütəfəkkirə fars şairi deyənlərə tutarlı cavabdır:

***Zaman-zaman millətlər, məmləkətlər***
***Səcdə qıldı idrakının gücünə.***
***Qələmindən qanad aldı hikmətlər,***
***Qaldırdın Gəncəni şeir bürcünə.***
***"Türkə həqarətlə baxan şairin***
***Təzəsini boyatına çevirdin".***
***Ruhunu ruhumdan ayırmaq çətin,***
***Sən əvvəl mənimsən, sonra hamının.***

Süjetli əsərlərə gəldikdə isə, Nizami Gəncəvi ilə bağlı tarixi gerçəkliyi bədii həqiqət formasında əks etdirən bədii əsərlər, əsasən, bunlardır: M.S.Ordubadinin "Qılınc və qələm", A.Zöhrabbəyovun "Odlu diyar" və O.Salamzadənin "Əsirlərin sirri" romanları, Həmid Araslının "Şairin həyatı" povesti, Z.Xəlilin "Gəncə qartalı", N.Həsənzadənin "Atabəylər" pyesləri, B.Azəroğlunun "Nizami" poeması.

Nizami Gəncəvi ilə bağlı tarixi gerçəkliyin hadisələr və məzmun kontekstində müəyyən qədər təhrif olunduğu süjetli əsərlər isə bunlardır: M.Hüseynin "Nizami" dramı, Ə.Ağayevanın "Məhsəti" pyesi, İ.Hüseynovun "GurÜn" romanı.

**–Nizami Gəncəvinin bədii obrazı, təbii ki, elmi əsərlərə əsaslanır. Hansı elmi əsərlər Nizami Gəncəvinin obrazının formalaşmasında əsas mənbələr sayıla bilər?**

–Bədii ədəbiyyatda Nizami Gəncəvi obrazının formalaşmasında dahi mütəfəkkirin öz əsərləri mühüm rol oynadığı kimi, ilkin ədəbi qaynaqların, təzkirələrin, hətta müəllif fantaziyasının, təxəyyülünün də bu sahədə rolu danılmazdır. Belə ki, akademik Rafael Hüseynovun da qeyd etdiyi kimi,

günümüzə qədər gəlib çatan 800-dən artıq təzkirədə 100-dən artıq şair haqqında məlumat verilir ki, bunların da içində Nizami Gəncəvi zirvə təşkil etməkdədir.

Bu baxımdan Nizami Gəncəvi haqqında ilk məlumat verənlərdən biri XIII əsrin məşhur bioqrafı Məhəmməd Oufi özünün "Lübab-ül-əlbab" əsərində qeyd edir: "Gəncəli Nizami məharətli ifadələri və mənimsədiyi biliyin sərvəti vasitəsilə incəliklər xəzinəsini dünyadakıların başına səpib".

Bununla yanaşı, XIV əsrdə Zəkəriyyə Qəzvini, Əbd-ür-Rəşid Bakuvi, XV əsrdə Dövlət şah Səmərqəndi, Məhəmməd Füzuli, Hafiz Şirazi, Əbdürrəhman Cami, Lütf-Əli bəy Azər (Bəydili), Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Mir Möhsün Nəvvab və yüzlərlə başqa belə mütəfəkkirin verdiyi məlumatlar sonrakı dövrlərdə Nizami Gəncəvi obrazının bədii ədəbiyyatda yaradılmasında misilsiz rol oynayıb. Belə təzkirələrin bir çoxunda, əlbəttə ki, müəlliflərin də xəyal gücü tarixilikdən çıxaraq olduqca güclü tərənnüm əsasında formalaşıb.

Bu məqamda, xüsusilə, Əmir Xosrov Dəhləvinin bütün təzkirəçilərin verdiyi məlumatlara işıq tuta biləcək bir kəlamını xatırlamaq istəyirəm. "Xəzinəni bəsləyən də, saçan da odur, bu iş onun boyuna biçilib. Əvəzini deyil, eynisini veririk, başqa iş deyil, eyni iş görürük".

Məhz bu aspektdən yanaşsaq, deyə bilərik ki, H.Araslının "Şairin həyatı", M.S.Ordubadinin "Qılınc və qələm", A.Zöhrabbəyovun "Odlu diyar", O.Salamzadənin "Əsrlərin sirri" romanlarında və digər növlərdə və janrlarda yazılan əsərlərdə ilkin elmi-ədəbi qaynaqların, təzkirələrin və təxəyyüllərinin təsirini və rolunu görürük.

Məsələn, Məmməd Səid Ordubadi "Qılınc və Qələm" romanı ilə bağlı öz xatirələrində yazırdı: "Əsəri külli miqdarda (300-dən artıq) tarixi, elmi, ədəbi məxəzə istinadən yazmışam. Roman üçün bu mənbələr azlıq təşkil etdiyindən, çox vaxt öz yazıçı təxəyyülümə də qanad verməyə vadar olurdum". 300-dən artıq mənbə deyəndə, heç şübhəsiz ki, təzkirələri, cüngləri və "Xəmsə"ni nəzərdə tuturdu.

– Sovet dövründə Nizami Gəncəvinin yubileyi ilə bağlı çoxsaylı şeirlər yazılıb. Onların əksəri şəxsiyyətə pərəstişin, yersiz tərifin nümunələri deyilmi, o tipli şeirlərin Nizamiyə aidliyi nə dərəcədədir, sizcə?

– Bilirsiniz, sovet dövrünün şəxsiyyətə pərəstiş dövrü olduğunu qəbul edirəm, xüsusilə "rəhbərlərə salam" ideyası üzərində qurulan poeziya nümunələrini. Ancaq Nizami Gəncəvi haqqında yazılan heç bir nümunənin qeyri-səmimiyyət üzərində qurulduğunu düşünmürəm. Düzdür, sovet dövründə, yuxarıda da qeyd etdiyimiz kimi, dahi şair haqqında yazılan şeir nümunələri yubiley illərində daha intensiv xarakter alsa da, hər birində Nizami Gəncəviyə ayrıca bir səmimi sevgi ərməğan olunur.

İcazənizlə sovetin 30-40 və 50-ci illərinin poeziyasından Nizaminin tərənnümünə həsr edilmiş şeir nümunələri səsləndirsək, ona olan sevginin nə qədər ülvi olduğunu sezərik.

***"Yetişmişsən gözəl Gəncə elində,***
***Zara gəldin bəyin, xanın əlindən.***
***Şirin-şirin söz çıxardın dilindən,***
***Kütlənin dərdini yazan Nizami".***

**Aşıq Avak (30-40-cı illər), "Ədəbiyyat" qəzeti**

Göründüyü kimi, yürüdülən siyasi fikirlər şairin yalnız təfəkkürünə təsir etməyib, həm də leksikonunu siyasi terminologiya ilə "zənginləşdirib". Xalq anlayışı şairin nitqində "kütlə" sözü ilə ifadə olunub. Sifariş hiss olunsa da, hisslər təbiidir.

***"İnqilab olurmuş təbiətdə də,***
***Bu təsadüf deyil, haqq-hesab idi.***
***Göygöllə Nizami həqiqətdə də,***
***Yurdumda birinci inqilab idi".***
**Ə.Kürçaylı (50-ci illər)**

***"Bura qonaq gələn böyük şairlər***
***Şair olduğunu demir, utanır".***
***"Razıyam, adicə gözətçi olum***
***Belə əbədiyyət məqbərəsinə".***
**Hidayət (60-70-ci illər)**

Bu yanaşmadan irəli gələrək deyə bilərik ki, xalqımız heç bir dövrdə özünü Nizami Gəncəvi ziyasından məhrum etməyib.

**–Həmid Araslının "Şairin həyatı" povesti sadəcə informasiya yüklüdür, bədii baxımdan, müəllifin atmosfer yaratmaq bacarığı sarıdan isə, qismən zəifdir. Siz bu barədə necə düşünürsünüz, Nizaminin tədqiqatçısı onun parlaq obrazını nə üçün lazımi səviyyədə canlandıra bilməyib?**

–Həmid Araslının Nizami Gəncəvi haqqında müxtəlif adlarda 15-dən çox elmi əsəri var. "Nizami. Həyat və yaradıcılığı", "Şairin həyatı", "Nizami əsərlərinin el variantları", "Nizami və yaradıcılığı", "Nizaminin müasirləri", "Ni-zami və vətən" və s.

Bu əsərlərin içində janrına və quruluşuna görə xüsusilik təşkil edəni "Şairin həyatı" bədii-publisistik əsəridir. Ümumiyyətlə, bu əsərin təsirliliyi, dərinliyi bundadır ki, alimin uzunmüddətli elmi araşdırmalarının nəticəsi olaraq meydana gəlib. Eyni zamanda, bizə belə gəlir ki, müəllif bu işində qarşısına qoyduğu məqsədə tam nail olub. Çünki, bildiyimiz kimi, Həmid Araslı daha çox ədəbiyyat tarixçisidir ki, klassik ədəbiyyat tariximizlə bağlı, xüsusilə Nizami Gəncəvi haqqında sanballı monoqrafiyaların müəllifidir. Məhz buna görə də deyə bilərik ki, müəllif bu əsəri qələmə alarkən qarşısına sırf bədii əsər yazmaq qayəsini qoymadığı üçün, burada bədiiliyə nisbətən informativlik daha güclü alınıb.

"Şairin həyatı" əsərində Nizami Gəncəvinin tərcümeyi-halı, dövrü, mühiti, müasirləri, Gəncədə baş vermiş zəlzələ və nəhayət, o dövrdə geniş yayılmış əxi qardaşlıq icması haqqında məlumatlar bədii-publisistik dililə oxuculara çatdırılır.

**–"Qılınc və qələm" əsəri Sovet imperiyasının ideologiyasından nə qədər "qoruna" bilmişdi, yoxsa bu əsər də dolayısı ilə həmin rejimə xidmət edirdi?**

–Azərbaycan ədəbiyyatında öz tarixi-inqilabi romanları ilə möhkəm mənəvi kök salmış M.S.Ordubadi bütün əsərlərində olduğu kimi, "Qılınc və qələm" romanında da uzaq tarixi keçmişi, tarixi şəxsiyyətləri obyektiv surətdə canlandırır, hadisələrin və xarakterlərin ictimai mahiyyətini düzgün göstərir, tarixin hərəkətverici qüvvəsi kimi xalq həyatını və mübarizəsini real cizgilərlə, eyni zamanda, romantik ruhda təsvir edir.

“Qılınc və qələm” romanının sovet ideologiyasına xidmət etdiyini söyləmək, əlbəttə ki, müəllifin bu sahədəki xidmətlərinə haqsızlıq olardı. Düzdür, əsərdə təsvir edilən Nizami obrazı tam dolğunluğu ilə, xüsusilə də mənəvi ruhaniyyəti ilə göstərilməsə də, bir çox milli-ideoloji mətləblər müəllifə məxsus üsullarla ustalıqla modernizə edilib.

Sovet rejiminin ən sərt tüğyan etdiyi, repressiyaların həyata keçirildiyi dövrdə qələmə alınmış romanda istədiyimiz Nizamini görmək, demək olar ki, mümkünsüz idi.

Yavuz Axundlu “Qılınc və qələm” əsərini Azərbaycan ədəbiyyatını və tarixini saxtalaşdırmağa cəhd edən sovet ideologiyasına qarşı da tutarlı cavab kimi dəyərləndirirdi: “Məmməd Səid Ordubadinin qılıncla qələmin birliyi ideyasını tarixi romanda keçmiş epoxanın fonunda ifadə etməsi həm də əsas mətləbin sovet ideologiyasının diqqətindən yayındırılması üçün düşünülmüş bədii forma kimi görünür. Bəlkə də “Qılınc və qələm” tarixi romanını özünü zor gücünə fəhlə-kəndli hökuməti kimi elan etmiş və ziyalını, yəni qələmi arxa plana keçirmiş sovet dövlətinə bu işin sonrakı aqibəti barədə xəbərdarlığı idi”.

**–İstərdim Nizami Gəncəvinin qəbrinə həsr edilən poetik nümunələrdən danışasınız, hansı səbəbdən onun məzarına bu qədər poetik müraciətlər olunub...**

–XVIII əsr təzkirəçisi Lütfibəyli Azər yazırdı: “Nizami Əbu Məhəmməd İlyas ibn Yusif ibni Müəyyəddin tərifi həddindən artıqdır… O, gənc yaşlarından tutmuş ömrünün axırına qədər, başqa şairlər kimi, öz nəfs və iştahasına görə şahların və böyüklərin qulluğunda olmamış, bəlkə onun astanası yüksək rütbəli padşahların pənahgahı olub. Həzm bazarının kisələri boş olan müflisləri öz ürək və gözlərini, cib və ətəklərini bu xəzinələrin cəvahirləri ilə doldurmuş və doldurmaqdadırlar”. Bu yaşantısının və özünə biçdiyi həyat tərzinin nəticəsi idi ki, özündən sonra gələn ədiblərin qəlbinə, xitabına Şeyx kimi hopmuş və Şeyx ünvanı qazanıb.

Yüksək mənəvi mərtəbəsinin fonunda dahi şairin türbəsi insanların niyaz və dualarının haqq qatında qəbuluna vəsilə olub və olmaqdadır.

İsmayıl bəy Qutqaşınlı Nizami Gəncəvi türbəsini ziyarət edərək deyirdi: “Ey Şeyx Nizami, qəbrini görüb rəhmət oxuyub ruhundan təvəqqe edirəm ki, kamalının nöqtə qədərini mənə bəxş edəsən! Rütbənə çatmaq mümkün deyil”.

M.Ə.Rəsulzadə “Azərbaycan şairi Nizami” monoqrafiyasında bununla bağlı yazırdı: “Gəncənin yaxınında yıxıq-tökük bir məzar vardı. Bu məzar qısır qadınların cocuq dilədikləri bir “Şeyx”ə aiddi... Bu “kəramətli türbə”nin bütün doğunun olduğu qədər, Azərbaycanın da başını yücəldən böyük bir şairin əbədi yatağı olduğunu bilənlərin sayısı pək azdı. Bu şairin, eyni zamanda, Azərbaycan şairi olduğunu isə bilən, bəlkə də, heç yoxdu”.

Poeziyada Nizami türbəsinin tərənnümü təkcə onun insanların ziyarətgah yeri olması ilə bağlı deyil, eyni zamanda, türbənin diqqətsizlik və baxımsızlıqdan meydana gələn biganəliklə də bağlı idi. XIX əsrin sonlarından başlayaraq istər bədii ədəbiyyat nümunələrində, istərsə də tarixi mənbələrin verdiyi məlumatlarda Nizami Gəncəvi dühasının fonunda türbəsinin viran olması problemi tez-tez gündəmə gəlmişdir ki, bu da daha çox S.Ə.Şirvaninin, M.M.Axundovun, Ə.Nəzminin, Ə.Müznibin və başqa ziyalılarımızın yaradıcılığında əksini tapırdı.

***Atılmış qəbrinin hər daşı bir yanə müsəlman tək,***
***Nə feyz olsun, görüm, zair bu pürmöhnət ziyarətdən.***

***Donanmış qəbrinin ətrafı qəmlərlə, ələmlərlə,***
***Yıxılmış hər sütunun bir əsərdir bin müsibətdən.***
**Ə.Müznib**

***Yol kənarında bir məzari-həqir,***
***Dağılıb günbədi, olub viran.***
***Ona məxluqdan olur təhqir,***
***Bağlanır günbədinə hər heyvan.***
***Mənzəri adəmə edir təsir,***
***Axıdır qəlbə hər dəqiqə qan.***
***Kimsə etməz sual "Kimdir bu?",***
***Ona quşlar olubdu fatihəgu.***
**M.M.Axundov**

Görkəmli mütəfəkkirlərimizin poeziya nümunələrində yer alan kədərli motivi sübut edə biləcək kifayət qədər tarixi sənədlər, mənbələr var.

Amma, əlbəttə ki, Azərbaycan ziyalısı müstəvisində Gəncə-Basar bölgəsinin aydınları bölgədə baş verən müxtəlif müharibələr səbəbilə dağılmış məqbərəni daim diqqətdə saxlamış və öz vəsaitləri hesabına yenidən qurmuşlar.

**–Sizcə, faktlara sadiqlik N.Gəncəvinin obrazına necə təsir edir, yəni faktlara sadiqlik yazıçının bədii imkanlarını məhdudlaşdırmırmı?**

–Ənvər Məmmədxanlının dahi Nizaminin 800 illik yubileyi dövründə qələmə aldığı və dövrünün ədəbi tənqidinin süzgəcindən keçmiş hekayələrindən biri də "Afaq" hekayəsidir. Hekayə ilk dəfə 1941-ci ildə "Revolyusiya və kultura" jurnalının birinci nömrəsində çap olunub. Əsər həcmcə kiçik olsa da, qeyd etdiyiniz kimi, tarixi faktlarla çox zəngindir. Hətta belə deyə bilərik ki, müəllif hiss və həyəcanlarının tərənnümündə belə bu prinsipdən bir addım kənara atmayıb.

O ki qaldı hekayədə tarixi faktlara sadiqliyin Nizami obrazına təsiri məsələsinə, bizə elə gəlir ki, Ə.Məmmədxanlının "Afaq" hekayəsində problem təkcə bu sadiqlik deyil, eyni zamanda, bu sadiqliyin fonunda tarixi arqumentlərin də əsərdə doğru verilmədiyini görürük. Bu faktlara hekayədən nümunə olaraq 1139-cu ildə Gəncə şəhərində baş vermiş zəlzələnin Nizami Gəncəvinin doğum ili ilə eyni ildə verilməsini, Nizami Gəncəvinin Həmdünyan kəndində yaşaması və Afaqla burda tanış olmaları kimi faktları göstərə bilərik.

Belə tarixi faktların bədii əsərdə təhrif edilməsi isə, təbii ki, oxucuda çaşqınlıq yaradır. Nəzərə alsaq ki, bədii əsərin cəmiyyətdə yayılma arealı tarixi əsərlə müqayisədə daha genişdir, bu zaman çaşqınlığın əhatəsi daha da genişlənir.

Məlum hekayə ilə bağlı C.Cahanbaxış da 1941-ci ildə "Ədəbiyyat" qəzetində geniş və tutarlı tənqidi məqalə yazaraq fikrini belə ifadə edirdi: "Əlbəttə, tarixçi ilə yazıçının vəzifəsi eyni deyildir. Bu, hamının bildiyi məlum həqiqətdir. Hələ çox qədimlərdə Aristotel öyrədib ki, tarixçi olan şeyləri, yazıçı isə ola biləcək şeyləri yazır. Lakin yazıçının işi tarixçidən daha çətindirsə də, hadisələrin düzgün təsvirini verməli olan tarixçiyə nisbətən onun imkanları da çoxdur. Yazıçı tarixdən quru və çılpaq faktları almır. O, bu faktlara ziynət verir, xəyal və fantaziya ilə onları zənginləşdirir".

Tənqidçiyə görə, hekayələrin təmtəraqlı yazılması və tarixi faktların təhrif olunması onların ortaq xüsusiyyətlərindəndir. "Afaq" hekayəsində təhrif olunan faktlardan biri kimi, Nizaminin doğumu ilə Gəncə zəlzələsinin eyni tarixdə

baş verməsi götürülür. Müəllif yazıçının bu təxəyyülünə qəti etiraz edərək faktın təhrifinin əsərə heç bir dəyər qazandırmadığını yazırdı: "Avtorun buna haqqı varmı? Bizcə yoxdur. Nizaminin zəlzələdə anadan olması əsərdə müəyyən bir şeyə kömək etmiş olsaydı, buna müəyyən haqq vermək mümkün idi". Nizaminin Həmdünyan kəndində yaşaması, Afaqla burada tanış olub evlənməsi kimi epizodlar da hekayənin qüsurları kimi sadalanırdı.

**–Məhərrəm Əlizadə "Şairin kədəri" adlı hekayəsində Afaqı özü qaçıb gəlmiş bir qız kimi təsvir edir. Sizcə, bu hekayə Afaq barədəki məlum düşüncələrə nə dərəcədə sirayət edə bilir?**

–Məlum olduğu kimi, ədəbiyyatşünaslıq elmi bədii əsər yazan müəllifə də tamamilə müstəqillik, sərbəstlik də vermir, xüsusən haqqında əsər yazılan qəhrəmanın həyatına əsassız, sübutu olmayan faktlarla müdaxilə mövzusunda.

İstər Azərbaycan, istərsə də dünya ədəbiyyatı tarixində hər kəsin qəbul etdiyi bir gerçəklik var ki, Afaqı Nizami Gəncəviyə Ərzincan hökmdarı Fəxrəddin Bəhram şah, "Məxzənül əsrar" poemasını ona göndərdikdən sonra göndərdiyi bəxşişlərin yanında kəniz kimi göndərib. Nizami Gəncəvi də Afaqa kəniz kimi, qulluqçu kimi baxmır, onunla ailə həyatı qurur. Və bu izdivacdan da Məhəmməd adlı övladları dünyaya gəlir. "Xəmsə"yə əsasən də bilirik ki, Afaq 1181-ci ilə qədərki dövrdə, yəni "Xosrov və Şirin" poemasının yazıldığı dönəmdə artıq dünyasını dəyişib.

Hekayədə isə bu faktlar belə təhrif edilir: Afaq yaxın kəndlərin birindən qaçaraq Nizaminin yanına gəlir və onunla evlənir.

Afaq 1139-cu il Gəncə zəlzələsi nəticəsində dağıntılar altında qalır, yaralanır və Nizami Gəncəvi özü Kəpəz dağının qoynunda bitmiş yaz otlarından dərman düzəldib ona versə də, həyatını xilas edə bilmir.

Orta məktəbdə hər kəs ən azından Nizaminin həyatı ilə bağlı olan onsuz da qısa faktları öyrənir və bilir, sonra bu əsərlə qarşılaşır və ziddiyyət görür. Əlbəttə, belə əsassız yanaşmalar və Nizaminin həyatı ilə bağlı faktların onun dahiliyi, mənəviyyatı nisbətində deyil, daha çox ailə-məişət fonunda təqdim edilməsi nəinki Afaqın, hətta dolğun Nizami obrazının da yaradılmasına mənfi təsir göstərir.

"Şairin kədəri" hekayəsi də 1941-ci ildə C.Cahanbaxışın "Nizamiyə dair iki hekayə" məqaləsində ciddi tənqid edilib:

"Məhərrəm Əlizadənin hekayəsi heç bir tənqidə davam gətirə bilmir. O, faktları tamamilə baş-ayaq edir. Hekayədə "Afaqın özü qaçıb gəlmiş bir qız kimi təsvir edilməsi" faktların eybəcərləşdirilməsi kimi dəyərləndirilirdi. Müəllif hekayədə həyat həqiqətlərinə sadiq qalmamağı bədii həqiqətlərin də pozulmasına səbəb kimi izah edirdi: "Avtorun Gəncə-Kəpəz məsafəsini qarışdırması da bundan az gülünc deyildir. Məlum olduğu üzrə, Gəncə ilə Kəpəz arasında azı 40 kilometrlik bir məsafə var və şairin oraya ot yığmağa getdiyini göstərmək əfv edilməz bir qüsurdur".

"Şairin kədəri" hekayəsi isə tənqidçi tərəfindən bədii əsər kimi tamamilə inkar olunurdu: "İstər təmtərağa dərin bir həvəslə qapılması, istərsə də tarixi konkret situasiyanı düzgün əks etməməsi səbəbinə "Şairin kədəri" hekayə deyil, heç bir cəhətdən düşünülməyən, Nizami və ya Afaq obrazını verməkdən çox, uzaq olan bir qaralamadır".

**–Bəzi əsərlərdə Nizami Gəncəvi epizodik təsvir edilib, sizcə, həmin əsərlərdə qısa məqamlar Nizami Gəncəvi haqqında dolğun məlumat yarada bilirmi?**

–Nizami Gəncəviyə bədii ədəbiyyatın lirik növündə həsr edilən şeirləri bir kənara qoysaq, süjet xəttinə malik olan irihəcmli və kiçikhəcmli əsərləri Nizami obrazının əks etdirilməsi baxımından iki qrupa ayıra bilərik.

1. Birbaşa Nizami Gəncəviyə həsr edilən, yəni baş qəhrəmanı dahi mütəfəkkirimiz olan bədii əsərlər: M.S.Ordubadinin "Qılınc və qələm" romanı, H.Araslının "Şairin həyatı" povesti, M.Hüseynin "Nizami", Z.Xəlilin "Gəncə qartalı" pyesləri, A.Zöhrabbəyovun "Odlu diyar" romanı, O.Salamzadənin "Əsirlərin sirri" romanı, B.Azəroğlunun "Nizami" poeması, Ə.Məmmədxanlının "Afaq" və M.Əlizadənin "Şairin kədəri" hekayələri.

2. Nizami Gəncəvinin əsas qəhrəman kimi iştirak etmədiyi bədii əsərlər: İ.Hüseynovun "GurÜn" romanı, M.Dilbazinin "Məhsəti" poeması, K.Ağayevanın "Məhsəti" və N.Həsənzadənin "Atabəylər" pyesləri.

Bu baxımdan deyə bilərik ki, istər əsas obraz olsun, istərsə də epizodik obraz, Nizami Gəncəvi canlandırıldığı bütün əsərlərdə özünəməxsusluğu ilə seçilir. Hətta ikinci qrupa daxil olan əsərlərin adlarından həmin əsərlərin XII əsrə aid olduğunu sezən oxucu dərhal Nizamini axtarmağa başlayır. Bunu da onunla izah edə bilərik ki, həm tarixi, həm də bədii əsərlərdə XII əsrdən söhbət gedirsə, həmin dövrü Nizamisiz təsəvvür etmək mümkün deyil.

**–Nizami Gəncəviyə yazılan dram əsərlərindən Mehdi Hüseynin "Nizami" dramı M.İbrahimov və digərləri tərəfindən vaxtilə tənqid olunmuşdu. Həmin əsərin zəifliyi, sizcə, nədə idi?**

–Ümumiyyətlə, Mehdi Hüseynin "Nizami" dramı ilə bağlı ilk fikir məhz müəllifin öz adı ilə bağlıdır. Belə ki, yazıçı 1979-cu ildə "Azərbaycan" jurnalının 6-cı nömrəsində dərc olunmuş xatirələrində yazırdı: "1943, 6 mart. Bu gün "Nizami"nin 25-ci tamaşasıdır. Operada "Koroğlu" oynandığı üçün mənim tamaşaçım azdır. Cəmisi üç min manatlıq bilet satılıb. Bu, əlbəttə, azdır. Lakin mən sevinirəm. Gələn tamaşaçılar çox diqqətlə qulaq asırlar. Görünür, ziyalılardır. Artistlər böyük həvəslə oynayırdılar, xüsusilə Əfqanlı xüsusi bir ilhamla oynayırdı. Rolunu çox sevir". Və yaxud; "Mən özüm "Nizami"nin böyük nöqsanlarını görürəm. Lakin bu nöqsanların çoxu tamaşaçıya güzəştə gedib yazdığım səhnələrdir. Ah, bu güzəştlər olmasaydı!.."

"Ədəbiyyat qəzeti"nin 5 avqust 1942-ci il tarixli 23-cü nömrəsinin bir səhifəsi bütövlükdə Mehdi Hüseynin "Nizami" dramının mövzu və ideya təhlilinə, səhnə təcəssümünə həsr edilib. Əsərlə bağlı Ə.Ağayevin, M.İbrahimovun geniş tənqidi məqalələri vardır.

Ə.Ağayev zəif cəhətlərdən biri kimi Mehdi Hüseynin Nizamini daha artıq dərəcədə müasirləşdirməməsi diqqəti çəkir. Məqalə müəllifi əsərdə Nizaminin bir ideoloq kimi obrazının tamamlanmamasını tənqid edirdi: "O, Nizaminin varlığın yaranması, dinə olan münasibətini, siyasi fikirlərini verərkən dərinləşmir, üzdən keçir. O, Nizaminin dili ilə "Əsl qüvvət tarixin səhvini düzəldən hökmdardır. Azərbaycanın belə bir hökmdara ehtiyacı vardır" – deyərək siyasi hakimiyyət, onun forması, şəxsiyyət və cəmiyyət məsələlərini irəli atıb. Lakin avtor bunları həll etmir, açıq buraxıb gedir". Müəllif bunu yalnız Nizami obrazının qüsuru kimi görmür, bütün əsərə aid edirdi. Məqalədə əsərdəki hadisələrin inkişafında motivləşdirmənin də zəif olduğu haqlı olaraq bildirilirdi.

Bilirsiniz, hər hansı bir əsərdə müəllif təsvir etdiyi, canlandırdığı obrazın xarakterini, dünyagörüşünü təbliğ edərkən olduqca diqqətli olmalıdır. Baş qəhrəman da Nizami Gəncəvi kimi dahi sənətkar olunca, ikiqat diqqətli olmalıdır. Bildiyimiz kimi, Nizami Gəncəvi həyatı boyu mənəvi cəhətdən halal ömür yaşayıb və əsərlərində də bunu təbliğ edib. Əsərlərilə yanaşı, özündən

sonra gələn mütəfəkkirlər də bunu etiraf ediblər. Abbasqulu ağa Bakıxanov Şeyx Nizami haqqında yazırdı: “Həkimi-mənəvi Şeyx Nizaminin böyüklüyünü və fəzilətlərini söyləməkdə dil acizdir. Zərifliyi, söz və söhbətlərilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmayıb”. Belə fikirlər olduqca çoxdur.

Ancaq gəlin, əsərin bir parçasını nəzərdən keçirək. Ümumiyyətlə, əsərdə Nizaminin şərab içən kimi təqdim edilməsi şairin əsərlərini oxuyan sıravi oxucuya belə qeyri-təbii görünəcəkdir:

“Nizami: Bax, mən yeni əsərimi yazıb qurtarmışam... Bizim sevincimizdən ümidsizlər, gözüyaşlılar, dərdi-səri olan bütün insanlar ilham alıb sevinəcəklər. Səninlə qabaq-qabağa oturub doyunca şərab içəcəyəm. Durma, dostumuz Yusifin ovladığı ceyranı apar, təndirdə qızartsınlar”.

Mehdi Hüseyni bu fikirlərinə görə mühakimə etmək də çətindir. Çünki Nizaminin “Leyli və Məcnun” əsərində şairin şərabla bağlı söylədiyi sözlərin təsəvvüfi mənasının bu dövrdə anlaşılmaması dramaturqun yanlış nəticə çıxarmasına əsas verib:

***Saqi, harda qaldın? Mən meypərəstəm?***
***Doldur piyaləni, onsuz da məstəm!***
***O göz yaşı kimi saf olan şərab***
***Aşiq məzhəbində sayılır səvab!***

Və yaxud şair özü “İskəndərnamə” əsərində daha açıq tərzdə dediyi şərabın sərxoş edən içki mənasında işlənmədiyini vurğulayaraq, sufi baxışlarını ortaya qoyurdu:

***Qəbrimə gələrkən qədəhi doldur,***
***Nizami yatdığı yerə qədəh vur.***
***Ey uğurlu Xızır, sanma ki, mənim***
***Bu meydən içilən meydir məqsədim.***
***O böyük Tanrıya aydındır bu iş,***
***Ömrümdə dilimə şərab dəyməmiş.***
***Bu dilim, dodağım görmüş isə cam,***
***Olsun Nizamiyə hər halal – haram.***

Nizami leksikonunda mey, şərab kəlmələri təsəvvüf anlayışlarıdır ki, sovet ədəbiyyatında əhəmiyyət verilməyərək bədii söz sənətində bir sıra təhriflərə qəsdən yol açılmasına səbəb olub.

Yenə qeyd edirik ki, burada söhbət təkcə şərabdan getmir, ümumi mənada “Xəmsə” də verilən avtobioqrafik məlumatların, xüsusən şairin ruhi yaşantısının təhrif edilməsindən gedir.

– Yeni dövrün ədəbiyyatında Nizami Gəncəvi obrazı necə yaradılmalı və ötənlərdə olan hansı boşluqlar aradan qaldırılmalıdır?

– Yazıçı Nizami Gəncəvi obrazını ən parlaq şəkildə təsvir etmək istəyirsə, mütləq dahi şairin yaşadığı dövrün ədəbi mühiti, intibah mədəniyyəti anlayışını və təzahürlərini əlvan boyalarla əks etdirməlidir. Oxucu şair haqqında olan əsərdə Nizamiyə aid hissəyə çatana qədər onu yetişdirən mühitin ehtivasını tam idrak etməlidir. Belə olsa, müəllif qeyd etdiyimiz ədəbi mühitin ecazkarlığı əhatəsində bu ideyalarla mənən zənginləşmiş bir Nizami Gəncəvi təqdim edə bilər.

Nizami Gəncəvi təkcə şair kimi deyil, eyni zamanda, vaqif olduğu dünyəvi və dini elmlərin kamil bilicisi kimi təqdim edilməlidir.

Nizami Gəncəvi fizika, kimya, nücum, astronomiya kimi elmləri dərindən bilib onları hikmətdə birləşdirən mütəfəkkir olub ki, məhz bu da formalaşdırılacaq Nizami obrazının ruhuna hopdurulmalıdır.

Nizami Gəncəvidən bəhs edəcək bədii əsərin müəllifi təkcə dünyəvi elmləri deyil, həm də dini elmlərin bilicisi olmalı və bunların fonunda şairin ruhunu duya bilməlidir.

Nizami Gəncəvi yaşantısını, həyat tərzini ən azından yaşamağa cəhd edən insan, – Qızıl Arslanla görüşünü təsvir edərkən özünün yaşantısını da təsvir edib, parlaq Nizami obrazı yarada bilər.

Nizami Gəncəvi insan aşiqi idi; bütün insanları, xalqları, dinləri sevir, həm də bütün səmavi kitablara məhəbbət bəsləyirdi. Məhz bu keyfiyyətlərin kontekstində arzuladığımız Nizami obrazını bədii ədəbiyyatda görə bilərik.

Məlumdur ki, Nizami Gəncəvinin “Xəmsə”sinə daxil olan hər bir poemada minacat, nət, fəxriyyə kimi lirik ricətlər vardır ki, bunlar da şairin duyğularını, dünyagörüşünü və inancını əks etdirir. Məhz şairin bu hissələrə hopan özəllikləri, xarakteri canlandırılacaq Nizami Gəncəvi obrazı ilə əhatələnməlidir.

Ötənlərdə olan boşluqlara, nöqsanlara gəldikdə isə, mənə elə gəlir ki, bu məqamda ədalətli davranmaq lazımdır.

Sovetlər birliyi dövrünün 40-50-70-80-ci illərində ümumən Azərbaycan nizamişünaslığında çox fundamental işlər görülüb ki, onları inkar etmək, kənara atmaq olmaz. Bəli, ideoloji təqiblər, təsirlər çox idi, ancaq həmin dövrün ziyalıları bu məhrumiyyətlərin əhatəsində çox işlər gördülər. İmkanlarının yetdiyi qədər. İndi müstəqil dövlətin vətəndaşları kimi iş bizlərə düşür, görək, layiqincə təbliğ edə biləcəyikmi Şeyx Nizami Gəncəvini?

Məhz bu baxımdan çox vaxt Nizami obrazının təsvirindəki təhrifləri sovet rejiminin, senzurasının üzərinə atırlar, bəli bu, danılmazdır. Yuxarıda da ayrı-ayrı əsərlərdən danışanda bunları izah etdik. Ancaq elə əsərlər var ki, orada hər hansı ideoloji məqam olmadan şairin hamıya məlum olan bilgiləri təhrif edilir. Məhz bunlar da aradan qaldırılmalıdır.

Nəhayət, necə bir Nizami obrazı görmək istəyirik? – sualına şairin özünün sufi görüşləri pəncərəsindən baxaraq cavab vermək istəyirik. “İsgəndərnamə” poemasında belə bir beyt var:

***Duadan bir dilək diləsən əgər,***
***Mən amin deyərəm, qəbula keçər.***

Yəni mənəvi aləmdə Nizaminin obrazının yaradılmasına dahi mütəfəkkir özü də amin deməlidir, razı olmalıdır ki, bu da Nizami Gəncəvi ideyaları, məfkurəsi ilə bütövləşən insanlarda ola bilər. Nizami Gəncəvi dühası səmimiyyətsizliyi sevmir, ona səmimiliklə yanaşmayanları yaxın buraxmır, özündən uzaqlaşdırır.

***Söhbəti Fərid HÜSEYN apardı.***

*Mübariz CƏFƏRLİ*



# RƏNGSİZ

*Manuskannın xatirəsinə*

– Mən ölüm, vaxt elə, bir bizə dəy... Qorxuram kişi gedə...

– Bəri başdan yasxana açma, camaatın dədəsi-anası ölüb eləməyib? Çətini ölənəcəndi... Sonra ölü də öyrəşir, elə ölü yiyəsi də... Qorxma...

– Köntöy-köntöy danışma, ay gönüqalın, sənin dədən ölsəydi mən də qorxmazdım... Qorxmaq nədi, gecəni də səksəkəli yatıram...

– Nədi e, kişinin xəstəliyi?..

– Yüz yerə aparmışam... Yüz cür də analiz-filan verib... Hərə bir söz deyir...

– Neçə yaşı var?

– Altmış doqquz...

– Hə, altmış doqquz yaxşı yaşdı... Bəs, kişi özü nə deyir?

– Deyir ki, canım ağrıyır...

– Canım, yəni haram?..

– Mən nə bilim... Gündə bir yerini göstərir...

– Vallah, mən deyəndi, dədən arvad almaq istəyir...

– Elə demə, tez evlənmişdi atam, məni də tez evləndirdi, rəhmətlik anamnan da Leyli-Məcnun idilər... Elə arvad ölənnən sonra düşdü kişi...

– Nə Leyli-Məcnun... İndiki vaxt olsaydı Məcnun Leylini də alardı, hələ üstəlik ibn Səlamı da...

– Kitab-zad oxu da... Orda-burda belə danışıb biabır eləmə bizi...

– Nədi ki?..

– İbn Səlam kişi olub e... Bilmirsən?..

– Nöş bilmirəm, elə özüm bilə-bilə belə dedim, arvad, ya kişi nə fərqi var?.. İndiki Məcnun baxmazdı heç nəyə...

– Sən allah, mətləbdən yayınma... Qanım qaradı...

– Yayınma deyirsən, yayınmayım... Yaxşi, mən sizə gəlib neyniyəcəm? Alə, mən diş həkimiyəm axı?

– Nolsun... O, səni tanımır... Sir-sifətinə müdrik bir görkəm verib kişini əməlli-başlı yoxlayarsan, sonra da deyərsən ki, dayı, vallah-billah səndə heç nə yoxdu... Səhərlər qaç, axşamüstü piyada gəz, idman-filan elə də deyə bilərsən... Qoy kişi öz-özündən xoflanmağı yığışdırsın... Gəlirsən?.. Özgəsinə ürək qızdırıb deyə bilmirəm e, yoxsa yüz həkim tapardım evə aparmağa... Puluna minnət... Özünü naza qoyma, gəlirsən, ya yox?..

– Gəlməyinə gələrəm e, mənnən nə gedir, onsuz da mən sənin evində heç vaxt olmamışam... Həm ziyarət, həm ticarət... Lap istəsən arvadı da gətirərəm...

– Doğrudan?

– Nədi ki?.. Gətirim?..

– Hə, onu da gətir... Mən də sizə kabab çəkərəm evdə, yaxşı bir süfrə açdıraram... Kişiyə baxmaq adıyla dərdləşərik doyunca... Çoxdandı sənnən diz-dizə oturub söhbətləşmirik... Lap əlli-əlli vurarıq da...

– Yayda içmirəm mən... İstidə nə içmək?.. Yayda camaat pivə içir. Mən binayi-qədimdən pivə içə bilmirəm. Ürəyim bulanır...

– O dəqiqə bilinir ki, içkidən başın çıxmır. Soyuq arağı istidə elə sərinlənmək üçün içirlər...

– Yox, mənim içkinin incəlikləri bağlı anlayışım yoxdu... Bir dəfə spirtdən zəhərlənmişəm, gedib o dünyanı görüb qayıtmışam. O vaxtdan suyu da üfürə-üfürə içirəm... Arvadı gətirəcəyimə gəlincə, sevinmə, zarafat eləyirəm, bizim arvad qadın həkimidi axı... Genikoloqdu... O, nağayracaq orda?..

– Noolsun? Onu da gətir hökmən! Çoxun ziyanı yoxdu... İkilikdə sizə lap tez inanar... Öz iş, necə deyim, tibb əşyalarınızı da gətirərsiz ki, inandırıcı olsun...

– Gətirərik... Bizə nə var... Lap istəyirsən uşaqları da gətirək?..

– Yox, elə özünüz gəlin bəsdi... Uşaqları gətirsəz zibili çıxar... Amma yaxşıdı ki, sənin uşaqların yanındadı... Bizimkilər xaricdə oxuyur... Deyirəm bəlkə uşaqlar burda olsaydı kişinin başı qarışardı, hə?

– Yox əşi, indiki uşaqlar nənə-baba hərləmir...

– Yaxşı, gəlirsiz, ya yox?

– Haçan gələk?

– Elə günü sabah... Onsuz da sabah başar günüdü... Özüm sizi maşınla gətirib aparacam ki, sən əziyyət çəkib bizim evi axtarmayasan...

– Yaxşı... gözləyərik səni... Kişiyə də tapşır ki, day sabah heç yana çıxıb eləməsin... Xarici ölkədə işləmiş məşhur həkimlər gələcək onu yoxlamağa. Uzmanlar... Nə bilim, nə qədər bacarırsan şişirt də bizi... Qoy heç nədən şübhələnməsin... Yoxsa, üzümüzə tüpürər... Qırğın düşər araya...

– Deyərəm, amma onsuz da kişi heç yana çıxan deyil... Hərdən evin yanındakı bağda qocalarnan domino oynamağa gedir, vəssalam... Siz də “yaraqlı-yasaqlı” gəlin... Yəni əşyalarınızla...

– Oldu...

– Sabah gələcəm dalınızca...

– Yaxşı...

– İstəyirsən arvada zəng elə, bəri başdan onun da hərisini al...

– Alə, mən bəzi kişilərdən deyiləm e... Arvad nəkarədi ki, mənim bir sözümü iki eləyə...

* * *

Həyət qapısının ağzında cibindən iki karamel çıxardıb ər-arvada uzatdı, Diş həkimi matdım-matdım onun üzünə baxıb çaşqın-çaşqın soruşdu:

– Bu nədi, ala?

– Həyətdə it üstünüzə cumsa, qorxub eləməyin, mən yanınızdayam, – Atası xəstə izah elədi. – Bu konfeti soyub atın itin qabağına ki, day heç vədə sizə toxunmasın...

– Nə rüşvətxor itin var... – zarafatla mızıldadı Diş həkimi. – Adı nədi itin?

– Qobi...

– O iti nöşün damına salmırsan? Ya da ağaca-zada bağla... – Diş həkimi həm qorxa-qorxa, həm də narazılıqlıqla deyinib Atası xəstəyə çıxış yolu göstərdi.

– Azadlıqsevər itdi... Elə eləsəm ürəyi partlayanacan hürüb baş-beynimizi aparacaq... – xəstənin oğlu cavab verdi. – Siz qorxub eləməyin, konfeti atın qurtardı getdi... Ağıllı itdi, onun öz aləmi var... Tanıdığı adamla işi yoxdu... Heç vaxt həyətdəki stola, süfrəyə yaxın gəlməz... – deyib pıçıltı ilə xəbər aldı. – Bayaqdan maşında yadımdan çıxdı, soruşmadım. Tibbi əşyaları gətirməmisiz?

– Necə gətirməmisiz? Bə bu nədi?.. – Diş həkimi incik-incik əlindəki qara, balaca, dördkünc çantasını göstərdi. – Fanindaskop, təzyiqölçən, bor maşını... çaşdım, onu gətirə bilməmişəm, kəlbətin, iynə, hamısdı burdadı... Görmürsən sənnən ötrü əynimizə ağ xalat da geyinmişik...

– Sağ olun... – Atası xəstə təsirlənib ürəkdən dedi.

– Mən də əliboş gəlməmişəm... – Diş həkiminin arvadı dilini dinc saxlamadı. – Hər ehtimala qarşı ginekoloji güzgü də qoymuşam o sumkaya...

– Sağ olun... – Atası xəstə təkrarlayıb gülümsündü. – Amma yəqin ki, o güzgüyə ehtiyac olmayacaq...

– Ehtiyat igidin yaraşığıdı... – Diş həkimi borclu qalmayıb arvadının əvəzinə cavab verdi. – Ziyanı yoxdu, götürüb götürüb də... Arvadı həvəsdən salma...

– Orası elədi... – Xəstənin oğlu nəzakət xatirinə razılaşdı. – Düz eləyib...

Həyətdən it hürüşü eşidildi, hürüşmə boğuq və qəzəbli idi, deyəsən, “rüşvətxor” duyuq düşmüşdü, bəri başdan xəbərdarlıq eləyirdi ki, əliboş heç kəsi içəri buraxdı yoxdu. Gələnlər də bərayi-ehtiyat konfetin kağızını bəri başdan, lap dəqiqi, bəri başda soyub çəkinə-çəkinə xəstənin oğlunun qıfılla açdığı ağ rəngli dəmir darvazanın “bala”, balaca qapısından həyətə girdilər, içəri girəndə də hərəsi Xəstənin oğlunun bir qolundan bərk-bərk yapışdı...

* * *

“Tanınmış” həkimlər iri qonaq otaqındakı kondisionerin altında əyləşib masa arxasında arın-arxayın, rahat-rahat çay içən ağzac, arıq kişini zorla yataq otağına aparıb uzatdılar çarpayıya.

– Bunun nəyi xəstədi, ala? – Diş həkimi təəccüblə Xəstənin oğlundan soruşdu. – Maşalla, qayış-baldır kişidi. Qarnı-zadı da yoxdu, lap idmançıya oxşayır.

Tərifdən xoşlanan xəstə özündənrazılıqla qımışdı.

Atası xəstə dilləndi:

– Baş açmıram... Deyir ağrıyıram... Bir də gördün ağrıdan gecə durur, səhərəcən yatmır...

– Harası ağrıtır? – Diş həkimi əlindəki çantanı yerə qoyub çarpayının baş tərəfindəki stulda əyləşərək amiranə səslə xəbər aldı.

– Deyir canım... – Xəstənin oğlu atasının yerinə cavab verdi.

– Can hardadı, a kişi? – xəbər aldı Diş həkimi, yanında dayanmış ağ xalatlı arvadına da çarpayının ayaq tərəfinfəki stulda yer göstərdi. – Siz də oturun, doxtur... Bu kişini sağaltsaz siz sağaldacaqsız... Bilirəm, çox belə xəstələri ayaq üstə qaldırmısız... – üzünü uzanana tutub təkrarladı. – Can hardadı, a kişi?

– Yəni gəzir də ağrılarım... – xəstə gələnlərdən xoflanıb zəif səslə dilləndi. – Bir gün buram ağrıyır, – əli ilə ürəyini göstərdi, – bir gün buram, – başını göstərdi, – bir gün buram, – əlini qarnına apardı, – bir gün...

– Aydındı, day çox aşağı düşmə... – Diş həkimi xəstənin sözünü kəsdi. – Dişlərin ağrımır ki?

– Mənim dişim yoxdu, protezdi...

– Hə... Yaxşı qoyublar protezi... Bilinmir... Şaqqıldayıb eləmir danışanda... – Xəstənin kənarda dayanmış oğlu boğazını nümayişkəranə arıtladı, lakin Diş həkimi kürəyini yerə verməyib arxaya, xəstənin oğluna baxdı narazı-narazı. – Bə nədi, sən diş ağrısını adi bilmə, dişdən o qədər adam ölüb ki... Damaq irinləyir, vurur beyinə, qəfil olursan xosunvay... – tezbazar Xəstənin oğlunun cavabını verib qaşqabağını sallayaraq ciddi-ciddi öz arvadından xəbər aldı. – Siz nə fikirdəsiz, doxtur?..

– Sizinlə tam razıyam... – arvad ərinin könlünü alıb xəstədən soruşdu. – Ay dayı, klimaks dövrünü keçmisiz?

– Nə? – xəstə başa düşmədi.

– Yəni, qanaxmanız olur?

– Nə qanaxma, qızım?.. – xəstə yenə bir şey qanmadı.

Xəstənin oğlu bu dəfə yavaşca öskürdü.

– Ay kişi, doxtur soruşur ki, hərdənbir sənin burnundan qan-zad gəlir, ya yox? – Diş həkimi arvadına göz ağardıb onun sözünü dəbbələdi. – Bu yaşda qanaxma olmaz... – xəstənin gözündən yayınmağa çalışıb dodaqlarını arvadının qulağına yaxınlaşdırdı. – Az, nə gicləyirsən, bu kişidi e... – pıçıldadı.

– Yox, gəlmir...

– Məsələ məlumdu... – dodaqaltı dedi qadın. – Nə istəyirsən, ay dayı, ürəyinnən nə keçir, belə dərdin nədi e, sənin?.. Onsuz da biz öyrənəcəyik sənin dərdini, bizim gözümüzdən heç nə qaçmaz... Amma sən gəl bizi incidib dağa-daşa salma, boş yerə vaxtımızı da alma, dərdini açıq de, utanıb çəkinmə, uzatma ki, dərmanını da tez tapaq, azar-bezardan qurtulasan...

– Elədi, a kişi, bil ki, bu uzman həkim xanımın gözündən heç nə qaçmaz... – əri arvadının sözünə qüvvət verdi. – Dərdini qırx qıfıllı qapının arxasında gizlətsən də xeyri yoxdu. Yerdəki çantasını açıb fanindaskopu qulağına keçirən kimi sənin dərdin olacaq doxtur xanımın ovcunun içində... Neçə dəfə özüm şahid olmuşam, vallah!.. Bu həkim xanım ürəyoxuyan, öncəgörəndi... İndi bu meydan, bu şeytan, a kişi, sən özün də görəcəksən... Adi həkim deyil e, bu xanım, sənnən iraq, ölüdirildəndi...

– Eləmi?.. – çarpayıya uzanan mızıldandı narahat-nigaran səslə və araya öləzik sükut çökdü.

– Bə nədi... – Diş həkimi xəstənin tələyə düşdüyünü anlayıb başını razılıqla tərpədərək tez sükutu pozdu.

– Gəlin hardadı, a bala? – xəstə qəfil oğlundan soruşdu.

– Həyətdə... – oğlu irəli yeridi. – Süfrə hazırlayır həkimlərə... Necə ki?..

Diş həkimi xəstənin istəyini göydə tutdu:

– Alə, çıx də otaqdan... Bəlkə kişinin həkimlərə sözü-zadı var? Sənin yanında demək istəmir... Min bir xahiş-minnətlə bu boyda xanım həkimi Türkiyədən gətirmişik bura... Qoy işini rahat görsün də doxtur...

Oğlu eşiyə çıxandan sonra xəstə ehtiyatla xəbər aldı:

– Qızım, sən elə bizimkilər kimi danışırsan, türkə oxşamırsan, nə məsələdi bu?

– Mən azərbaycanlıyam e, ay dayı, çoxdandı Türkiyədə yaşayıram, orda məşhur həkiməm... Uzmanam...

– Uzman nə olan şeydi, qızım?

– Uzman... – Diş həkimi arvadına imkan verməyib dilləndi. – Yəni həkimlərin başçısı... Türkiyədəki həkimlərin başbiləni...

– Səhiyyə naziri?.. – heyrətdən xəstənin gözləri bərəldi.

– Təxminən... – Diş həkimi başını tərpədib dərinə getdi. – Həri... Ancaq tibb elmi sahəsində... Alış-verişdə onların öz adamları var...

– Deyirəm axı... – xəstə dodaqaltı deyindi. – Deyəsən yaman yerdə axşamlamışam. Uzmannan sirr saxlamaq çətindi...

– Onu düppədüz dedin, ay dayı, çətin iş deyil e, mümkünsüzdü... Onsuz da özüm hər şeyi biləcəm... – diş həkiminnin arvadı özünü darta-darta oturduğu yerdəcə əyilib çantanı götürmək istədi.

– Hələ zəhmət çəkmə, həkim xanım, deyəsən, xəstə könülə gəlir, bu dəqiqə özü açıb deyəcək dərdini... – Diş həkimi ehmalca arvadının əlindən yapışıb çantanı götürməyə qoymadı. – Cavab vermədin e, ay kişi! – səsinin yoğun yerinə saldı. – De görək, sənin azar-bezarın, istəyin nədi?..

– Hərdən cənnəti görmək istəyirəm... – birdən-birə xəstənin səsi quyunun dibindən gəldi.

– Nə cənnət, ay kişi?!. Sən hələ çox yaşıyacaqsan... Bu dəqiqə yoxlayacuq səni... Amma yoxlamamışdan da bilirəm ki, heç nə yoxdu səndə... İnsan ən çox dişdən ölür. Səndə o qorxu yoxdu, çünki dişlərin protezdi... Tak şto, tələsmə, cənnətə hələ çox var...

– Elədi, ay dayı, elə mən də o fikirdəyəm... – qadın ərinin sözünü təsdiqlədi. – Maşalla, klimaks dövrünü rahat keçirmisən, qanaxman yox, fibroman yox... Vallah, sən uzun yaşayacaqsan, ay dayı, yüzlərlə xəstə görmüşəm mən, sən yüzü vurub keçməsən mən adımı dəyişərəm, belə ki, cənnət-cəhənnəm söhbətini yadından çıxart...

– O cənnəti demirəm... – xəstə pıqqıldadı, sözlərinə azca ara verib sirr söyləməyə hazırlaşırmış kimi ağzını boş-boşuna yumub açdı. – Bacı da bağışlasın, – səsini tamam yavaşıdıb pıçıltıya keçdi, – bağda peraşki satan Cənnəti deyirəm. O yazığın da bəxti gətirməyib, cavan vaxtından əri rəhmətə gedib... Çoxdan dul qalıb qaragün Cənnət... – xəstə elə bil qəfil ayılıb özünə gəldi. – Burda qalsın a, dediklərim, yoxsa... – sözünün ardını gətirmədi...

– Arxayın ol, ay kişi, biz həkimlər sirr dağarcığıyıq, bizdən can çıxar, söz yox... Hippokrat andını boş yerə içməmişik ki... – Diş həkimi incik-incik qaşqabağını salladı.

Əri belə deyəndə Diş həkiminin arvadı özünü saxlaya bilmədi, qəfil qəhqəhə çəkib bir xeyli güldü, qadının gülüşündən otaqdakılar diksindi. Xəstə dediklərinə peşman olub əlacsız-əlacsız üzünü yana çevirdi...

* * *

Həyətdəki söyüdün altında oturmuşdular. Süfrəsi dolu masa arxasında... Diş həkimi və arvadı, xəstənin oğlu, bir də xəstənin gəlini... Həkimlər öyrəncəli idi geyimlərinə, əyinlərindəki ağ xalatı çıxarmamışdılar, qadının xalatı uzun olduğundan ətəyi yerə dəyirdi.

Xəstə həyətə çıxmamışdı. Bəlkə də utanırdı öz sirrini açdığı həkimlərin gözünə görünməyə. Ya da bayırdakılarla bir süfrə arxasında oturmağa həvəsi yox idi. Süfrə arxasındakılar isə deyib gülürdülər...

– Gərək gedib bağda peraşki satan Cənnətə müştəri gözü ilə baxam... – xəstənin oğlunun kefi yuxarı idi. – Amma kişi məni otaqdan çıxardanda ürək-göbəyimi yemişdim, dedim içəridə mənsiz işləri korlayacaqsız...

– İşləri nöş korlayırıq, uşaq-zadıq bəyəm?.. Ya indiyəcən xəstə-zad görməmişik? Zarafat-zarafat biz diaqnozu qoyduq, qalanı sənlikdi... Xəstəni sağaltmaq sənin əlindədi, dərmanı da ki, bağdadı... – Diş həkimi toyuğun budunu dişinə çəkdi. – Mən əvvəldən deyirdim ki, kişi evlənmək istəyir... İnanmırdun...

– Sənə inanmayana lənət! Sən əməlli-başlı loğmansanmış, qədrini bilən yoxdu... – Xəstənin oğlu Diş həkimini təriflədi.

– Nöş yoxdu? – Diş həkimi arvadının boynunu qucaqlayıb çiynini yüngülcə sıxdı. – Budey, mənim qədrimi bilən... Oturub yanımda...

– Adə, əlin yağlıdı, xalatımı batırma... – Diş həkiminin arvadı nazla dedi.

– Doxtur, bəlkə bir yüz vurasan? – Xəstənin oğlu Diş həkiminin boş qədəhinə işarə elədi. – Deyəsən, bu yaxınlarda xeyir iş olacaq... Bu şərəfə içməsək düz alınmaz...

– Süz gəlsin... – Diş həkimi razılıqla başını tərpətdi.

– Mən ölsəm sən də evlənərsən yəqin? – Xəstənin gəlini ərindən soruşdu gülə-gülə.

– Yox... – Xəstənin oğlu yarımçıq butulkanı masanın üstünə qoydu. – Sən mənim zəhrimi elə yarmısan ki, ömründə bir də arvad almaram...

Yenə gülüşmə qopdu, deyəsən, həyətdəki hay-küy Qobinin xoşuna gəlmədi və it lapdan acıqlı-acıqlı hürməyə başladı...

# OYANMA

*Kərtənkələlərə...*

Yataq otağının tavanındakı çilçırağın səkkiz lampasından bircəciyinin işığı yanır. Taxtda yanaşı uzanmış cavan kişi və qadın yatmayıb. Kişi əllərini başının altında çarpazlayıb diqqətlə yuxarı baxır, qadın yerinin içində dikəlib taxtın yanındakı beşikdə uyuyan körpəyə nəzər salır və uşağın dünyadan xəbərsiz uyuduğuna bir daha əmin olunca, özü də başını yastığa qoyur.

– Bəlkə bir çay gətirəsən? – kişi gözlərini tavandan çəkib çəpəki qadına baxır.

– Gətirməyəcəm... – hikkədən çox şıltaqlıq, qayğısızlıq duyulur qadının səsində. – Qoy o gətirsin...

– Başlama yenə... Ucundan tutub ucuzluğa getmə... O, mənim keçmiş nişanlımdı... Özün hər şeyi yaxşı bilirsən axı... Hərdənbir zəngləşirik, bayramdan-bayrama, təsadüfən görüşürük...

– O zəng eləyir, ya sən?

– O da, mən də... Ad günümüzdə bir-birimizi heç olmasa telefonla təbrik eləyirik... Burda nə var ki? Düşmən-zad deyilik axı...

– Təsadüfən də görüşmək olar?

– Şəhər fındıq boydadı də, neyləyim?.. İndi mən durub sənə yalan deyəcəm? Ya elə bilirsən sənin yerini keçmişdən gələn kimsə tuta bilər?.. Keçmiş keçib gedib, sənnənsə yoxdu... – kişi qadının qara saçlarını sığalladı.

– Bu istidə neynirsən e, çayı? – qadın deyinə-deyinə ağ bayrağı qaldırdı. – Yaxşı, indi gedib qoyaram çayı qızmağa... – desə də qalxmayıb yanındakına qısıldı. – Amma əvvəlcə ondan danış...

– Kimdən?

– Keçmiş nişanlından... Necə oldu ki, ayrıldız?

– Yüz dəfə danışmışam... O, məndən varlısına rast gəldi, nişanı qaytarıb başqasına getdi, vəssalam... Dedi ki, məni düzgün başa düş, mən atasız, çətinliklə böyümüşəm, çox əzab-əziyyət çəkmişəm, indi qabağıma dövlətli bir adam çıxıb, yəqin bu mənim qismətimdi, şansımdı ki, day ömrümün axırınacan kasıb yaşamayım...

– Sən də heç nə demədin ona?

– Nə deyəydim? Gedənin yolunu kəsəydim? Ya yalvarıb ayaqlarına düşəydim? Əslində, onun açıq danışmağı xoşuma gəldi... Dost kimi ayrıldıq.

– İnanmıram, sən kasıb-zad idin bəyəm?

– Eh, mən kiməm ki... Ərə getdiyi kişi çox varlı idi... Mal-mülkünün sayı-hesabı yoxdu. Bir də ki, nə qədər pul-para yığırsan yığ, adamın nəfsi ac olanda var-dövlətdən doymur...

– Bəs, ərindən niyə ayrıldı? Sənə görə?..

– Yox... Bu hardan ağlına gəldi?.. Bəlkə də harınlıqdan... Əri indiyəcən qoymur qızı ilə o korluq çəksin, hər şərait yaradıb onlara, ayrılsalar da bir əli arvadı ilə qızının üstündədi...

– Yaxşı, gəl bir-birimizə keçmişimizdən danışaq... Əvvəl sən başla, sonra mən...

– Oho!.. Sağ ol... Qara qızın dərdi varmış... Yəni sənin də həyatında kimsə olub?.. – kişinin gözləri bərəldi.

– Yavaş danış, güclə yatızdırmışam, uşaq oyansa, səhərəcən ağlayacaq... – əli ilə yanındakının ağzını tutdu. – Niyə olmayıb, mən adam deyiləm? Məni də o qədər oğlan istəyib ki... Mən korolmuş da aləmin gözünü çıxardıb səni seçmişəm... Düz deyiblər e, sevənin gözləri kor olur... Hə, başla...

– Nədən başlayım?..

– Nəyini sevirdin onun? Görmüşəm də, uzundurazın biridi, zürafəyə oxşayır...

– Nə bilim... Mənim istədiklərim həmişə boy-buxunlu olub... Elə sən özün də məndən hündürsən...

– Allah boy-buxun paylayanda sən dala qalmısan də...

– Mən dala qalmamışam e, siz qabağa qaçmısız...

– Hə, düzünü de, sənə görə ərindən boşandı o?

– Mən hardan bilim... Mənə görə niyə?.. Özü dedi ki, bir dəfə ərim nəyə görəsə hirslənib qızımı vurdu mənim yanımda... Ona görə ürəyim sındı... Çünki o vaxtacan o uşağa heç kəs əl qaldırmamışdı, o uşaq bizə çox güvənirdi. Ağlına gətirmirdi ki, haçansa, kimsə onu vura bilər, vurmaq nədi, onun ustünə çımxıra bilər, qışqıra bilər... Bəlkə elə ona görə çox ağladı ilk dəfə atası onu vuranda... Kiridə bilmirdim onu. Yavaşca vurmuşdu uşağın başına... Hansı ata öz uşağını bərk vurar axı? Uşaqsa ağladıqca ağlayırdı... Yəqin ağrıya görə yox, güvəncinin iki paralıq olmağına görə kirimək bilmirdi canım qurban... Mən də elə ordaca cırdım ərimi, sonralar neçə dəfə ayağıma düşüb yalvarsa da, bağışlaya bilmədim onu...

– Hə... – qadın fikirli-fikirli beşiyə baxdı. – Sən mənim uşağımı vurarsan? Qıyarsan bu balacanı vurmağa?

– O, sənin niyə olur, dədən evindən gətirmisən? O, bizim uşaqdı... – kişi qadının səhvini düzəltdi. – Siz arvadlar nə vasvası olmusuz, uşağı vuranda qızılı gedir? Biz özümüz döyülə-döyülə böyüməmişik?.. Yadımdadı, bir dəfə məhəllə uşaqlarına qoşulub siqaret çəkmişdim, ağzımdan iy gəldiyindən atam bildi məsələni. Kişi mənə bir şillə vurdu, düz bir ay sol qulağımın uğultusundan düz-əməlli heç nə eşidə bilmədim...

– Neçə ildi şəhərdə yaşayırsan, ancaq kədçisən ki, kədçi... – qadın acıqlanmaq istəsə də gülümsündü. – Axırıncı dəfə haçan görmüsən onu? Bax, düzünü de, yoxsa çay-zad gətirməyəcəm...

– Bir ay olar... Maşınımı palirovkaya vermişdim a, piyada idim. Onda... Yolun qırağında dayanıb taksi gözləyirdim. Qəfil qarşımda saxladı maşını ki, hara gedirsən, otur aparım... Oturmaq istəmirdim...

– Gopa basma... – qadın onun sözünü kəsdi.

– Vallah! – kişi ürəkdən and-aman elədi.

– Yavaş danış, uşaq durar... – qadın çəkingən-çəkingən beşiyə baxdı. – Niyə oturmaq istəmirdin?

– Bilirdim ki, forsundan, özünü göstərmək üçün maşını dəli kimi sürəcək. Allah eləməmiş, bir şey olsaydı, yox yerdən, mən özüm də əzilib xəşilə dönərdim...

– Qorxaq... – qadın xısın-xısın güldü.

– Gülmə... Qurban olum ağlıma, zaman göstərdi ki, elə düz fikirləşmişəm...

– Necə yəni? Qəza oldu? – qadın maraqla qulaqlarını şəklədi.

– Yox... Heç beş addım getməmişdik ki, yol polisi maşını saxladı. Dedi ki, xanım, asta sürün maşını, ehtiyatlı olun, qəza şəraiti yaratmayın... Ağsaç, nurlu bir kişi idi yol polisi. Onun sürücülük vəsiqəsindəki səklinə baxıb qəfil qayıtdı ki, xanım, siz Əhməd Əhmədovun qızısız? O da başını tərpətdi ki, hə... Yol polisinin çöhrəsi kölgələndi, kədərli-kədərli: “Yaxşı yol” – deyib bizi yola saldı.

– Əhməd Əhmədov kim idi ki?

– Onun atası... Amma atası çoxdan ölmüşdü. O, balaca olanda... Nə isə, məəttəl qalmalı iş idi...

– Söhbəti fırladıb sözünün canını demədin e...

– Nəyi demədim?

– Onun nəyini sevirdin?..

– Bilmirəm... – kişi çiyinlərini çəkib anicə fikrə getdi. – Çox hazırcavab idi...

– Məsələn...

– Nə məsələn?..

– Bir misal çək də onun hazırcavab olmağından...

– Maşında gələ-gələ zarafata saldım ki, elə bizim evlənməməyimiz yaxşı oldu... Səninlə evlənsəydim, mən maşın sürə bilməyəcəkdim...

– Hə, hamı mənim kimi dilsiz-ağızsız deyil ki... – qadın gileylənib özünü bilici kimi göstərmək istədi. – Maşını alacaqdı da sənin əlindən...

– Bax, sən belə fikirləşirsən, o isə elə o saat qəhqəhə çəkib tamam başqa çür cavab verdi...

– Nə dedi?

– Dedi ki, elədi, buynuzların qoymayacaqdı səni maşına oturmağa... Maşın sürmək cəhənnəm, gərək metroya, avtobusa da ehtiyatla minəydin...

– Aaa... – qadın heyrətləndi və dodaqları qaçdı.

– İndi də sən öz keçmişindən danış...

– Nə keçmiş? – qadın başa düşmədi.

– Şərtləşdik axı, əvvəlcə mən danışacam, sonra sən...

–Eee... Sənin dediklərinin çoxunu bilsəm də, özüm səni danışdırmaq üçün elə deyirdim, mən sənin tayın deyiləm ki... Mənim keçmişimdə heç nə olmayıb... – qadın əlini yelləyib cəld dikəldi. – Əl çək, gedirəm çayı qoymağa...

– Gərək vaxt eləyib sənə maşın sürməyi öyrədəm... – kişi astaca mızıldandı.

– Çoxdan öyrətməli idin... Axır ki, mən deyənə gəlirsən... – taxtdan düşmək istəyən duruxub sevinclə dilləndi.

– Elə əsl məqamı indidi... Başqa çarəm yoxdu, başım qaşınır yaman...

– Başın bura nə dəxli? – qadın anlamadı. – Dünən çimmisən ki... Başın kirlidisə, get gir hamama, saçlarını yu də...

– Yox, mənimki çimməkdən keçib... Deyəsən, buynuzlarım çıxır mənim...

...Qadın lapdan qəhqəhə çəkdi, beşikdəki diksinib oyandı və bərkdən ağlamağa başladı...

*Arzu NEHRƏMLİ*

# Paqonlu ruh



Bələdçi qızın səsi yenə başladı zəhləmi tökməyə: "Naxçıvandan Bakıya uçan təyyarəyə minik başladı." – Gözüm aydın, uçan vaxtınızdır, uçun. İmkan verin, yerə düşüm, nəfəs alım, dincəlim. Mən də insanam axı. Uça-uça qalmışam ortalıqda. Bu gün-sabah qanad-quyruq da çıxardacağam. Fikirləşdikcə başım xarab olur.

Bir səhv addımım nə qədər oyun açdı başıma. Nə bir addım? Deyəsən, mən bu tərəfə min kilometr gəlmişəm. Bütün günahlar da özümdədir. Mənə deyən var, bu universitetdən çıx o birinə, ondan çıx, buna gir. Mənə oxumaq, diplom lazımdır? Özü də harada, harada, kəndimdən-kəssəyimdən uzaq bir yerdə. Gül kimi qulağımın dibindəki universitetdə oxuyurdum da. Çıxanda da sənədlərimi elə geri alıb sakitcə çıxıb qaçırdım ki, bir pişiyin də xəbəri olmurdu. Elə bil yağın içindən tük çəkirdim. İşlərim də yağ kimi gedirdi. Yoxsa indiki kimi, təyyarəyə oturub bir saat geri uçmaqla bütün respublika xəbərdar olub ayaqdadır.

Hamısını eləyən də qayınatamla qayınanamdır. Özləri də məndən qabaq köçüb oturublar orada. Azmış kimi, gözlərinin qabağında mənə ev-eşik şəraiti də qurublar. Dediklərinə görə, qəşəng qonşularım da var. Qapıbir qonşumu daha çox tərifləyirlər. Qonşu mənim, görəsən, qəşəngliyini bunlar haradan bilir? Guya belə edib, belə desələr, bu səfər qərar tutub qalacağam. Hələ qayınanama bax e... Qayınanalıq edir mənimçün. Sən gəlinlər görməmisən. Səhər tezdən ev-eşik təmizləmək bəhanəsiylə (indi olur da, arada özümə baxmağı unuduram) gəlib saçlarımı darayır, tumarlayır, hörük edir – bir sözlə, pişiyim-pişiyimlə başımı aldadıb dərsə yola salmaq istəyir məni. Mənə də Arzu deyərlər, ay inandım aaa. Arvadın üz-gözündən artistlik yağırdı, elə bil uşaq başı aldadır, məni birinci sinfə yola salırdı. İstədim yenə gözümü yumub, ağzımı açıb deyəm ki, ay arvad, ay qayınana, sən yaxşı ana olsaydın, çıxardın o "vətən-vətən" deyən oğlunun qarşısına, deyərdin: "A bala, arvadın cəhənnəm, yad qızıdır, təzəcə doğulmuş, "ata" sözündən başqa söz bilməyən, o sözə anadangəlmə dil açan balaca balana yazığın gəlsin, rəhm elə. Az min bu təyyarəyə, az bomba yağdır düşmənlərin başına, onları zəlil eləmək sənə qalıb? Allah versin onların bəlasını!"

Yox, demədi. Nəyə deyirsiniz and içim, bir dəfə də olsun gözləri qızmış, qan-qan deyən oğluna qarşı çıxmadı ki, çıxmadı. Sən yiyə çıxmasan, göylər çıxar. İndi get, geri al, gətir görüm, göylər oğlunu gətirə bilirsənmi? Yox, bilmirsən!

Mən yazıq neyləyə bilərəm ki? Göylərə boylanmaqdan boynum ağrıyır, oğlunun sayəsində başımı aşağı sala bilmirəm. Bu da yaxşı əlamət deyil axı,

elə olur ayağımın altını görmürəm, ayaqqabı geyinmək də yadımdan çıxır. Gərək özüm çıxıb etiraz edəydim. O da məni çırpaydı, döyəydi, təpiyin altına salaydı... Heç olmasa bir uşaqlıq arzuma çatmış olardım. Həmişə qonşumuz Hacı Mərdan əmi arvadın döyəndə deyərdim: “İstəyirəm, böyüyəndə mənim də belə bir ərim olsun, məni döysün, mən də arvadlanım, arvad olum arvadlara qoşulum”. Nəinki döymək, heç nazımı çəkməyə də vaxtı olmadı ərimin. Daha olan olub, keçən keçib. Sonrakı peşmançılıq kimə fayda verib ki, mənə də versin. Başqa bir çıxış yolu fikirləşib tapmaq lazımdır. “Voobşe-to” “oxumuram, əl çəkin.” Başımı qatmaq üçün gərək özümə başqa məşğuliyyət tapım. Yoxsa sənəd ver, qəbul ol, sonra da qaçıb qurtaramma. Bu test üsulunu da heç cür qəbul edə bilmirəm. Hazır cavabı yazıb qoyublar qabağına, istəsən də səhv edə bilmirsən, vicdanın qəbul etmir. Heyif deyil, qarşında beş-on müəllim otursun, məqsədlərinə-məramlarına yetişmək üçün sıxıb sənin suyunu çıxartsınlar, sən də əgər tüfənginə bilik patronlarını doldurmusansa, onların hamısını bir gülləyə qurban edib, qalib olursan, ya da mübarizə aparacaq halın yoxdursa, səssiz-səmirsiz əllərini göyə qaldırıb təslim olaraq sağ-salamat qurtardığına Allahına şükür edib, çıxıb gedirsən. Nə isə...

Söhbəti çox uzatmadan keçim əsas məsələyə. Məsələ də ki dəhşətli dərəcədə qəlizləşib. Dərd bir deyil ki, birini çəkəsən, problem içindən problem çıxır. Unutduğum bir şey məni çıxılmaz vəziyyətdə qoyub. İndi mən nə edəcəyəm, nətəhər edəcəyəm? Gərək əvvəlcədən işimi ehtiyatlı tutub, yüz ölçüb, bir biçəydim. Budur – burada deyil ki, özü gəlib tapsın məni. Balamı deyirəm, görəsən, harda qoyub qaçmışam. Bu yekəlikdə də səhv olar?! Yaxşı ki, nənəsi-babası yanındadır. Yoxsa indi balam ortalıqda kimsəsiz qalmışdı. Təyyarə ilə uçmaq, merətə qalmış göylərə qalxmaq bu hadisənin yanında su içmək kimi asan bir şey oldu. Mən nə amansız anayam, dörd yaşında, südəmər körpəni də unudub qaçarlar? Darıxdım e, balam üçün. Görəsən, süddən-zaddan tapıb verirlər? Bu iki gecəni mənsiz necə yatıb? Qayınanamın da doğan, südə gələn vaxtı deyil ki, bu iki günü birtəhər yola versin, mən də bir az rahat olum. Deyirəm, birdən bu iki günün ayrılığı səbəb olar, uşağım süddən kəsilər.

Lənət şeytana, qarabasmadandır, nədəndir, bu gic-gic fikirlər haradan gəlir ağlıma?! Mən bu cür düşüncələrə balamın ancaq on yaşı olanda dala bilərəm. Bir də ki, narahatlığa səbəb yoxdur, qayınatam dünyagörmüş, fəal kişidir, yəqin elə həmin gündən elan verib süd anası tapıb uşağa. Qorxub narahat olmağa səbəb qalmayıb. Necə yəni qalmayıb? Qalıb axı! Birdən elə bilərlər, uşaqdan bilərəkdən imtina eləmişəm, bir daha göstərməzlər mənə, yenə təzədən qalaram qara günə.İşdir, şayəd, qayınatamgil uşağı verməyib müqavimət göstərsələr, məhkəmə yolu ilə alacağam. Bu da alınmasa, oğurlayacağam. Ana deyiləm?

Gözlə məni, unutduğum ən önəmli sənətim, ən əyləncəli məşğuliyyətim, ən qiymətli əsərim. Lap elə bu saat təyyarə ilə də uçaram, ruhlar aləminə də qalxaram, qarabasmalara da dözərəm, balamdan ötrü hər şeyə qatlaşaram.

Düz deyiblər, hər işdə bir xeyir var. Bu gün ürəyimə damıb ki, nəsə olacaq, möcüzə baş verəcək.

Qayınatam həmişə deyir axı: “Qızım, göylərdən küsüb üz döndərmə, oradan Allah baxır. Ora Allahın sevdiyi adamlar gedir, oralara uçmaq, oralara qalxmaq hamıdan çox sənin haqqındır”. Haqqımdırsa, qoy hələ bir uçum görüm nə olur.

Yəqin balam bu iki-üç gün ərzində böyüyər. Gələn dəfə qaçanda özü arxamca qaçar, mənim işim də asan olar. Şirin balam, belə şey olar, görürsən anan gedir, bir səs elə, bilim ki, sən də varsan. Bu dəfə gərək mütləq barmağıma

sap bağlayım, tez-tez xatırlatsın səni mənə. Gəldim, balam, gəldim. Səndən ötrü təyyarəyə də oturaram, raketə də. Dayan, gəlim, babanı da, nənəni də yığıb-yığışdırıb qaytaracağam kəndlərinə. Qoca adamlardır, qərib ölüb eləyərlər, ortada da səbəbkar, günahkar mən olaram.

* * *

Aeroportda yolasalma mərasimi başlamışdı. Bu mərasimin təşkilində ən böyük zəhməti, danılmaz xidmətləri olan anam özünü o qədər sərbəst aparırdı ki, deyərdin aeroportun ən məsuliyyətli, diqqətli "oxrana"sıdır. Aradabir ətrafa nəzər salır, göz-qaşı ilə kimlərəsə nəyisə xəbərdarlıq edir, bu hərəkətləri ilə ictimai-siyasi xadimə oxşayırdı. Hərəkətlərindən elə bilərdin ki, bu boyda aeroportda daşı daş üstünə qoyan, bütün işçi heyətinin: təmizləyicidən gözətçiyə, bilet satandan rəisə qədər vəzifə bölgülərini o edib. Məni yola gətirməkdən ötrü var qüvvəsini, bacarığını yönəltdiyi, qurduğu tamaşaların həm rejissoru, həm də baş rolunun ifaçısı idi. Daha yaratmadığı obraz qalmamışdı, yazıq, fədakar anamın. Qurduğu oyunları ilə məni aylar öncə qəbul imtahanına göndərdiyini yadıma saldı...

* * *

Gözümü açdım ki, anam başımın üstündə bayatı dey ir.

– Nə olub, mama, layladan qurtarıb indi də bayatıya keçmisən? Qurtarmadı sənin bu folklor nümunələrin.

– Dur, mənim ağıllı qızım.

– Yox, mən ağıllı deyiləm. Olsaydım hamınızın dərdini çəkər, sizə də, balkona yığılan qonşulara yazığım gələrdi. Elə bilirsən, bilmirəm, nə qədər adam var həyətdə?! Sakit dayanmaqları ilə deyil. Yenə yığışıb tədbir görmək istəyirsiniz, gedin görün!

– Dur, mənim savadlı qızım. İmtahana gecikirsən.

– Nə imtahan? Mən ki universitetdən çıxmışam.

– Qəbul imtahanı. Mən axı sənəd vermişəm. O gün Əliqulu əminin qızı Ümbilə qoşulub gedib sənədlərini universitetə verib, adından ərizə də yazmışam. Dur, get, havan dəyişsin, başın qarışsın. Vəsilə də səni gözləyir, onun da imtahanıdır, yubatma qızı, maşında qalıbdı.

– Mən getmirəm, get sənədləri necə aparıb vermisən, imtahanı da özün ver. Adın ən yaxşı yetmiş yaşlı abituriyent kimi tarixə düşsün. Qonşu anaları da apar qoy imtahan otağının qapısında dayanıb indiki kimi sənə dəstək olsunlar.

– Dur, balam, vallah gedərəm.

– Bilirəm, gedərsən. O yaşında məni doğa bilmisənsə, imtahanımı da verə bilərsən.

Birdən durub gedər e bu arvad, biabir olarıq.

– Mama, deyəsən axı, mən hardasa oxuyuram.

– Qurtardın da oranı. İki ay bundan əvvəl elə qəşəng də diplom almısan.

– Doğrudan? Qırmızıdır?

– Yox, göydür. Bacın qızı alıb gətirib.

– Təbrik edirəm. Daha bəsimdir də. O birisini də gedib alarsız, olar iki dənə. İndi mən feldşer-mamayam?

– Nə qədər ki bu qaranlıqdan çıxmamısan, sən heç nə deyilsən, on diplom alsan da. Gəl, qəşəng balam, al bu qələmləri, çıx bu otaqdan.

Anam mənə bir dəstə qələm uzatdı, elə bil oncildlik roman yazmağa göndərirdi. Bəlkə də fikirləşirmiş ki, kaş bu qələmlərin mürəkkəbləri bitənə qədər mən bu otağa girməyəydim.

– Yəqin babagilə də xəbər eləmisən?

– Eləmişəm, həyətdədirlər. Qayınanan da, qayınatan da səni imtahana yola salmağa gəliblər.

– Yəqin, uşağın da xəbəri var, anası qəbul imtahanına gedir. Arxamca o da dörd-beş ağız bayatı deyər.

Deyəsən, bu gecə yatanda anamın başına alma düşüb, ya da altıncı hissi oyanıb. Alma demişkən, görəsən, imtahan nədəndir? Fizika, kimya, riyaziyyat ya nə? Sevdiyim fənlərdir, açığı, mən bir az həvəsləndim.

– Mama, imtahan nədəndir?

– Üçüncü qrupdan, testdir, dur get sən hamısın bilirsən, alim balam.

Uzaqgörən ana ürəyidir, yəqin əyan imiş alim olacağım ona. Yox, əşi, onsuz da o mənə həmişə deyirdi ki, səndən nə desən çıxar.

– Həə, pis deyil, mənə maraqlı gəldi. Mama, paltarlarımı gətir, gedirəm.

Anama yazığım gəlirdi. Məni bu vəziyyətdən çıxarmaq üçün param-parça arzularıma, yırtıq-yırtıq olmuş taleyimə, altı üstünə çevrilmiş, darmadağın dağılmış, bünövrəsi sökülmüş həyatıma dəyən bu zərbələrə qarşı üsyan edib yırtığına yamaq, uçuğuna ürəyini qoyub daş qalamaq istəyirdi. Neynəsin axı, analar belə olur da, başqa nə edə bilərdi ki. Elə sevinirdi ki, elə bil bu gün imtahana getsəm, daha gəlib bu otağa girməyəcəkdim. Sevindiyi qədər də həyəcanlı idi, nə edəcəyini də bilmirdi. Sağa-sola vurnuxur, arabir üstümü toz basmış kimi paltarlarımı təmizləyir, nənəm deməli, yarınmaqdan əldən düşürdü. Bir sözlə, üfürə-üfürə qalmışdı məni. Mənsə öz aləmimdə idim. Hər şey gözümdən elə düşmüşdü ki... Dünya otağım rəngdə olub, ürəyim kimi daralmışdı. İki dünya arasında mat-məəttəl dayanıb, dünyanın o üzünü-bu üzünü çevirib, gündə min dəfə imtahan verir, gah o tərəfdən həyatımın cavabsız suallarına, gah da bu tərəfdən sevgimin ən tutarlı, bal dadan cavabı olan balama boylanırdım. Bayaq dediyim kimi, boylanmaqdan ən çox ağrıyan yerim də elə boynum olurdu.

Ötən günlərin üstünə qalan günləri gəlib, vurub çıxır, ortaq məxrəc tapır, yuvarlaqlaşdırıb iyirmi iki-iyirmi üç yaşımı yetmiş-səksən yaşıma qədər gətirib çıxara bilirdim. Bəzən də göyün yeddinci qatına qalxıb, indicə içində bulunduğumuz həyatın cılızlığına şahid olur, mən boyda ola bilməyən dünya deyib, öz-özümə qəhqəhə çəkib gülürdüm.

– Nəyə gülürsən, gözəl balam? Bəlkə mən də sizinlə gedim, maşında yer varsa.

Məni tək buraxmaq istəmirdi.

– Yadındadır, mama, ilk qəbul imtahanım?

– O uğursuz gündə gülməli nə var ki?

– Yox, onu demirəm. Səkkiz saat dayanacaqda oturub məni gözlədiyini deyirəm.

– Gecikərsən. İmtahana get, gəl, o günü yenidən xatırlayarıq.

Anam: “Hər işdə bir xeyir var” – deyib, hönkür-hönkür ağlamağa başladı.

* * *

Aeroportdakı səs-küy məni xəyallarımdan ayırdı. Anam o tərəf-bu tərəfə boylanır, göylərə üz tutur, məni tapşırmaq üçün kimisə axtarırdı. Axtardığı adam isə göylərin qoynuna çəkilərək heç olmamış kimi gözümüzdən elə itmişdi ki,

özünə məskən seçdiyi ucalıqları buraxıb gələnə oxşamırdı. Yavaş-yavaş anlamağa başladıq ki, bu imiş göylər oğluna etibar etməyin sonu. Bir az aralıda düzülmüş hərbi təyyarələr də həyəcanlı görkəm almışdılar. Sözünü deyib bitirməmiş qəzəbli əsgərə bənzəyirdilər.

Hələ bunlara bax, yoldaşımın təyyarəçi dostlarıdır. Mənə niyə belə baxırlar? Həyəcanları da üzlərindən oxunur. Bəlkə məni tanımırlar? Yox, axı tanıyırlar. Yəqin çox dəyişmişəm - ona görədir. Çoxdandır, yadımdan çıxır güzgüyə də baxmıram. Eybi yox, gedim-gəlim baxaram, hələ həvəs yoxdur.

Təyyarənin pilləkənində yoxlama aparan qonşumuz Şirməmməd əminin oğlu idi. O da gülümsəyərək pasportuma baxmadan anamın hazırladığı balaca bağlamanı alıb məni biletimdə qeyd olunan sırada əyləşdirir, halımdan xəbərdar olduğu gözlərinin dolmasından hiss edilirdi. Təyyarədə məndən başqa adam olmasaydı, bu yolasalma mərasiminin ancaq mənə həsr olunub, təyyarənin də yalnız xüsusən mənə ayrıldığını güman etməkdən başqa bir əlacım qalmayacaqdı. Artıq yerimi almışdım. Bələdçi qızın səsini zorla eşidirdim: "Naxçıvandan Bakıya 256-cı reyslə uçan təyyarəmiz yola düşür". Qarabasmalarım başlamışdı. Başımın dumanı göylərin gözlərinə öz pərdəsini çəkmişdi. Üşüyürdüm, sozalırdım, ağrıyırdım. Qarışıq yuxularım çin olmuşdu. Bir azdan sərnişini olduğum təyyarə məni göylərə qaldırıb, yıxılıb qaldığım yerlərə aparacaqdı. Mənə elə gəlirdi təyyarənin qanadları yoxdur. O qanadlar arzularım kimi çilik-çilik olub sovrulub. İçimdə qopan fırtına, başımda dolaşan uğultu təyyarənin uğultusunu batırmışdı. Vaxtın necə keçdiyi məlum məsələdir. Qaralmış buludlar çərçivəsində çarpışan kimi can verirdik təyyarə ilə. Qoynuna girdiyim zülmətin işıq gətirməyəcəyini bilirdim. Yolçusu olduğum yolun cadar-cadar olmuş sinəsinə ayaq basmışdım. Bəlkə də enişə başlayırdı, içimdə çox-dan eniş etmiş təyyarə. Yolun başında bir uşaq gözlərinin ana həsrəti məni gözləyirdi. Ölsəm də getməli idim.

– Mən sizi evə qədər apararam.

Qeybdən gələn səsə diksindim. Deyəsən, mən artıq ruhlar aləminə çatmışam. Başımın üstünü ağ geyimli varlıq kəsdirmişdi. Başımı qaldırıb bax-maq istədim, çiyinlərini gördüm, çiyinlərində təyyarəçi paqonları var idi. Birdən qeyri-ixtiyari olaraq səsləndim:

– Siz zəhmət çəkməyin, mən hava limanında enəcəyəm.

Özümü birtəhər ələ alıb təşəkkür etdiyim paqonlu ruhla sağollaşmaq istəyirdim, gözümdənmi qeyb oldu, nə oldusa bir daha görmədim.

Hava limanına eniş etmiş təyyarə işıqlara qərq olmuşdu. Axşamın qaranlığı hiss olunmurdu. Adamlar gözümdə yavaş-yavaş canlanırdı. Havalı-havalı gördüyüm yuxunun yozumunu düşünə-düşünə geniş hava limanını qət etməyim heç dəqiqə də çəkmədi. Bəlkə də saatlar keçmişdi, bilmirəm, çünki mən hələ də ruhlar aləmindən ayrılmamışdım.

Özümü evə çatdırmaq üçün ilk gördüyüm taksinin üstünə şığıdım. Əvvəl sürücünü nəzərdən keçirərək çiyinlərinə diqqət etdim. Yox, deyəsən, bu adam xalis sürücüdür. Birtəhər evimin ünvanını yadıma salıb sürücüyə anlada bildim. Yolun yarısında mənə elə gəldi ki, paqonlu ruh bizimlə eyni vaxtda irəliləyir. Çiyinlərindəki ulduzların parıltısını hiss etdim. Dedim axı, ürəyimə dammışdı ki, nəsə olacaq. Bəlkə də hamı bilir, mənə surpriz etmək istəyirlər, ya da yatmışam, qara basır. Fikirləşdim ki, sürücü də hiss etmiş olar, hər halda sürücü adamdır, ətrafa qarşı o, məndən də diqqətlidir. Birdən özümü saxlaya bilməyib soruşdum: “Bayaq yanından ötüb keçdiyimiz maşında paqonlu ruhu gördünüzmü?”

– Paqonlu ruh kimdir?

– Mənim ərim.

– Xanım, özünüzü pis hiss edirsinizsə, maşını xəstəxanaya sürə bilərəm.

– Yox, lazım deyil. Yəqin təyyarə çox yuxarıdan uçub deyə bir az havalanmışam.

– Bir az hava alsanız yaxşı olar – deyib, pəncərənin şüşəsini aşağı endirdi.

– Əziyyət çəkməyin, öz havam özümə bəsdir.

Sağ olsun, sürücü də məni başa düşmüşdü. Ruha dönmüş halımla mənə elə gəldi ki, yaşadığım binanın girişindəyəm. Sürücü ilə sağollaşıb yarıyuxulu vəziyyətimlə özümü binanın girişinə çatdıraraq, pilləkənləri saya-saya orta mərtəbədə yerləşən mənzilimə qalxmağa çalışırdım. Arxamdakı ayaq səslərini aydın eşidirdim. Təyyarədəki ağ geyimli paqonlu ruh arxamca yuxarı qalxırdı. Daha heç bir şübhə yeri qalmamışdı. Sürprizim lap yaxında idi. Addım-addım evimizə yaxınlaşırdı. Qapımızı tələm-tələsik açıb yorğun ruhum dincəlsin deyə biradamlıq çarpayını onun üçün səliqəyə saldım. Dedim özüm yerdə yataram, sonra uşağımızı birlikdə gedib gətirərik. İllərdir qatını açmadığım ruhumun isti yorğanını əlimə alıb çarpayıya salmaq istəyirdim ki, ruhum üçün açıq qoyduğum qapımız örtüldü. Ruhum gəldi deyib mən necə getdimsə, yaxın qonşum olan gəlinin səsinə oyandım.

Artıq səhər çoxdan açılmışdı. Gəlin başımın üstündə dayanıb məni silkələyirdi. Çox yaxın idik, daha o qədər yaxın idik ki, bizim qapı örtülməyəndə onların qapısı açılmırdı.

– Ay qız, oyan, yerdə niyə yatmısan? Qapını da bağlamamısan, heç olmasa, bu yerə atdığın yorğanı çək üstünə.

Təzə qonşu olsaq da məni çoxdan tanıyırmış kimi idi. Deyir, o birisi binada yaşayan qayınatan danışıb sənin barəndə. Həm də bərk-bərk tapşırıb ki, gəlinimdən muğayat olarsınız. Deyəsən, baba bir az çox tapşırıb. Çox mehriban, istiqanlı gəlinə oxşayırdı. Əlində bir balaca şirəçəkən, torbada da meyvələr gətirmişdi. Ağsaqqalın sözünə əməl edirmiş deyə öz evi kimi hərəkət edirdi.

– Arzu, səndən bir xahişim var.

– Hə, qonşu.

– İcazə ver, bu meyvələrin şirəsini sizin evdə çəkim, uşaqlar dərsə gedənə qədər içməlidirlər. Səhərlər dərsə getdiyini, sənin də bu vaxtlar oyaq olduğunu bildiyim üçün gəldim. Evdə səs-küy olmasın deyə şirəçəkəni işlədə bilmirəm. Yoldaşım axşam uçuş növbəsində idi, ona görə yorğundur. Növbəti uçuşuna qədər yatıb dincəlməlidir.

Yaxın qonşum təyyarəçi paqonlu ərindən bəhs edirdi. Elə bu dəmdə qapımız yenə açıldı: qayınatamla qayınanam idi. Uşağı gətirmişdilər. Üzlərini ərklə mənə tutaraq:

– A bala, gedəndə deməmisən, heç olmasa gələndə xəbər elə, uşaq üç gündür, ana axtarır.

Amma sizə deyim, “Bizə gəlmiş, düzə gəlmiş” məsəli olmasın, uşaq heç ana axtarana oxşamırdı. Babasının əlindən elə bərk tutmuşdu ki. Tez-tez də babasını dartaraq: “Baba, dur, dur, gedək yelləncəkdən Mişanı endirək, biz yellənək” – deyirdi.



*Sabir YUSİFOĞLU*

## MƏN DƏ BELƏ YAŞAYIRAM

Yaşılyarpaq yaz günümün
payızını yaşayıram.
Qışın qar eşqindən tutub,
yay uzunu yaşayıram...

Nə kağıza, nə qələmə,
nə mənə ağ gün diləmə.
Ömrümü verdim sələmə, –
faizini yaşayıram.

Ən zərif ipdən sallaşıb,
ən pis adamnan yollaşıb,
Yer üzüynən sağollaşıb,
Göy üzünü yaşayıram.

## ÖZÜMÜ VERDİM DƏNİZƏ

Gördüm qəm-kədər aparır,
özümü verdim dənizə.
Yolun düşsə tanıyacaq –
gözümü verdim dənizə.
Yenə həmən, yenə təkəm,
nədi qovan, nədi çəkən?!
Anam, qəbrin üstdə çökən
dizimi verdim dənizə.

Elə bil biçində itdim,
ovcunun içində itdim.
Buluda qoşulub getdim...
İzimi verdim dənizə.

## HAYIF, SƏNİNÇÜN ÖLMƏDİM

Bilirsən ki, öləcəksən,
daha nə var yaşamağa.
Piyadası vəzir çıxan
Şaham, nə var yaşamağa...

Qaranquşun qanadından
daşın ağrısını çəkdim.
Ömür boyu bir "bəlkə"nin,
"kaş"ın ağrısını çəkdim.

Qara xəbər saatının
zəngini tezdənə qurur...
Ürəyim də məndən keçib,
daha kürəyimdən vurur.

Ürək bəyəm nə üçündü, –
uzağı infarkt olacaq.
Dost-tanışın nekroloqu
daşdan keçən akt olacaq...

Mənimçün ağlama, qadın,
hayıf, səninçün ölmədim.
Sənsiz boş keçən bu ömrə,
qıyıb səninçün ölmədim.

…Hayıf, səninçün ölmədim...

## ÖZÜN ATAN ÜRƏYİM

Bu yayın ortasında
qış fəslin yaşayıram.
Əsir düşmüş dünyanın
Daş fəslin yaşayıram.

Sükut aparır məni,
külək aparan kimi.
Kim ölümə aparar,
ürək aparan kimi?!

Xəyalımda çırpınır
ayağının səsinə
beşinci mərtəbədən
özün atan ürəyim.

Mənimki ömür deyil,
yaşayıram səsinlə.
Batan günü səhərə
daşıyıram səsinlə.

Kor barmaqlarım tapmır,
gözümün işığını.
Dur gəl, sal bu zindana,
üzünün işığını.

## ÇİYNİMİZƏ TORPAQ VERSİN ÇİYNİNİ

Çəkilmişəm tənhalığın küncünə,
Sənin üçün ölməkdi də, qoy olsun.
Çiynimizə torpaq versin çiynini,
Sinəmizə çiçək səpən göy olsun.

Yıxılaram bir tabutun çiyninə,
Xırçıldayar bir ağacın gövdəsi.
Arxasınca yerə sürtüb üzünü,
Dizlərinə döyər qalan kölgəsi.

Xəbərin var, “Xəbərlərdə” nə gedir?
Ancaq orda, kasıb kəndin birində
Bir şəhidin baş daşına sıxılıb,
Sinəsini cavan bir gəlin didir.

Bəkarəti pozulubdu sərhədin,
İstilik də bir az qalxıb Şuşada.
Heç bilirsən nədi bizi öldürən,
Heç bilirsən nədi bizi yaşadan?!

Ömrümüzü qoyduğumuz bu yolda,
Arxamızca bir salavat çəkən yox.
Yavaş-yavaş ümidlər də saralır,
Təzəsini sulayan yox, əkən yox...

Nə bilirsən nə olacaq axırda,
Bu söhbətin axırı nə olacaq?

Yer üzündə sərhədlər də itəcək,
Bircə elə bu göy üzü qalacaq...

Çiynimizə torpaq versin çiynini,
Sinəmizə çiçək səpən göy olsun.
Çəkilmişəm tənhalığın küncünə,
Sənin üçün ölməkdi də, qoy olsun...

## BƏLKƏ TANRININ ƏLİDİ

Kiminsə qarğışı tutub,
tutub saxlayır – ölmürəm.
"Kimin?" sualı başımı
qatıb saxlayır, ölmürəm.

Əlimi kəsdim – qanamır,
dilimi kəsdim – qanamır.
Bir şüşə qaba canımı
atıb saxlayır, ölmürəm.

Deməyin, adam dəlidi,
deməyin, nə gülməlidi.
Bəlkə Tanrının əlidi, –
dartıb saxlayır – ölmürəm!..

## NƏ DANIŞIR MƏLƏKLƏR

Yenə vurub başıma,
ürəyimin ağrısı.
Ayaqlarımda gəzir
kürəyimin ağrısı.

Adam heç görmədiyi
adamçün də darıxır.
Heç vaxt sevməyəcəyi
qadınçün də darıxır.

Bir ev boğulub batır
bir uşaq gözlərində.
Bir səhra yanıb gedir
bir yovşan gözlərində.

Kimin əlindən öpək,
dünya əli əlcəkli?!
Hamı içdən quruyur,
hamı üzdə bəzəkli.

Ağacların saçını
yolub qaçır küləklər.
Dünyanın o üzündə
nə danışır mələklər?!

## ÇIXIRAM TORPAĞIN, DAŞIN BORCUNDAN

Çıxıram hamının borcundan bir-bir,
Çıxıram Allahın borcundan belə.
Çıxıram torpağın, daşın borcundan,
Bu canı, bədəni qaytarmaq ilə.

Başıma min oyun açan dünyanın
Heç başım çıxmadı bu zərlərindən.
Çıxıram saralan ağ-qara şəklin
Ovcumu yandıran qız əllərindən.

Mən səni nə təhər sevdim, bilirsən? –
Yadına düşəndə səksənir Allah.
Çıxıram ömrümdən hamını bir-bir,
Tək səni çıxmıram, tək Səni, Allah...

Hamının yadından çıxıram bir-bir,
Çıxıram hamının borcundan daha...

## HEÇ YOLA GETMƏDİM AYAĞIMLA DA

Dua elədiyin gündən qırıldım,
qarğış elədiyin gündəyəm, ana.
Mən sənin əlinə yatan təndirdən
sürüşüb küt gedən kündəyəm, ana.

Qaçmaq istəyəndə çörək dalınca,
ürəyim yıxıldı ayaqlarıma.
Dünyanın tikanlı, daşlı yolları
neyniyər bu bəxti ayaqyalına?!

Heç yola getmədim ayağımla da,
ürəklə də keçdim keçdiklərimdən.
Qırıb ürəyimdən çoxları keçdi,
inciyə bilmədim nəsə heç kimdən...

## SOYUĞAM TORPAQ KİMİ

Üzü payıza dönmüş
ocaq kimi soyuğam.
Boş qalan yuva kimi,
qucaq kimi soyuğam.

Budağından yıxılıb,
o yuvada yer salan
yarpaq kimi soyuğam,
soyuğam buzdan betər.

Dörd divarlıq qəfəsdə
ürək kimi sıxılan,
İki divar sığınan
bucaq kimi soyuğam.

Hamı bir-bir unudur,
hamını unuduram.
Səni də unudaram, –
soyuğam torpaq kimi.

...Bu payızı götürüb
aparacam yazacan.
Bir gülün ləçəyində
ordan məktub yazacam.

## ƏN XIRDA DƏRDİN DƏ NAĞILI UZUN

Unudub gedirəm sözün ləzzətin,
Doydum bu dünyanın yalan dadından.
Köhnə şəkillər də saralıb gedir,
Ən şirin qadın da çıxır yadımdan.

Ən böyük arzular – boyu bir qarış,
Ən yaşıl ümidlər ayaq altında.
Ən xırda dərdin də nağılı uzun,
Ən dəli sevgi də ölüm ağzında.

Heç məni yadına salmasın heç kim,
Bəlkə ən gözəli unudulmaqdı.
...Dünyada nə qədər qara taleyin
Ölüm qabağında üzü ki ağdı...

## DARIXMA

Ağlamaqnan keçir hələ günlərin,
Sağlıq olsun, güləcəksən, darıxma.
Darıxıram,
ağrıyıram,
ölmürəm...
Ölər olsam, biləcəksən,
darıxma!

Heç bilirsən sənsizliyi neynirəm?! –
Küçə-küçə döyürəm bu şəhərə.
Gündçıxanda, günbatanda...
hardasan? –
Düz yolu da əyirəm bu şəhərə.

Darıxmağı qəşəng bildim...
qapısı
toz bağlamış, damı daman ev kimi.
Həsrətinin ləzzətini çəkirəm,
badə-badə, qullab-qullab, kef kimi.

Darıxıram,
ağrıyıram,
ölmürəm...
Ölər olsam, biləcəksən, darıxma.
Ağlamaqdan gözün doyar bir səhər,
sağlıq olsun, güləcəksən...
Darıxma...

## HAMI YADDAN ÇIXIB GEDİR

Əlin də çıxır əlimdən,
Tanrının ətəyi kimi.
Neçə günümüz oldu, say! –
arıynan pətəyi kimi?!

Təzyiqim günbəgün artır,
dişlərim laxlayıb düşür.
Bir sarı yarpaq sallanır,
nə təhər saxlayım, düşür?!

Özündən özgə kimin var? –
ona da əzrail şərik.
Eşq sirrimiz içimizdə,
yığışıb yola düşərik.

"Çet-gəllərə" öyrəşmişəm,
uzaq gedir, yaxın gedir.
Hamı bir-bir yaddan çıxır,
hamı yaddan çıxıb gedir.

Nə fərqi var yadındayam,
yoxsa çoxdan unutmusan?
Heç nəyi dəyişmir daha,
hansı vaxtdan unutmusan.

...Dərd dərd üstə, il bürc üstə,
daş üstə daş qoyub ölmək.
Ölümlərin ən gözəli
dizinə baş qoyub ölmək!..

## MƏNDƏN YAXŞI ARXİV OLMAZ

Mənim yaşadıqlarımı
yaşaya bilməzsən, qardaş.
Bir beldən gəlsək də,
mənə
oxşaya bilməzsən, qardaş.

Ömrüm boyu canavartək
göz-gözə qaldım, yatmadım.
Gəmi-gəmi arzularım
batdı,
mən niyə batmadım?!

Qanadım varmış,
qanadım
ürəyimin çat yerindən.
Tənək kimi budadılar
canımı qanad yerindən.

Məndən yaxşı arxiv olmaz,
açıldım...
"Sirr saxlamadım".
İçimdə yüzün öldürüb,
ağ günə, qara saata
bircə Sabir saxlamadım.



*Təranə ARİFQIZI*

**BALIQLAR ÖZÜN ASIB...**

Buludlar göydə çəkir yenə sənin şəklini?
Yağışlar yerə atır sənin mələk ətrini.

Su üzündə yatıbdı dalğaların dəcəli,
Deyəsən, sahillərin gəlib yenə əcəli.

Yuyulub qum paltarı, işıldayır uzaqdan,
Balıqlar özün asıb rəngli-rəngli qulaqdan.

Bir azca o tərəfdə sevginin ətri gəlir,
Qovuşan kirpiklərin yağışdan çət(i) ri gəlir.

Sahildə növbə çəkir şahidtək qayalıqlar,
Su altında hönkürür səssiz-səssiz balıqlar.

Günəş küsür, rəngini lal sulara buraxır,
Uzaqda, sənin qəlbin ani şimşəktək çaxır....

* * *

Çapıb keçdim zamanı
bir qələmin ucunda.
Ruhumu yaralayıb
buraxdı bəndələrin.

Daha yox ürəyimdə
zamanın itən yeri.

Bir günün, bir saatın,
bir anın bitən yeri...

Nə vaxt keçib getmişəm
gözlərinin önündən...
Baxışının altında
tutmamısan məni sən...

Əyilib qədd-qamətim,
pozulub dəngələrim...
deyəsən üzüyola
tanımısan məni Sən...

Sevmirəm dediyim an
hamıdan çox sevmişəm.
kimə kül olan ocaq,
kimə xoşbəxt evmişəm.

Məndən istəmə Tanrım,
əlli ilin xəracın.
yaşatmağa məcbursan,
yoxdu başqa əlacın...

Köçüb gedən illəri
gəlintək bəzəmək var.
qarşıdan gələn nədir?
bilmirəm heç, demək, var..

İlimə yağış yağır
yaşımın ayrıcında.
yuyur, qovurur məni
taleyimin sacında...

Yamanca darıxıram,
illərim ötsün deyə...
bir yerə, bir də göyə –
ünvana çatsın deyə...

## GÖZÜMÜ QANLA OVURAM...

Məni məndə əsir tutan
Nəsə gəlmir ki ağlıma.
Nəsə yazmaq istəyirəm,
Kəsəsi, gəlmir ağlıma.

Oyanıb yuxu görürəm,
Diksindirir səs gecəni.

Atıb dalıma qaçıram
Yanvar adlı dərs gecəni...

Əlimdə bir cüt qərənfil,
Qapının zəngin vururam.
Qırmızı gün doğub gecə,
Gözümü qanla ovuram.. .

Baxıram ki, göy üzündən
Ağ ələnir ələk-ələk.
Bir körpə uşaq ağlımda
İməkləyir bələk-bələk.

Ağ paltarlı gəlinin də
Yuxusunu qatıb Tanrım.
Onun əllərindən tutub
Yarına aparıb Tanrım...

Bir azca o tərəfdəsə
Qan ağzında qan görürəm.
Donub daşa dönənlərdə
Özümdən bir an görürəm...

Soyuq addımlı gecədə
İsidir qarlı qış məni.
Bir mübarək yol üstündə
Bağrına basır daş məni.

Mələklərin görüş günü
Qanadını açıb gəlir.
Otuz illik yorğunluqdan
Üzlərə nur saçıb gəlir...

Qovub qatır qabağına
Güllə səsin azan səsi...
Dualarım uçur göyə,
Rahatlanır hürr nəfəsim...

Azadlığın anasına
Müjdə verin balasını...
Səndən doğulan igidlər
Aldı sənin qisasını.

Əlimdə bir cüt qərənfil,
Qapının zəngin vururam.
Qırmızı gün doğub gecə,
Gözümü qanla ovuram...

## GÖZ VERDİYİM YERLƏRƏ GÖZLƏRİMLƏ BAXARSAN

Qış ötər, bahar gələr, qaysaqların gül açar.
Bir gün yır-yığış edib köhnə yurda köçərsən.

Yol üstündə bulaqdan bircə ovuc su alıb
Qurumuş dodağımla özün üçün içərsən...

Qarşında xarıbülbül gülər Cıdır düzündə.
Əllərimlə oxşayıb bizim üçün dərərsən.

Qarşına bir dağ çıxar, daşlarında əl izim.
Mənim ayaqlarımla bir iz tutub gedərsən.

Söz verdiyim yerlərdən keçərsən addım-addım.
Göz verdiyim yerlərə gözlərimlə baxarsan.

Bir zirvədə dayanıb əl açarsan göylərə.
Qollarımla vətəni öpüb qucaqlayarsan.

Yerişimi yeriyib, alarsan nəfəsimi.
Gözündəki yaşları gülüşümlə silərsən.

Soruşsalar, nə olub? Deyərsən, yarım gəlib.
Otuz ilin yorğunu qırx dörd gündə dincəlib...

* * *

Tale yazdın qaçaraq,
Addımlar yorğun-arğın.
Bəxtimi oğurlayıb
zamanın oğruları.

Dodaqdan yox, ürəkdən
Aldın gülüş payımı,
Ortadan sındırmısan
Ox atmağa yayımı.

Darıxanda dərdimi
Dərdə qonaq edirəm.
Verdiyin xoşbəxtliyi
Ömrə sınaq edirəm.

Bir yazıb, min pozursan,
Mənə çatmır yazdığın.

Alnıma möhür vurub
Qələminlə qazdığın...

## ASILDIM TANRININ AYAQLARINDAN

Əgər yaşadımsa, bu ömür hanı?
Kimə girov qoydum, kimə xərc verdim?
Asıldım Tanrının ayaqlarından,
Bu gün yaşamağa dünən borc verdim.

Keçdim külək kimi bulud tozundan,
Yağışın ömrünü torpağa yazdım.
Gövdənin, budağın qanından çəkib,
Yaşıl bir rəng ömrü yarpağa yazdım.

Titrədim, içimdən töküldü ahlar,
Amanın ətəyin tutub sürüdüm.
Bütün savab günlər, bütün günahlar
Çəkdi məni arxasınca, yeridim…

Misra-misra qan doğuldum, qan öldüm,
Ətimi, canımı şişə çəkdi söz.
Bəzən hamar yola bir əsa oldum,
Əlimi ağzımda dişə çəkdi söz.

Bir sabah, yazılan yazım gəlməmiş,
Haqqın yanan üzün haqdan götürdüm.
Sarılıb taleyin saydıqlarına,
Ömrün baş tacını taxtdan götürdüm...

* * *

Mən yolu tutub getdim,
Sənsə mənim izimi.
Mən səni qırıb getdim,
Sənsə mənim dizimi...

Günəşi saldıq tora,
Aya kələk gəldik biz.
Gah iblisin özüydük,
Gah da mələk gəldik biz.

Yolumuzu su kəsdi,
Bizsə əhdi, ilqarı.
Havalar soyuq keçir,
Günəş əritmir qarı...

Daş olub başa dəydik,
Ovcumuzda sıxıldıq.
Nərdivanı adladıq,
Biz ürəkdən yıxıldıq.

Yollarmı yubatmışdı,
Yoxsa Tanrı, bilmirəm.
İrəli yox... geriyə
Addım ata bimirəm

## BATABAT

Göydə günəş, yerdə qarın nə gözəl,
Təmiz nəfəs adlı barın nə gözəl,
Dağlar kimi etibarın nə gözəl,
Qonağam qoynunda bu gün, Batabat!

Addım atdım, ayaqlarım qarladı,
Qar əlimdə, əlim qarda xarladı.
Sənə yolçulugum dostla, yarladı,
Əksimi göstərdi gölün, Batabat...

Dolana-dolana qalxdım yaylağa,
Bir dərəyə baxdım, bir də oylağa.
Ətək saldı yanğım buz Zorbulağa,
Göynədi dişlərim, deyim, Batabat...

Təbiət sinəndə yaz deyib oynar,
Çaylar axarıyla naz deyib oynar,
Bağrıma basılar saz, deyib-oynar,
Üzən göy adanla öyün, Batabat...

Biçənəyin birçəkləri yamyaşıl,
Torpaq yaşıl, dolay yaşıl, dam yaşıl,
Quşlar yaşıl, qoynunda adam yaşıl,
Yaraşır bu donun, geyin, Batabat...

Qar naxıslı dağlar əl-ələ burda,
Ağaclar dolaşıb tel-telə burda,
Qarışıb ot-əncər, gül gülə burda,
Heyrətdən ürəyim deyir, Batabat...

Xatirə danışır bir ağac altı,
Deyirlər, gülürlər dostlar beş-altı.
Göy sudan boylanır ürkək qaraltı,
Mələyir bir maral, keyik, Batabat...

Göllərin tamaşa, çölün tamaşa,
Əllərim əl eylər yaşıl qumaşa.
Yoxuşu enişlə vururam başa,
Kaş ki, sən olaydın evim, Batabat!
Səni sevgilimtək sevdim, Batabat!

## ŞUŞALI UŞAQ HARDADI?

***"Şuşada bircə uşaq belə gözümə dəymədi."***
**İntiqam Qasımzadə**

Qalxdım dolayları, gəzdim Şuşanı,
Gözdə Vətən adlı işıq doğuldu.
Baxdım üzüaşağı dağ cığırına,
Titrədim, içimdə həsrət boğuldu.

Bir ocaq yandırdım, közü əlimdə,
Bir evdən min evə payladım onu.
Bir uşaq axtardım ayağıyalın,
Gəlsin bu günümə, hayladım onu.

Hanı bu şuşalı uşaq, hardadı?
Gəlib ocağının yiyəsi olmur.
Minsin itirdiyi qarğı atını,
Tapılan beşdaşın niyəsi olmur.

İndi şəhərimin küçələrində
Hələ ki, şuşalı uşaq tapmadım.
Mənim ayaqyalın izlərim vardı.
Getdim evimizə, yolu sarpmadım.

Gözümdə gələcək necə gözəldi.
Bir ocaq başında toy düyünüydü.
Bəy-gəlin şuşalı, qonşu şuşalı,
Allahım, necə də gözəl günüydü.

Bilirəm, görürəm, əminəm daha,
Arzular çin olub, böyüyəcəkdir.
Az qalıb, ay ustad, bir-iki ilə
Elə bu küçədən dünya üzünə
Şuşalı uşaqlar yürüyəcəkdir.

***Naxçıvan***



## *Ələsgər ƏLİOĞLU*

***

***Döyüşçü Yaşar Babayev şəhid olandan iki gün sonra onun Narin adlı qızı dünyaya gəlmişdir. Övladının adını Yaşar özü qoymuşdu...***

Narin!..
Narin!..
Sən iki gün gecikdin atanla görüşə,
Atan iki gün tez çatdı
Şəhidlik zirvəsinə;
Yağılarla döyüşə-döyüşə...
Sönməkdə olan bir ocağı,
Yandırmağa alovun, odun oldu.
Üzünü görmədiyin atanın
Sənə hədiyyəsi adın oldu.
Dilinə yatmasa da
"Ata" kəlməsi, "ata" sözü,
Narahat olma sən.
Bir əlindən anan tutar,
Bir əlindən də Vətən...
Torpağın üstə rahat gəzəsən deyə,
Atan gedən yolu,
Neçə-neçə ərən keçib gedəcək...
Narin!..
Narin!..
Səni qucmaq istəyən ata əlləri,
Torpağı qucdu...

Dünyaya gəldiyin gün bildinmi ki,
“Şəhid övladı” adı,
başında tacdı...

## AĞLA, UYĞUR BALASI

***İnternetə baxarkən milli münaqişə zəminində doqquz-on yaşında bir uyğur oğlanın döyüldüyünü gördüm...***

Ağla, ağla, ağla, uyğur balası,
Qorxma ki, gözünün gedər qarası.
Ağla, ağlamağın ara verməsin,
Demə ki, dünyanın qulağı kardır.
Ağla, ağlamaqdan köksün göyərsin,
Demə ki, dünyanın gözləri kordur...
Nə kardır,
Nə də ki, kordur bu dünya,
Bir gün görərsən ki, görərsən ki, sən,
Attək şahə qalxıb durdu bu dünya!..
Sən indi top atıb, top tutmalıydın,
Şarını havada oynatmalıydın...
Amma səni toptək atıb-tuturlar,
Şar kimi havada hey oynadırlar...
Ağla, ağla, ağla, uyğur balası,
Qeyrətin kök atsın “yağışlarınla”.
Ağla, ağla, ağla, uyğur balası,
Dünyanı diz çökdür baxışlarınla.
Ağla, ağla, ağla, uyğur balası,
Suvar qeyrətini göz yaşlarınla.
Ağla, ağla, ağla, uyğur balası,
Bu dünya üzünə bir vaxt baxacaq.
Ovcuna ələnən göz yaşlarından,
Qılınc cücərəcək,
Nizə qalxacaq!..
Ağla, ağla, ağla, uyğur balası!..

* * *

Şəhərdə açdığı firmaya
Qoyub atasının adını.
Bazar meydanında
Belədən-belə
səyridir atını.
Alış-verişdə
Bəxti üzünə gülür.

Amma atası kənddə –
bir damın altda
Acından ölür...

* * *

***Ömür-gün yoldaşım İradə xanımın***
***xatirəsinə 3 şeir***

**1**

Sən gedəndən bəri
Elə bir fəsildə yaşayıram ki,
Bənzəmir nə qışa,
nə payıza,
nə yaya,
nə də ki yaza...
Yaşayıram həsrət adlı fəsildə.
Çəkdiklərim gəlməz saya...
Sən gedəndən bəri
Üzüm-gözüm kilidlənib hüznlə,
Açarı da atılıb dəryaya...

## 2. BİR QADINA

Ötən illərimə kürrüklənirəm,
Təzədən havayı körüklənirəm.
Dərd-qəmi səbrimə örükləyirəm,
Çıx get, bu günümü barı görmə sən...

Daha ümidimin sönübdü şamı,
Kim mənə qaytarar səhər-axşamı?..
Axı peşmanlıqdan bir iş aşarmı,
Gəlib xəzanımdan çələng hörmə sən.

Mən ki itirmişəm qəlb həyanımı,
Bu sevgi qaynatmaz bir də qanımı.
Dəyişə bilmərəm mən ünvanımı,
Ruhumla arama gəlib girmə sən;
Çıx get, bu günümü barı görmə sən...

## 3. QİBTƏ

Bir axşam çağı
Qəbristandan evə dönürdüm.
Havada
Baş-başa verib,

Qanad çalan
Bir cüt göyərçin gördüm...

* * *

Saçımı ağardıb illər,
Sığal çəkə-çəkə.
Düşünürəm öz-özümə,
Ağ vərəq lazımmış
həsrətə bəlkə.

* * *

Bu ayrılıqdan
Başımda şimşəklər elə çaxır ki,
Eşitmirəm öz səsimi,
öz ünümü.
Dərələr buludu sümürdüyütək,
Həsrətin sümürür ömrümü-günümü...

* * *

Nəvəmin rəsm dəftərindəki
Saralmış yarpağa baxıram,
Ətim ürpəşə-ürpəşə...
...Və sonra
İnsan ömrünün epiloqu
Torpağa baxıram...
Həsəd aparıram
Qüruba enən günəşə.
Günəş səhər yenidən doğacaq,
Ancaq...
Ancaq...
Ancaq...

* * *

Gecəyarı...
İçərimdən ərimir ki ərimir
Kədərim, qəmim...
Ağ vərəqin üstə
Yazmadığım şeirin başdaşına
dönür qələmim...

* * *

Arxanca elə yüyürtdüm ki,
Elə yordun ki,

Hələ də, hələ də tövşüyürəm mən.
Bağlanıb qəlbimin qapısı daha,
Bayırda qalmışam,
Üşüyürəm mən...

* * *

Gözümdə tapdanmış bir biçənəksən,
Təzədən gül-çiçək bitirəcəksən!?
Yoxsa bilmirsən ki, nəyə gərəksən,
Havayı yapışma əlimdən daha.

Elə sərt gətirib taleyin üzü,
Sönüb o sevdamın ocağı-közü.
Umduğun kəlməni, umduğun sözü,
Çıxara bilməzsən dilimdən daha.

Üstümə illərin qınağı çökür,
Xəyallarım indi bağ-bostan əkir.
Hisslərim haçandan quraqlıq çəkir,
Bir damcı qalmayıb selimdən daha.

Yoluna göz dikib çox dayanmışam,
Nağıl dünyasından gec oyanmışam.
Elə alışmışam, elə yanmışam,
Çınqı da tapılmaz külümdəm daha.

## BOĞULMA

İnsan boğulur bəzən,
Dənizdə, dəryada, çayda.
Ömrünə nöqtə qoyulur,
Bitir hay da, haray da...
Ən dəhşətlisi odur,
Bu həyatda
İnsan cana yığıla.
Suda deyil –
Quruda boğula!

## TƏZAD

Çayı yarıb keçsəm də mən,
Bəzən arxı keçəmmirəm.
Gecə sayıb-seçdiyimi
Bəzən gündüz seçəmmirəm.

◆Dost özü. Dost sözü

# YOL DÜSTURU

***Görkəmli qazax yazıçısı Oljas Süleymenovla Kamran Qasımovun müsahibəsi***



**– Oljas Omaroviç, bir daha salam.**

– Salam.

**– Bu, bizim ikinci görüşümüzdür.**

– Elədir.

**– İlk görüşümüz iki il bundan əvvəl Bakıda olmuşdu. Prezident İlham Əliyev tərəfindən təltif edilməyinizə görə siz yenidən Azərbaycandasınız. Bu barədə hələ danışacağıq. Amma bu verilişi biz şəxsən sizə həsr etmək istəyirik. Əlbəttə ki, ailəniz, kökləriniz... Bilirik ki, atanız repressiyaya məruz qalıb.**

– Bəli. O, Qazax Milli Polkunun komandirlərindən biri idi. O zaman hər bir respublikada milli hərbi hissələr var idi. 1936-cı ildə ilk Konstitusiyanı qəbul edəndə və Sovet İttifaqını konstitusion şəkildə elan edəndə bütün milli hərbi hissələri ləğv etdilər. Bunu onun üçün etmişdilər ki, onlar ümumi Sovet ordusuna mane olmasın. Amma necə ləğv etmişdilər? Hərfi mənada. Başa düşürsünüz, sadəcə, buraxmamışdılar. Bu hərbi hissələrin rəhbərlərini əsasən güllələdilər. Digərləri isə düşərgələrdə yoxa çıxdılar və sair bu kimi işlər. Sıraviləri qazax polkunun aullarına göndərdilər. Elə mənim atam da göndərilənlərdən biri idi. Mən isə hələ doğulmamışdım.

**– Deməli, hələ anadan olmamışdınız?**

– Bəli. Məlum olmuşdu ki, mən mayın 18-də doğulmalı idim, onu isə Türküstan Hərbi Dairəsinə çağırmışdılar. Atamı ora ezamiyyət adı ilə çağırmışdılar. Amma adətən bu cür ezamiyyətlərdən qayıtmırdılar. Aldadırdılar. Bəli, aldadaraq evdən çıxarırdılar. Bax, belə olmuşdu. Amma o, müdiriyyətindən xahiş etmişdi ki, oğlunun anadan olmasını gözləsin. Mən mayın 18-də doğuldum. Mayın 22-də isə atam yola düşdü. O, məni gördü və yola düşdü. Belə demək mümkünsə, mən onun həyatını, yaxud azad həyatını 4 gün uzatmış oldum. Sonra o, hansısa düşərgəyə düşdü və ilaxır. Bunların hamısı olmuşdu. Atam oradan qayıtmadı. Təbii ki, mən uşaq olduğumdan, bunu hiss etmirdim.

**– Bəs oxuyanda bu sizin statusunuza təsir göstərirdi? Məsələn, deyirdilər ki, bu repressiya olunmuşun oğludur. Hansısa təzyiqlər var idimi?**

– Təsir etmədi. Çünki mənim atam 1937-ci ildə deyil, ondan bir il qabaq getmişdi.

**– Repressiyalara qədər.**

– Bəli, gizli şəkildə. Hərbçilərin hamısı 1936-cı ildə həlak olmuşdu. Onları mühakimə etmirdilər. Bunu elan etmirdilər. Buna görə də uşaqlar bu ağrını yaşamırdılar. Hüquqi cəhətdən qəzəbə tuş gəlmirdilər.

**–Atasız necə yaşadınız? Necə böyüdünüz? Ananızın rolu necə idi?**

– Anam, əlbəttə ki, hər şeyi üzərinə götürdü. Bütün bu olanlardan 7 il sonra anam yenidən ərə getdi. Abdulali Karaqulov adlı istedadlı jurnalist, ogey atam həyatımıza daxil oldu. O da mənə kömək etdi. Belə demək mümkünsə, məni yazı işinə öyrətdi. Çünki o, həmişə gecəyarısı yatmağa gedirdi. Buna qədər qəzetdəki bütün yazılanları oxuyurdu. Çalışırdı ki, səhvlər getməsin. O zamanlar səhvlərə görə də çox ciddi sorğu-sual edirdilər.

**– Sizin ilk ixtisasınız geoloq olub. Siz geologiya fakültəsinə daxil olmuşdunuz.**

– Mənim ixtisasım neft və qaz yataqlarının kəşfiyyatçısıdır.

**– Nə üçün geoloq olmağa qərar vermişdiniz?**

– Çünki mən çox oxuyurdum. Çox oxuyurdum, ədəbiyyatı sevirdim. Əlbəttə ki, mən rus dilinə tərcümə edilmiş əsərləri oxuyurdum. Məktəbi bitirənə qədər, demək olar ki, bütün dünya klassikasını oxumuşdum. Bax, belə. Mən bugünkü gəncliyə də məsləhət görərdim ki, diqqətlərini mütaliəyə yönəltsinlər. Təəssüf ki, bugünkü gənclik lazımi səviyyədə oxumur.

**– Əsasən hansı əsərləri oxuyurdunuz?**

– İndi sadalamayacağam. Amma ədəbiyyatda vacib olan hər nə var idisə, Lev Tolstoydan başlayaraq, bütün Levləri və Tolstoyları oxuyurdum. İngilis, amerikan, fransız yazıçılarının əsərlərini, hətta hind klassiklərini də oxuyurdum. Artıq bizim ev kitabxanamızda "Kapital"dan başqa oxunulmamış kitab qalmamışdı. Mən, əlbəttə ki, "Kapital"ı oxumağa başladım. Hələ də bəzi yerlərini dəqiq xatırlayıram. Heç nə başa düşməsəm də, onunla artıq dil tapmışdım. Bu, oxumaq yanğısı idi. O, fikirlərin obrazını formalaşdırır, düşüncəni formalaşdırır. Hissləri tərbiyə edir və sair və ilaxır. Mütaliə təkcə intellektə deyil, eyni zamanda, ürəyə təsir göstərir.

**– Sizin yaradıcılığınıza boylandıqda görürəm ki, siz Sovet insanı olmamısınız. Hərçənd özünüz bunun əksini deyirsiniz, deputat da olmusunuz. Amma buna baxmayaraq, sizin biblioqrafiyanız tamamilə başqa şeydən danışır.**

– Mənim çox çətin tərcümeyi-halım və yaradıcılığım var. Mənim müasirlərimin hər birinin yaradıcılığı bəlkə də belədir. O, çox məzmunlu nəsil idi. Belə deyəcəyəm. Çünki... mənim o dövrdən tanıdığım insanların arasında təkcə qazaxlar, ruslar yox idi, başqa şəxsiyyətlər də vardı. O cümlədən Heydər Əliyev. Onunla mən 1975-ci ildə tanış olmuşdum. O zaman mənim "Az - Ya" kitabım çıxmışdı.

**– Yeri gəlmişkən bu barədə danışacağıq.**

– Bəli. Bakıda Sovet ədəbiyyatı günləri keçirilirdi. Mən də gəlmişdim və o, bizim hamımızı qəbul etmişdi. Amma heç demə o, kitabı oxumağa macal tapmışdı. Hərçənd onun qısa müddətdə kitabı oxuması, xəbər tutması, yaxud ona məlumat verməl追 tədsəvvür etmək çətin idi. Çünki nümayəndə heyətinin yola salınması münasibətilə verilən şam yeməyində Heydər Əliyev nitqinin sonunda mənə xitabən dedi ki, sən təkcə qazaxlara deyil, bütün türklərə lazımsan.

**– Hətta sovet dövründə belə...**

– Bəli, sovet dövründə bu cür sözlər senzuranın altında olurdu. Bəli, böyük sözlər idi.

**– Bəs necə oldu ki, Sovet İttifaqının yetirməsi birdən-birə Türk dünyasını – Türkdilli ölkələri və ümumiyyətlə, türk dünyası məkanını dərk etməyə başlayır. Axı, faktiki olaraq Sovet dövründə millət məsələsini, milliyyəti qabartmaq yasaq edilmişdi. Amma Siz birdən-birə öz əsərlərinizi təqdim edirsiniz. Sonra isə Oljas Süleymenova qarşı məhdudiyyətlər başlanır.**

– Bəli, elədir.

**– Partiya qaydasında. Bu necə başlandı?**

– Mən Moskvaya gəldim. Ədəbiyyat İnstitutuna.

**– Bu neçənci ildə olmuşdu?**

– Bu, 1958-ci ildə olmuşdu. Geologiya fakültəsini bitirdikdən sonra mən ora gəldim. Mən çox beynəlmiləl auditoriyaya düşdüm. Çox mürəkkəb auditoriya idi. Bütün respublikalardan, Gürcüstandan, Ermənistandan, Litvadan, Latviyadan, o cümlədən Azərbaycandan da qrup vardı. Buna görə deyirəm ki, çətin tərkib idi. Bu, tərcümə bölməsi idi. Deməliyəm ki, o zamanlar Sovet İttifaqı rus dilində tərcümələrə çox böyük ehtiyac duyurdu. Yəni milli ədəbiyyatlar rus dilinə tərcümə olunmalı idi. Deməli, belə bir tendensiya var idi. Bax elə o zaman gələcək tərcüməçilər qrupları yaratdılar. Bunlar yüksək təhsilli uşaqlar idi, oğlanlar və qızlar. Biz də xüsusi qrup, kasta yaratdıq. Çox zəngin, intellektual cəhətdən inkişaf etmiş uşaqlar idi. Bu qrupda olduğuma görə fəxr edirəm. Orada aparılan söhbətlər, disputlar, bütün müzakirələr hər birimizi inkişaf etdirirdi.

**– Siz Qazaxıstandan yeganə gənc yazıçı idiniz, yoxsa başqaları da vardı?**

– Biz deyəndə ki, mən idim, Mereke Maylindi, repressiyaya məruz qalmış yazıçı Maylinin oğlu. Bulat Cansuqurov, güllələnmiş şair İlyas Cansuqurovun oğlu. Bizim belə bir qrupumuz vardı. Bir də mən. Nəyə görəsə belə alınmışdı. Oxşar talelər. Orada mən hiss edirdim ki, başqa respublikalardan gəlmiş uşaqlar necə qürur hissi keçirirlər. Onlar öz ölkələri, respublikaları, xalqları haqqında danışırdılar. Onlar öz xalqlarının tarixini danışırdılar. Mən isə heç nə danışa bilmirdim. Çünki bizim, demək olar ki, tariximiz yox idi. Tarixçilərin hamısının işini bitirmişdilər. Kim bu tarixi yazmağa cəhd edirdisə, məhv edirdilər. Onda mən bununla özüm məşğul olmağa başladım.

**– Öz tarixinizi araşdırmağa başladınız.**

– Bəli. Mən öz tariximi axtarmağa, onu öyrənməyə başladım. Öz xalqımın tarixini. Yavaş-yavaş ümumi türk mövzusuna çıxdım. Mən öyrəndim ki, qazaxlar da türkdilli xalqdır.

**– Bəs sovet dövründə bu necə baş vermişdi, axı, bütün arxivləri məhv etmişdilər?!**

– Bəli, amma mən nəsə tapırdım.

**– Türküstanda böyük repressiya olmuşdu.**

– Bəli. Buna baxmayaraq, mən bütün bu mənbələri tapdım. Onlara böyük vaxt sərf etdim. Qədim türk dilini öyrənməyə başladım. Eyni zamanda, türk Orxon-Yenisey məktubunu və onunla bağlı olan hər şeyi. Bu, məni özünə çox cəlb etdi və hələ də cəlb edir. Mən bununla, demək olar ki, altmış ildir ki, məşğul oluram. Buna görə məvacib, yaxud qonorar almıram. Demək olar ki, hər gün hansısa türk, yaxud başqa sözlərdə etimologiya axtarıram. Yəni, bu, mənim maraq dairəmdir.

**– Nəyə görə sizin "Az - Ya" kitabınızı qadağan etmişdilər? Hansı problemlər vardı? Sovet hakimiyyətinin təpkisi? Axı siz artıq türk dünyası ilə məşğul olurdunuz? Bundan başqa, axı siz həm də "İqor polku haqqında dastan" haqqında qeydlər"in müəllifi idiniz.**

– Ədəbiyyat İnstitutunda mənə tapşırıq verdilər. Deyəsən, birinci kursda idi. Kurs işi yazmalı idim. "İqor polku haqqında dastan"da Şərq elementləri. Əlbəttə ki, mən dərslikdən bir neçə sətri köçürüb məqbul ala bilərdim. Amma Lenin kitabxanasına getdim. Kataloqları vərəqlədim, axtardım. Nəticədə "İqor polku haqqında dastan"la əlaqəsi olan 200-dən artıq ad tapa bildim. Məqalələr, işlər. Mən akademik Korşe Melyaranskinin işlərini öyrəndim, oxudum. İnqilaba qədər olan akademiklərdən idi. Onlar "kaşşey" sözünün mənşəyini axtarmağa çalışırdılar. Məsələn, rus kəndlərinə hücum edən "Ölməz Kaşşey". Mən gördüm ki, onlar bu sözün tərcüməsində yanılırlar. Mən Xəzər dənizinin Şərq sahilində təcrübədə olanda (bu, geoloji təcrübə idi; o zaman bizim dəstəmiz hər yeri, səhraları dolaşırdı) bizim yanımızda bir yerli qoca var idi. Əyninə xalat geyinmişdi, amma sinəsinə "Şərəf" ordeni taxmışdı. Xalatına bərkitmişdi. Təmiz, tipik sovet adamı. O, bizim dəstəmizdə çalışırdı. Günlərin bir günü mən ondan soruşdum. Soruşdum ki, siz burada çoban, yaxud kim işləmisiniz? O, cavab verdi ki, yox. Mən köşşeyəm. Mən sözün mənasını soruşdum, çünki o zaman başa düşmürdüm. Mən bu gün buradayam, sabah orada. Bir yerdə dayanmıram. Bu, türk sözü idi? Mən öyrəndim ki, bu, qədim qazax sözü olan "köşşe"dir. Bu sözün hərfi tərcüməsi "köçəri" deməkdir. Biz Azərbaycan dilində "köçəri" deyirik. Mən o zaman Lenin kitabxanasında bunu xatırladım və öz

kurs işimi yazmağa başladım. Amma həmin dövrdə mən onu təhvil verə bilmədim.

**– İcazə vermədilər?**

– Alınmadı. Niyəsini xatırlamıram. Amma o artıq məni özünə cəlb etmişdi. Mən bu kurs işi üzərində 1975-ci ilə qədər işlədim. Onda mənim "Az - Ya" kitabım nəşr edildi.

**– Sonra da qadağan etdilər?**

– Kitabı nəşr olunandan bir neçə ay sonra qadağan etdilər.

**– Oxudular, aydınlaşdırdılar?**

– Yazılanları başa düşdülər. Mən orada bəyan etmişdim ki, "İqor polku haqqında dastan"ın müəllifi ikidilli olub. O, rus dilindən başqa, türk dilini də bilirmiş. Bütün bunların hamısı isə özünü əsərin məzmununda, formasında göstərirdi.

**– Sizcə müəllif milliyyətcə kim idi? Necə düşünürsünüz?**

– Düşünürəm ki, bunun artıq əhəmiyyəti yox idi. Əsas o idi ki, müəllif ikidilli idi. Əgər müəllif... öz mətnini yazarkən türk sözlərindən istifadə etmişdisə, deməli, həmin dövrdə oxucular da ikidilli imişlər. "İqor polku haqqında dastan" XII əsrdə yazılmışdı. Bəs oxucu kimdir? O, Kiyev Rus Dövlətinin sakinidir, ola bilsin ki, tacirdir, hərbçidir, adi bir adamdır, amma şəhərlidir. Əgər o, bu poemanı oxuyurdusa, deməli, hansısa dərəcədə türk dilini bilirdi.

**– Bu əsəri ilk dəfə qadağan edən kim oldu? Kim məsələ qaldırmışdı?**

– Akademiklər. Sovet Elmlər Akademiyasının akademikləri. Bu məsələ gedib Suslova da çatdı. Suslov o zaman Mərkəzi Komitənin ideologiya üzrə katibi, Siyasi Büronun üzvü idi. Suslov o zaman Sovet İttifaqında bütün ideologiyaya kuratorluq edirdi. Təbii ki, o, bunu kəskin şəkildə müzakirə etmək barədə tapşırıq verdi. Təbii ki, bu, təkcə müzakirə deyildi, eyni zamanda, mühakimə etmək idi. Bu tapşırıq Almatıya da gəlmişdi. O zaman birinci katib Kunayev idi. Mənə böyük hörmətlə yanaşırdı. Əsl bolşeviklərdən idi. Kunayev də, Heydər Əliyev də mənim yazdıqlarımı başa düşürdülər. Suslova imkan vermədilər ki, mənim "öhdəmdən gəlsin". Kitabım qadağan olundu, bütün kitabxanalardan götürüldü. Kitab dükanlarından da götürdülər. Bu kitabı məhv edirdilər. O zaman Kunayev bu kitabı Brejnevə apardı. "Leonid İliç, oxuyun... görün burada millətçilik, pantürkizm və başqa nələrsə var?" – deyə soruşdu. 1976-cı ilin əvvəlləri idi. Brejnev o zaman az-çox özünü yaxşı hiss edirdi. Brejnev kitabı oxudu. 1976-cı ilin fevralında isə... – onun kitabı nə zaman oxuduğunu və Kunayevin... ...zəng vurduğu tarixi də dəqiq bilirəm, bu, fevralın 2-si idi. Brejnev dedi ki, kitabda narahatlıq doğuran heç nə yoxdur. "Nə millətçilik, nə pantürkizm, nə də başqa şeylər." Bu isə Qazaxıstan Kommunist Partiyasının qurultayı ərəfəsində olmuşdu. Qurultay fevralın 3-də baş tutmuşdu. Əgər Suslov o zaman... ...qalib gəlsəydi, sözsüz ki, Kunayevi bu qurultayda çıxaracaqdılar. Damğa da vuracaqdılar ki, bu cür kitabı buraxmağa razılıq... ...verdiyinə görə; guya sovet ideologiyasına zərbə vurub. O zaman Suslov kitabın müzakirəsini partiya müstəvisindən SSRİ Elmlər Akademiyası dairələrinə keçirdi. 1976-cı ilin 13 fevralında... Akademiyanın 47 üzvü – bura namizədlər, akademiklər, vitse-prezidentlər, müxbir üzvlər daxil idi. İyerarxiya pilləsi üzrə. Bundan başqa, elmlər doktorları da yığılmışdı. Sayları 47 idi. Siyahı üzrə olduqları yadımdadır. Çünki mən də siyahı üzrə həmin müzakirəyə keçmişdim. Müzakirə səhər saat 9-dan axşam saat 6-ya qədər, nahar fasiləsi olmadan davam etmişdi.

**– Yalnız bir kitaba görə?**

– Bəli, yalnız bir kitaba görə. Çox maraqlıdır. Sözsüz ki, kitabda salamat heç nə qoymadılar, hamısını dağıtdılar. Son olaraq belə bir qərar qəbul etdilər. "Qoy şeir yazsın, amma elmə girişməsin!"

**– Amma yeri gəlmişkən, sizin şeirləriniz də Sovet İttifaqının Qazaxıstanda keçirdiyi eksperimentlərə qarşı idi. Məsələn, "Vəhşi çöllər". Əlbəttə, şeirlərdə də bu var idi.**

– Bu, qaçılmaz idi.

**– Bəs reaksiyalar necə idi? Dərc edirdilər, yoxsa burada da senzor müdaxilələri olurdu?**

– Mənim Almatıda çoxlu dostlarım vardı. Əgər məni Kunayev kimi bir vəzifə sahibi dəstəkləyirdisə, naşirlər, nəşriyyat komitəsi də yazdığım hər şeyi nəşr edirdilər.

**– Həmin dövrdə Orta Asiyanın Türkdilli ölkələri arasında münasibətlər necə idi? Çünki tükdilli olduğunuzu bilirdiniz.**

– Qazaxıstandan savayı Qırğızıstan, Türkmənistan, Özbəkistan... Çox yaxşı, mehriban münasibətlər vardı.

**– Sovet İttifaqının hüdudlarında Türk dünyasını yarada bildinizmi? Yoxsa yarada bilmədiniz, ideologiya sizə mane olurdu?**

– Əlbəttə, biz bilirdik. Türkdilli xalqlar olduğumuzu bilirdik.

**– Eyni zamanda, Azərbaycan və Türkiyə.**

– Bəli, əlbəttə. Münasibətlər həmişə isti idi. Aydın məsələdir ki, qohumluq münasibətləri hökm sürürdü. O ki qaldı həmin dövrdə birləşməyə, 1990-cı ildə birləşmək cəhdi oldu. Amma bu, türklərin yox, 3 slavyan respublikasının birləşməsi cəhdi idi. Yeltsin bəyan etdi ki, Rusiya, Ukrayna və Belorusiyanı İttifaqda birləşdirmək lazımdır. Yerdə qalan müftəxorları isə, yəni qardaş respublikaları, öz iradələrinə buraxmaq lazımdır. O, belə deyirdi. Nə Qazaxıstan, nə də Azərbaycan müftəxor olmayıblar. Bəli, bəzi respublikalar dotasiyada idi. Gürcüstan, Ermənistan və başqa respublikalar dotasiyada idi. Bizim respublikalarımız isə, əhəmiyyətli dərəcədə zəngin idi, güclü istehsalımız vardı. Özünün nefti, metalı ilə Qazaxıstan Sovet İttifaqında 3-cü yerdə idi. Biz hasil edən ölkələr idik.

**– Ötən əsrin 80-ci illərinin sonlarında Sovet İttifaqının bir sıra ölkələrində, eləcə də Azərbaycanda xalq hərəkatları başlandı. Bu, Qazaxstanda necə olmuşdu və təbii ki, bu proseslərdə sizin rolunuz. 80-ci illərin sonunda. Sovet İttifaqının çökməsi fonunda millətlərarası münaqişələr.**

– 80-ci illərin sonlarında mən Moskvada idim. Mən SSRİ Ali Sovetinin üzvü idim. Aydındır ki, biz hamımız bu prosesdə iştirak etmişdik. Kimsə Sovet İttifaqının dağılmasına kömək etmişdi, kimsə onu qoruyub saxlamağa çalışmışdı.

**– Bəs sizin mövqeyiniz necə idi?**

– Mən hesab edirdim ki, SSRİ-ni saxlamaq lazımdır. Çünki süqut baha başa gəldi. Bu süqut Azərbaycana da qanı bahasına başa gəldi. Bir sıra respublikalar öz ərazilərini itirməsələr belə, yüzlərlə insan qurban getdi. Bu respublikalardan biri Tacikistandır, mən bu müharibədə olmuşam. 1992-1993-cü illərdə. Özbəkistanda da olmuşdu. Özbəkistanda qırğızlarla azacıq qarşıdurma olmuşdu. Voljski rayonunda baş vermişdi. Amma yenə də qan töküldü. İstənilən halda orada yoluna qoydular. Tacikistanda isə bu, bir neçə ay davam etdi.

**– 20 Yanvarda siz Azərbaycan xalqını dəstəkləyənlərdən biri oldunuz. Ordunun Bakıya yeridilməsinə görə Sovet İttifaqını ittiham etdiniz.**

– Buna qədər mən Xalq Deputatları Sovetinin tribunasından çıxış etmişdim. Günlərin bir günü Ermənistana, baş vermiş zəlzələ ilə bağlı gedən təyyarəyə görə çıxış etmişdim. Dispetçer onu qayaya istiqamətləndirmişdi. Zəlzələdən əziyyət çəkən ermənilərə yardıma gedən gənc əsgərlər həmin təyyarədə həlak oldular. O zaman mən bu mövzu üzrə çıxış etdim. Vəziyyəti aydınlaşdırmağa çağırdım. Yanvarın 20-də isə mənə zəng vurdular. Mən mehmanxanada idim, yatmışdım. Gecə saat 3-də Bakıdan bir nəfər mənə zəng vurdu və bu barədə məlumat verdi. Gəlməyimi xahiş etdi. Mənim isə 38-39 dərəcə hərarətim vardı. Əgər desəydim ki, xəstəyəm, o, səhv başa düşə bilərdi. Bunu başa düşürəm. Bu səbəbdən ayağa qalxdım və hava limanına getdim.

**– Sonra da Bakıya uçdunuz.**

– Bəli.

**– Bakını necə xatırlayırsınız? Hərbi dövr, komendant saatı. Sizin üçün hansısa məhdudiyyətlər var idi?**

– Mən yarımhərbi təyyarədə gəlmişdim. Bəli, vəsiqəm mənə bu imkanı verirdi. Bakıya çatdım. Sözsüz ki, orada məndən savayı başqa sərnişinlər də vardı. Təyyarə adəti üzrə aerodromda dayanmalı olduğu yerdən kənarda dayandı. Nərdivan verildi, biz aşağı düşdük. Nərdivandan tuta-tuta düşürdük. Mən həyətə, daha sonra hava limanının binasına daxil oldum. Bina yola düşənlərlə dolu idi. Yəqin ki, onlar ermənilər idilər. İynə atsan, yerə düşməzdi. Şəhərdə heç bir nəqliyyat işləmirdi.

**– Siz yəqin ki, hakimiyyət nümayəndələri ilə görüşdünüz.**

– Mən bir hərbi maşın tutdum, xahiş etdim ki, metroya qədər aparsın. Gəlib metroya çatdım, içəri girdim. Metronun hər tərəfi bomboş idi. Qatarlar dəqiq saat mexanizmi ilə işləyirdi, bütün dayanacaqlar mexaniki şəkildə elan olunurdu. Amma bir nəfər belə gözə dəymirdi.

**– Təkcə siz idiniz?**

– Bəli. Pəncərələrin arxasından yalnız qara lentləri görürdüm. Bu, yadımdadır. Lazımi stansiyaya çatanda "İnturist" mehmanxanasını xatırladım. "İnturist"ə çatdım. Şüşə qapıdan məni görüb qapını açdılar. Tanımışdılar, çünki televiziya ilə tez-tez çıxış edirdim. Mehmanxanada yaşlı kişi – səhv etmirəmsə, qarovulçu idi – və qadınlar vardı, başqa heç kim yox idi. Məni nömrəyə apardılar. Nədənsə, məni liftlə 11-ci mərtəbəyə qaldırdılar. Niyə yuxarı mərtəbə olduğunu soruşdum, aşağı mərtəbə istədim. Dedilər ki, olmaz, Oljas bəy. Burada hələ də atəş açırlar. On birinci mərtəbədə mənə geniş lüks otaq verdilər. Döşəməyə atılmış bir neçə gülləni və güllələbaran edilmiş pəncərələri göstərdilər. Hətta on birinci mərtəbəyə də çatmışdı.

**– Bəs sizin hissləriniz necə idi? Qorxu, ya nifrət?**

– Nə qorxu, nə də nifrət vardı. Çünki xəstə idim.

**– Amma hər halda siz vəziyyəti gördünüz.**

– O ərəfədə yaşadığım hissləri indi xatırlamıram. Amma elə həmin gecə mənim yanıma adamlar gəlməyə başladılar. Bakıda olduğumdan xəbər tutmuşdular. Hətta həmin gecə Elçibəy də gəlmişdi. O, gizlənirdi, çünki həbs edəcəkdilər. Xalq Cəbhəsinin hərbi qolunun rəhbəri artıq həbs edilmişdi. Baxmayaraq ki, gecə yatmamışdım, səhər Mərkəzi Komitəyə getdim. Bu günlərdə məni həmin binada ordenlə təltif etdilər. Bəli, Prezident İlham Əliyev tərəfindən. Həmin binada. Mən ora gəldim. Primakov o zaman Nazirlər Sovetinin

sədri idi və məxsusi olaraq bu hadisələrə görə Bakıya gəlmişdi. Bir də müdafiə naziri Yazov orada idi. Onlar məni öz kabinetlərində qəbul etdilər. Biz onunla bir həftədən sonra sərnişin təyyarəsində yox, xüsusi təyyarə ilə Bakıdan yola düşdük.

**– Bəs gördüklərinizi orada necə yaymağa başladınız?**

– Mən Ali Sovetin iclasında çıxış etdim. Gördüklərimi danışdım. Mən əzilmiş maşınları görmüşdüm. Şəhidlər xiyabanında birinci məzarlar meydana gəldi. Mən çıxışımda dedim ki, bu artıq faşizmin təzahürüdür.

**– Müasir dünyada Türk dünyasının rolunu necə görürsünüz?**

– Bu bir fəlsəfədir və bu barədə öncəki müsahibəmizdə danışmışdıq. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan... Qərb və Şərqə bölünmüş müasir dünyada biz necə inkişaf etməliyik? Nəzərə alaq ki, Türk dünyasının bir neçə konkret strukturu fəaliyyət göstərir. Biz xalqlarımızın gələcəyinin özünütəsdiq düsturunun yollarını göstərməliyik. Hansı düsturdan söhbət gedir? 1979-cu ildə mən Asiya və Afrika Ölkələri Yazıçılarının Konfransında bu düsturu irəli sürdüm. Müstəqillik uğrunda mübarizə bizim yolumuzun yekun məqsədi olmamalıdır. Müstəqillik əldə etmiş, yaxud bəxşiş olaraq onlara verilmiş Asiya və Afrika ölkələrində mən olmuşam. Bu proseslərə qədər də olmuşdum, orada hələ koloniyalar hökm sürürdü. Daha sonra həmin koloniyaların nəyə çevrildiyinin şahidi oldum. Beş, on, on beş ildən sonra. Viranəlik, millətlərarası, xüsusilə qəbilələrarası münaqişələr... Bəli, xüsusilə Afrikada. Əlbəttə, Afrikada, elə Asiyada da kifayət qədər çox idi. Buna görə də mən dedim ki, müstəqilliyi hərəkatın sonuncu məqsədi elan etmək milli-azadlıq hərəkatı rəhbərlərinin səhvidir. Mən yol düsturu təklif etdim.

**– Deməli, təklif etdiniz.**

– Bəli. Asılılıq əsrlərini arxada qoyub, müstəqillik dövründən keçərək, dərkedilən qarşılıqlı asılılıq dövrünə qədəm qoymaq. Yeri gəlmişkən, çox məntiqlidir. Amma mütləq dərkedilən qarışılıqlı asılılıq olmalıdır. Bax, o zaman sülh bərqərar olacaq. Buna görə slavyan dövlətləri ilə bir ittifaqa daxil olmaq mütləq deyil. Eləcə də türkdilli dövlətlərin bir ittifaqa daxil olmağı bura aid edirəm. Qarşılıqlı asılılıq hissi özü hər şeydən xəbər verir. Bu isə artıq həqiqi azadlığı, sakitliyi, eləcə də iqtisadi, siyasi, mədəni və digər sahələrdəki inkişafı ifadə edir.

**– Siz hətta nə vaxtsa Qazaxıstan rəhbərliyini monomillətçiliyə görə ittiham etmisiniz. Nəyə görə?**

– Monomillətli ölkəni yaratmağa bizim bəzi savadsız siyasətçilərimiz başlamışdı, mən buna qarşı idim.

**– Sizcə, monomillətli ölkənin mahiyyəti nədən ibarətdir?**

– Bizim bəzi siyasətçilərimiz Qazaxıstanı birdilli ölkəyə çevirmək istəyirdilər. Axı Qazaxıstanda çoxlu millətlər, çoxlu xalqlar, dillər var. Bir də baxıb görürsən ki, hamı eyni dildə danışan süni qazağa çevrilib.

**– Yeri gəlmişkən, siz bütün əsərlərinizi rus dilində yazmısınız.**

– Bəli, mən rus dilində yazıram.

**– Bu sizə problem yaratmır ki, Sovet İttifaqı dağılandan sonra da siz rusca yazmaqda davam edirsiniz.**

– Bəli, əlbəttə. Əlbəttə, mən düşünürəm ki, hər kəs bacardığı tərzdə özünü ifadə etməlidir. Yaxud ifadə olunmaq istəyini göstərməlidir. Bu həm də yaranmış vəziyyətdən asılıdır.

**– Necə bilirsiniz, biz Türkdilli ölkələrin ümumi əlifbasını yarada bilərikmi? Mən heç dili demirəm, əlifbanı nəzərdə tuturam. Biz**

**Türk dünyasının tanınmış simaları ilə, məsələn, Bağdad Amereyevlə bu barədə danışmışıq. O da bu məsələnin üzərində işlədiklərini bildirib. Bəs yaradıcı, konseptual baxımından siz buna necə münasibət bəsləyirsiniz? Biz Türkiyədən başlayaraq Özbəkistana, Türkmənistana, Qazaxıstana qədər ümumi əlifba yarada bilərikmi?**

– Bəli, yarada bilərik. Əlbəttə, mümkündür. Amma bununla belə, əhalimizin başqa bir hissəsinin malik olduğu əlifbanı unutmaq düzgün olmaz. Bizdə latın əlifbasına keçməklə və bununla da kiril əlifbasını silməklə bağlı çıxışlar olanda mən buna qarşı çıxdım. Kiril əlifbasını necə silmək olar? Axı, onun sayəsində qazaxlar bədii ədəbiyyat yaratmağa müvəffəq oldular. Biz ilk dəfə yazıçı olduq. Bu, fikirlərimizi folklorla ifadə etmək deyildi. Abay Qazaxıstanın ilk yazıçısıdır, XIX əsrdə doğulub. XX əsrdə dünyasını dəyişib. O, əlbəttə ki, ərəb hərfləri ilə yazmağa başlamışdı. Bizim ziyalıların hamısı ərəb əlifbası ilə yazırdı. XX əsrdə böyük, həqiqi Qazax ədəbiyyatı qələmə alındı. Kiril əlifbası ilə. Amma Qazaxıstan latın əlifbasına keçidlə bağlı qərar qəbul edib. Bəli, bu olub. Bu, bir qədər səhv idi. Hansı mənada? Mən demişdim ki... latın əlifbasını bilmək lazımdır, amma kiril əlifbasını da unutmaq olmaz. O zaman bizim respublikada əmin-amanlıq və sakitlik olacaq. Baxıb görərik, yazı forması tədricən qələbə qazanacaq. Amma dərhal yox, bir günə mümkün deyil. Buna qadağa qoydum, o birini başladım. XX əsrdə biz bu qadağalardan əziyyət çəkmişik. Xalis qadağalar. Mənim atam belə bu qadağalardan əziyyət çəkib. Bizim milyonlarla ata-babamız bunlardan əziyyət çəkib. Heç olmazsa tarix bizi ehtiyatlı olmağa öyrətsin. Bizə birbaşa asılılıq yox, qarşılıqlı asılılıq lazımdır.

**– Bu gün Türk dünyasının Qərblə münasibətlərini necə qiymətləndirirsiniz? Qərbdə bu gün baş verənlər və Türk dünyasının rolu.**

– Bu, müharibəyə gətirib çıxaran siyasətin davam etməsidir. Bu münasibət, öz növbəsində, Qərbin Şərqə olan siyasətidir. Eləcə də Şərqin Qərbə olan siyasətidir. Qarşılıqlı asılılıq, qarşılıqlı yaradıcılıq, qarşılıqlı fəaliyyət olarsa, deməli, qarşılıqlı həyat da olacaq. Bu zaman planetdə sülh və əmin-amanlıq bərqərar olacaq. Söhbət regiondan yox, artıq planetdən gedir. Bax, siz ermənilərlə döyüşmüsünüz. Ermənilər öz övladlarını, nəvələrini türklərə qarşı nifrətlə böyüdürlər. Mən bunu hiss etmişəm. Anarla mən SSRİ Yazıçılar İttifaqının sonuncu qurultayında iştirak edəndə məni hesablama komissiyasının sədri seçdilər. Hamı artıq səs vermişdi. Yazıçılar İttifaqı İdarə Heyətinin üzvləri seçilmişdi. Anar da hesablama komissiyasının tərkibində idi. Bütün bu bülletenlər paylanmışdı. Kimin kimə səs verməsi hesablanırdı. Anar məni çağırıb erməni bülletenini göstərdi. Mən də baxdım. Axı, bülletendə soyad yazılmayıb. Anar dedi ki, görürsən? Bütün müsəlman soyadlarının üzərindən xətt çəkilib. Dedim, belə şeylər olur, bəlkə təsadüfən ediblər? Sonra düz 20-yə yaxın belə bülleten tapdıq. Bu qurultayda olan erməni millətinin nümayəndələrinin sayına əsasən.

**– Azərbaycanın Qarabağdakı böyük qələbəsini necə qiymətləndirirsiniz?**

– Torpaqların qayıtması. Mən bunu həssaslıqla qiymətləndirirəm. Mən bu hadisələrə çox şad və qürurluyam. Həqiqətən, 30 il hamımız narahatlıq keçirirdik.

**– Türk dünyasının bir parçasına görə.**

– Bəli. Qardaş xalqın işğala məruz qalmış doğma torpağı. Bütün dünya isə, bunu sadəcə müşahidə edir. Eləcə də Minsk Qrupu – Amerika Birləşmiş Ştat-

ları, Rusiya və Fransanın hörmətli nümayəndələri – susurdular. Otuz il ərzində onlar bunun öhdəsindən gələ bilmədilər. Hərçənd başa düşürdülər ki, bu, istiladır, işğaldır. Bu anlayışlara qarşı isə artıq çoxdan bəri hər kəsin qəlbində əks hisslər var. Öhdəsindən gələ bilmədilər. Bax, elə o zaman İlham Əliyev bu problemi 44 günə həll etdi. 30 il ərzində həll edilə bilməyən məsələnin öhdəsindən gəldi. Bəlkə də həll etmək istəmirdilər. Mən Rusiyanın da mövqeyindən çox razıyam. Açıq-aşkaranə olmasa da, Azərbaycan ordusuna əməliyyatlarda mane olmadı. Sülhməramlı qüvvələrin gəlməsi zərurətinə qədər hadisələrə qarışmadı. Bunu da qiymətləndirmək lazımdır. Çünki Rusiya da bunun doğru olmadığını bilirdi. Torpaqların işğal altında qalmasını düzgün hesab etmirdi. Onu qaytarmaq lazımdır. Onlar bunu deyə bilmədilər. Amma əməldə dedilər. Hər kəs də bunu başa düşdü. Elə bir insan tanımıram ki, Azərbaycan xüsusi təyinatlılarının... Şuşanı azad etməsi barədə qürurla danışmasın. Çünki hamı başa düşürdü. Təkcə azərbaycanlılar deyil, ünsiyyətdə olduğum hər kəs, ruslar, fransızlar, amerikalılar, bir sözlə, hamı başa düşürdü ki, bu, haqq işidir. Yüksəkdən deyə bilməsələr də, razılaşmışdılar.

**– Sonuncu sualım Prezident İlham Əliyevlə görüşünüz barədədir. O, Sizə mükafatı şəxsən təqdim etdi. Azərbaycana gəlişinizin də məqsədi elə bununla bağlı idi. Hansı hissləri keçirdiniz?**

– Hisslər aydındır, mən çox şad və narahat idim. Mükafatlandırma mərasimi, adətən, 1-2 dəqiqə çəkir. Biz bunu bilirik. Mən İlham Heydər oğlunun kabinetində, demək olar ki, bir saat qalmalı oldum. Bəli, düz bir saat. Biz hər şeydən danışdıq. Əlbəttə ki, əsasən, bu hadisələrin mənə təsir etməsindən danışdıq. Bu Qələbənin Prezidentdə necə əks olunduğunu görəndə çox sevindim. Bilirəm ki, pandemiyanın ağır şəraitinə baxmayaraq, bütün xalqın əhval-ruhiyyəsi yüksəlib. Bu ağır şəraitə hətta bu gün Türkiyəyə, Rusiyaya, Yunanıstana və başqa ölkələrə aid olan qlobal istiləşməni də qeyd etmək istəyirəm. Bütün bunlara rəğmən, bu qələbəyə görə Azərbaycan xalqının əhval-ruhiyyəsi son dərəcə yüksəkdir. Prezidentin əhval-ruhiyyəsi də başqa cür idi. Mən ilk dəfə idi ki, onu belə görürdüm. Baxışlarında, kəlmələrində güc hiss olunurdu. Daxilində ruh yüksəkliyi vardı. Mən ona dedim ki, maliyyə baxımından bu gün bəlkə də ölkə üçün vəziyyət çətinləşib. Əlbəttə, Qarabağın azad edilməsi büdcə üçün böyük yüklənmədir. Amma hətta bu da xalqın əhval-ruhiyyəsini aşağı salmır. Xalq bununla razıdır. Bəli. Amma o məşhur Qarabağı, doğma Qarabağı bərpa etmək çox zəruridir. Əlbəttə, bunu hamı başa düşür. Buna görə də Prezidentə Şuşaya getmək istəyimi bildirdim. O Şuşaya ki, artıq Türk dünyasının mədəniyyət paytaxtına çevrilir. Əgər vaxt olarsa, gedəcəyəm. O, mənə Qarabağın azad edilməyə qədərki və azad edildikdən sonrakı dövrü haqqında kitab bağışladı. Avto qraf da verdi. Bunu mən ondan xahiş etdim, dedim ki, mən yazıçıyam, avtoqrafsız olmaz. Dedim ki, siz bu kitabın, bu hadisələrin müəllifisiniz, ona görə də avtoqraf xahiş edirəm. İlham Əliyev də lazımi sözləri yazdı. Bax beləcə, görüş bitdi.

**– Oljas Omaroviç, belə səmimi müsahibəyə görə Sizə minnətdaram. Biz Sizin həyatınızdan, köklərinizdən başladıq, Azərbaycanla, Qarabağla bitirdik. Çünki Qarabağ da Türk dünyasının ayrılmaz hissəsidir, eləcə də Sizin torpağınızdır. Yəni Siz öz torpağınızdasınız.**

– Mən öz təşəkkürümü bildirirəm. Allah amanında.

*Müsahibə Real TV-yə verilib.*



*Zabil PƏRVİZ*

**SONUNCU DAĞ**

Dayan, sonuncu dağ,
sən də yıxılma,
Yıxılma dərələr səmtinə belə.
Sənin də beləcə səssiz yıxılman,
Axır ki, ruhumu gətirdi dilə.

Axır ki, səni də sarsıtdı sellər,
Bir də üzün gülməz, gülün açılmaz.
Dağ oğlu dağ idin,
ötüşər illər,
Dinmək istəyərsən, dilin açılmaz.

Yel vurur, yengələr oynadır səni,
Apardığın nədir, gətirdiyin nə?
Qopur ləçək-ləçək gülün, gülşənin,
Xəbərin də yoxdur itirdiyindən.

Əgər belə getsə, tozun da qalmaz,
Gözün baxa-baxa yatmısan, ayıl.
Dərəyə güvənən dağdan dağ olmaz,
Bir də görəcəksən batmısan, ayıl.

Hardasa bir quşun yaşıl oylağı,
Bir quru səhranın sevinci sənsən.

Hansı bulağınsa nəğmə qaynağı,
Hansı qayanınsa güvənci sənsən.

Bəlkə də sonuncu söykənəcəksən...
Dağ belə könüllü, səssiz yıxılmaz.
Öyrən yıxılmağı ulu Kəpəzdən,
Səssiz yıxılandan Göy göl doğulmaz.

Sənin titrəyişin, sənin yıxılman,
Axır ki, ruhumu gətirdi dilə.
Dayan, sonuncu dağ,
səssiz yıxılma,
Yıxılma dərələr səmtinə belə.

## VADİ

Bu vadiyə su yaraşmaz,
Kəsin suyun qabağını.
Qoy yalasın quru yellər
Cadar-cadar dodağını.

Qoy alışsın həsrətilə
Yazda selin, qışda qarın.
Sızıldasın arxasınca
Axıb gedən buludların.

Su verməyin ağlasa da,
Gözlərinin yaşı yansın.
Başdan-başa daşa dönsə,
Dil çıxarıb daşı yansın.

Su verməyin!
Sinəsində
Qaratikan kökləri var.
Bir-birindən ayırmağa
Əsli-Kərəm soraqlayar.

Öz gülünə sancılası
Öz tikanı bağrında ox.
Tüstüləri istisindən,
Əyriləri düzündən çox...

## GÖZÜN BAĞLANMASIN...

Dünyada təmizlik qalıbdır, vallah,
Arılar, böcəklər təmiz yaşayır.

Sayrışan ulduzlar, əsən küləklər,
Açılan çiçəklər təmiz yaşayır.

Təmizlik qalıbdır hələ dünyada,
Baharda göyərən yaşıl ot kimi.
Tərtəmiz buludlar baş alıb gedir
Tərtəmiz göylərdə köhlən at kimi.

Təmizdir göylərin gümüş sevgisi –
Çöllərə səpilən yağışlar təmiz.
“Suda ayağını yuyan qarğılar”,
Küləkdə daranan qamışlar təmiz.

Dünyada təmizlik qalıbdır hələ,
Qalıb bulaqların büllur səsində.
Qalıb zər qanadlı kəpənəklərin
Qızıl güllər üstə titrəməsində...

Qışda gecələrin qaranlığına
Nur saçan, zər tökən, yağan qar təmiz.
Uzaq əsrlərin daş yaddaşından
Süzülən, durulan muğamlar təmiz.

Ürək qamaşdıran, göz qamaşdıran
Şehli çiçəklərdə şeh təmiz qalıb.
Hələ yazılmamış şeirimiz qalıb,
Hələ oxunmamış nəğməmiz qalıb.

Aç öz ürəyini təmizliklərə,
Yuyulsun könlünün qərəzi, pası.
Dünyada təmizlik qalıbdır, vallah,
Gözün bağlanmasın, zalım balası!

## BAKI-TƏBRİZ TƏYYARƏSİ

Xəyaldımı, nurdumu bu,
Sehrdimi, sirdimi bu,
Yuxumuza girdimi bu, –
Bakı-Təbriz təyyarəsi!

Ayrılığın sonu varmış,
Gün gəlib o gün olarmış,
Bu yuxu da çin olarmış, –
Bakı-Təbriz təyyarəsi!

Nələr çəkdik, görün nələr,
Hardasınız, fədailər?
Açılır siz deyən səhər –
Bakı-Təbriz təyyarəsi!

Uzun çəkdi gecə, uzun,
Üzü gülsün ruhunuzun.
Qalxın, deyin: "Uğur olsun,
Bakı-Təbriz təyyarəsi!"

Alqış böyük Süleymana,
Baxdı zamandan zamana
Uçur limandan-limana
Bakı-Təbriz təyyarəsi!

Mirzə dedi: "Gələcək gün!"
Heykəl yapaq biz onunçün.
Küskün ruhunu güldürsün
Bakı-Təbriz təyyarəsi!

Rəsul Rza, böyük ustad,
Dərd dağ oldu, sən də Fərhad.
Dur təzə bir dastan yarat:
"Bakı-Təbriz təyyarəsi!"

Xəbər verin Şəhriyara,
Xəbər verin Bəxtiyara,
Baş aldı üzü bahara
Bakı-Təbriz təyyarəsi!

Əli Tudə, Azəroğlu,
Qismətiniz kədər oldu.
Gülgünün də günü doğdu, –
Bakı-Təbriz təyyarəsi!

Məmməd Araz, Xəlil Rza,
Alışdınız yaza-yaza.
Baxın uçan arzunuza, –
Bakı-Təbriz təyyarəsi!

Gözün aydın, Söhrab Tahir,
Zaman deyir kimdir dahi.
Yarıb keçdi zülmətgahı
Bakı-Təbriz təyyarəsi!

Sökülür həsrətin bağrı,
Səma aydın, yolun doğru.
Şığı Böyük Günə doğru,
Bakı-Təbriz təyyarəsi!

## ŞUŞAYA TƏYİNAT

Nolaydı, bir ömür gec doğulaydım,
Yanaydım yaşaya-yaşaya, Allah!..
Təzə bitirəydim ali məktəbi,
Təyinat alaydım Şuşaya, Allah!..

Odunla qızınan bir dağ məktəbi,
Qəlbimin odunu verərdim ona.
Gedib dərs deyərdim yalın at minən
Bir dəstə dəlisov türk yavrusuna.

Doğrayıb tökərdim kədəri, qəmi,
Qənim kəsilərdim amana, aha.
Şeir toplayardım Cıdır düzündən,
Təqdim eləyərdim Molla Pənaha.

Minnətçi düşməzdim Qara keşişə,
Əsilsiz Əsliyə uymazdım heç vaxt.
Bir dəfə çöllərdə Məcnun olmuşam,
Bu dəfə dağlarda olardım Fərhad.

Adlayıb quş kimi Qırxpilləkəndən,
Daşlarından öpən nəsim olardım.
Sellərə birinci qucaq açmağa
Sonuncu pilləkən özüm olardım.

Xan qızı bulağı açıb deyərdi
Hansı xandan gəlir onun xan soyu.
Hansı xəzinədən süzülüb gəlir
Büllur bulaqların brilyant suyu.

Düşmənin bağrını qana döndərən
Bağrıqan dağından atla keçərdim.
Qırxqız yaylağında düşüb tilsimə
Qırx qızdan birini sevib seçərdim.

Ən uca zirvəyə qonardı könlüm,
Gedib qartallara qardaş olardım.
İsa bulağından bircə piyalə
Doldurub, içməmiş sərxoş olardım.

Qızıl qönçələrin dan söküləndə
Qızıl kirpiyində yaşa dönərdim.
Daşaltı çayına daş atmaq nədir,
Durub sahilində daşa dönərdim.

Sitayiş edərdim xarı bülbülə,
Tarixə düşərdi bu təzə ayin.
Tolstoysayağı dəli olardım,
Durub yaradardım tərtəzə bir din.

Xarıbülbülpərəst!..
                                        Müqəddəs şəhər!..
Mənim azad Şuşam!.. Daha nə dərdim,
Başımda Cabbarın "Mənsuriyyə"si,
Qalxıb alov-alov ləpələnərdim.

Nolaydı, bir ömür gec doğulaydım,
Yanaydım yaşaya-yaşaya, Allah!..
Təzə bitirəydim ali məktəbi,
Təyinat alaydım Şuşaya, Allah!..

## SEHRLİ ÇIRAQ

Nəğmə ona deyərəm ki,
Məni uzaqdan çağıra.
Dodaqdan qəlbə girməmiş
Qəlbi dodaqdan çağıra.

Tutub ruhun biləyindən,
Deyə keçmə belə gündən.
Qönçəni öz bələyindən,
Gülü budaqdan çağıra.

Könül nələr umar ondan,
Ayılmaram xumarından.
Suyu daşın damarından,
Odu ocaqdan çağıra.

Bu od "Gülüstani-İrəm",
Bir girmişəm, bir də girəm.
Ürək soldadır, bilirəm,
Çaşdırıb sağdan çağıra.

Səsini zildən eləyə,
Yolçunu yoldan eləyə,

Məcnunu çöldən eləyə,
Fərhadı dağdan çağıra.

Eşqinə batım, bayılım,
Nə yatım, nə də ayılım.
İşvəni nazdan ayırıb,
Teli buxaqdan çağıra.

Düşəm könüllü tilsimə,
Deyə bilməyəm heç kimə:
– Göz yaşı düşüb bəxtimə...
Yaşı yanaqdan çağıra.

Bu bəxtin keçəm üstündən,
Bu oddan içəm üstündən,
Pərvanəni şəm üstündən,
Bülbülü bağdan çağıra.

Bu sevdaya bir də dönsəm,
Deyə, aşiq, yenə sənsən?
Sən də köhnə Ələddinsən,
Sehri çıraqdan çağıran...

Harda qurursa məclisi,
Əlindədir piyaləsi, –
Axtarıb Zabil Pərvizi
Kefdən-damaqdan çağıra!..

## YAZILMAMIŞ NƏĞMƏNİN ARZUSU

Yay günü yandırar məni bir ocaq,
Qış günü dondurar bir sazaq məni, –
İlahi, bəs məni kim oxuyacaq,
Kim qələm götürüb yazacaq məni?

Qoşulub sərsəri, dəli yellərə,
Çöllərə düşürəm hər gün, hər axşam.
Kim açıb deyəcək bu könüllərə
Məni yazmayıblar, səssiz qalmışam?

Gecə ulduzlara qoşuluram mən,
Gündüz çiçəklərə... Görmürlər məni.
Nə vaxt tapılacaq məni dindirən,
Niyə könüllərə hörmürlər məni?

Mən də bəstələnmək istərəm, Allah,
Belə bir bəxt ilə barışım niyə?
Lap elə yabanı çöl çiçəyiyəm,
Kollara-koslara qarışım niyə?

Məni pıçıldayır ləpədöyənlər,
Qulaq asanım yox, eşidənim yox.
İlahidən dolu bir piyaləyəm,
Saqisinə şükür!.. Nuş edənim yox.

Bütün fəsilləri görüb gəlmişəm,
Könlünü könlümə verən olmayıb.
Açılan güllərin, solan güllərin
Gözünün yaşıyam, görən olmayıb.

Baharda həsrətlə gözləmişəm mən
Köçəri quşların gəlmələrini.
Qış günü bəxtəvər çöl qazlarının
Üşümək bilməyən nəğmələrini.

Nolaydı, bir yaşıl qələm əlində
Mən də bir nəğməyə, sözə dönəydim.
Bir ipək tellinin, qələm qaşlının
Qönçə dodağında ləpələnəydim...

Mənim də yazanım olaydı, Allah,
Eşidələr məni, biləlılər varam.
Bütün könüllərə onun adını
Qızılla yazaram, zərlə yazaram.

Duymadı, yazmadı naşılar məni,
Zəri zərgərə ver... Gedək, əzizim, –
Hələ o qapını payız döyməyib,
Döyək qapısını Zabil Pərvizin...

***Neftçala***



*Ayaz ARABAÇI*

## YADINDADIRMI?

Alma çiçəkləri yadındadımı,
Çiynınə əyilən budaqlar necə?
Başını söykəyib daş balınclara,
Hönkürüb ağlayan bulaqlar necə?

Necəydi aldığın birinci məktub,
Yadına düşürmü o hekayələr?
Nədən danışırdı şehli güllərin
Çiçəyi üstəki qızıl ayələr?

Ürəyin əvvəlki odundadımı?
Alma çiçəkləri yadındadımı?
O uzaq aprelin,o uzaq mayın,
Ayaz gecələri yadındadımı?
O yaz gecələri yadındadımı?

Gözlərin alışan iki şam kimi
Oynardı ruhumun hər civəsində.
Qoşa şəklimizi çəkib bulaqdan,
Asardıq göylərin çərçivəsindən.

Sular şirin-şirin gümüldəyərdi...
Əllərin uşaqtək inildəyərdi.
Dinərdin dilində bal pətəkləri,
Yatmağa qoymazdıq donundakı o
Yalançı-doğruçu kəpənəkləri...

Qalıb, yox, yadında qalıbdı əlbət...
Adam o günlərdən ayrıla bilmir,
Ana söyüşütək ağırdı həsrət.
Bəzən elə olur, elə olur ki,
Birillik xatirə bir günə yetmir.
Deyirdin siqaret çəkəndə öpmə,
Üstümdən on günə iyisi getmir...

Payızdan bahara qatar gözləyən,
Keçmiş əhvalatlar yadındadımı?
Qaloşu palçıqlı, önlüyü kirli,
O sözbaz arvadlar yadındadımı?

Alma çiçəkləri yadındadımı,
Çiynınə əyilən budaqlar necə?
Başını söykəyib daş balınclara,
Hönkürüb ağlayan bulaqlar necə?

* * *

Səndən danışıram hər kimi görsəm,
Qəlbimi min yerdən dağlı buraxdın.
Özün də ayrılıb kor kimi getdin,
Məni də gözləri bağlı buraxdın..

Bircə qış yaşadıq, bircə yaz oldu,
Yanıldıq hesabda, ömrü az oldu,
Bu eşqin şərabı doyulmaz oldu,
O qədər içdin ki, ağlı buraxdın.

Könlümdə heç kimin mehri-zad olmaz.
Göz yaşım Misirin nəhri-zad olmaz.
Səndən bilirdim ki, Şəhrizad olmaz,
Elə düz elədin nağlı buraxdın.

Çox sona sənəcən uçdu gölümdən,
Filmin ibarətmiş bircə bölümdən.
Qayıtmaz bu dəfə ruhum ölümdən,
Sən, sənə bağlanmış bağrı buraxdın...

Fikrimi apardın, yuxumu qatdın,
Ay kimi doğuldun, Gün kimi batdın.
Könlümü top kimi oynadıb atdın,
Yerində bir ovuc ağrı buraxdın...

Qəmlidi şəklinin payız fonları,
Sil mənim ömrümdən bir-bir onları,
At kimi kişnətdim telefonları,
Min dənə cavabsız çağrı buraxdın.

* * *

Kəpənəktək qəlbimdəki bu eşqin
Çiçəyindən toz götürüb gedərsən,
Birdən qəfil çərxi dönər taleyin,
Fürsət tapıb tez götürüb gedərsən.

Ürəyimi həsrətinlə qəmləyim,
Göz yaşımı nəfəsində dəmləyim,
Son sözümü bir şeirdə cəmləyim,
Lap azca da döz, götürüb gedərsən.

Kimlər kimin, nələr nəyin olacaq,
Kimə, nəyə hansı rəyin olacaq.
Məndən sonra çox gərəyin olacaq,
Ürəyimdən köz götürüb gedərsən.

Aydı-gündü, ovçu ovsuz olmur ha,
Həyatdı da, çaxmaq qovsuz olmur ha,
Gediş-gəliş sözsüz-sovsuz olmur ha,
Ondan-bundan söz götürüb gedərsən.

Yanım-yanım, bir çimdiklik qor qalım,
Göy çəmənli bir mənzildə yor, qalım.
Səndən sonra kimə baxsam kor qalım,
Məndən bir cüt göz götürüb gedərsən.

* * *

Qanadım yoxdu ki, bu dərdin üstən
Bir dəfə quş kimi səkim, qurtarsın.
Sənin həsrətini harda azdırım,
Başımdan hayanda əkim, qurtarsın.

Etmə hər yetənə ətəklik məni,
Elə bal eşqinə pətəklik məni,
Öldürüb qurtardı bu təklik məni,
Mən necə eləyim təkim qurtarsın.

Yazığın gəlmirmi Allaha, mənə,
Çox baha oturdun, çox baha mənə.

Deyirsən üz tutma sən daha mənə,
Məni bu ağrıdan bə kim qurtarsın.

Uğradım qədərim-qəzam nədisə,
Yaşadım dərd-vərəm, cüzam, nədisə,
Kəs mənə biryolluq cəzam nədisə,
Mən də adam kimi çəkim, qurtarsın...

Tutulmuş gözümə zövqü-səfa ver,
Son sözü yenə də gəl, insafa ver,
Mənə əllərinlə özün şəfa ver,
Qoyma bu yaranı həkim qurtarsın.

* * *

Dəyişməyib yenə də eyni yol, eyni şəhər,
Burulanda döngəni görüşürük hər səhər.
Boğazımda göynəyir, düyünlənib qəm-qəhər,
İçim çilik-çilikdi, qəlbim qırıq-qırıqdı,
Bu necə ayrılıqdı…

Gözlərini qapayıb ilan dilli oyuqlar,
Gülüşünü havada öpür qaratoyuqlar,
Yoxa çıxıb gözündən öldürücü soyuqlar,
Yerişlərin həlimdi, baxışların ılıqdı.
Bu necə ayrılıqdı.

Burax getsin başını o mənfur darıxmağın,
"Nəyini özləmişsin"mənim kimi axmağın,
Sağ çiyninin üstündən dönüb-dönüb baxmağın,
Bir növ ümidsizliyə təsəllidi, qılıqdı,
Bu necə ayrılıqdı.

Düzdü, o gündən bura yarası qaysaqlamır,
Ürəyim qabaqkıtək sinəmdə sarsaqlamır.
Ayrılıb gedən adam heç nəyi sirr saxlamır...
Heç kimə deməmisən xətrin məndən qalıqdı,
Bu necə ayrılıqdı.

Lap özünü yerə döy, sözün dönmür xəncərə,
Heç iki gün keçməmiş yazırsan messencerə,
İşığınla doludu balaca bir pəncərə,
Hər gecəm ulduzçuluq, hər gecəm ayçılıqdı.
Bu necə ayrılıqdı.

Bu şeirin hər misrası təzəmi-tərmi olsun,
Son görüş olmadı ha, son sözün mərmi olsun...
Elə gərək arada bəzi şeylərmi olsun...
Ortada iki ruh var – bir sudu, bir balıqdı...
Bu necə ayrılıqdı.

* * *

Görünsə də uzaqdan sözünü yemək kimi,
Mən əslində geriyə, marağa çəkilmişəm…
Ya sənə verən Allah, ya mənə verən Allah,
Daha mən də bu gündən yarağa çəkilmişəm.

Getməz ucuz bazarda o qiymətə baha can,
Dəmir çarıq geyin gəl, sinəmdəki ahacan.
Sənə necə anladım gecələr sabahacan,
Saçlarına dönmüşəm, darağa çəkilmişəm.

Ayrılıq, həsrət, filan… nə qəliz ifadədir,
Yaşamaqmı… bu dərdin formulu çox sadədir.
İndi bütün dünyanın mənası bu badədir,
Meyə qucaq açmışam, arağa çəkilmişəm.

Bir az başım açılsın, bir tapılaq, beş itək,
Təpikləndim min dəfə inqilabçı nəşitək.
Məlumun olsun ki, mən bu aralar vəhşitək
Qələmə sarılmışam, varağa çəkilmişəm.

Dəryadan bir at çıxdı, yoxdu bu ata tay at,
Məndən səndə nə qalsa, məndən geriyə say, at.
Bundan artıq nə cəza verəsidi ki, həyat,
Hər adamı ölmüşəm, hər ağa çəkilmişəm…

## ♦ Esse

*PƏRVİN*

# QARABAĞI VƏRƏQLƏMƏK



Gözümüzü açıb dünyanı azca hiss edəndən Qarabağ sözünü ağrı, əzab, itki ilə qavramışıq. Böyüklərin dərin təəssüf və iztirab dolu söhbətlərində bəzən ümidi, bəzən də ümidsizliyi duymaq çətin olmayıb. O yerlərin havasından, suyundan, səfasından, gözəlliyindən qorxa-qorxa danışıblar. Oraları görə bilmədiyimiz üçün, sulardan içib bal havanı ciyərlərimizə çəkmək imkanımız olmadığına görə utanıblar da qarşımızda. Ona görə hərdən heç üstünü vurmayıblar. Ki bizdən daha şanslı imişlər. İnsan psixologiyasının bir qanunauyğunluğu var; həmişə övladının səndən daha yaxşı yaşamasını, daha xoşbəxt, daha rahat ömür sürməsini istəyirsən. Hə, illərdir ki, böyüklərimizin qarşımızda bir əskik işi vardı. Çünki bilirdilər – Qarabağdan «daha yaxşı, daha rahat, daha xoşbəxt» ola bilməz... Bu gözəllikdən məhrum olmağımız, gözümüzə batan tikanlı məftillər çox ağrıdıb onları, bilirəm. İtkidən, iztirabdan doğulanlar daha güclü imişlər. Onların Qarabağsız ölmək vahiməsindən müqəddəs yerləri həqiqi sahiblərinə qaytaran, düşmənin başını əzib yerini göstərən nəsil yetişdi. Və anladıq ki, insana xas ən murdar cəhət unutqanlıqdı, vecsizlik, biganəlikdi. Biz Qarabağı unutmadığımız üçün, ona bir an belə biganə qalmadığımıza görə Vətən müharibəsində qalib olduq. 44 günə sığan Zəfər mübarizəsinin düşüncədə müharibə, şüurlarda mücadilə mərhələsi də var. Bəli, 44 günün arxasında 30 illik fikir savaşı durur. Axı, sevgi hər şeydən əvvəl düşüncədi; fikrindən çıxmayanı sevirsən, ağlını tərk etməyən qəlbinin də hakimidir deməli. Biz bu illərdə bir an ara vermədik Qarabağ sevgimizə... Amma gənc nəslin yaşadığı bir acı reallıq da Qarabağı dağıdılmış, viran qoyulmuş kadrlarla tanımağıdı. Qarabağ savaşı və tarixi ədalətsizliklər haqda yazılmış əsərlər, çəkilmiş filmlər, hər il adamın ürəyini parçalayan sənədli kadrlar və itkilərimizin statistikasının efirdən çatdırılması çox mühümdü. Xüsusən yeni gələn nəsillərin həqiqətləri bilməsi, dəqiq dərk etməsi və elə Vətən müharibəsinə hazır olması üçün həyati əhəmiyyəti vardı. Amma hər dəfə viran Qarabağı kadrlardan görəndə içimizdə dəhşətli bir ehtiyac da üsyan qaldırıb. Bəs hanı o dinc, azad, gözəl Qarabağ?! Dünya cənnətə dönsə, yaddan çıxmayan, dili-dodağı tar-kaman olan, nəğməyə, dastana, ən təsirli eşq hekayəsinə dönmüş o yurd hardadı?! Ora əlimiz çatmırsa, ünümüz yetmirsə, barı filmlərdən, bədii əsərlərdən görmək, tanımaq imkanımız olsun. Elə bu ehtiyacla

Qarabağı ifadə edən bir yaşıl yarpaq, bircə çiçək, bir uşaq gülüşü, gəlin-qız yaşmağı, at belində kişi, əlçatmaz dağ, yorğan-döşəyə meydan oxuyan çəmənlik, beyni sığallayan musiqi, fikri arındıran söz üçün ürəyimiz gedib.

2012-ci ildə Astanada (indiki Nursultan şəhəri) Anar müəllimə «Türk dünyasında ilin ədəbiyyat adamı» mükafatı təqdim olunurdu. Türk dünyasının müxtəlif yerlərindən gələn söz adamları yazıçıyla söhbətlər edir, sualların ünvanlayırdılar. Yadımdadı, Lev Qumilyov adına Pedaqoji Universitetdə keçirilən tədbirdən sonra mən də fürsətdən istifadə edib «Üzeyir ömrü» filmi haqqında soruşdum. Etiraf edim ki, məni filmin çəkiliş tarixçəsi daha çox maraqlandırırdı; Rəsul Rza və Nigar Rəfibəylini yüz günün içərisində itirən oğul o yas, matəm günlərində Şuşada film çəkirmiş. Həftənin cümə axşamları Bakıya yas mərasimlərinə gəlib sonra yenidən Şuşaya qayıdırmış. Məhz bu filmin sayəsində Azərbaycan tamaşaçısı Üzeyir bəy dühasını hərtərəfli anlaya, görə bildi... Bəlkə yaşıma uyğun uşaqsayağı maraqla Anar müəllimin gözlənilməz bir etiraf edəcəyini, valideyn itkisindən doğan ağrısını filmə necəsə köçürməsindən danışacağını gözləyirdim. Amma o, filmdən, dəhşətli itkilərindən yox, Şuşadan və şuşalılardan dedi. Dedi ki, film çəkilişi, Şuşa və şuşalılar olmasaydı, o ağır günləri yaşaya bilməzdi. Şuşanın əsrarəngiz təbiəti, insanlarının həssaslığı, qonaqpərvərliyi, sənət qoxan ab-havası itkiləri ovutmağa yardımçı olub. Qarlı, bumbuz Astanada Anar müəllim – yenə yaxşı ki, o film çəkilib, Şuşa o kadrlarda qalıb – dedi. Və bu sözlərdən Şuşa nisgilinin ən dərin qatlarını duymaq çətin deyildi.

Həqiqətən, filmdə Üzeyir bəy və Şuşa bir tamın, bütövün paralarıdı. «Leyli və Məcnun» kimi bənzərsiz sənət nümunəsi, Bülbülün ariyaları, Bəhram Mansurovun tarda ifası, Qədir Rüstəmovun Azan kimi sədası, «Qarabağ bülbülləri»nin ilikləri tərpədən səsi, Xan qızı Natəvanın övlad itkisindən doğan kədərli misraları Şuşanın əsrarəngiz təbiəti ilə, Allahın Şuşaya səxavəti ilə iç-içədir... Və bunlara baxanda, dinləyəndə xoşbəxtliyin varlığına inanır adam. Anarın rejissor kimi uğurlu tapıntılarından o qədər danışmaq olar ki... Amma indi Şuşa həsrətimiz sona çatdığı üçün ayrı cür izləyirəm filmi. Üzeyir bəyin Peterburqda suya baxıb Şuşanı, qarda açılmış cığırla gedən qocanı xatırlamasını elə yaxşı başa düşürəm ki! Elm, sənət, mədəniyyət paytaxtı Peterburqda Şuşadan ötrü qəribsəmə, həm də müəllifin bu nisgili Üzeyir bəyə yaraşdırması çox dəqiqdi... Qəribə bir tənhalıq yağır bu kadrdan. Adama elə gəlir ki, Üzeyir bəy bu izahsız, heç bir təhlilə gəlməyən düşüncələriylə birgə fərqlidi, qeyri-adidi, Şuşadı!

Xankəndidən Şuşaya gedəndə yeddi qat dolamanı keçəndən sonra yolun sağ əlində Ərimgəldi yerləşir. Bir vaxt yaz aylarında xankəndili bəylər faytonla Aran Qarabağa gedərmişlər. Bəylərin xanımları da bu qayanın ətrafına yığışar, istirahət edər, ərlərinin yolunu gözləyərdilər. Elə ki tanış atlını görərdilər, əri qaraltısından tanıyan gəlin bərkdən: «Ərim gəldi, ərim gəldi» – deyərdi. Qarabağ xanlığı dönəmində burda qala tikilib və əvvəllər Çanaqqala adlanan qala getdikcə Ərimgəldi adını alıb... «Üzeyir ömrü» filmində «Leyli və Məcnun» operasından qızların xorunu dinləyə-dinləyə gəlinlərin həmin qaladan bulaq başına enməsini izləyirik...

***Bu gələn yara bənzər,***
***Telləri qara bənzər.***
***Ay qız, ay qız, bir bəri bax!***
***Qoşa xallar üzündə...***

Sanki bu sözlər, musiqi, qızların «sallana-sallana» enişi elə bu yerlər üçün yazılıb. Filmin də üstün cəhəti Şuşanın mədəniyyət paytaxtı, konservatoriya,

söz-sənət ocağı olmasını Üzeyir ömrü nümunəsində, içərisində göstərməsidi. Və bu gün məhz elə «Üzeyir ömrü» sayəsində qazandığımız qələbəni hər cəhəti ilə dərk edirik... Azad olan sadəcə torpaq deyil, yurd deyil, həm də o torpaqda bitəndi, ordan boy göstərən sözdü, sənətdi, musiqidi, Üzeyirdi.

Amma nə yazıq ki, azad olunan Qarabağımızı bizə yerlə-yeksan qaytarıblar. Daşı daş üstə qoymayıblar, tarixi, mədəniyyəti, yurdlarımızı, təbiətimizi talan ediblər. Tez bir zamanda Qarabağın dünyanın cənnət guşəsinə çevriləcəyinə şübhə yoxdu. Bununla belə elə qələbə ovqatında o dinc Qarabağı duymaq, hiss etmək, oxumaq keçir adamın könlündən. Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəli şah» komediyası çatır dadımıza. Bu, Mirzə Fətəlinin ən məşhur əsəridir. Əsasında ekranlaşdırılmış «Dərviş Parisi partladır» filmi Mərdəkan dendrarisində çəkildiyi üçün Qarabağın necəliyini elə mətn əsasında hiss etməyə çalışıram.

Axundzadə komediyalarında Azərbaycanın müxtəlif bölgələrini – Nuxa, Təbriz, Sərab, Ağcabədi və s. məkan olaraq seçir. Və burda niyyət ümumxalq narahatlığını, problemlərini fərqli yerlərə paylaşdıraraq diqqət cəlb etməkdi. Nuxalı öz yerlilərinə baxanda, ya da qarabağlı el arasında tanınan adamları səhnədən görəndə, onlara güləndə özü haqqında da düşünəcək şübhəsiz; gerçək sənət vasitəsiylə maarifçilik də elə budur məncə... Etiraf edim ki, indi fransızların inqilab edib hakimiyyəti dəyişəndə bizim arvadların cadu-piti ilə məşğul olması, bu gün də müasir ad qazanmış xurafatın – ekstrasensliyin ekranlardan təbliğatı haqqında danışmaq həvəsində deyiləm... Belə, yaxşı edib çağırmışıq dərvişi, Parisi də əcəb edib dağıtmışıq... Nədi Şahbaz gedib Firəngistanda üzüaçıq qızlarla şənlənməli, Şərəfnisə də burda gözünün yaşın tökməliydi?! Oyy, deyəsən, zəfər havası başımı gicəlləndirib və belə yozumları da elə ləzzətlə dilə gətirirəm ki. Vallah qınamayın, mən həmin dövr maarifçilərimizin oxumağın vacibliyini minbir üsulla çatdırmağa çalışmasını başa düşürəm. Mirzə Fətəlinin Parisə oxumağa gedə bilməyən Şahbazı, Nəcəf bəy Vəzirovun Fəxrəddininin, Mirzə Cəlilin İskəndərinin sələfidi... Oxumağa gedə bilməyən Şahbazın dərdi birdisə, oxuyub gəlib dilbilməzlər arasında yaşamağa məhkum olan Fəxrəddinin, İskəndərin bəlası rəqəmlərə sığmaz... Amma mən indi Qarabağı oxumaq, anlamaq istəyirəm. Çünki məhz «Müsyo Jordan....»da Qarabağ ayrıca xarakter olaraq qələmə alınıb. Özü də dahimiz Mirzə Fətəlinin ustalığı sayəsində qısa dialoqlar, bir cümləlik fikirlərlə...

«Əvvəlinci məclis Qarabağ vilayətində min iki yüz altmış üçüncü ildə yazın əvvəlində, novruz bayramından bir gün keçmiş Təklə-Muğanlının qışlağında vaqe olur».

Deməli, əsər başlayan kimi müəllif deyir, yerini rahat elə, Qarabağdan danışacam. Və burda qarabağlıların xasiyyətindən tutmuş təbiətinin qeyri-adiliyinə kimi hər şey var...

Misal üçün, elə əvvəldə Şəhrəbanu xanım gözünün yaşını töküb Şahbazın gedəcəyindən danışan qızını sakitləşdirir öz aləmində: «Necə adaxlım kimdir? Bəs əmin oğlu Şahbaz bəy kimin adaxlısıdır? Atan iyirmi gündən sonra allah qoysa sizə bir toy edəcəkdir ki, tərifi tamam Qarabağda söylənəcək. İsrağagün aşnası zərdablı Qurban bəyə kağız yazırdı ki, Şamaxı çəngilərinin vədəsini alsın, toya göndərsin».

Təkcə bu məqamda bir tərəfdən zəngin həyata alışmış Qarabağ qadınlarının dəbdəbə sevdalısı olması, digər tərəfdən də burda keçirilən toyların koloriti duyulur. Amma əsərdə zamanın təsdiq etdiyi başqa mətləblər də var. Müsyo Jordanın Şahbazı tovlamağını eşidəndə Şəhrəbanu xanım öz-özünə deyinir: «Bu firənglər necə naşükür xalq olurmuşlar. Heç yaxşılıq bilməzmişlər.

Mən ağılsız, genə tarının hər günü nahara müsyö Jordana qaymaq gərək, yağ gərək, axşama plov gərək, bozartma gərək ki, gedib öz ölkəsində deməsin ki, Qarabağda hörmət eləmək bilmirlər. Di gəl bundan sonra xalqa yaxşılıq elə! Tamam yaxşılığım bada çıxdı getdi».

Bu sözlər son vaxtların olaylarını xatırlatdı lap... İllərlə beynəlxalq tədbirlər, konfranslar keçirib ən gözəl qarşıladığımız, yedizdirib-içizdirib ən bahalı otellərdə, göz üstündə saxladığımız əcnəbilər bəzən gedib ölkəmiz haqda yalan da uydurub yazdılar, bədnam qonşuya da yarındılar. Firənglərin də Qarabağ hadisələrində mövqeyi və davranışı şərhə gəlmir... Elə düz deyirmiş Şəhrəbanu xanım!

Amma Hatəmxan ağa da haqlıdır ki – bizdə hər nə adət və xasiyyət var isə, əksi Paris əhlindədir... Ürəklə yaşayan bizlərdən ötrü merkantil firəngləri anlamaq heç vaxt sadə olmayıb. Amma Mirzə Fətəli məhz Parisli Müsyo Jordanın diliylə Qarabağın avropalıları heyran qoyan təbii zənginliyini çatdırır:

«Qarabağa gəlməsəydim (əlini uzadıb cibindən bir dəftər çıxarıb, açıb içində səliqə ilə düzülmüş bir neçə otları göstərib), əgər mən Qarabağa gəlməsəydim, kim biləcəkdi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? Bundan əvvəl bizim ətibba və hükəmalarımız cənab Linney və Turnefort və Bartram belə güman etmişlər ki, bu nəbatat ancaq Alp dağlarında və Amerikada və Afrikada və Şveysariya dağlarında mövcud olur. Amma indi mən buraya gəlmək səbəbi ilə Parisin darülelminə isbat edəcəyəm ki, məzkur hükəmalar bilkülliyə səhv ediblər».

Beləliklə, Mirzə Fətəli qəhrəmanlarının sayəsində Qarabağın bütün sahələrdə öndə olduğunu, hər mənada ucalığını görürük. Hətta yalançı, şarlatan dərvişin də sözlərində Qarabağ həqiqəti var:

«Məgər eşitməmisiniz ki, bir neçə şəyatinə əmr etmişəm ki, həmişə Şişə qalasında üsuli və şeyxi mollalarının arasında fitnə və fəsad salıb heç vaxt onları dinc qoymasınlar! Ondan ötrü ki, onlar minbərə çıxıb aşkara xalqa vəz edirmişlər ki, cadukunə və sairə inanmayın».

Bəli, Şərq xurafatın, riyakar mollaların fitnə-fəsadının içərisində itib-batanda Şuşada minbərdən maarifçilik söhbəti aparılırmış. Bunu təkcə dərviş yox, həm də Yusif Vəzir Çəmənzəminli yazır: «Bundan 35 il əvvəl Şuşa mədəni sahədə birinci sırada gedən şəhərlərdən biri idi. İqtisadi bazası zəif, ticarəti get-gedə azalan əhali çıxış yolunu məktəbdə aramağa başlamışdı. Ən mütəəssübü belə, övladını rus məktəblərinə göndərməkdən çəkinmirdi. O zaman Şuşada realni və şəhər məktəbi vardı. Bir az sonra rus-tatar məktəbi də açıldı. Buradakı tələbələrdən başqa, Bakı məktəblərində, paytaxt ali məktəblərində (Qafqazda ali məktəb yox idi), Qori və Yerevan seminariyalarında da şuşalılar var idi. Yay aylarında başqa yerlərdəki tələbə və kənd müəllimləri (o vaxt türklər orta məktəblərdə müəllimlik etmək haqqına malik deyildilər) Şuşada toplanır, şəhərə mədəni bir həyat gətirirdilər: teatr tamaşası verilir, müsamirə düzəldilir, leksiyalar oxunurdu. Bunların hamısında da Əbdürrəhim bəy Haqverdiyev başçılıq etmədə idi».

Haqverdiyevin Şuşasına keçməzdən əvvəl bir faktı da qeyd edim ki, Hacı Zeynalabdin Tağıyev Bakıda Qızlar məktəbi açanda bütün bölgələrdən, elə şəhərin özündən də ailələr mövcud qapalı mühitdə qızlarını oxutmaq istəmirdilər. Məktəbin statistikasına görə bu məktəbə ən çox təhsil almağa gələnlər şuşalı qızlardı... Bu mənada Qarabağ, Şuşa elə əlavə bəzək-düzəksiz, xüsusi deyim forması axtarmadan da Tarixdi, Sənətdi, Ədəbiyyatdı... Yenə Çəmənzəminlinin fikirləri sözümüzə qüvvət olsun:

«Bizim ədiblər də əsərlərində həqiqi simalardan istifadə etmişlər və bəzən adlarını belə dəyişməmişlər. Mirzə Fətəli, deyirlər, Hacı Qaraya doğrudan rast

gəlmiş və adını dəyişməyə hacət görməmişdir. Yenə eyni müəllifin çullu həkimi. Bu adam da Qarabağda məşhur imiş. Nəcəf bəyin "Qıdı kirvəsi" Daşaltı kəndindəndir, çocuqluğumda adını Şuşada çox eşitmişəm. Əbdürrəhim bəyin ağıçı Mələyi də həqiqi simadır. Ağıçı Mələk Qarabağ təziyələrində məşhur bir qadın idi. Ağı deyərkən özü də ağlardı, ağlamaqdan kiprikləri tökülmüşdü. 1911-ci ildə bu qadına Aşqabadda rast gəldim. Xalq ədəbiyyatını gözəl bildiyi üçün bir gün onu bacımgilə qonaq çağırdım. Gəldi, lakin qələmi əlimdə görər-görməz duruxdu və bir söz demədi: "Adım "Molla Nəsrəddin"ə düşər" deyə çəkindi. Dediklərini nə məqsədlə yazacağımı anlamaq istəmirdi.

Əbdürrəhim bəyin "Haqq Mövcud"u da həqiqi simadır. Bu adamın əsl adı Molla Qurban idi. Lakin camaat arasında "Haqq Mövcud" adı ilə məşhur idi. Onun doğrudan da nüsxəbənd Məşədi Əkbərlə məsələsi olmuşdur. Lakin Əbdürrəhim bəyin hekayəsində söylədiyi kimi deyil. Əbdürrəhim bəy əslini yazsaydı, daha maraqlı və bədii olardı».

Yusif Vəzirin yol xəritəsiylə Haqverdiyevin yazdığı gerçək, həqiqi Qarabağı səyahət etmək fikrinə düşdüm. Elə sadəcə cəhənnəmə vasil olmaq üçün Tiflisdən Qarabağa yol alan «xortdan»ın marşrutu ilə getmək bəs elədi... Deməli, «Xortdanın cəhənnəm məktubları»nda Əbdürrəhim bəyin Xortdan adı verdiyi mifik qəhrəman cəhənnəmə getmək üçün Qarabağa varıb ordan xüsusi eliksir almaq istəyir. Ümumiyyətlə, o zamanlar Qarabağda müxtəlif kimyəvi təcrübələr aparıb nələrsə əldə etmək ənənəsi varmış. Ona görə təkcə dirilik suyunun yox, cəhənnəm eliksirinin burda axtarılması yazıçının sarkazmını göstərir... Və bu yol boyu Xortdanın bütün dayanacaqları Qarabağı bir yöndən, tərəfdən açır qarşımızda. Tiflisdən faytona minən qəhrəman deyir ki, «Beş saatdan sonra “Bərdə bazarına” varid oldum. Çox gözəl bazardır. Yolun o tay-bu tayına dükanlar düzülmüş və hər birində bir nəfər mömin qardaş əyləşmiş. Hamısı əhli-iman, Allah bəndəsi, özgənin bir quruşuna xəyanət eləməyən. Süd əvəzinə su, yağ yerinə piy satmayan. Akulə düyüsünə Tərtər düyüsündən aşqar vurmayan. Doşab кüpələrində siçanlar oynamayan, yalandan atalarının ərvahına and içib, malı üçqat artıq qiymətə satmayan adamlardır».

Doğrusu, yazıçının bu yerdə ironiya etməsini, ya ciddi danışmasını müəyyən etmək çətindi. Elə əsl qarabağlılara xas cəhətdi ki, hansı yerdə zarafat etdiklərin tutmaq hər adamın işi deyil. Amma hər halda, bölgəyə aid kolorit, hətta qaynayan bazarın ab-havasını görmək olur. Müəllif bu yerlərin mətbəxinin də gözəlliyini xüsusi qeyd edir və hətta gürcülərin kulinariya bostanına daş atır: «Mənə çox dadlı bir çığırtma verdilər, yedim. Həqiqət o ləzzətdə çığırtmanı mən Tiflisdə də yeməmişdim. Tiflisdə gedərsən restorana, çığırtmanın adını çexoxbili qoyub gətirib verirlər adama. Nə yağı var, nə dadı, nə də duzu. Bir manat yarım da adamdan alırlar. Bu kişi məndən bir manat aldı, amma çığırtması dəyərdi iki manata. Sonra eşitdim ki, Qarabağda bir cür quş var, adına sağsağan deyirlər. Bu çığırtma onun ətindəndir».

Əsər təkcə belə baməzə məqamları ilə deyil, həm də etnoqrafik məlumat verməsi ilə dəyərlidi. Elə povestdə keçən yer adlarını sadalasaq, böyük bir xəritə yaranmış olar: Şuşa, Bərdə, Köçərli, Qərvənd, Nəzirbəyli, Qarqar, Xocalı, Turşsu, Əsgəran, Ağdam... Və bu yerlərdən keçən, bəzilərində əyləyən qəhrəman günümüzlə səsləşən, adamda şirin bir təbəssüm yaradan maraqlı detallara da diqqət çəkir. Misal üçün, Vətən müharibəsi dönəmində, itkilərimizlə, şəhid verməmdən doğan dərin kədərimizlə, gözlənti və həyəcanlarımızla bərabər, həm də çoxlu yumoristik folklor nümunələri yarandı. Ağdamın azadlığı ərəfəsində rayonun döyüşsüz alınması sevincini bir az da ağdamlıların zirəngliyi ilə, xarakteri ilə bağlayıb xoş zarafatlar edənlər vardı. Bir sözlə, ütük,

zirəng ağdamlılar elə qarabağlıların özlərinin də şux yumorunun obyekti olub. Və görünür, Əbdürrəhim bəy Ağdam bazarından danışanda burda hərlənən dəlləyin hərəkətlərini nahaq yerə qabartmır: «Meydanda bir nəfər dəllək mənim diqqətimi cəlb elədi. Bu adamın nə başında, nə sifətində dərman üçün bir tük yox idi. Boyu azından bir sajen. Dedilər: bu, məşhur usta Quludur. Bazarda dolanır, elə ki gördü kəndlinin biri daş üstündə əyləşib, xəlvətcə daldan gedib, qəfildən onun papağını götürüb, başını islatmağa başlar. Kəndlinin qışqırtısı heç bir fayda verməz. Güclə başını qırxıb, bir şahı pulunu alıb əldən qoyacaq».

Bu səhnənin özü o qədər sevgiylə yazılıb ki, insanın üzündə təbəssüm yaranır, deyirsən kaş o bazar olaydı, ətrafında da belə qəribə yerlilər dolaşaydı. Həm də bəlkə o ab-hava olsa, o adamlar da yenə yetişəcək. Və xoş olan odur ki, Xortdan sadəcə belə sadə, gülməli adamları yox, həm də Qarabağın elitasını təsvirə gətirir...

«Hətta Gəncədə belə danışırdılar ki, iki nəfər erməni azançının səsindən mütəəssir olub, islamı qəbul ediblər. Mirzə bu sözü eşitcək, ucadan bir salavat çevirib dedi: – Doğru buyurursunuz. Qarabağ xanəndə mədənidir. Buradan neçə nəfər adlı xanəndələr çıxıbdır. Məsələn, Hacı Hüsü, Məşədi İsi, Həsəncə, Qaryağdı oğlu və sairələri. Gözəl səs sahibi cavanlarımız yenə var. Ancaq dərd budur ki, cavanlarımızda islam ruhu qalmayıb».

Cavanlarımızda islam ruhu qalmayıb – deməklə, əslində, söhbət dindən yox, xurafatdan gedir. Bir də belə suyu, havası, torpağı, təbiəti, insanları olan yerlərin öz dini, öz imanı varmış bəlkə...

«Ətrafı səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbitək ipək. Bu şəhərin ömrü bir elə uzun deyilsə də, tarixi bir şəhərdir. Buraya adlı xanlar, bəylər, hətta şahzadələr gəlib-gedirlər. Burada padşah başı kəsilib, təpiklərdə paymal olub. Abu-havasının şairəliyi əhalisinin təbiətinə də sirayət etdiyi üçün, o şəhər məşhur şairlərin, ədiblərin, musiqişünasların, xanəndələrin mədəni olmuşdur. May ayının birindən sentyabrın ortasınadək şəhər şənlik və abad olur. Yaylağa gələnlər, dağlara mal və qoyunlarla şəhərin altından gedib və qayıdan köçərilər bu az müddətdə şəhəri bir qaynar qazana döndərirlər. Elə ki payız gəldi və şəhər təzədən çadırşəbini başına çəkdi, şəhərin ovqatı tamamən dəyişilir. Tərəddüd azalır, ticarət kəsilir, camaat bikarlayıb özünə məşğuliyyət axtarır».

Xortdanı Şuşaya çatar-çatmaz tərk elədim, onun cəhənnəm eliksirini necə alması və oralara necə varması tamam ayrı yöndən təhlilə gəlir. Amma indi niyyətim Qarabağı hələlik sözlə də olsa, gəzməkdi. Haqverdiyev «Uca dağ başında» – deyə bir yerə nişan verirsə, bura mütləq ki, Şuşadı... Yuxarıda gətirdiyim nümunə də elə əsərin başlanğıcından harda olduğumuzu kəsdirməyimizdən ötrü hazırlıqdı... Deyir – burda padşah başı kəsiblərmiş. Qacardan danışır. Yusif Səmədoğlunun «Qətl günü» romanında yazdığı bu hadisəni elə həmin əsərin sayəsində tarixi ədalət kimi qavramışam... Qacarlar buraların adamlarına çox zülümlər ediblər. Amma Yusif Səmədoğlu əsərində deyir ki, Baba Kahadan əsən külək Qacarı xəbərdar eləməyə, ayıltmağa çalışsa da, o, buna heç bir əhəmiyyət vermədi. Hakimiyyətin əbədi olduğunu düşünən hər kəsin bəlası budu. Bir də tarix göstərdi ki, Şuşaya çirkab yapışmır. Və elə Yusif Səmədoğlu da Baba kahanın havasını həqiqətin səsi kimi vurur Qacarın üzünə, ölümünə yaxın onun ayağını ağırlaşdırır. Qacarın hərəkət edə bilməməsi günahlarının ağırlığına işarədi əslində...

Bəli, tarixin də, ədəbiyyatın da dediyi kimi, padşah başı pamal olub bu yerlərdə. Və tarixən qəliz mübarizələr məskəni olan buraların adamlarının baməzəliyi, dəli oynatması qəribədi. Adama elə gəlir bütün bu bəlalardan keçən

adamlar qaradinməz olmalı idilər. Hər halda, təbiətin dirəniş qanunu, insanın özünümüdafiə instinkti burda öz işini görür. Şuşa, Qarabağ və yurdun adamları özünəməxsusluqlarını itirmirlər. Ona görə də Haqverdiyev deyir ki, burda cavan qələm sahiblərinin müşahidə etməsi, yazması üçün çoxlu tiplər var. Biri elə Qubuş... Üzüm suyundan bala-bala vurur və dünya vecinə deyil. Qazı da onu düz yola gətirmək istəyəndə deyir ki:

«– Qazı ağa, mən bu üzümü yeyə bilərəmmi?

– Əlbəttə, yeyə bilərsən!

Qubuş üzümün suyunu stəkana sıxıb yenə soruşur:

– Qazı ağa, mən bu üzümün suyunu içə bilərəmmi?

– Çox gözəl içə bilərsən!

– İndi içməyib, saxlayıb üç aydan sonra içəcəyəm».

Cavanşirlər nəslinin kişi kimi qadını, Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanım xatirələrində yazırdı ki, «Ölülər» qəhrəmanı İskəndər onun atası Əhməd bəyin qohumu idi, qarabağlı idi, öz çəkdiyi şərablardan gündə içdiyi üçün xalq belə ayama qoymuşdu ona...

Ümumiyyətlə, bu xatirələrdən və elə həyatın özü qədər gerçək olan bədii əsərlərdən anladığım odu ki, Qarabağ başdan-başa sənət əsəri imiş. Və yazılanlar tarixi, tarix də yazılanları təsdiq edəndə, tamamlayanda bu tezisin doğruluğuna zərrə qədər şübhə qalmır.

Bir il öncə Gəncə haqda hekayə yazmaq üçün şəhəri gəzib material toplayırdım, soraqlaşanda elə Avara bağında oturan yaşlı bir adamı nişan vermişdilər ki, bu, Gəncə ensiklopediyasıdı. Mən onu sözə tutub Gəncəni ifadə edən rəvayətlər danışmasını xahiş etmişdim. Uzun söhbətimizdən yadımda qalan bir neçə gülməli əhvalat da var. Biri də odu ki, inqilabdan əvvəl Gəncə bəylərindən biri Peterburqa gedir... O zaman üçün bu, dünya səyahəti səviyyəsində iş imiş. Qayıdanlar başlarına gələnləri uzun-uzadı, fəxrlə danışarmışlar. Bəylər sözü bir yerə qoyurlar ki, səyahətçi dostu danışmağa qoymasınlar. O, hər dəfə olduqları yerə gələndə bir-bir durub aradan çıxır, ağzını açmağa imkan vermirlər. Axırı, bəy vəziyyəti başa düşür və dostlarının gizlin toplaşdığı yerə girib şoşkanı çıxarır və deyir: Biriniz də tərpənmirsiz, yoxsa vuraram... Deməli, mən Peterburqdan gəlmişəm...

Haqverdiyev oxşar əhvalatı Qazaxdan «diliboz» atı gətirib sözü ürəyində qalan, qəhrəmanlığından danışa bilməyən Əsgər haqqında yazır... Və mən bunu oxuduqca miflərin xalqdan gəldiyinə, amma bunları mütləq kimlərinsə qələmə almasının vacibliyinə əmin oluram. Ona görə artıq söylədiyim kimi, bəzən bədii mətnlər tarix kitablarından daha böyük informasiya verir.

İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» əsəri həm də bu cəhətdən əhəmiyyətlidir... Məhz 80-ci illərdə bu cür əsərlərin yaranması siyasi xarakter daşıyırdı, sosial mesaj ötürürdü. Qarabağa diş qıcıyanlara təkcə tribunlardan, qəzet səhifələrindən yox, həm də belə bədii mətnlərlə cavab verirdi Sənət. Görünür, Rəsul Rzanın eyni ildə «Şuşam mənim» şeirini yazması təsadüfi deyildi:

***Pənahların yadigarı,***
***Alagözlü,***
***qarasaçlılar diyarı***
***Səndə Cabbarın, Seyidin,***
***Nəvvabın, Üzeyirin, Bülbülün,***
***neçə-neçə nəğməkarın,***
***qoç igidin***
***nəğməsi var,***
***nərəsi var.***
***Könüllərdə***
***neçə-neçə mahnıların***
***zümzüməsi,***
***sözü qalıb,***
***Sənin doğma torpağında***
***neçələrin gözü qalıb.***

Şeirlə bu boyda tarixi informasiyanı vermək, Şuşanı Pənahəli xanın salmasını, azərbaycanlı-türk yurdu olmasını müxtəlif adlar çəkərək söyləmək sadə məsələ deyildi. Və görünən odur ki, şair-yazıçılarımız bu məsələyə heç vaxt biganə qala bilməzdilər. «Geriyə baxma, qoca» bu günün ovqatında oxunanda başa düşürəm ki, müəllif sadəcə ömrün qürubunda öz-özünə «baxma» deyə-deyə keçmişinə, xatirələrinə boylanmır, həm də Qarabağın bizə aidliyini, məxsusluğunu təsdiqləyir. Bir də dediyim kimi, zamanın təsdiq etdiyi, bəlkə öz qarşımızda sübuta yetirdiyi doğruları göstərir. Misal üçün, «Səkinə ilə Mahal Murovunun əhvalatı»nda Səkinə şikəst olmuş Gülməmmədə ərə gedir. Yazıçı bunu kövrək bir şəkildə, qadının fədakarlığını vurğulayaraq yazır. Və burda elə Vətən müharibəmiz dönəmində müxtəlif xəsarətlər alan əlil qazilərimizin yarasına məlhəm olan, sonra onlarla ailə quran şəfqət bacılarımızı necə yada salmayasan?! Deməli, bu günümüzü anlamaq üçün təməllərimizi dərk etməyimiz vacibdi. Bu əsərlər isə köklərimizin sağlamlığını sübuta yetirir. Elə həmin əsərdə yazıçı «Xanım arvadla Damlıca mülkünün əhvalatı»nda atasının yurdunu qaytaran, ona qarşı edilmiş haqsızlığı yerdə qoymayan, canişindən cavab tələb edən Xanım haqda yazır: «Uzaq Qarabağ meşələrindən gələn bu qarayanız, arıq arvadın təmkinindən, cəsarətindən, iradəsindən canişinin xoşu gəldi və o, xoş əhvalla da dilmanca dedi – Onu başa sal ki, mən özüm əlahəzrətdən xahiş edəcəyəm onun mülkünü özünə qaytarsınlar...»

Beləliklə, İlyas Əfəndiyev yurdun qadınını bir yandan mərd, cəsarətli, qorxmaz, digər tərəfdən də anası kimi yumşaq, mehriban, gözəl geyimli-keçimli, baxımlı təsvir edir. Oxuduqca düşünürsən, bu torpaqları qaytaran oğulları məhz belə analar doğa, yetişdirə, böyüdə bilərdilər. Mən bu mövzularda danışanda patetikanın nə qədər mümkün olduğunu və ondan qorxduğumu da etiraf edirəm. Amma məsələ burasındadı ki, «Geriyə baxma, qoca» bəzən çox kiçik detallarla ayıldır adamı, yerə endirir, göydə uçmaqdan çəkindirir, sayıq olmağa çağırır... Misal üçün, sadə kəndli İmaşın dilindən deyir, fars padşahı bu xanları bir-birinə döyüşdürür ki, zəifləsinlər, sonra ürəyi istəyəndə gəlib talayıb aparmaq asan olsun. Şərhsiz!

Yaxud, Çarvadar Həbib sadə, savadsız bir adam olsa da, Şuşa qalasında Rastı, Çahargahı dinlədiyi üçün sevgi nə olduğun yaxşı bilir.

Bütün bu hisslərimizi tərbiyə etməyə, düşüncələri arıtlamağa, savadımızı artırmağa yardımçı olan əsərlər, onlarda əksini tapan həqiqətlər Qarabağın və bizim gələcəyimizi ayıq görməyimiz üçündü. Bu gün xalq və hakimiyyət birliyi, bərabərliyi, ordunun qüdrəti sayəsində, şəhidlərimizin qanı bahasına qaytardığımız torpaqların yenidən qurulması, yaradılması, dirçəlməsi həm də təzə əsərlərin yazılması ilə tezləşməlidir. Yazmalıyıq... Bu günün öz küllərindən doğulan Qarabağını yazmalıyıq!

*Aygün BAĞIRLI*

# Azərbaycan yazıçılarının epistolyar əsərlərində Türkiyə



## Sovet dövrü

Şəxsiyyətlərin, ayrı-ayrı ziyalıların epistolyar irsləri – xatirələri, gündəlikləri, məktubları, yol qeydləri bəzən həmin dövrün ictimai-siyasi durumunu, həyat və yaşam tərzini, tarixini və sosial-mədəni həyatını anlatmaq baxımından cild-cild elmi əsərlərdən, tarix kitablarından da dəyərli mənbə ola bilər. Sovetlər dönəmində kommunist diktaturasının iki qardaş dövlətin – Azərbaycan və Türkiyənin arasına çəkdiyi siyasi və coğrafi sərhədlər gediş-gəlişə, sıx ünsiyyətə, ədəbi-mədəni, sosial-iqtisadi ilişkilərə əngəl olsa da ruhi-mənəvi körpüləri tam qıra bilməmişdir. Bu ruhi-mənəvi bağlar ayrı-ayrı aydınların, yazıçıların, şairlərin, ozanların içlərində yaşatdığı həsrətqarışıq sevginin sayəsində qorunmuşdur.

İki qardaş milləti bağlayan bütün bağları qoparmağa çalışan Sovet imperiyasının bizi milli dəyərlərimizdən, mənəvi-tarixi köklərimizdən ayırmaq cəhdi və istəyi nəinki bu ilişkiləri, hətta türk sözünün özünü belə ifadə etməyi qadağan etmişdir. Yüzlərlə söz və düşüncə adamı “pantürkist”, “panislamist” damğası ilə ittiham edilərək repressiya qurbanı olmuş, “vətən xaini” damğası ilə vətəndən sürgün edilmişdir. Türkiyə-Azərbaycan arasındakı ədəbi-mədəni, siyasi ilişkilərdə 30 ildən çox, 40 ilə yaxın soyuqluq olmuşdur.

Uzun zaman ideoloji yasaq və qadağalara, kommunist diktatorluğuna qarşı bəzən birbaşa, bəzən də dolayısı ilə mücadilə edən Sovet dövrü Azərbaycan şair və yazıçılarının Türkiyə ilə ilgili xatirələri, səfər və görüşləri haqqındakı qeydləri bu gün üçün qiymətli sənədlərdir. Bu əsərlərdə olan məlumatlar bizə o dövrdə Türkiyə Cümhuriyyətinin ictimai-siyasi və sosial-mədəni durumu haqqında məlumatlar verir, həmçinin zorla sərhədlərə ayrılan Türkiyə və Azərbaycanın bir-birinə olan mənəvi bağlılığını, sevgisini özündə əks etdirir.

Azərbaycanın yazıçı və şairlərindən olan Nigar Rəfibəylinin, İsmayıl Şıxlının, Xəlil Rza Ulutürkün, Anarın, Elçinin və başqalarının epistolyar irsindəki nümunələr Sovetlər dönəmi Türkiyə-Azərbaycan mədəni əlaqələrinin ən qiymətli qaynağı hesab oluna bilər.

Sovetlər dönəmində Türkiyə-Azərbaycan mədəni əlaqələrini, Türkiyə Cümhuriyyətinin sosial-mədəni həyatı haqqındakı təsəvvürləri, hər iki millət arasında qardaşlıq bağlarını özündə əks etdirən Azərbaycan yazıçılarının epistolyar əsərləri araşdırılarkən, bu əsərlərdə sovet ideologiyasının və kommunist diktaturasının xalqımıza qarşı həyata keçirdiyi mənəvi və mədəni repressiyalar da görünmüş olur.

Türk ədəbiyyatşünası Seyfəddin Altaylı Xəlil Rza haqqında olan bir yazısında yazır: “1988-ci ildə hələ Sovetlər Birliyi dagılmamış Bakıda yazıçı və şair dostum Sabir Rüstəmxanlının məkanında Xəlil Rza ilə söhbət edərkən elə sözlər danışmışdı ki, heyrətlənmişdim. Rəhmətliyin ürəyi elə dolu idi ki, duyğularını anlatmağa çalışarkən kəlimələr aciz qalırdı. Və söylədikləri bir insanı ipə götürəcək qədər aşırıydı. O illərdə Türkiyədən bir insanın Bakıda olması bir möcüzə sayılırdı. Müsafiri olduğunuz insanlar üçün dünyada bundan daha böyük bəxtiyarlıq olmazdı. O vaxtlar Azərbaycanda olarkən, insanların yaşadıqları duyğuları təsvir etmək çox çətindir. Türk vətəndaşı olan bir kimsəni evində qonaq etmək hər Azərbaycan türkünün platonik eşqiydi. Xəlil Rza ilə qarşılıqlı oturub söhbət edərkən, Türkiyəli bir qardaşıyla dərdləşməyin ona verdiyi həzzi baxışlarındakı sevinc şölələrindən hiss edib ona bu duyğuları yaşatmaqda vəsilə olduğumdan sonsuz dərəcədə mutlu olmuşdum. Bu duyğuları bizə qarşılıqlı olaraq yaşatdığı üçün də Ulu Tanrıya ən dərin səmimiyyətimlə dua edib şükür etmişdim. Ürəyimdə duyduğum mutluluğu ve sevinci çox istəməmə baxmayaraq divarların da qulağı var deyə rəhmətliyə açıqlamamışdım. Belə şəxsiyyətlərə sahib Azərbaycan dünən dövlət qurmağı öyrətdiyi kimsələrə əsir ola bilməzdi, olmadı da... İnşallah bir gün gələr üzünün digər qismi də gülər ve böyük bir niskil tarixə qarışar. O günün yolçuları nə müqəddəs insanlardır, ya Rabb!”

Müəllif “Türk vətəndaşı olan bir kimsəni evində qonaq etmək hər Azərbaycan türkünün platonik eşqiydi” fikrində heç bir ifrata varmamışdı. Həqiqətən, o illərdə Türk vətəndaşı olan kimsəni nəinki qonaq etmək, onunla yaxından görüşmək, söhbət etmək bir xoşbəxtlik, bir sevinc demək idi. Dini bir, dili bir, ancaq illərdir ayrı yaşamağa məhkum edilmiş qardaşların görüşünü, o anın duyğularını təsəvvür etmək çətin deyil.

Azərbaycanın görkəmli yazıçısı mərhum İsmayıl Şıxlı bir məqaləsində Xəlil Rzanın hələ 1960-cı illərdəki mübarizəsi haqqında yazır:

“1960-cı illərdə gənclər arasında qərib davranışlar gözə çarpırdı. Bir şeylər axtarır, gözləyir və bir şeylər üçün hazırlanır, bir şeylər söyləmək istəyirdilər. Bəzən dənizə gedib həftələrlə üzmək, kürək çəkmək öyrənirdilər. Səbəbini soruşanda isə bir gün lazım olar, – deyirdilər. Qarlı, fırtınalı havalarda dənizə girər, buzlar üzərində yalın ayaqla qaçardılar. Bir-birlərini qara basdırardılar. Səbəbini soruşanda isə gülümsəyərək “bəlkə, bir gün gərək olar” – deyə cavab verərdilər. Özlərinə əziyyət verər, günlərcə ac-susuz qalardılar. Belə çətinliklərlə üzləşə bilərik ¬deyərdilər. Bir şey üçün hazırlandıqları bəlli idi. Xəlil Rza da bunlardan biri idi. O da bu yolun yolçusuydu”.

İsmayıl Şıxlı 60-cı illərin gəncləri hazırlanırdı – deyəndə, onların bir gün öz məqsədləri, əqidələri, türklük sevdası, Turan uğrunda qarşılaşacaqları çətinliklər üçün hazırlaşdıqlarını nəzərdə tuturdu. Necə ki, Xəlil Rza 90-cı ildə arzuları uğrunda Lefortovo zindanını “ziyarət” etməli oldu, ömrünün 9 ayını zindanda yaşadı.

Xalq yazıçısı Anar uşaqlıq xatirələrinin birində yazır: “Atam radioda Türkiyə dalğasını tutub alçaq səslə verilişləri dinləyər, qurtaran kimi dalğanı dəyişər, əqrəbi ya Bakının, ya da Moskvanın üzərinə qoyardı. Bir dəfə atam verilişi dinləyəndən sonra dalğanı dəyişməyi unutdu, mən tez yaxınlaşıb əqrəbin yerini dəyişdim. Bunu görən atam kövrələrək başımı sığalladı, sən nə tez böyüdün? – dedi.”

Onda Anarın on yaşı var idi. Bu ehtiyatlılıq ona görə idi ki, hər an evə “gözlənilməz” qonaq gələ bilər, şairin Türkiyəyə nə məqsədlə “qulaq asdığı” sorğulara və cəzalara səbəb ola bilərdi.

1964-cü ildən Sovetlər Birliyi ilə Türkiyə arasında elmi-mədəni razılaşmalardan sonra Azərbaycan şairlərinin Türkiyəyə, türk yazıçılarının Azərbaycana

səfərləri baş tuturdu. 1964-cü ildə Azərbaycan yazıçısı Mehdi Hüseyn Türkiyədə səfərdə olmuş, elə həmin il "Bir ay və bir gün" adlı kitab çap etdirmiş, bütün yol qeydlərini, keçirdiyi görüşləri, hər görüşün onda yaratdığı təəssüratı ətraflı şəkildə yazmış və oxucularla bölüşmüşdü. Düzdür, Mehdi Hüseynin bu kitabı bir Sovet nümayəndəsinin Türkiyəyə münasibətini və baxışını, dövrün qatı ideoloji izlərini göstərsə də, burada bizim üçün gərəkli olan nüanslar da öz əksini tapır. Yazıçı orada olan zaman "Yeni İstanbul" qəzetinin 43 il keçməsinə baxmayaraq Azərbaycanda "Müsavat"ın, "Cümhuriyyət"in süqutundan hələ də ürək ağrısı ilə yazdığını göstərir.

1967-ci ilin iyun ayında isə Əziz Nesin, Yaşar Kamal və Məlih Cövdət Antay Azərbaycanda səfərdə olurlar. Bu heyəti müşayiət edən Qılman İlkin sonralar "Türk yazıçıları Bakıda" adlı kitabça çap etdirmişdir. Keçirdikləri görüşləri, onların Azərbaycan haqqında təəssüratlarını bu kitabdan öyrənmiş oluruq.

1968-ci ildə Rəsul Rza, Nigar Rəfibəyli, İsmayıl Şıxlı, Süleyman Rüstəm, Məsud Vəliyev, Xəlil Rza, Qasım Qasımzadədən ibarət yazıçı heyəti Türkiyədə olur. Bu, iki qardaş ölkənin uzun illərin ayrılığından sonra təsirli və yaddaqalan görüşü idi.

Nigar Rəfibəyli üçün Türkiyə digər yurddaşlarından fərqli olaraq həm də ona görə əziz və doğma idi ki, onun 39 il üzünü görmədiyi qardaşı bu ölkədə yaşayırdı. Bu görüşdən nə qədər təsirlənib duyğulansa da, onun ağlamağa ixtiyarı və icazəsi yox idi. Həmin görüşün digər şahidləri yazırlar ki, Nigar xanım biz İstanbula enərkən duyğulandı, kövrəldi, amma hissini içində boğdu, ağlamadı. Yoldaşı Rəsul Rza, ona – möhkəm ol – dedi. Onlar bilirdilər ki, kənardan onlara nəzarət edirlər.

Nigar Rəfibəyli bir il sonra ikinci dəfə Türkiyəyə səfər edib qayıdandan sonra "Sağlıqla qal, yaxın qonşu" adlı geniş həcmli yazısında gördüyü tarixi abidələr, muzeylər, cameələr, onlar haqqındakı rəvayətlər, İstanbuldakı teatr səhnələri, "Gənclik və idman bayramı"ndakı coşqu, tələbə nümayişləri, adalara səyahəti zamanı rastlaşdığı macəralar, müsafiri olduğu evlərdəki hörmət və ehtiramdan geniş söz açır. Görüşdüyü şair və yazıçıların yaradıcılığı haqqında mütləq, qısa da olsa Azərbaycan oxucusuna məlumat verir, sanki özü görüb tanıdığı Türkiyəni həmvətənlərinə də tanıtmaq, göstərmək istəyirdi. Çoxlarının yuxularda, xəyallarda qonaq olduğu İstanbulu Nigar xanım belə təsvir edir:

"İstanbul dünyanın gözəl şəhərlərindən biridir. Beş yüzdən artıq cameəsi və saysız-hesabsız minarələri ilə bu şəhər minarələr meşəsinə bənzəyir. Möhtəşəm tarixi memarlıq əsərləri olan bu cameələr və minarələr İstanbulu dünyanın başqa şəhərlərindən ayırır, ona xüsusi bir gözəllik verir. Kinofilmlərdə gördüyüm Amerika şəhərləri, Nyu-York, Vaşinqton və başqa şəhərlər, mənə elə gəlir ki, çox hündür göydələn binaları ilə şəhəri səmadan məhrum eləmişlər. Bu göydələn binaların arasındakı quyu kimi küçələr daş bir torbaya bənzəyir. Bu səmasız şəhərlərdə yaşayanlar yəqin ki, bu daş torbaların içində sıxılır və darıxırlar. İstanbulun isə üstündəki səma təmiz, mavi və genişdir. Gecələr bu göy üzü parlaq ulduzlarla dolur. Bosforun mavi sularında parıl-parıl yanırlar.

İstanbul axşamüstü və səhər tezdən gözəl olur. Yasəmən rəngli duman içərisindən görünən cameə və minarələr getdikcə dumandan sıyrılıb çıxır, üfüqdən qalxan günəşin şüaları altında parlayır, qədim və əsrarlı bir aləmdən xəbər verirlər."

Nigar Rəfibəyli Türkiyənin təkcə zahiri gözəlliyini deyil, insanlarda gördüyü xoş münasibəti də yüksək dəyərləndirmişdir. "Hər xalqı başqa xalqdan ayıran ümumi bir cəhət olur. Məndən soruşsalar ki, türklərin bu xüsusiyyəti nədir? Nəzakətdir – deyərəm. Şirindilli, mehriban təbiətli, xoşrəftarlı, qonaqpərəst xalq. Türkiyəyə keçən ilki səfərimizi İstanbuldan başladıq. Birinci diqqətimi cəlb edən

bu nəzakət oldu. Kobud bir söz, köntöy bir hərəkət, bədrəftar görmək mümkün deyildi. Otellərdə, yeməkxanalarda qadın xidmətçiyə rast gəlmək olmaz. Burada cəld və iti işləyən cavan oğlanların rəftarı xoş, üzü gülərdir. Əvvəlcə mənə elə gəldi ki, Avropa ilə təması olan, daha doğrusu, bir qolu Asiyada, bir qolu Avropada olan bu şəhərin mədəni və xoş davranışı, xoş rəftarı Avropa mədəniyyətindən gələn bir cəhətdir. Lakin sonralar ölkənin içərisinə, dərinlərinə getdikcə başa düşdüm ki, bu xasiyyət mənbəyini xalq arasından alır, kəndlərdən, qəzalardan böyük şəhərlərə gələn bir keyfiyyətdir. Oteldə işləyən cavan oğlandan xəbər aldım: Əhməd, nerəlisin? – Erzincandanım, hanımefendi. – Yusif, sən nerəlisin? – Erzurumdanım, hanımefendi."

Yuxarıda qeyd etdiyimiz kimi, Rəsul Rza, Nigar Rəfibəyli, İsmayıl Şıxlı, Süleyman Rüstəm, Məsud Vəliyev 1968-ci ildə 14 apreldən 21 aprelədək Türkiyədə olurlar. İsmayıl Şıxlının – İstanbulu öyrənməyə hardan başlayaq? – sualına qonaqları qarşılamağa gələn Əziz Nesin – "Tofiq Fikrətin "Aşiyan"ından başlayaq" – deyə cavab verir. Xəlil Rza yazır ki, təkcə Tofiq Fikrətin deyil, həm də Əbdülhəq Hamidin, Rza Tofiqin, Namiq Kamalın, Hüseyn Cavidin, Mahmud Əkrəmin, Nigar xanım və başqa sənətkarların da həyat və yaradıcılıqlarına aid sərvətləri qoruyub saxlayan "Aşiyan" dağlı-dərəli, çinarlı, minarəli İstanbulun ən gözəl parçasıdır. Xəlil Rza vurğulayır ki, Tofiq Fikrətin vicdanı onu malikanəsinin yerləşdiyi bu füsunkar gözəlliyin içindən xalqının dərdlərini görməyə, onların tablosunu yaratmağa məcbur etmişdir. Müharibələrə, dartışmalara, haqsızlıqlara yox deyən şair bütün insanlığı narahat edən mövzulara toxunmuşdur.

Xəlil Rza öz gündəliyində Türkiyədə olarkən gördükləri tarixi abidələr, İstanbulun, Ankaranın əsrarəngiz təbiəti haqqında doya-doya bəhs edir. Şairin gündəliyində diqqət çəkən ilginc bir epizodu nəzərinizə çatdırmaq istəyirəm: "Məsud Əlioğlu və Qasım Qasımzadə küçədə ayaqqabı silən bir uşağa yaxınlaşıb çəkmələrini sildirmək istəyirlər.

– Yavrum, mənim ayaqqabımı silərsənmi?

12-13 yaşlı cocuq bir an duruxdu, avtobusa nəzər saldı və cəld cavab verdi:

– Hayır, əfəndim. Türk çocuğu yabançıların çəkmələrini silməz.

Çocuq silgi əşyalarını götürüb onlardan uzaqlaşır. Xəlil Rza uşağı çağırıb onunla söhbət edir, üçüncü sinifdə oxuduğunu bilib ondan bir şeir deməsini istəyir. Məktəbli Mehmet Akifin "İstiqlal" şeirini əzbər deyir. Xəlil Rza isə cavabında Nazim Hikmətdən deyir və maraqlı bir deyişmə alınır. Bi kiçik epizod bizə türk insanının, türk kişisinin bir şəxsiyyət kimi, qürurlu biri kimi yetişməsində tərbiyənin böyük rolunu isbatlayır.

Uşaq yazıçısı Əli Səmədli Türkiyə təəssüratlarını "Mən bir ceviz ağacıyam Gülxanə parkında" adlı yazısında oxucularıyla bölüşür. Əli Səmədli Seyid Battal Qazinin türbəsi, "Yazılı qaya" abidəsi, Çuxurca kəndindəki Frid Roma, Bizans abidələri haqqında, Bakıya çox bənzəyən İzmirdən söz açır, səfər boyu keçirdiyi görüşlərdən, isti və doğma münasibətlərdən könül dolusu danışır.

Yazı belə başlayır:

"Çocukluqdan içimdə bir Türkiyə vardı. Nağıla bənzər, yuxuya bənzər, əfsanəyə bənzər Türkiyə. Bu nağılı mənim duyğulu, həssas dünyamda yaradan Türk Hüseyn olmuşdu. Türk Hüseyn o vaxt Cahan müharibəsi illərindən, türk qoşunundan qopub Göyçay mahalında qalmış, artıq yaşa dolmuş, uca boylu, qırğı gözlü bir kişi idi. Həmişə başında qaragül dərisindən papaq olardı. Dalında bir carçı torbası, dolanırdı kənd-kəsəkləri yay-qış, payi-piyada. Onun hər gəlişi toy-bayrama dönərdi biz kənd uşaqları üçün. Saqqızının, sancağının, iynəsinin, düyməsinin üstündə dava düşərdi. Hər gecə də bir evdə qonaq qalardı. Nə qədər qıtlıq olsa da, kimsə ondan bir parça çörəyini əsirgəməzdi – hər bir ocaqda ən əziz qonaq kimi qarşılardılar onu. Çox az danışardı, dərdli adama oxşayırdı. Elə

hey gözləri yol çəkərdi: gözü yolda qalanım var, – deyərdi həmişə. Gözəl avazla Quran oxumağı da vardı rəhmətliyin. Həm də illər qanlı-qadalı, qadağalı olduğundan Quranı hər yetən evdə oxumazdı. Oxuyanda da qapı-pəncərəni bərk-bərk bağlatdırıb ehtiyatını əldən verməzdi.

İçimdəki Türkiyəni bir də atamın uşaqkən, yarı pıçıltı ilə türk ləhcəsində Tofiq Fikrətdən oxuduğu misralar yaratmışdı. Nağılları, bayatıları çox sevdim çocuqluqdan. Onları mənə sevdirən bir nənəm oldu, bir də on səkkizinci il millət savaşından bizim elimizi, obamızı özünə yurd etmiş, yuva seçmiş istanbullu Türk Hüseyn. Allah ona min rəhmət eləsin. Doymaq bilməzdik Hüseyn babanın nağıllarından, tapmacalarından, söz-söhbətindən.

Çocuqkən Çavuş Hüseyn babadan çox eşitmişdim Ağrı dağının başı qarlı uca zirvəsi haqqında. Bəlkə də, elə ona görə tez-tez görürdüm röyalarda onu? Bu xoş gəlişimlə fəth etdim Ağrı dağının zirvəsini. Türkiyəyə varandan və onun sənət dahiləri ilə tanış olandan sonra Ağrı dağından da uca zirvələrlə qarşılaşdım bu diyarda. Anladım ki, bu torpaqda daha uca və fəthedilməz zirvələr varmış, ya rəbbi! Bu Mövlanə zirvəsiymiş, bu Yunus İmrə zirvəsiymiş, sən demə. Bu Atatürk zirvəsiymiş, sən demə. Sizlərdən ayrılmaq bir röya, bir nağıl gəlir mənə. Nağıllarda halallaşmaq var, röyalarda yox. Qoy bu görüşümüz bitməyən şirin röya olsun. Ayrılmaq istəməm bu şirin röyadan. Bu röyamın şirinliyindən, şəkərliliyindən bir qoşqu söylərəm sizlərə.

***Sizlərdən ayrılanda baxışlarınızı,***
***gülüşlərinizi,***
***Nağıllarınızı, qoşqularınızı***
***Özümlə aparacağam.***
***Torpağınızdan bir ovuc,***
***suyunuzdan bir ovuc***
***özümlə aparacağam.***
***Sizi qəlbimdə əkəcəyəm,***
***Qəlbimdə sizə bir ev tikəcəyəm,***
***Dincliyinizin, uşaqlarınızın***
***Keşiyini çəkəcəyəm,***
***Nəfəsinizə nəfəs,***
***Yaşamağa həvəs,***
***Yaşayacağam nağıllı dünyamda***
***Sizinlə qoşa,***
***Ömrümü sizinlə, nağıllarda***
***vuracağam başa.***

Memar və sənətşünas alim Cəfər Qiyasiyə də Sovet dövründə Türkiyədə olmaq nəsib olub. O, Türkiyədə olarkən bu ölkədə orta əsrlərdə azərbaycanlı memarların inşa etdikləri saraylar, abidələr, məscidlər, türbələr haqqında əldə etdiyi bilgilərə dair ətraflı məlumatlar verir. Niksarda Qırx qızlar türbəsini, Kemahda Menqucuq Məlik Qazi, el arasında böyüklüyünə görə “Divlər sərnici” adlandırılan Konya-Bəyşəhər yolunun üstündəki sərnic-sututarı, məşhur Mövlana türbəsi, Sivasda və Malatyadakı Ulu Cami, Amasyada Turumtay türbəsi, Konyada Sahib Ata məscidi, Van məscidi, XV əsrin II yarısında Hisn Kayfada tikilmiş gözəl biçimli türbə, başqa bir Ağqoyunlu abidəsi – Əhlətdəki Əmir Bayındır türbəsinin azərbaycanlı ustalar tərəfindən inşa edildiyini deyir. Alim bu abidələrin azəri ustalara məxsusluğunu həm türk alimlərinin əsərlərinə, həm də öz araşdırmalarına əsasən söyləmişdir.

Cəfər Qiyasi Bursadakı əski bir memarlıq kompleksinin – Yaşıl kompleksin də müəlliflərinin təbrizli ustalar olduğunu söyləyir. İfadəli biçimi, maraqlı dekoru, rəng koloriti, orijinal naxış, oyma bəzəkləri ilə diqqəti çəkən bu saray və türbələr

göstərir ki, ölkələrimiz arasındakı ilişkilərin tarixi min illərlədir. Və bu əlaqələrə heç bir rejim, heç bir idarəetmə kölgə sala bilməmişdir.

Tanınmış ədəbiyyatşünas alim Yaşar Qarayev türk xalqlarının ədəbiyyatı, kültürü haqqında danışanda bundan bir "ilişki", "əlaqə" səviyyəsində danışmağı məqbul hesab etmir, türk xalqlarının eyni tarixi-coğrafi ərazi ilə yanaşı, həm də ortaq bir "mənəvi, bədii, estetik" məkanda yaşadıqlarını, böyük bir mədəni irsin yaranmasında birgə iştirak etdiklərini vurğulayırdı. "Kültür ilişkiləri burada daha çox genetik ilişkilərin törəməsi və davamı kimi baş vermişdir. Onların hamısının təməlində vahid türk əsası, türk ruhu və amili, qohum etnik-estetik proqram, qan və gen yaddaşı, müştərək mənəvi məcra və tarixi kontekst durur".

Dünyada hələ indi-indi vahid bir Avropa evi (federasiyası, ştatları) barədə danışırlar. "Asiya", "Şərq evi" isə bir ideya kimi şeirdə hələ 10 əsr bundan əvvəl mövcud olub. Özü də Şərqdə hərbi blok və militarist ittifaqlar yaratmaq üçün birləşməyiblər, vahid mədəniyyət və mənəviyyat məkanı yaratmaq üçün birləşiblər.

Sovetlər dönəmində yaradıcılığı Azərbaycanla daha çox bağlı olan türk şairi Nazim Hikmətdir. Nazim Hikmət, mənbələrin verdiyi məlumata görə, müxtəlif illərdə 9 dəfə Azərbaycanda olmuşdur. Onun hər gəlişi Azərbaycanda böyük coşqu və sevgi ilə qarşılanmışdır. İnsanlarla dolu olan salonlar onun şeirlərini, özlədikləri türkcəsini alqışlarla qarşılamışdır. Nazim Hikmət haqqında "Kərəm kimi" romanını yazan Anar Nazimə olan sevginin nədəni haqqında belə yazır: "…O illərdə Nazim, Türkiyədə bir çoxları üçün "Moskvanın adamı", "Türk düşməni" idisə, azərbaycanlılar üçün Türkiyənin, türklüyün, türk dilinin simvoluydu. Nazimi bitib tükənməyən alqışlara qərq edən Bakı salonlarındakı dinləyicilər, onun timsalında bir kommunizm propaqandaçısını deyil, uzun illər həsrətini çəkdiyimiz Türkiyənin qoxusunu, ruhunu gətirən, canımız qədər yaxın olan türk diliylə danışan, ölümsüz şeirlərini türkcə oxuyan bir TÜRK şairini alqışlayırdı. O illərdə Sovetlər Birliyinin Türk bölgələrində, özəlliklə Azərbaycanda heç kim Türklük ruhunu, Türklük şüurunu Nazim Hikmət qədər yüksəltməmişdir. TÜRK sözü, Azərbaycanda xalqımızın, dilimizin adı kimi yasaqlandığı, Türkiyə ilə tarix, ədəbiyyat, folklor, soy, adət və ənənə birliyimiz haqqında hər hansı bir fikrin cinayət səbəbi sayıldığı, bizi bağlayan bütün iplərin qoparıldığı, Türkiyə sevgisindən dolayı, ya da Türkiyədə qohumlarının olduğunu söyləyənlərin qətl edildiyi illərdə Nazim Hikmət geniş qatılımlı toplantılarda, üstəlik, ən yüksək kürsülərdən deyirdi: mən Türkəm, siz də Türksünüz, ruhumuz, adətlərimiz bir, xalqlarımız, dillərimiz qardaşdır…"

Düşünürəm ki, Nazim Hikmətə olan sayğı və sevginin səbəbini bunun qədər anladacaq söz tapmaq çətindir. Nazim Hikmət o illərdə Azərbaycan üçün Türkiyənin tam özüydü. Elə bir azərbaycanlı yazıçı və şair tapmaq çətindir ki, o, Türkiyədə olanda Gülxanə parkına getməsin, ceviz ağacı axtarmasın. O ağacdan bir yarpaq qoparıb Nazimdən xatirə kimi kitabının arasında saxlayanlar da var.

Abbas Abdulla ilk dəfə 1984-cü ildə, sonra 1988-ci ildə Türkiyədə səfərdə olan görüş təəssüratlarını oxucularla belə bölüşür: Mən Türkiyənin təbii sərvətlərindən, yaraşıqlı şəhər və kəndlərindən daha çox insanlarıyla, dünyanın əşrəfi olan övladlarıyla görüşməyə can atırdım. Görüşdüyüm insanlar arasında isə türkiyəli məşhur şairlərlə, sənət adamlarıyla yanaşı, vaxtilə Qafqazdan Şərqi Anadoluya köç etmiş həmyerlilərimizin övladları, törəmələri də çox olurdu. Məslәkləri, siyasi görüşləri ilə başqa-başqa olan bu insanların hamısını bir sevgi – Azərbaycana sonsuz sevgi birləşdirir.

Elçin 1979-cu ildə Türkiyədə səfərdə olmuş, qayıdandan sonra "Yaxın, uzaq Türkiyə" adlı böyük bir məqalə yazmışdır. Yazının adı da maraqlıdır. Yaxın, amma

yaxın olduğu qədər uzaq olan Türkiyə. Elçin bu yazısında bizə yaxın olan Türkiyənin həm də uzaqda qalan, qaranlıq olan tərəflərinə işıq salır.

Müəllif özü əvvəldən qeyd edir ki, o, Türkiyənin zəngin muzeyləri, dünya şöhrətli tarixi abidələri, İstanbulun, İzmirin dillər əzbəri olan məkanları haqqında danışmayacaq. O, daha çox səfəri zamanı şahidi olduğu ictimai-siyasi problemlərdən, türklərin həyat tərzindən, ədəbi proses barədə müşahidə və düşüncələrindən, həmçinin Türkiyədə qəzet və qəzetçilik, nəşriyyat işinin durumundan geniş bəhs edir. Yazıçı odövrkü türk ədəbiyyatını özünü ifadə və təsdiq edə bilən, müxtəlif bədii-estetik rəng və çalarlara malik çoxşaxəli bir ədəbiyyat adlandırırdı və qeyd edirdi ki, ictimai-siyasi cəhətdən fəal türk yazıçıları həmişə xalqın qeyrətini çəkmişlər. Bu ədəbiyyatı yaradanlar nəinki xalqın taleyini düşünür, onun həyat tərzini yüksək bədiiliklə əks etdirir, həm də vətəndaş kimi əlindən gələni edirdi. Elçin müəllim türk ədəbiyyatını bir sözlə ifadə etmək lazım gələrsə “vicdanlı ədəbiyyat” kimi xarakterizə etmək olar – deyirdi. O, Atatürkün də həmişə ədəbiyyatın ona mənəvi dəstəyini, dayağını hiss etdiyini deyirdi. Elçin bu memuar yazısında maraqlı bir məsələyə də toxunur. Nağılların, dastanların, əfsanələrin uşaqların tərbiyəsindəki rolu məsələsinə. Nağıl zamanı keçmişdir, əfsanələr qəhrəmanlar yetişdirə bilməz – deyən bilim adamlarına etiraz edən Elçin İzmirdən İstanbula gedərkən yolda rastlaşdıqları bir olayla cavab verir:

Müzəffər Arabulla söhbət edirdik. Bu vaxt çox emosional bir qadın – Muza Pavlova:

– Ora baxın! – dedi. – Bu ki, Rafaelin Madonnasıdır!

Avtobus talvarının altındakı kölgəlikdə bir kəndli qadın, iyirmi beş-iyirmi altı yaşlarında, iri, göy gözlü, sarışın, girdə sifətli cavan bir türk anası qəzet sərib yerdəcə oturmuşdu və qucağında yatızdırmaq istədiyi yaşyarımlıq balasına nağıl deyirdi:

– Biri var idi, biri yox idi...

Balaca, gözlərini qırpıb diqqətlə anasının iri, göy gözlərinə baxır və qulaq asırdı. “Biri var idi, biri yox idi...” – bu sözlər o balaca türk balasına yalnız sirli aləmlərdən xəbər vermirdi, əslində, bu sözləri ona şanlı ataları, qəhrəman babaları söyləyirdi və bu atalar, babalar elə bil ki, yenidən özlərini böyüdürdü.

“Biri var idi, biri yox idi...” – bu sözlər o balaca türk balasına yalnız öz gözəl və təmiz anasını sevdirmirdi, əslində, bu sözlərlə nə o körpənin, nə də o anasının bundan xəbəri var idi – bütün Türkiyəni ona sevdirirdi.

Əslində, Türkiyə öz övladını böyüdürdü.

Düşünürəm ki, azərbaycanlı yazıçıların bu səfər təəssüratlarını bir kitab, bir toplu halında çap etmək ötən əsrin 60-70-80-ci illər Türkiyəsinin mədəni-sosial durumunu kənar gözlə nəzərdən keçirmək, eyni zamanda, yasaq və qadağalara baxmayaraq, mənəvi ünsiyyətin, ruhi yaxınlığın həmişə var olduğunu göstərmək baxımından dəyərli və maraqlı olardı.

***Baba BABAYEV***



# Xalq nə istəyirdi?

## *“ALDANMIŞ KƏVAKİB” POVESTİNİN İDEYA-ESTETİK MÜNDƏRİCƏSİ*

Ədəbiyyatşünaslığımızda “Aldanmış kəvakib”i povest kimi qəbul etmək təcrübəsi daha geniş yayılsa da, janrın çərçivələri baxımından onu hekayə, novella hesab edənlər də var. Müəllif özü isə məktublarından birində bu əsəri janr etibarilə roman təcrübəsi kimi təqdim edir. Bu barədə Mirzə Fətəli Axundzadənin Mirzə Yusif xana yazdığı məktubunda oxuyuruq: “Roman yazmaq da, avropalıların istilahınca, dram adlanan bu kimi əsərlər növündəndir. Təəssüf ki, bizim xalqımız bu fəndən hələ tamamilə xəbərsizdir. Hətta "Cami-Cəm" kitabının mütərcimi şahzadə Fərhad Mirzə Məkkə ziyarətinə getdiyi zaman Tiflisdən keçərkən mənə dedi:

- Mirzə Fətəli, "Tarixi-aləmara"da Yusif Sərracın hekayəsi sənin yazdığın qədər müfəssəl deyildir. Sən nə üçün o qədər təfsilatı əlavə etmişsən?

Mən ona dedim:

- Şahzadə! Mən məgər tarix yazmışam ki, təkcə baş verən hadisələri yazmaqla kifayətlənim?! Mən kiçik bir məsələni əlimdə vasitə edib, öz təfəkkürümlə onu genişləndirərək, o dövrün nazirləri və dövlət başçılarının puçbeyinliyini açıb göstərmişəm ki, gələcək nəsillər üçün ibrət dərsi olsun və onlar səfeh münəccimlərin sözlərinə və xəbərlərinə inanmasınlar; özlərini bu kimi hərəkətlərlə əcnəbilərin nəzərində məsxərə hədəfi etməsinlər. Bu cür əsərlərə roman deyirlər ki, dram sənətinin ayrıca bir növüdür.” (2, səh. 197)

Ədibin bu fikirlərindən bəlli olur ki, o, “Aldanmış kəvakib”lə bağlı “roman” istilahını işlədərkən burada daha çox nəsr anlayışını, “dram sənəti” deyərkən bədii mətni nəzərdə tutur.

M.F.Axundzadə “Aldanmış kəvakib” kimi kiçik həcmli bir əsərində elə estetik prinsiplərə tutunur, sətiraltı mənalarla elə əhatəli ictimai-siyasi dünyagörüş təqdim edir ki, burada roman siqləti nümayiş etdirdiyini deyə bilərik. Nəzərə alsaq ki, klassik ədəbiyyatşünaslığın qəbul etdiyinin əksinə olaraq, müasir ədəbiyyatda roman janrı süjet xəttinin əhatəliliyi və əsərin həcmi ilə deyil, daha çox mətnin işlənmə dərəcəsinə görə təyin olunur, ədibin ilk nəsr əsərindən bəzən “roman” deyə bəhs etməsində qanunauyğunsuzluq görmürük.

Yuxarıda bəhs etdiyimiz məktubda Mirzə Fətəli Axundzadə tarix yazmadığını və buna görə də təkcə baş verən hadisələri yazmaqla kifayətlənməməli olduğunu dilə gətirsə də, povestin mətnində sanki oxucunu inandırmaq üçün nəql etdiyi hadisənin gerçəkliyini vurğulamağın da qeydinə qalır: “Olur ki, xanəndələr bu güzarişin vüququnda şübhə edib onu kizbə həml edələr; bu surətdə mən onlardan təvəqqe edirəm ki, “Tarixi-Aləm-Ara”da Şah Abbasın cülusunun yeddinci ilində

sadir olan vəqayiə mülahizə etsinlər.” (1, s.196) Bədii keyfiyyətləri milli nəsrimizin inkişafında əsas meyara çevrilmiş “Aldanmış kəvakib” povestinin mövzusu gerçəkliyi müxtəlif mənbələrdə təsdiqini tapan tarixi hadisədən götürülsə də, əsərdə Şah Abbas obrazına, Yusif Sərracın əsərin sonundakı taleyinə və bir sıra digər məsələlərə kiçik müəllif müdaxilələrini də izləmək mümkündür.

Ədəbiyyatşünaslığımızda uzun illər boyunca əsərdə ideal dövlət başçısı və mühüm maarifçilik islahatları ideyası irəli sürüldüyü qeyd olunurdu. Lakin xüsusən müstəqillik illərində bütün sahələrdə olduğu kimi, ədəbiyyatşünaslıqda da məsələlərə birtərəfli yanaşma metodundan uzaqlaşıb obyektivliyə meyil edildi. O cümlədən “Aldanmış kəvakib”də müəllifin yalnız despota qarşı ədalətli şah ideyasını irəli sürdüyü deyil, həmçinin haqqını tələb edə bilən xalq ideyası da tədqiqatçıların diqqətini cəlb etməyə başladı. “İdeal şah” mövzusu altmışıncı illərdə Axundzadə üçün ötülmüş mərhələ idi. Onu artıq “yaxşı şah” yox, “yaxşı xalq” mətləbi narahat edirdi.” (3, s.232) Ədəbiyyatşünas Yaşar Qarayevin bu qənaəti son illər demək olar “Aldanmış kəvakib”in təhlillərində prioritet təşkil edir.

Şah Abbas ölkənin müqəddəratını taleyin ümidinə buraxıb günlərini əyləncədə, kef-damaqda keçirən, ətrafına yarıtmaz məmurları toplayan ədalətsiz, qabilyyətsiz bir hökmdardır. Xalq isə bu haqsız münasibətə, ədalətsiz davranışlara nəinki dözür, hətta bunu daha doğru üsuli-idarə hesab edib baltanı öz ayağına vuraraq ona yaxşı güzəran təmin edən şahdan imtina edir. Başqa sözlə, povestdəki əsas tənqid hədəfi yalnız Şah Abbas deyil, elə onun qədər onun hakimiyyətini dəstəkləyən xalq da tənqidə məruz qalır.

Povestdə “Şah Abbasın cülusundan altı il keçib, yeddimci il başlanmışdı ki, aşağıda zikr olunan qəziyyə vaqe oldu” cümləsi ilə hadisələrə keçid edilir və burada bir məsələ də diqqətimizi çəkir: “Aldanmış kəvakib”də önə çəkilən məqamlardan biri də zaman anlayışıdır. Müəllif mətn boyu məkana olduğu kimi, zamana da xüsusi vurğu edir. “Baharın əvvəli idi: Novruzdan üç gün keçmişdi; Şah Abbas günortadan üç saat keçmiş qəsrdə öz məhbubəsi Səlma xatun ilə oturub söhbətə məşğul idi...”, “Ömründən ancaq iyirmi iki il keçmişdi” və s. nümunələr povestdə kifayət qədərdir. Zaman daxili mahiyyət etibarilə ziddiyyətli xarakterə malikdir. Zamanın dialektikası – indinin içindəki keçmişin mövcud olduğu qədər həm də mövcud olmamasıdır. İndi – keçmişin sonu ilə indinin başlanğıcındakı fasiləsiz sərhəddir. Diqqət etsək, görərik ki, müəllifin məqsədi vaxtı konkret ifadə etməkdən daha çox zamanın axışını göstərməkdir. Başqa sözlə, hadisənin vaqe olduğu zaman şahın cəmi 22 yaşı olduğunu deyil, ömründən iyirmi iki il keçməsini yazmaq da, zamanla bağlı digər ilk baxışda çox da əhəmiyyətli görünməyən dəqiqləşdirmələr də əsərdə məhz bu məqsədlə əksini tapır.

Məsələn, Yusif Sərracın dalınca gedilərkən vaxt və onun dükanının yeri ola bildiyincə dəqiqliklə ifadə olunur: “Yusif Sərracın dükanı şah məscidinin meydanının məşriq səmtində vaqe idi. Günortadan iki saat keçmişdi.” (1, s.199) Xatırlayaq ki, elə həmin gün Şah Abbas xalqın hüzuruna çıxıb taxt-tacdan əl çəkdiyini bəyan etdiyi vaxt da dəqiq göstərilir: “günortaya iki saat qalmış”. Povest boyu zaman və məkan anlayışına münasibətdə müəllif həssaslığı bizi düşündürməyə bilmir. Aristotelə görə, zaman dəyişkənliyin ölçüsüdür. Povestdə bu tezis təsdiqini tapmış olur. Yuxarıda qeyd etdiyimiz kimi, hadisələr tarixdən götürülsə də, müəllifin onu yaşadığı dövrilə bağladığı aydındır. Bu baxımdan, “Aldanmış kəvakib”dəki zaman anlayışının nisbi xarakteri var. Belə olan halda, “bu qədər dəqiqliklə illəri, günləri, saatları göstərməyə nə gərək vardır?” sualı meydana çıxır. Mətndən aydın olur ki, M.F.Axundzadənin təbirində hətta dəqiqliklə təsvirini tapan məkan və zaman da ümumi və nisbi xarakter daşıyır. Oradakı hadisələr, ictimai-siyasi qənaətlər bu və ya digər dərəcədə bütün dövrlər üçün keçərli və aktualdır. Zaman keçmişlə gələcək arasında salınmış yoldur, dövridir; tarix baş

vermiş hadisələrin sonsuz zəncirvari təkrarından ibarətdir. Bu baxımdan əsərdə zaman və məkana xüsusi vurğular edilməsi aldadıcıdır, ədəbi priyomdur, müasir təbirlə ifadə etsək, postmodern mahiyyətlidir. Povestdə həmin mahiyyəti tarixə və tarixi şəxsiyyət olan Şah Abbasa münasibətdə də qismən izləyirik.

Şah Abbas obrazını yalnız əsərin əvvəlində görürük və onu təhkiyəçinin dilindən yox, daha çox saray əyanlarının danışıqdıqlarına münasibətinə nəzərən tanıyırıq. Müəllif dövlət xadimlərinin xarakterini yaratmaq, dolğun bədii obrazlarını təqdim etmək üçün də təfərrüata varmır, məqsədinə kiçik detallar vasitəsilə nail olur. Şah Abbas onları cəm edib məsləhət almaq istərkən, hər biri bundan əvvəlki problem situasiyalarda "vəziyyətdən necə çıxdıqlarını" bir neçə cümlə ilə ərz edirlər, lakin hazırkı durum qarşısında aciz olduqlarını dilə gətirirlər. Dövlət problemlərinin çözüm üsulları ilə tanış olarkən oxucu hər bir dövlət məmurunun bu dövlət üçün nə qədər yararsız olduğunun fərqinə varır. Onların çözüm vasitələri gülüncdür. Nəticə etibarilə, nail olduqları problemin həlli yox, həll olunduğu görüntüsü yaratmaqdır. Əlbəttə, şah da problem situasiyaların bu şəkildə çözüm üsulları ilə razılaşdığına görə, o özü də ən azı, çevrəsindəki məmurlar qədər ağılsız, dardüşüncəli, savadsız və ədalətsizdir.

Saray əyanlarının nitqlərindən bəlli olduğu kimi, yaltaq olduqları da nəzərdən yayınmır. Məsələn, ölkənin müdafiəsinə məsul olan sərdar Zaman xan ulduzlarla bağlı təhlükə barədəki çıxışını bu cümlə ilə bitirir: "Belə işlər xüsusunda asitaneyi-əliyyənin qoca iti tədbir göstərməkdən aciz deyil! Amma kəvakib ilə müxalifət etməkdə əqlim hər bir əlacdan qasir görünür." (1, s. 191) Özünü hakimiyyətin "qoca iti" adlandırmaqla ona sədaqətini ifadə edən sərdar dövlətin osmanlı qoşunlarından qorunmasında irəli sürdüyü tədbirləri çox ağıllı və cürətli tədbir hesab etdiyi üçün özü haqqında lovğalıq və əminliklə danışır, əməlindən məmnunluqla bəhs edir.

Onların hər biri öz çıxışında şaha və onun hakimiyyətinə, onun mərhum atasına sədaqətini bu və ya digər şəkildə mütləq dilə gətirir. Onlar üçün xalqa, dövlətə, vəzifəsindən irəli gələn prinsiplərə yox, ayrı-ayrı şəxslərə sədaqət göstərmək, hər imkanda bunu dilə gətirmək vacibdir. M.F.Axundzadə ustalıqla hər bir saray əyanının iç üzünü açmaq üçün minimum sözdən istifadə edir. Beləcə, hər bir saray əyanı öz kiçik nitqi ilə həm xarakteri etibarilə naqis olduğunu, həm də tutduğu vəzifənin öhdəsindən layiqincə gələ bilmədiyini ifadə etmiş olur. Onları dinləyib razılaşan və illərlə tutduğu vəzifələrə layiq görərək yanında saxlayan şah da öz əyanlarından fərqlənmədiyini göstərir.

Həmçinin məhz onların nitqlərindən öyrənirik ki, bu saray əyanları hər biri gənc şahın atasının hakimiyyətindən bəri vəzifədədir və etdiyi "qəhrəmanlıqlar"ın çoxu elə o zamanlara aiddir. Bununla da müəllif şahın hakimiyyətə gələrkən heç bir islahat aparmadığını, köhnə düzənə qail olaraq, sadəcə, kor-koranə şəkildə taxta oturduğunu vurğulayır.

Şahın öz ağlının olmadığı, əyan-əşrəfinin "ağzına baxdığı" hər addımda bəlli olur. Mollabaşı ulduzların törədəcəkləri xəta ilə bağlı tədbir görməkdə aciz qaldığını bildirir, belə bir xəbər gətirib çarəni göstərmədiyi üçün münəccimbaşının boynunun vurulmasını təklif edir. Şah qəzəblənərək dərhal münəccimbaşının boynunun vurulması əmrini verir. Sərdar Zaman xan isə onun hələlik bağışlanmasını, yalnız vəziyyətdən çıxış yolunu göstərməsə, boynunun vurulmasını xahiş edir, Şah Abbas buna da razılaşır. Beləcə, əsərdəki Şah Abbasın hər hansı bir fikri, iradəsi olmadığını görürük.

Şah Abbasın əvəzinə ulduzlara qurban edilmək üçün niyə məhz Yusif Sərrac seçilir? Saray əhli bu variantı irəli sürərkən onu şaha belə tanıdır: "...Bu məlun həmişə öz müridlərinə sərahətən zikr edir ki, guya üləmayi-giram əvamə firib verirlər. Məsələn, onun əqidəsilə guya ictihad lazım deyil və xüms və imam malı

vermək xilafdır və guya üləma fövt olan müctəhidin rəyində qalmağı o cəhətdən əvama caiz görmürlər ki, özlərinin bazarı rəvac olsun. Və bundan əlavə, dövləti-əliyyəyə dəxi bəhslər varid edir, deyir ki, kətxudadan tutmuş padşaha dək küll ərbabi-mənasib əhli-zələmə və qüttpüttəriqdirlər, mülk və millətə hərgiz bunlardan bir mənfəət aid deyil, həmişə öz həvai-nəfsləri ilə biçarə xalqı cərimə və müaxizə və müaqəb edirlər, öz rəftarlarında heç bir qanun və qaydaya mütəmməsik deyillər, bu günə rəftar ancaq əhli-zülmün və qüttaüttəriqlərin əməlidir. Və dəxi zikr edirlər ki, məzhəbi-tənasüxə qaildir." (1, səh. 195-196) Məlum olur ki, Yusif Sərrac təhsillidir, dünyagörüşü genişdir, əyanlarını əməlləri əleyhinə danışan, onların əməllərini inkar edən bir rəiyyətdir. Başqa sözlə, bütün bu əyan-əşrəf qarışıq, Şah Abbas və Yusif Sərrac bir medalın iki üzüdür. Əyanları ulduzlara qurban vermək üçün Yusifdən bəhs etdikdən sonra Şah Abbas razılığını verir.

Yusif hakimiyyətdə olduğu 7 gün ərzində xalqın xeyrinə olan xeyli islahatlar elan edir, əmrlər və sərəncamlar verilir. İranlılar şah zülmünə o dərəcədə alışıblar ki, Yusif şahın "çox rəhmli və helmli" olması onlara əvvəlcə qəribə gəlir: "Əhli-Qəzvin hər gün qələ qapılarından adam şaqqalarını asılmış görmədilər və şah meydanında cəlladların adam şaqqalamaqlarını və dardan asmaqlarını və göz çıxarmaqlarını müşahidə etmədilər. Bu keyfiyyət olara xeyli qərib göründü." (1, səh. 208) Bir xalq mərəzdən qurtulmağı, xilas olmağı özü istəmirsə, arzulamırsa, buna can atmırsa, onu xilas etmək mümkün deyil. Əsərdə bunu ədalətli şahın hakimiyyətindən narazı olan iranlıların simasında izləyirik.

Xalq Yusif şahı "süstrəy" və "zəifülmizac" hesab edir, onda yüz cür eyib görməyə başlayır və vəzifədən çıxarılmış yüksək rütbəli adamlar bu fürsətdən istifadə edərək iğtişaş yaratmağa başlayır. Ağıllarına təzə şahı devirmək fikri gələrkən ilk üz tutduqları "əmiri-topxanə" olur. O isə öz növbəsində "Bu iş süvarilərin sərkərdəsi Bağır xanın rizası olmamış surət tapmaz" deyir. Ondan sonra da piyada qoşunu sərkərdəsi, Bağır xanın əmisi oğlu Fərəc xanı, Qəzvinn köhnə bəylərbəyini, keçmiş darğa və kətxudaları bu işə razı salırlar. Beləliklə, hazırda qulluqda olan hərbi sərkərdələr qoşunla birgə hazırkı şaha, hakimiyyətə xəyanət edir. M.F.Axundzadə "xalq çevrilişinin" hansı dairələrdə hazırlandığını aydın göstərir. Yönəldən qüvvələr gizli qalır, xalq özünü qəhrəman rolunda görərək çevrilişə imza atdığını düşünür. Nəticə etibarilə, xalq yenə doğruların yanında olub, özünə xeyri olanı seçmir, fitnəyə alət olur. Elə görünür ki, Yusif şahı xalq devirdi, lakin niyyətlərin həyata keçirilməsi üçün keçmiş məmurlar üçün vasitə olduğunun heç özü də fərqində olmur.

Əsərdə fitnəkarlarla Yusif şah tərəfdarları arasında üç saat yarımlıq döyüşdə hər iki tərəf çoxlu itkilər verir. Lakin gedişatda qarşı tərəfin güclənməsinə xalqın onlara qoşulması səbəb olur: "Aqibət asari-zəf və inkisar Yusif şahın həvaxahları tərəfindən müşahidə olundu; çünki həqnaşinas xalq peydərpey şəhərdən çıxıb, müffətinlərin dəstəsinə qoşulub kəsrət və qüvvələrinə bais oldular. Ona binaən Yusif şahın həvaxahları şikəst tapıb hər kəs bir növ ilə başın mərəkədən qıraq çəkdi, canın qurtardı." (1, s.210) Yusif şah Şah Abbasın qorxub gizləndiyi təhlükəyə - ulduzların şahı öldürməsinə tuş gəlmir. Onun şahlığının sonunu uğruna çalışdığı, islahatlar barədə sərəncamlar verdiyi xalq gətirir. Ulduzların oyunu, taleyin ironiyası ilə rəiyyət arasından çıxan Yusif Sərrac şah tituluna sahiblənir, xalq isə fitnəkarlarla birləşib Yusif şahı devrilir. Burada müəllif belə bir incə məqama toxunur ki, özündə qüvvə tapa bilsə, xalqın iradəsi dövlət idarəetməsində həlledici rola malik ola bilər.

Mirzə Fətəli Axundzadə göstərir ki, bu xalq öz nadanlığı, istəkləri ilə düşdüyü duruma layiqdir. Dərdini sevən mərəzlilər kimi iranlılar da onların haqq-hüququnu əlindən alan, ölkəni çapıb-talayan şahı özlərinə daha çox layiq bilir, Yusif şahı bəyənmirlər. Beləliklə, müəllif ölkədəki ictimai-siyasi, iqtisadi-mədəni mühiti təsvir

etməklə yanaşı, həm də xalqın azad düşüncəyə, ədalətli idarəçiliyə və bütövlükdə köləlikdən qurtulub azad olmasına münasibətini göstərir. Cəmi 7 günlük fərqlə bir tərəfdə Şah Abbasın ədalətsiz və qəddar idarəetməsi, digər tərəfdə Yusif şah və onun xalqın xeyrinə olan köklü islahat dəyişiklikləri. Bütün bu proseslərin tam mərkəzində isə bunların birbaşa aidiyyatı olduğu xalq durur və əsərdə ədalətli şah və onun hakimiyyətinin taleyi xalqın əlindədir. Lakin onlar bu şansdan istifadə etmirlər, çünki mənəviyyatları zalım şahın hökmranlığına uyğunlaşıb, hökmdarın məhz belə qaniçən, kəsərli, ədalətsiz olması fikri ilə barışıq yaşamaq onlar üçün normaya çevrilib. Yeni fikrə, yeni həyat tərzinə, köləlikdən qurtulub öz rifahı üçün böyük əməllərə başlamağa psixoloji cəhətdən hazır deyillər.

Əsərin mövzusunun götürüldüyü bütün mənbələrdə Novruzdan 15 gün keçmiş Yusif şahın qətli təsdiqlənirsə, povestdə müəllif sonda onun taleyini namüəyyən saxlamaqla oxucuya sərbəstlik verir. Sonluğu naməlum saxlamaqla müəllif Yusif Sərracın, xalqın taleyini "yazmağı", bədii mətnin sonrakı gedişatını oxucunun öhdəsinə buraxır. "Müfəttinlər hücum edib sərayi-şahinin qapıların sındırdılar, içəri daxil olub Yusif şahı axtardılar, tapmadılar. Yusif şah itkin oldu. Kimi söylədi ki, cəng zamanında öz həvaxahlarının dəstəsinə qoşulub özünün hüzurilə onları cəngə dəlir edirdi, əsnayi-cəngdə məqtul oldu, kimi dedi ki, gizlənib, aralıqdan çıxıb, gözdən itkin düşdü. Xülasə, məqtulların arasında onun nəşi görünmədi. Fəəmma bir başqa yerdə dəxi bu gündən sonra onu nişan verən olmadı." (1, s. 210)

Saray əyanları Yusif Sərracdan bəhs edərkən dilə gətirdikləri bu cümləni yenidən xatırlayaq: "Və dəxi zikr edirlər ki, məzhəbi-tənasüxə qaildir." Bu həmçinin xəzinədarla söhbət edərkən miraxurun da dilindən səslənir: "...deyirlər, tənasüxi məzhəbdir". Burada Yusifin tənasüxə – reinkarnasiyaya inandığı qeyd olunur. Bəllidir ki, tənasüx ruhun qayıdışına, bir bədəndən başqasına inanan təlimdir. Sonda Yusif şahın devrilməsi və aqibətinin naməlum qalması bu məqamda həm də onun rəmzi mənada ikinci dəfə həyata gələcəyi düşüncəsi ilə də bağlana bilir. Başqa sözlə, oxucuda həm də bir ümid yaranır ki, Yusif Sərraclar dünyaya yenidən başqa bir şəkildə gəlib gərəkən isahatları həyata keçirə, ədalətli dövlət yaratmağa nail ola bilərlər.

Yusif şahın devrilməsindən və fitnəkarların sarayı, cühud və erməni küçələrindəki evləri tarac etməsindən sonra "Gün batdı. Hər kəs öz evinə və mənzilinə qayıtdı." cümləsi isə gözəl günlərin sonu gəldiyinə metaforadır. Xalqın həyatına gün kimi doğmuş ədalət və xoşbəxtlik carçısı Yusif Sərrac və onun tərəfdarları məğlub edildikdən sonra gün batışı labüd idi.

Povestin adı ulduzların aldadılması ilə bağlı olsa da, povest bitərkən oxucuda sual yaranır: bu əsərdə aldanan, həqiqətən də, ulduzlardırmı? Bu situasiyada uduzan, ən böyük itkiyə məruz qalan, əlbəttə ki, xalqdır – öz taleyinin müəllifi, qurucusu ola biləcəyi halda, öz ayağına balta çalan bədbəxt xalq. M.F.Axundzadə üçün "Aldanmış kəvakib" estetik akt kimi nə qədər əhəmiyyət daşıyırdısa, ictimai-siyasi əhəmiyyəti də bir o qədər vacib idi. Nəsrə müraciət etməklə milli ədəbiyyatımız qarşısında açdığı geniş üfüqlərlə yanaşı, əsər müəllifin həm də milli azadlıq, xalq hakimiyyəti məsələlərində də xeyli maraqlı olduğunu göstərir.

**Ədəbiyyat:**

1. Axundzadə Mirzə Fətəli. "Əsərləri", 3 cilddə, I cild. Şərq-Qərb, Bakı, 2005, 295 səh.
2. Axundzadə Mirzə Fətəli. "Əsərləri", 3 cilddə, III cild. Şərq-Qərb, Bakı, 2005
3. Qarayev Yaşar. "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər". Bakı, Elm, 2002, 740 s.

*Südabə AĞABALAYEVA*



# Problemlər... Problemlər... Qayğılar...

## *Redaksiya-müəllif münasibətləri*

Pandemiyanın ağır və gərgin ritmi həyatımıza, ətrafımıza və məsləkimizə yenidən baxmaq zərurəti də gətirdi. Xüsusən də hər cür fəaliyyəti tənzimləyən sosial normalar baxımından yanaşdıqda, daha artıq əmin olduq ki, texnologiyalar, elmi nailiyyətlər hansı səviyyədə inkişaf edir-etsin, cəmiyyətin bütün sahələrində, insan münasibətlərində mənəvi-etik yanaşmalar və bir də yüksək ixtisas tələbi dəyişməyən dəyərlər olaraq qalır: İstənilən situasiyada, ən müxtəlif vəziyyətdə münasibətlər hüquq normaları ilə tənzimlənə bilər, mənəviyyat isə insanın böyüyüb formalaşdığı mühitlə bağlıdır. Bu mühitin keyfiyyəti çoxcəhətli və heç də asan olmayan qarşılıqlı münasibətlərin davamlı mənəvi kriteriyaları ilə ölçülür. İctimai, mədəni mühitin inkişafını şərtləndirən etik dəyərlərə ehkam kimi baxılması doğru olmasa da, virtual məkanın mahiyyətindən və bir az da insan xarakterindən asılı olaraq, azadlığın istismarı fonunda sürətlə artan mənəvi aşınmaların passiv seyrçisinə çevrilməyə də haqq qazandırılmamalıdır. Sosial şəbəkələrin imkan verdiyi qeyri-məhdud azadlıqdan geninə-boluna barınan çoxluq müşahidəçi və tənqidçi mövqeyindən o qədər feyziyab olub ki, ağlına gətirə bilmir ki, bu pozada daha çox təbiətindəki bütün mənfi cəhətləri faş etmiş olur. Mədəni-mənəvi disbalansın pozulması sözü gerçəklikdən uzaq düşmüş, daha düzü, ayrı salınmış dəyərə çevirib. İş o yerə çatıb ki, bu gün ictimai rəyin formalaşmasında yalanla doğrunun imkanları eyni olub. Şantajla, yalanla, təhqirlə, təhdid və böhtanla, ədəbsizliklə görünmək, yadda qalmaq, vəzifə, mövqe və imtiyaz əldə etmək kütləviləşmiş cari bir işə dönüb, mənəvi kapitalı – dəyərləri gərəksiz, bir çox halda yaşamağa, özünütəsdiqə və özünüifadəyə mane olan artıq yükə, nəsnəyə çevirir. Mənəvi atmosferin ekosidi nəsillərarası bağları zədələməklə qalmır, nəyin yaxşı, nəyin pis olduğunu bilməkdən başlanan tərbiyə anlayışını məsxərə, ironiya hədəfinə gətirir. Zaman, cəmiyyət, onun təyinatı dəyişsə də, humanitar düşüncədə, yaradıcılıq subyektlərində "ənənəvi problemlər", ənənəvi mövzular dəyişmir: imkan və iddia arasındakı uyğunsuzluq, bəzi hallarda uçurum. Ədəbiyyatşünaslıq bunu

faciə kimi dəyərləndirir. Nadan düşüncə isə, içində olduğu bu vəziyyəti görmür, ya görmək istəmir, uğursuzluğunda başqalarını günahkar bilir. Özfəaliyyət səviyyəsində olan imkanlarına, iddia və iştahasına mütləq səbəb – qısqanclıq, paxıllıq, gözügötürməzlik adında "Çin səddi". Təsəvvür edin, oturmusuz, işinizlə məşğulsuz, özünü və yaradıcı imkanlarını realizə edə bilməyənin biri gəlir və deyir ki, nə vaxt gedəcəksiz, biz də bir vəzifə görək. Bu və bu tipli nadanlıqların nədən qaynaqlandığını təkrar etməyə gərək yoxdur. Gəncliyin maksimalizmi deyə haqq qazandırmaq da olar. Burada "qəribi ağlamaq tutur", yadına düşür ki, yaxın illərəcən nəsillərarası "anlaşılmazlıqlar" gündəmdə gərdiş edirkən, birdən-birə vəziyyət dəyişdi. Gənclərə meydan verilməməsi şikayətləri yaradıcılıqla məşğul olanlara təqaüdlərin verilməsi məsələsi ortaya çıxan kimi, 40-50 yaşlı "gənclər"in bir çoxu dərhal valı dəyişdilər və xatırladılar ki, nə gənclik, onlar yaşlı-başlı "qocalarla" bir sıradadırlar. Səbəb – gənclərə bir il ərzində verilən təqaüdün məbləği 200 manatdı; yaşlılarsa 300 manat alırdılar. Əlbəttə, məsələyə sosial təminat yönündən baxanda kimisə qınamağa dəyməz, acı reallıq budur ki, yaradıcı insanın maddi vəziyyəti bu gün də acınacaqlıdır, dövlətin bu vəziyyətə stimul kimi nəzərdə tutduğu bu imkandan hər yazıçının istifadə etmək haqqı var; ən azı, bir kitabını çap etdirər, bir layihəyə qoşula bilər, ailəsinin ehtiyacına sərf edər... Xoş məramdır, onu da başa düşmək gərəkdir ki, hamını razı salmaq çətindir, razılaşmaq lazımdır ki, seçim və sıralamada mümkün qədər ədalətli və həssas davranış gözləmək də hamının haqqıdır, hamının. Bu baxımdan Yazıçılar Birliyinin ədəbi orqanlarında az da olsa, qonorar verilməsi yaradıcı fəaliyyətə həvəsləndirmək, yaradıcı əməyin qiymətləndirilməsi kimi, kül altında közərən od misalı ümid, əlyeridir. 25 il əvvəl, ölkə iqtisadiyyatının ən ağır vaxtlarında Yazıçılar Birliyinin ədəbi orqanlarına müəyyən maliyyə vəsaitinin yönləndirilməsi ilə bağlı verilmiş sərəncamı yazıçılar bu gün də ürəkdolusu razılıqla xatırlayırlar. Amma bu gün istehlak səbəti, bazar reallıqları yaradıcı əməyin qiymətləndirilməsinə, qonorar sisteminə yenidən baxmağı qaçılmaz edir. Bu günsə, olanımızı vicdanla, ədalətlə və mümkün olduğu qədər səxavət və ən başlıcası, açıq ürəklə bölüşməkdə təsəlli tapırıq. Bəyənmədiyimiz sovet sisteminin qonorar siyasətinə qibtə edə-edə, azad Azərbaycanın yazıçısının "bir romana bir maşın ala biləcəyi" qonorar məmnunluğunu yaşayacağı ümidimizi, hələ ki, "varını verən utanmaz" məsəli ilə ovundururuq. Qonorarı alıb, azına-çoxuna ağız büzməklə "feysbuk azadlığında" öz səviyyəsini, "sosial statusunu" nümayiş etdirənlər də olur. Nə edəsən, kimin nəyi var, onu da qoyur ortaya... Amma təkcə qonorar xatirinə yazmaq, nəyin bahasına olur-olsun, çap olunmaq iddiası, "tələbi" redaksiya – müəllif münasibətlərinin elə arzuolunmaz mənzərəsini üzə çıxarır ki... Bax, bu mənzərəni kimsəyə arzu etmək istəmirsən, cəmiyyətin mədəni-mənəvi səviyyəsinin göstəricisini müəyyən etməli olan yazıçının düşüncə və davranışında keçid dövrü xaosunun travmalarının fəsadlarının xroniki klinikasını müşahidə və hiss etmək təkcə ağrılı deyil, həm də qorxuludur. Kim nə istəyir, elə yazır – bu, fərdin azadlıq nümunəsidir, arxasında statistik determinizmin durduğu bu nümunələrin milli azadlığa, milli özünüdərkə xidmət etdiyini iddia etməyə, gözləməyə dəyməz. Yazdığını redaksiyaya təqdim etmək, dərcini arzulamaq haqqını kimsə

müəllifə qadağan edə bilməz. Amma müəllif unudur ki, seçim etmək də redaksiyanın hüququdur, bu hüququ "AYB üzvüyəm, mən ildə bir dəfə çap olunmalıyam" təhdidləri, vəzifə səlahiyyətləri... ondan ala bilməz. Üstəlik, redaksiya dərc etdiyi yazıya görə müəllifə qonorar verirsə, iddiası yerə-göyə sığmayan ədaların "bazar qanunlarından" baxanda da seçim etmək redaksiyanın haqqına işləyir. Nəyə pul vermək hər bir alıcının öz işidir, sən öz zay məhsulunu almağı ondan tələb edə bilməzsən, təkid və israr, "xod" tapmaq, "tapşırmaq", ərkyana xahişlər işə yaramayanda, jurnal əməkdaşlarının peşəkarlığını, səriştə və zövqünü lənətləmək, bəsit və ucuz zövqünlə qiymətləndirmək, "sən dərdli, mən yaralı" züytutanlarınla birlikdə "qara piar" , "səlib yürüşü" aynanı vurub sındırmaq kimi gülünc və primitiv yoldur. "Belə olmaz, mən neçə illərdir yazı gətirirəm, məni çap eləmirsiz, sabah mənim bioqrafiyamda niyə yazılmasın ki, "Azərbaycan" jurnalında çap olunub?!" Aha! Bir yandan bəyənmir, az qala nifrin edir, şikayətlə "qorxutmaq"dan qalmır, bir yandan da bioqrafiyasının qrafasında jurnalın yeri və çəkisi haqqında düşünür. Əgər pis yazıramsa, filankəs məndən niyə yazıb, filankəs oxuyub bəyənib, deyib, get, jurnal çap etsin. Adam filankəslərdən yazını, təbriki, məqaləni, resenziyanı, rəyi necə qopartdığını özü çox yaxşı bilir, bilir ki, o xahiş-minnət, yalvar-yapışlar tet-a-tet olub, kimsə görməyib, amma yazını hamı oxuyacaq, yazı bioqrafiyasının şanlı səhifəsində zəmanət, vizit kartı kimi qalacaq, amma onu bilmir ki, bu "sabun operası" ilə obıvatelin gözünə kül üfürə bilərsən, sənəti və şəxsiyyəti, peşəkarlıq və ləyaqəti qiymətləndirən çoxluq, "hamam suyu ilə dost tutmaq" şakərilə "elektorat toplamaq" fəndgirliyinə güldüyü kimi, belə hay-küyün altında nə yatdığını yaxşı bilir. Və istəyirsən, çox istəyirsən o hörmətli filankəslər bircə dəfə də istedadın xahişini etsinlər, yazının dəyərinə baxsınlar, gülümsəyən təbəssümlərin neon işıqlarına, miskin xahişlərin vədedici ərkinə yox. Belədə düşünürsən ki, bəlkə bu və bu qəbildən olan eybəcər vəziyyətlərin artmasının günahı onların qabağına düşənlərdədir?!. Tərəzinin gözü bir dəfə əyilirsə... Bir yazının dərci məsləhət bilinmirsə, bu, müəllifə "ölüm hökmü" oxumaq deyil, buna görə keçmiş şöhrət və yaradıcılığın tutalqa edilməsinə gərək yoxdur, neçə kitabın çıxıb, neçə dilə tərcümə olunmusan, əsərin hansı ölkənin hansısa dərnəyində səhnələşdirilib, neçə müsabiqənin mükafatını alıb qoymusan evə, kitabına kim ön söz, son söz, ara söz yazıb, bunlara ehtiyac yoxdur, onsuz da əksər müsabiqələrin, münsiflərin iş prinsipi bir ovuc içi qədər kiçik olan olkənin cameəsində hamıya bəllidir. Yazısına, istedadına arxayın olan müəllif nə redaksiya qapısını yağır edir, nə nigaran olur, sadəcə, növbəsini gözləyir, amma heç vaxt soruşmur ki, yazım hansı nömrədə gedib? (Gedəcək yox ha, gedib!). Yazısının kimin redaktə etdiyini də soruşmaz, heç vaxt da deməz ki, filankəs kimdir ki, onun yazdığı nədir ki, mənim yazımı oxuyub, rəy bildirsin? Çünki, həm də yüksək mədəniyyət sahibidir. Yazıçıdır, sözə dəyər verir, yaradıcı əməyə hörmət bəsləyir. Yazısı geciksə də, dərc olunmasa da heç vaxt "guya verdiyiniz yazılar nədir, görürük də kimləri çap edirsiz" deyib, xislətinin naqisliyi ilə ətrafı zəhərləməz.

Peşəkar təcrübə birmənalı qəbul edib ki, bir yazı bir redaksiyaya təqdim olunar, redaksiya qonorar verdiyi mətnin çap hüququnu da alır, redaksiya həmin mətni dərc etdikdən sonra müəllif onu təkrar nəşr üçün

başqa yerə təqdim edə bilər. Bizdə isə bu sahədə “bir mənzili bir neçə adama eyni vaxtda satmaq” təcrübəsi hökm sürür. Eyni vaxtda yaxın profilli nəşrlərdə görünmək şöhrət deyil, görünmək təşnəsidir. (Görünmək, gündəmdə olmaq, gözü yağır etmək ucuz şou effekti priyomudur, “toy tutmağa” hesablanmış bir vasitədir. Bədii yaradıcılıq, ədəbiyyat şou maraqlarına yönəldilirsə, bu, sənətin və peşəkarlığın süqutudur). Bu sırada istinad mədəniyyəti bizm nəşrlərin hələ də çata bilmədiyi mədəni səviyyə olaraq qalır və bunun oğurluq olduğunu bilə-bilə bu adı özünə rəva bilənlər də nə qədər desən... Plagiat ifadəsini bilərəkdən yazmadım və bu oğurluğun altında qısqanclıq, şəxsiqərəzlik kimi xəbis bir eybəcərliyi sezmək də çətin deyil.

Yazılı söz təfəkkürün məhdudluğunu və bəsitliyini amansızca faş edir. Bu, xüsusilə son dövrlərdə dövriyyəyə məqsədli şəkildə salınan çap mediasına qarşı çox uğursuz çağırışların fonunda daha qabarıq görünür. Səbəbləri təkcə elektron medianın sürət və operativlik baxımından üstünlüyü, əlçatanlığı və digər məziyyətləridir. Amma bunların özünəməxsusluqları ilə yanaşı ümumi, ortaq xüsusiyyətləri də inkar oluna bilməz. Hər bir məsələnin cəmiyyətin müzakirəsinə çıxarılması özlüyündə yaxşı işdir. Amma bu tipli müzakirələrdə naşılıq, közü öz qabağına eşmək, ən əsası, polemika mədəniyyətinin yoxluğu ictimai rəyi yanıltmaq məqsədinə rəvac verir. İnternet resursları ilə yazılı medianın qarşılaşdırılması zamanı nəşrlərin profilinin, dövriliyinin nəzərə alınmaması, qeyri-peşəkarlq nümunələrinin sayını artırır, bu qədər. İkincisi, ittiham ladında köklənmiş bir müzakirədə tərəflərin bərabər qaydada təmsilçiliyini təmin etməyi “unudan” Dəyirmi masa moderatorunun qəzetlə jurnalın, saytla qəzetin prinsip özünəməxsusluqlarını ağlına belə gətirmədən “separat danışıqlar” formatında yönləndirdiyi söhbətdən çıxarılan nəticəni qısaca ifadə etmək istəyəndə niyəsə, yadıma Sokratla bağlı bir pritça düşmüşdü. Oxuculardan üzr istəyərək, həmin pritçanı bu yazıya əlavə edirəm: Deməli, bir gün Sokrat şəhər meydanına gələrkən bir uzunqulaq yolunun üstündə ağnayır. Sokratın üst-başını toza bulayır. Meydandakılar arasında Sokratı sevməyənlər fürsət bilib ona lağ edirlər: “Sokrat, görürsən, uzunqulaq səni toza buladı, bəs deyirlər sənin şöhrətin hamıya bəllidir?..” Sokrat tövrünü pozmadan sakitcə deyir ki, məsələ bundadır ki, mən onun uzunqulaq olduğunu bilirəm, o isə mənim Sokrat olduğumu bilmir”. Müzakirələr, masaətrafı toplaşmalar ictimai əhəmiyyətli məsələlərlə bağlı problemlərin həlli yollarını aramaq, ümumi işin xeyrinə təkliflər vermək, faydalı nəticələrə gəlmək üçündür, kimlərisə “yıxıb-sürümək”, kin, qərəz qusmaq, yoluna maneə bildiklərinə badalaq vurmaq vasitəsi deyil. Aşkargizli, fərq etməz, hər cür xidmətin, fəaliyyətin mahiyyətində müəyyən təkidlər və təkliflər var. Onlar cəmiyyətin mənəvi durumuna, cəmiyyət üzvlərinin bədii-estetik, intellektual inkişafına bu və ya digər dərəcədə təsir edir, bəzən seçimə vaxt və imkan da vermir.

Kütləvi mədəniyyət, kütlə psixologiyası yaradıcı, ağıllı münasibəti yox, nəfsin və emosiyanın idarə etdiyi səviyyənin azadlığını təbliğ edir, yəni asana qaçır. Bazar münasibətlərinin idarə etdiyi mühit qazancın mənəvi kapital adına xərclənən əxlaqi sərvətlərini yox edir. Bütövlükdə psixoloji aşınmalara məruz qoyulmuş insanı, sosial şizofreniya yaşamağa məhkum qalmış cəmiyyəti gözləyən təhlükələrin kütləviləşməsi həm də

onların "zamanda davamlılığını" şərtləndirir. İki ilə yaxındır ki, üz-üzə qaldığımız naməlum düşmən – pandemiya bizdən ailədə, cəmiyyətdə, iş yerində, kollektivdə davranış və ünsiyyətimizi mənəvi normalar haqqında təlimlərlə tənzimləməyi diqtə edir. Odur ki, hər bir fərd, xüsusən yaradıcı insan, mənəvi məsuliyyət hissini ziyansız təqdimatın gözlənilməsinə səfərbər etməyi unutmamalıdır. Bu, subyektiv qənaət və müşahidələrin nəticəsi kimi düşünülməməlidir. Postulat bioetika elminə əsaslanır. Elmin müxtəlif sahələrini əhatə edən bioetikanı həyat etikası da adlandırırlar. Canlılar üçün mənəvi münasibətlərin kriteriyaları haqqında elm olan bioetika bioloji və insani keyfiyyətlərin birləşməsidir. Ötən əsrin 69-cu ilində bu termini ilk dəfə işlətmiş amerikalı bioloq V. Potterin bu qənaəti insan hüququ və insan ləyaqətinə hörmət hissini sağlamlığın bərpası, əldə olunması və qorunmasında əsas amil kimi görür. Bir-birinə sözlə, məsləhətlə, tədbirlə kömək etmək borcunun vacibliyini insanlara xatırladan deontologiya da münasibətlərdə etik məqamların gözlənilməsini vacib, zəruri, mühüm sayır. Demək olar ki, bütün peşə, sənət, ixtisaslar üzrə etik prinsiplər tövsiyə olunur.

Bioetikanın da, deontologiyanın da elm kimi təqdim və müdafiə etdiyi bu yanaşmalar ədəbiyyatın, bədii sözün bətnində böyüyüb. Demək olar ki, bütün fəlsəfi təlimlər, hər cür yaradıcılıq konsepsiyaları şəxsiyyət-cəmiyyət münasibətlərində ahəng axtarıb, onu qorumağın yollarını təklif edib. Bu gün də bu axtarışlar davam edir. Əgər nəticələri ümumiləşdirsək, belə demək mümkündür: cəmiyyətin və insanların problemi, əsasən, münasibətlərdə intonasiyanın düzgün qoyulmamasından, münasibətlərin sərhədlərini və adını düzgün qoya bilməməkdən yaranır. Bu da hökmən təqdimat mədəniyyətinin arzuolunmaz səviyyəsini formalaşdırır. İnsan özü haqqında nə düşünürsə, hansı fikirdə olursa-olsun, o deyil, nəyin haqqında düşünürsə, odur.

# Kitab rəfi




**NÜŞABƏ ARASLI**
**"NİZAMİ GƏNCƏVİ VƏ TÜRK ƏDƏBİYYATI"**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATIN, 2021**

AMEA-nın müxbir üzvü Nüşabə Araslı türk folklorunun və Nizami Gəncəvi yaradıcılığının qarşılıqlı təsirinin izlərini araşdırıb. "Xəmsə" ənənələrinin türk epik poeziyasına və müasir müəlliflərin əsərlərinə təsirini öyrənən monoqrafiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatdan ibarətdir.

Kitabın rəyçiləri akademik İsa Həbibbəyli və filologiya elmləri doktoru, professor İmamverdi Həmidovdur.




**BƏDİRXAN ƏHMƏDLİ**
**"RABİNDRANAT TAQOR:**
**YENİ HİNDİSTANIN MANİFESTİ"**
**BAKI, 2021**

Kitabda dünya ədəbiyyatının klassiklərindən biri Rabindranat Taqorun (1861-1941) həyatı, fəaliyyəti, yaradıcılığı, mühiti, dünyagörüşü kontekstində təhlil edilir, onun bir şair, yazıçı, dramaturq, rəssam, bəstəkar, aktyor, ictimai fikir adamı kimi portretini yaradır. Bütövlükdə Taqorun yeni Hindistanın həyatında oynadığı roluna çağdaş prioritetlərlə qiymət verilir.

"Rabindranat Taqor: Yeni Hindistanın manifesti" monoqrafiyasına "Ön sözü" akademik İsa Həbibbəyli yazıb. Nəşrin elmi redaktoru filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevdir.




**QƏNİRƏ PAŞAYEVA**
**"ADDIM-ADDIM YAPONİYA"**
**BAKI, "CBS" NƏŞRİYYATI, 2021**

Müəllif kitabda Yaponiyanın tarixini vərəqləyir, əhalinin dini baxışları, xüsusilə Zen fəlsəfəsi məsələlərinə toxunur, samurayların düşüncə və döyüş tərzini təsvir edir.

Kitabın "Acısı ilə bizə yaxın Yaponiya", "Yaşadıqlarını unutmayan və unutdurmayan şəhər: Hiroşima" bölümləri təkcə müəllifin Xocalı soyqırımı faciəsi ilə dərd ortaqlığı müqayisəsinə görə deyil, bütövlükdə bəşər faciəsi kimi dərin kədər hissi doğurur...

Kitab "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin dəstəyi ilə çap olunub.

Yüksək poliqrafik tərtibatda tətbiq olunan nəşrin redaktoru Əkbər Qoşalı, "Ön söz"ün müəllifi Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadədir.




**ƏLƏKBƏR SALAHZADƏ**
**FEVRAL-1966**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2021**

Əməkdar incəsənət xadimi, şair Ələkbər Salahzadənin bu kitabında “Od odası” (1989), “Beş yarpaq” (1986), “Od heykəl” (1970), “Xocalı xaciləri” (2006) və digər kitablarından seçilmiş nümunələr toplanmış, eləcə də dərc olunmamış şeirləri və poemaları yer almışdır.

Kitabı nəşrə şairin qızı Xatirə Salahzadə hazırlayıb.




**MİRZƏ ŞƏRİF MİRZƏYEV**
**“QAFQAZDA TÜRK MƏTBUATI TARİXİNƏ DAİR MATERİALLAR” (tərcümə)**
**BAKI, “AFPOLİQRAF” NƏŞRİYYATI, 2021**

Mirzə Şərif Mirzəyevin “Qafqazda türk mətbuatı tarixinə dair materiallar” kitabı rəsmi və arxiv sənədlərindən istifadə edilməklə Qafqazda çar məmurlarının Azərbaycan türklərinə qarşı yürütdüyü işğalçılıq siyasətini tamamilə ifşa edir. Qafqaz Senzura Komitəsində yerli və Şərq dilləri senzoru kimi çalışmış ilk və son azərbaycanlı Mirzə Şərif Mirzəyev Azərbaycan mətbuatı qarşısında yaradılan süni əngəlləri tarixi faktlar əsasında göstərir. Əsər Azərbaycan mətbuatının yaranmasının 50 illiyi münasibətilə rus dilində yazılıb və ilk dəfə məhz bu kitabda Azərbaycan dilində oxuculara təqdim olunur.

Əsər ilk dəfə 2009-cu ildə Elmira Qasımova və Rəna Mayılova tərəfindən kitab halında çap edilmişdir. Gənc tədqiqatçı-jurnalist Orxan İsayevin tərcüməsi həmin nəşrin əsasında gerçəkləşib.




**İBRAHİM YUSİFOĞLU**
**“MƏNƏ BİRCƏ GİLƏ GÖZ YAŞI BƏSDİ”**
**BAKI, “ŞİRVANNƏŞR” NƏŞRİYYATI, 2021**

Kitabda müəllifin son illərdə yazdığı şeirləri və poeması toplanıb.

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Baş direktoru, akademik İsa Həbibbəylinin “İbrahim Yusifoğlunun poetik dünyası və uğurları” adlı Ön sözündə şairin bədii yaradıcılığına münasibət bildirilib.

Kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru Fidan Nizaməddinqızıdır.

*Hələ sərt xəbərlə açılır səhər,*
*Hələ qəlb ovutmur qəmli halımız.*
*Günləri vururuq başa birtəhər,*
*Hələ qüvvədədi “Evdə Qal”ımız.*